KAMAL ABDULLA

Pyeslər

III cild

Bakı – 2025

Redaktor:
Cavid Zeynallı

Rəssam:
İlham Elxanoğlu

Kamal Abdulla. Pyeslər. III cild
– Bakı: Sim-Sim, – 2025. – 512 s.

Xalq yazıçısı, akademik Kamal Abdullanın pyeslərindən ibarət kitabında müəllifin dramaturgiyasının özünəməxsus tərzi, obrazların mifik, sirli çalarları, milli və bəşəri düşüncənin aktuallığı, müasir insanın yaşam fəlsəfəsinin mürəkkəb və ziddiyətlərlə dolu məqamları yer alıb.

Kamal Abdullanın dramaturgiyası milli teatr prosesində yeni bir mərhələnin başlanğıcıdır. Onun pyesləri təkcə teatr səhnəsi üçün yox, həm də müasir düşüncə müstəvisində böyük maraq doğuran əsərlərdir.

Müəllifin dramaturgiyası bədii fikir körpüsüdür. Kitabda bu körpü ilə tamaşaçıya bədii-estetik təsirlər aydın şəkildə əks olunub.

ISBN: 978-9952-28-778-3

© Kamal Abdulla, 2025

KAMAL ABDULLA,
HAMI SƏNİ SEVƏNLƏR BURDADIR

Həsənağa Turabov: "Adətən bədii əsərə ön sözü yazıçılar, şairlər yazar. Azərbaycan teatrının çoxdan ehtiyac duyduğu yeni əhvalın, yeni ovqatın, duyumun, ümumiyyətlə, yeni nəfəsin bu pyeslərdəki qətiyyətli təzahürü məni belə bir yazı yazmağa sövq etdi...Bəzən belə əsərləri ciddi olaraq yaxın və uzaq gələcəyin düşüncə tərzi ilə aşılanmış pisixoloji xarakterlər teatırı kimi qəbul edirlər. Bəlkə də belədir. Amma, inanıram ki, düşünən aktyor və rejissorlarımız bu pyeslərdən istədikləri qədər faydalana biləcəklər. Tamaşaçıya yeni söz demək, onunla ünsiyyətin yeni formalarını tapmaq üçün burda kifayət qədər yaradıcılıq imkanları var.

Ona da inanıram ki, bu pyesləri oxuyanlar buradakı obrazları öz təxəyyüllərində canlandıra-canlandıra onların hiss-həyəcanlarını öz mənəvi dünyalarına köçürə biləcəklər. Müəllif üçün böyük səadətdir.

Oktyabr, 1994-cü il.

"Unutmağa kimsə yox" kitabına ön söz

Vaqif İbrahimoğlu: "Bəlkə də Hötenin "Faust" istisna olmaqla, hər hansı bir dram əsəri yeganə bir məqsədlə – bədii-estetik konstruksiyanın bütün elementlərinin zaman və məkanda reallaşdırılması, yəni teatrda tamaşaya qoyulması məqsədi ilə yazılır.

Bu sadə həqiqəti biz ancaq və ancaq ona görə xatırladırıq ki, imkan daxilində oxucuları elə özlərinin tamaşaçı təcrübəsindən çıxış etməyə yönəldirik. Çünki nəzərinizə çatdırım ki, Kamal Abdullanın pyesləri məhz iki estetik qavrama üsulunun (həm ədəbi-verbal, həm də potensial seyr-vizual üsulların) kəsişmə nöqtəsində müəllif niyyətinə adekvat olaraq təzahür edə bilər.

Kamal Abdullanın əsərlərində ədəbi-elmi düşüncəmizdə yeni istiqamətlərin açılmasına səbəb olan yanaşmalar dramaturgiyamız üçün də mühüm əhəmiyyət daşıyır. Onun pyesləri sadəcə səhnə əsəri deyil, həm də fəlsəfi-estetik hadisədir.

Kamal Abdulla dramaturgiya sahəsinə gətirdiyi əsərlərdə poetik düşüncə ilə fəlsəfi ideyanı birləşdirir, tamaşaçıya həm estetik, həm də intellektual zövq bəxş edir. Onun pyeslərində milli ədəbiyyatımızın dərin qatları ilə müasir təfəkkür harmoniyası yaradılır.

Kamal Abdullanın dramaturgiyası milli teatr prosesində yeni bir mərhələnin başlanğıcıdır. Onun pyesləri təkcə teatr səhnəsi üçün yox, həm də müasir düşüncə müstəvisində böyük maraq doğuran əsərlərdir".

"Panorama" qəzeti – 28 noyabr, 1997-ci il

Məryəm Əlizadə: "Kamal Abdullanın "Unutmağa kimsə yox" kitabındakı pyeslərin hamısına bir halında tamaşa prizmasından baxarkən, ən əvvəl onu anladım ki, bu pyeslər müəllif üçün mühüm bir mövzunun inkişaf mərhələləridir. Bu mövzu – ziyalı insanın varolma (ekzistensiya) və heçlik kimi dəhşətli bir probleminin ətrafındakı son dərəcə emosional və səmimi düşüncələridir. Bütövlükdə isə kitabındakı əsərlər mənəvi mövzuların birindən doğulub, o birinə keçən polifonik vahid bir əsərdir.

"Xalq" qəzeti – 23 oktyabr, 1996-cı il

İsrafil İsrafilov: "Kamal Abdullanın dramaturgiyası bədii fikir körpüsüdür. Bu körpü ilə tamaşaçıya bədii-estetik təsir göstərmək mümkündür. Onun pyeslərinin səhnə həyatı maraqlı təfəkkürün, zövqün, düşüncələrin məhsuludur.

Əslində Kamal Abdullanın əsərlərində müəlliflik mövqeyi o qədər təmiz, bədii cəhətdən zəngin, düşüncə yükü o qədər sanballıdır ki, onu tamaşada hiss etməmək qeyri-mümkündür. Kamal Abdullanın əsərlərində müəllif mülahizələri çox vaxt pyeslərin məna tutumunu zənginləşdirir, tamaşaçını düşündürür, əksər hallarda isə təfəkkür dünyasının yeni qatlarını açır.

Kamal Abdullanın dramaturgiyası milli düşüncənin müasir interpretasiyasıdır. Bu interpretasiya isə milli-mənəvi dəyərlərə sədaqətdən doğur. Kamal Abdullanın əsərlərindəki obrazlar müasir teatrın qəhrəmanlarıdır, çünki onların hamısı həyati gerçəklikdən çıxmış və səhnə poetikasında yeni nəfəs qazanmışdır.

Kamal Abdullanın dramaturgiyası milli teatr prosesində özünəməxsus bir mərhələdir. Bu mərhələdə ədəbiyyatla teatrın, düşüncə ilə səhnə təcrübəsinin sintezi həyata keçirilir. Kamal Abdullanın dramaturgiyası milli teatrımızda dramaturji fikrin yeni sözüdür. Bu söz həm də müəllifin intellektual axtarışlarının nəticəsidir.

Kamal Abdulla qəribə səslənsə də, teatral dramaturqdur. Yəni, o, səhnə sənətinə bələdliyini nə-

zəri mülahizələrə yox, konkret, bəyəndiyi parçalarda nail olduğu işlər sübut edə bilir.

Bu mənada Kamal Abdullanın pyeslərinə daha çox səhnə materialı kimi baxıla bilər. Başqa sözlə desək, bu pyeslər artıq səhnə məşqlərinə hazır olan rejissor ssenarisidir. Kamal Abdulla remarkalarda belə, quruluşçu rejissorun işini asanlaşdırır.

Kamal Abdullanın dramaturji intellekti təkcə ədəbi sərişẗəliliyi, teatr sənətinə bələd olması ilə deyil, həm də onun fəlsəfi romantizmi ilə mənalanır. Burada fitri istedadla elmi biliklərin faydalı qarşılığı, heç şübhəsiz ki, intuitiv kəşflər öz işini görür.

"525-ci qəzet" – 18 sentyabr, 1999-cu il

Tehran Əlişanoğlu: "Kamal Abdullanın bütün dramaturji yaradıcılığı orijinal yaradıcılıq yolu ilə bağlıdır.

Onun oxucu ilə ünsiyyətdə aldığı forma və təqdim orijinallığı ilə mətbuatımızda onun adını təntənəli şəkildə səsləndirmək imkanı mövcuddur. Ənənəvi dram əsərlərinin təkrarçılıq çərçivəsindən çıxaraq, Kamal Abdullanın pyesləri tamamilə yeni bir məzmun orijinallığı ilə seçilir. K.Abdullanın hər bir pyesi özündə "duyğular dramı"dır. Onun pyes-

ləri insanın psixoloji, daxili münasibətlərini, oyun, xəyal və ilham aləmini təsvir edir.

Ümumən götürəndə, K.Abdullanın pyesləri bədii təfəkkürdə yeni bir mərhələ açır. K.Abdulla – müasir Azərbaycan dramaturgiyasında öz üslubu, öz fərdi yanaşma tərzi ilə seçilən yazıçıdır".

"Ədəbiyyat qəzeti", 26 iyul, 1996-cı il

Vaqif Yusifli: "İstedadlı və tanınmış dilçi, sözün əsl mənasında, ziyalı kimi tanıdığımız professor Kamal Abdulla bu gün Azərbaycan səhnəsinə "Fəlsəfi, sentimental duyumlar dramı" ("Kim dedi ki, Simurq quşu var imiş"), "Xəyali oyun" ("Hərdən mənə mələk də deyirlər"), "Yarı xəyali, yarı dramatik oyun" ("Ruh") "Həqiqətə bənzər oyunun, oyunabənzər həqiqətin quraması" ("Yağışlı gecələr"), "Xəyali faciə" ("Elə bil qorxa-qorxa"), "Mistik və real oyun" ("Hamı səni sevənlər burdadır"), "Yarı mistik, yarı real oyun" ("Casus") pyeslərini təqdim edir. Mistika və reallıq, xəyal-yuxu və ayıqlıq, tarix və müasirlik. Ümumiyyətlə, Kamalın pyesləri müasir Qərb dramaturgiyasından götürülən maraqlı cizgilərlə diqqət çəkir.

Aydın məsələdir ki, Azərbaycan tamaşaçısı onun çox milli dram ənənələri ilə tərbiyə olunub və Kamalın pyeslərini qavramaq onun üçün o qədər də asan deyil. Ancaq Kamal Qərb dramaturgiyasından yalnız farma-poetika baxımından bəhrələnir. Kamal hadisələrin tarixi fonda cizgilərinə baş vurur, hadisələrin əksi reallığın məlum nöqtələrinə yox, naməlum nöqtələrinə baş vurur. Məsələn "Dədə Qorqud dastanları"nda qəhrəmanların taleyinə tamam başqa bir spektrdən yanaşır, dastanın öz mətnindən çıxış edərək "gizli bir Dədə Qorqud" üzə çıxarır. "Hamı səni sevənlər burdadır" və yaxud "Şah İsmayıl" pyesində də Kamal Abdulla həmin "priyoma" sadiq qalır. O, Şah İsmayıl Xətai haqqında tarixi həqiqətlərə – XVI əsr müəllifi Hacı Mir Həsən Ağa səyyahın "Sərvətnamə" əsərinə müraciət edir və həmin müəllifin tarixi həqiqətlərə tamamilə zidd ehtimallar əsasında hərəkət edir. Kamal Abdulla üçün hər hansı pyesində məhz bu gizlinlərə baş vurmaq artıq bir stixiya halını alıb. "Casus" pyesi yarı mistik, yarı real oyun kimi düşünülüb.

Kamal Abdullanın adını çəkdiyim digər pyeslərinə gəlincə, burada görkəmli aktyor Həsən Turablı bir dəqiq mülahizəsini xatırlatmaq istəyirəm. O, Kamal Abdullanın pyeslərində "dəqiq elmi

düşüncəylə bədii təxəyyülün imkanlarının birləşdiyini" qeyd edir. Və daha sonra yazır ki, "işığın və qaranlığın, səsin və səssizliyin" yaddaşın və unutqanlığın... olanların və olmayanların... gerçəkliyin və uydurmanın... yaxşısının və pisin... Mələylə İblisin arasında sayrışan mənalar, Şərqlə Qərbin əbədi "lənətlənmiş" sualları müasirimiz Kamal Abdullanın düşüncə "rəngləridir".

Kamal Abdullanın "Xəyali" və "Mistik" pyesləri dramaturgiyamızın "modern" axınlara qoşulduğundan xəbər verir.

"525-ci qəzet" – 30 yanvar, 2002-ci il

Əbülfət Mədətoğlu: "Kamal Abdullanın dramaturgiyası poeziyanın, fəlsəfənin və təfəkkürün işığında yazılmış əsərlərdən ibarətdir. Əslində Kamal Abdullanın dramaturgiyası milli teatr prosesində həm fəlsəfi, həm də bədii axtarışların birləşdiyi yeni bir mərhələdir".

"Ədalət" qəzeti – 16 iyul, 2003-cü il

Pərvanə İsayeva: "2000-ci illərin Azərbaycan ədəbiyyatında, xüsusən də dramaturgiyada bu yeni

dünyadərki və dünyaduyumunu əks etdirən bədii nümunələr var.

Son illərdə meydana gələn əsərlərdən Kamal Abdullanın "Ruh" və "Kədərli seçmələr" ilə Azərbaycan dramaturgiyası yeni bir mərhələyə qədəm qoyur.

Kamal Abdullanın pyeslərində yeni üslub özünü həm zahiri, həm də daxili qatlarda göstərir. Pyeslərin adları və müəllifin onların janrını dəqiqləşdirməsi ilk məlumat kimi maraq doğurur. Məsələn, "Kim dedi, simurq quşu var imiş! (Fəlsəfi sentimental duyumlar dramı), "Bir, iki – bizimki" (duyumlar dramı), "Hərdən mənə mələk də deyirlər" (xəyali oyun), "Yağışlı gecələr" (həqiqətə bənzər oyunun, oyuna bənzər həqiqətin quraması), "Şah İsmayıl və yaxud hamı səni sevənlər burdadır" (Tarixi və müasir, mistik və real oyun) "Casus" (yarı mistik, yarı real oyun).

"Yeni Azərbaycan" qəzeti – 16 mart, 2003-cü il

Lyudmila Bejenaru: "Dramaturgiya – Kamal Abdullanın çoxşaxəli yaradıcılığının mühüm tərəflərindən biri olan sənət dünyasında xüsusi yer tutur. O, azərbaycanlı yazıçılar arasında nadir şəxsiyyətlərdəndir ki, postmodernist paradiqmanın təsiri

altında həm XX əsrin sonu – XXI əsrin əvvəllərinin ədəbi-tarixi prosesini, həm də tənqidi realizmdən sonrakı mərhələdə Azərbaycan ədəbiyyatının modernizmdən postmodernizmə doğru inkişaf yolunu yaradıcılığında əks etdirməyi bacarmışdır.

Kamal Abdullanın pyesləri litvalı bəstəkar və rəssam Mikaloyus Çiurlionisin əsərlərinə bənzəyir. Romen Rollanın ifadəsi ilə desək, Çiurlionisin "dahi və təkrarsız yaradıcılığı bəşəriyyətə yeni mənəvi qitə bəxş etmişdir" və onun sintezə əsaslanan ümumiləşdirici yanaşmasını mistik adlandırmaq olar. Mətn forması ilə oynayarkən Kamal Abdulla emosiyaları və obrazları səhnə dilinə çevirmək, dramaturqun ruhunda və genetik yaddaşında gizlənmiş dərin arxetipləri üzə çıxarmaq üçün titrəyiş və harmoniya axtarır. O, sanki səslər, obrazlar və emosiyalar arasında əlaqəni görür və ətrafına nur saçaraq hər birimizi öz ruhumuzu gərginləşdirməyə, onun pyeslərinin mənəvi məzmununa nüfuz etməyə çağırır.

Kamal Abdullanın dramaturgiyasına xas olan heyranedici intellektual azadlıq emosiyaların və obrazların səhnə dilinə çevrilməsinə xidmət edir. Məhz bu dil vasitəsilə həyatın simfoniyası və son-

suz kədər səhnələşdirilir; həmin kədərin içində isə, sanki qədəhdəki şərabın qığılcımları və ya şampan qabarcıqları kimi, işığın ağ ləkəcikləri oynayır. Qeyd etmək lazımdır ki, "işıq" leksik vahidi dramaturqun pyeslərində dəfələrlə təkrarlanır. Postmodernist dramaturgiyanın özünəməxsus poetikasının formalaşmasına töhfə verən Azərbaycan yazıçısı Kamal Abdulla işıq, rəng və səs vasitəsilə mətnini vizual obrazlara transformasiya edir.

Kamal Abdullanın dramaturgiyasında səs – Xəzərin dəniz dalğalarının pıçıltısı kimi təzahür edir: dərin sükutdan başlayaraq pıçıltı və çığırış səviyyəsinə qədər yüksəlir və bir qədər sonra Ruhun səsinə çevrilir. Bu səs gah səngiyir, gah pıçıltıya dönür, gah gurultu ilə eşidilir, gah da tamamilə yoxa çıxır. Müəllif səsləri sevir və onların içində yaşayır, çünki hər bir səs, hər bir söz ürəyin döyüntüsü kimi səslənir. Müxtəlif təcəssümlərdə Kamal Abdullanın səhnə mətnlərində səs effekti heyrətamizdir!

Kamal Abdulla sözləri pyeslərin xəttinə elə sehrli bir şəkildə düzüb-qoşur ki, mətn yalnız oxucunun təfəkkürünə deyil, eyni zamanda onun hisslərinə, duyğularına və düşüncələrinə də təsir göstərir. Onun əsərlərinin hər bir elementi – obraz, nitq

elementi, rəng çaları, musiqi motivi və ya təbiət hadisəsi – müəyyən dərəcədə rəmzi xarakter daşıyır. Kamal Abdulla özünün “ruh dramlarını” hamı üçün deyil, axtarışda olanlar üçün yazır. Onun sənətkarlığı elə bir həddə çatır ki, “möcüzə təsiri bağışlayır.

“Ədəbiyyat qəzeti” – 2 oktyabr, 2025-ci il
Kamal Abdulla: mətnin mətn daxilində möcüzələri

BİR, İKİ – BİZİMKİ![*]

[*] *Yenidən işlənmiş variant*

(5 şəkildən ibarət, bir-birini anlamaq istəyən və anlamayan, tapmaq istəyən və tapmayan iki nəfərin duyumlar dramı)

İŞTİRAK EDİRLƏR:

Kişi
Qadın
Oğlan səsi
Qız səsi

I ŞƏKİL

Yarıqaranlıq otaq. Hərəsi bir küncdə oturmuş və aralarında pərdə olan Kişinin və Qadının üzünü axtaran iki işıq saçağı öz yerini tapıb donunca, elə bil, bayır-bacadan şən, bir-birinin sözünü kəsən uşaq səsləri gəlir. Bu səslərin dediyi uşaqlıq illərinin yadigarı kimi Kişi və Qadının beyinlərinin uzaq və dərin qırışlarında qalmış və indi canlanan, bəlkə də ilk baxışda biz böyüklərə mənasız görünən, amma əslində, qətiyyən belə olmayan qafiyələnmiş söz oyunudu.
Bu "söz-oyunu"nu onlar da, elə bil, eşidirlər:

Uşaq səsi.
Bir, iki –
Bizimki.
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı.
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don.

Uşaq səsləri bir-birinə qarışır. Sonra bu qarmaqarışıqlığın içindən bir qız, bir oğlan səsləri seçilir. Qarmaqarışıq səslər kəsilir. Sükut içində.

Qız. Mən sənlə oynamıram.

Oğlan. Oynayaq...

Qız. Çünki sən mənim saçımı dartdın.

Oğlan. Dartmadım.

Qız. Sən mənim saçımı dartdın. Dartdın. Sara müəlliməyə deyəcəyəm. Deyəcəyəm.

Oğlan. Onda mən də deyəcəyəm. Mən də ona deyəcəyəm...

Qız. Deməyəcəksən. Yox, deməyəcəksən.

Oğlan. Sən demə. Mən də deməyim.

Qız. Yox, deməyəcəksən.

Kişi *(elə bil, yuxudadır).* Əlbəttə, deməyəcəyəm... Mən necə deyəydim ki, heç özüm də bilmədim, nə təhər oldu saçın üzümə dəyəndə...

Qadın *(yuxudaymış kimi).* Üzün saçıma dəyəndə...

Kişi. Əlim saçında gəzdi...

Qadın. Saçım əlinə doldu...

Kişi. Dodaqlarımı saçına sürtdüm. Elə bildim, kişi oldum.

Qadın. Saçımı dodaqlarına atdım, elə bildim, mən də qadınam.

Kişi. O gün bütün dünyada bir sən idin, bir mən idim.

Qadın. Biz idik, hər iki üzüylə bütün dünya bizimkiydi!

Qız. Bir, iki!

Oğlan. Bizimki!

Kişinin və qadının üzündə donub qalmış iki işıq saçağı titrəməyə başlayır. Musiqinin zəif, üzücü iniltisinin müşayiətilə bu işıq saçaqları, elə bil, rəqs edirlər. Bu rəqs qəfildən bitincə otağı gur işıq alovu bürüyür. Kişi və Qadın.

Kişi. Elə bilirik ki, biz də yaşayırıq. Biri deyir get, biri deyir qal. Zəhləm gedir yol getməkdən. Yolu Yol kimi getməyin zülmü böyükdü. Qaça-qaça getməyə nə var ki. Qarşıda həmişə Yol durur. Bir var, o Yolu uzununa, axıracan Yol kimi gedəsən. Bir də var ki, eninə iki-üç addım atıb çatasan, elə biləsən yolu getdin.

Qadın. Gəl eninə gedək. Ya da yerimizdə sayaq. Elə bilsinlər, biz də hərəkətdəyik. Gedək… Mən …səni aparmağa gəlmişəm.

Kişi. Biz bəyəm öz yolumuzu başqalarına görə gedirik? Yol bizə nə deyər?! Yadında saxla: Yolla gedən olmasa, bilinməz. Bilinməz gəlir bu yol, ya gedir. Bir "ağıllı" adam belə deyib… Yenə hara aparırsan məni?

Qadın. Qaçırsan söhbətdən. Sən elə həmişə beləsən. Özünü hökmən vurmalısan oda-közə.

Yaşaya bilmədin sakit, mülayim bir adam ömrünü... Necə oldu heç bilmirəm, uydum sənə.

Kişi. Elədiyin bir şeyin heç zaman peşmançılığını çəkmə. Yaşaya bilməzsən. Başqa bir ağıllı adam da belə deyib.

Qadın. Necə ki yaşamadım. Yaxşı deyib…

Kişi. Nə… Nə olub ki sənə?

Qadın. Heç nə. Nə olacaqdı ki. Bundan artıq nə olacaqdı? Sən pərdənin o tərəfində, mən bu biri tərəfində.

Kişi. Bütün bunlar boş şeydi. Vacib olan odur ki, biz səninlə bir-birimizi yenə də eşidirik. Səsin indi də qulaqlarımdadı.

Qadın. Eşitməyinə eşidirik. Amma... səndən çox narazıyam.

Kişi. Niyə?

Qadın. Sən elə bilirsən ki, pərdənin o tərəfində qala bilmisənsə, deməli, bəxtin gətirib.

Kişi. Nə deyim? Düzünü deyim? Ağlıma gəlməmişdi. Sən nə qədər "ağıllı"san…

Qadın. Ələ salırsan məni?! Elə bilirsən, elə bilirsən. Məni aldada bilməzsən. Ötürdün məni bura. Sevindin ki, ağ günə çıxmısan. Məni ələ salma! Eşidirsən?!

Kişi. Onda... mən də deyəcəyəm.

Qadın *(qorxaraq).* Nəyi? Sən nəyi deyəcəksən? (*Sükut)* Yox. Sən deməyəcəksən. Sən deyə bilməzsən. Bilirsən nə var?! Qurtar bu pis-pis işlərini. Gəl barışaq.

Kişi. Biz küsmüşdük ki?..

Qadın. Bəs küsməyin buynuzu olur? Mən bu tərəfə keçəndə bu küsmək deyildi? Niyə susdun?

Kişi. Yox, fikirləşirəm.

Qadın. Sənin fikirləşməyin çox uzun çəkdi. Yaxşı, gedirsən, qalırsan? Yola çıxmaq ən böyük arzun olub həmişə.

Kişi. Getməyin, qalmağın deyəsən heç elə bir fərqi yoxdu indi. İnanmayacaqsan: bu yola çıxmaqdan artıq zəhləm gedir. Bilmirəm. Bilmirəm. Hər şeyi bilən adamlardan da... artıq qorxuram.

Qadın. Qorxunun yüz cildi var. Adamı aldatmağa çalışır ki, guya yoxdu. Guya qorxu qorxu deyil. Özünü çalışırsan elə göstərəsən ki, guya qorxmursan, guya hörmət edirsən. Əslində, qorxursan.

Kişi. Qorxuram.

Qadın. Susmursan, səsinin gur yerinə salıb qışqırırsan. Əslində, qorxursan.

Kişi. Bəli, qorxuram.

Qadın. Cəsarətlə, hələ bəlkə də dikbaş-dikbaş kiminsə yanından ötürsən. Əslində, qorxursan.

Kişi. Yəqin ki... qorxuram.

Qadın. Ya da səsini, cınqırını çıxarmırsan. Amma qorxursan.

Kişi. Amma qorxuram.

Qadın. Ürəyini şübhələr qurd kimi gəmirir. Sən yenə də qorxursan.

Kişi. Sən... Mən yenə də qorxuram.

Qadın. İtirməyə və əldə eləməyə! Yaxınlaşmağa və uzaqlaşmağa! Sevməyə və lənətləməyə! Ölməyə və yaşamağa!

Kişi. Qorxuram. Qorxuram. Qorxuram. Sən məndən nə istəyirsən?

Qadın. Bu saat mənimlə danışırsan – amma məndən də qorxursan.

Kişi. Vay, vay, vay. Sən mənə nifrət eləyirsən.

Qadın. Bax, bu da sən deyilsən. Bunu da sənin içindəki qorxu dedi. Sən özün heç zaman belə deməzdin. Çünki bilirsən… belə deyil.

Kişi. Sən bir işin qəribəliyinə bax. Sən məni mən səni yada salanda xatırlayırsan. Saatınacan, dəqiqəsinəcən dəqiqsən.

Qadın. Doğrudan da, qəribədi. Amma. Bütün bunların bir mənası var. Sən heç cür başa düşmək istəmirsən ki, mən artıq yoxam. Mən ancaq sənin beynində, əsəbində, istəyindəyəm. Başa düş bunu.

Məndən də əl çək. Əl çək məndən. Düşünmə məni, gedirsən get, getmirsən... Heç olmasa, məni burda rahat burax. Rahatlıq ver mənə. Mənə də, özünə də. Qorxa-qorxa yaşamaqdansa, gəl, gəl gedək. Gedək, yaxşı olacaq. Qorxma. Gəl, gəl bura...

II ŞƏKİL

Zil qaranlıq. Yenə həmən uşaq səsləri.

Bir, iki –
Bizimki.
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı.
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don.

Bu səslər qarışır bir-birinə. Yavaş-yavaş bir qız, bir oğlan səsi bunların arasından seçilməyə başlayır. İki işıq zolağı bu səslərin sahibini axtarır. Tapa bilmir.

Qız. Məndə saqqız var.
Oğlan. Mənə də ver.
Qız. Verməyəcəyəm.
Oğlan. Ver! Verməsən, vuraram.
Qız. Sara müəllimə, Sara müəllimə! Məni vurdu.
Oğlan. Mən??? Vurmadım. Hələ vurmadım axı.

Qız. Yox vurdu, vurdu. Məndən saqqızımı almaq istədi. Mən vermədim, o da vurdu.

İşıq zolaqları Kişi ilə Qadının üzünə düşür.

Kişi *(zarafatyana).* Mənə elə hey şər atırdın, niyyətin nəydi?

Qadın. Niyyətin hara, mənzilin ora. Bir ağıllı adam da belə deyib.

Kişi. Hə… İndi aydın oldu.

Qadın. Üç ola bilərdik, dörd ola bilərdik. Sən istəmədin.

Kişi. Artıq söhbət lazım deyil. Soyuq doldu içəri, qoy bu qapını örtüm *(ayağa durur).*

Qız səsi. Üç, dörd...

Oğlan səsi. Qapını ört!

Kişi bu səsləri, elə bil, eşidir və təzədən yerinə oturur.

Qadın. Noldun, bir qərara gəldin? Sözlü adama oxşadın.

Kişi *(qorxa-qorxa).* Nə qərara gələsiydim ki? Sözüm… yox…

Qadın. Gedirsən mənimlə?

Kişi. Otaq elə bil istiləndi, sən hiss eləmirsən?

Qadın. Hə, sözdən qaçmağa başladın. Anladım. Sən tanıdığım ən qətiyyətsiz adamsan. Belə necə yaşaya bilirsən? Belə yaşamaq olar? Vay-vay-vay…

Kişi. Axı birdən-birə necə eləmək olar bunu? Gərək axı özünü heç olmasa daxilən hazırlayasan. Gediş asan məsələ deyil…

Qadın. Pərdənin bu tərəfi sənin ağlına belə gəlməyən dərəcədə gözəldi. Hər tərəf yaşıllıq, hər tərəf bulaqlar, otlar, çiçəklər. Səssizlik…

Kişi. Daha nə var, nə yox? Oralarda deyirəm…

Qadın. Mənim yadıma gəlir, sən elə həmişə ora-bura getmək həvəsiylə yaşadın. Neçə dəfə uzaq-uzaq şəhərlərə köçüb orda yaşayasıydıq. Bir deyib coşurdun ki... Köçüb getmək zamanı gəlib çatanda isə birdən, elə bil, taqətdən düşürdün. Həvəsin qalmırdı. Getmək gözünə dururdu. Dil pəhləvanısan sən. Dil pəhləvanı. Səninki elə boş-boş danışmaq olsun.

Kişi. Kimə nə ziyanı var idi mənim dil pəhləvanlığımın?

Qadın *(sərt).* Bax, bunu düz demədin. Bax, burda, bağışla məni, günaha batırsan. “Kimə nə ziyanı vardı...” Vardı ziyanı. Vardı. Mənə ziyanı vardı. Çünki hər dəfə sənə inanırdım. İnanırdım ki, ən

doğru addımı biz atırıq. Özümü hazırlayırdım bu addım üçün. Elə bilirsən asan idi? Get, get bir yolla, sonra dön 180 dərəcə. Sən isə. İndi mənə elə gəlir ki, sən hər dəfə yeni bir plan quranda əvvəlcədən bilirdin ki, o, baş tutmayacaq. Sənincün oyun idi bütün bu hazırlıq, bütün bu dəyişmələr, səyahətlər, gedişlər, qayıdışlar... Mənim isə özumdən asılı olmadan həyatımın parçalarına dönürdü bunların hamısı. Mən onları yaşadım. Sənin oyunun mənim həyatım oldu. Sən yalanlarını öz həyatının oyun hissəsində gizlətdin, onları məndən başqa heç kim bilmədi. Mən onları heç kimə danışmadım.

Kişi. İndi danışırsan. İndi kim deyir gedək?

Qadın. İndi mən deyirəm gedək. Bir dəfə də qoy mən deyim. Haqqım var.

Kişi. Mənim üçün çətindi bir söz demək. Mən... bilmirəm. Vallah, özüm başa düşmürəm, niyə qalmalıyam, nədi məni saxlayan, amma getmək adı gələndə özün bilirsən də, indi özün dedin, getmək adı gələndə, elə bil, lap heysizləşirəm, addım atmağa taqətim qalmır. Məndən asılı deyil. İnan mənə.

Qadın. Sənə? İnanım? Neçə yaşından tanıyırıq bir-birimizi?

Kişi. Nə bilim? Bağçadan. Niyə soruşursan ki?

Qadın. Hər dəfə məni təzədən aldadırsan. Özünü elə aparırsan ki, guya getmək istəyirsən.

Kişi. Nə bilim, vallah...

Qadın. Məni də yaxşı avara eləmisən. Bilirsən, nə var? Axır sözün nədi? Tez ol. Mənim burda ürəyim darıxdı.

Kişi. Darıxma. Düzələr. Əvvəl-axır düzələcək işin. Nə belə tələsirsən?!

Qadın. Sən... sən o qədər soyuqsan ki, o qədər uzaqsan ki... Başdan ayağa qeyri-müəyyənliksən. Həmişə də beləydin. Bax, deyirəm: səndən heç vaxt heç nə gizlətməmişəm. Bilirdim ki, indi də elə belə deyəcəksən. Getmirsən... getmə. Sənin yanında olanda bəyəm sən mənim yanımdaydın?! Onda da tək idim. Bəli, bəli, əzizim. Mən tək idim. Ömür boyu məndən nəyinsə acığını çıxmısan. Amma nəyin? Nəyə, kimə görəydi bunlar?

Kişi. Yenə başladın özün-özünçün uydurmağa. Bu xasiyyətindən əl çəkmədin ki, çəkmədin. Bəyəm mən dedim ki, getmirəm? Mən elə demədim. Mən deyirəm, tələsdirmə məni. Bir az gözlənilməz oldu axı sənin bu... "xoşniyyətli"təklifin. Mən nə biləydim sən bu boyda yolu durub mənim dalımca gələcəksən. Doğrudan, neynirsən məni? Orda da mənsiz qala bilmirsən? Qəribədi.

Qadın. Mən bu suala cavab verməк istəmirəm.

Kişi. Cavabını bilirsən ki, verəsən?!

Qadın. Mən yenə də susuram.

Kişi. Mən yenə də susuram. Onda mən də susuram.

Qadın. Mənə bax, dolamısan məni? Sən lap ağ elədin ha.

Kişi. Rəngləri seçirsən?

Qadın. Yox. Buna dözmək... daha mümkün deyil. Mən gedim. Sən bir damcı da dəyişməmisən. Necə vardın, elə o cürsən. Nə üçün dəyişməliydin ki?! Mənəm dəli. İndiyənəcən elə bilirdim ki, sən də... sən də heç olmasa bir balaca, lap azacıq, nə bilim, deyirdim, bəlkə... bəlkə də... bəlkə sən də darıxmısan.

Kişi. Mən də darıxmışam. Çox darıxmışam. Sən öləndən sonra çox şey aydın oldu. İnan mənə. İnan. Səninlə yenə də o günləri yaşamaq ən böyük arzumdur. Boynuna al, sənin çün də elədi.

Qadın. Mənim üçün də...

Kişi. Düzdü, o günlər o qədər də gözəl deyildilər. Bulaqlar, otlar, çiçəklər yox idi. Əlaxsus da... sakitlik! Amma! Amma... gücüm çatmır.

Qadın. Tərəddüd həmişə sənin yaraşığın olub. Yəqin, haqlısan.

Kişi. Yox, tələsmə. Son sözümü demədim. İmkan ver, hər şey axı elə bil, birdən qaynar su kimi töküldü başıma. Sən görmürsən ki, mən özümü itirmişəm?!

Qadın. Gedək, gəl gedək mənimlə. Peşman olmayacaqsan. Nə görmüsən sən buralarda? Ağlın olsun.

Kişi. Ağlım olsun?! Ax... ömür boyu bunun həsrətində olmamışam? Buralarda… nə görmüşəm? Buralarda sən varsan axı. Sənin qoxun qalıb buralarda…

Qadın. Yenə də qəti bir cavab vermirsən? Boşuna zəhmət çəkirsən. Bu sözlər mənə daha təsir eləməz.

Kişi. Verəcəyəm. Darıxma. Verəcəyəm cavab.

İşıq zolaqları yenə də titrəməyə başlayır. Kişi də, Qadın da gözdən itirlər. Bir-birindən ayrı düşmüş bu işıq zolaqları bir-birinə tərəf gəlirlər, bir-birinin üstünə atırlar özlərini və üst-üstə düşən kimi sönürlər. Pərdənin ağlığı az qalır göz qamaşdırsın.

III ŞƏKİL

Qaranlıqda uşaq səsləri.

Bir, iki –
Bizimki.
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı.
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don.

Bu uşaq səsləri kəsilincə yenə də qaranlıqdan
Oğlanla Qızın səsləri eşidilir.

Qız. Mən gördüm. Mən gördüm.

Oğlan. Yalan deyirsən. Görmədin. Yalan deyirsən.

Qız. Mən gördüm. Sən əlini suya vurdun. Su çirklidi. Sara müəllimə! Sara müəllimə!

Oğlan. Mən sənə konfet verərəm.

Qız. Hanı? Baxım. Baxım da.

Oğlan. Sən heç kimə deməzsən?

Qız. Baxım da konfetə.

Oğlan. Söz ver, sonra.

Qız. Söz verirəm. Söz verirəm. Ver konfeti.

Oğlan. Konfet yoxdu.

Qız. Sən məni aldatdın. Sən məni aldatdın.

Oğlan. Heç kimə demə ha.

Yenə iki işıq zolağı Kişi ilə Qadını qaranlıqda axtarır və nəhayət, tapır.

Qadın *(elə bil, yuxudadı).* Sən məni nə qədər aldatdın. Sayı yox, hesabı yox.

Kişi *(elə bil, yuxudadı).* Elə deyil. O qədər… olmadı.

Qadın. İndi də, gör, nə deyirsən? Qoxun qalıb buralarda… sözə bax hələ…

Kişi. Mən bəyəm elə dedim?!

Qadın. Aldatmısan, aldadırsan. Olmasın çox. Beş-altı dəfə olub, yəqin.

Kişi. Bax, heç kimə demə ha. Bir daş altda, bir daş üstdə.

Qız. Beş, altı!

Oğlan. Daşaltı!

Titrəyən işıq zolaqları Kişi ilə Qadının üzündə donub qalır.

Kişi. Mənə bir şey maraqlıdı. Sən indi varsan, ya yoxsan? Yəni doğrudanmı, sən mənim uydurmamsan?! Nəsə inanmağım gəlmir. Sən bəyəm qalateyasan? Allah, Allah, mən təhlükədəyəm…

Qadın. Bunları burax. Gör nə deyirəm. Bilirsənmi, sənə nə barədə düşünmək imkanı verilibsə, hamısı mövcuddur.

Kişi. Lap elə cənnət, cəhənnəm də?

Qadın. Cənnət də, cəhənnəm də.

Kişi. Uçan qablar necə?

Qadın. Onlar da.

Kişi. Mələklər, şeytanlar, İsalar, Musalar, keçmiş, gələcək əfsanələr?

Qadın. Dedim ki, hamısı.

Kişi. Bəs O? O da var? Mövcuddur, nəhayət ki?

Qadın. Şəkkakə lənət!!! Dedim ki, beynindən nə keçirsə, bu sonsuzluqda vardılar. Vacib deyil ki, gözlərinlə görəsən. Mənə inanmırsan?

Kişi. Mənim Qalateyam… Mən sənə? Yox, niyə ki. Elə-belə soruşdum.

Qadın. Bununla da zarafat edərlər? Soruşulası bir sözün qalmadı?

Kişi. Hələ bir, de görüm, mən də getsəm, sənin kimi bir gün orda, beş gün burda ola biləcəyəm?

Qadın. Sənin burda kimin qalır? Təzə sevgilin var bəlkə?

Kişi. Yox, elə bir adam-zad yoxdu. Məni tanımırsan? Birdən də... deyirəm, adamın beyninə girir bir fikir, çıxmır ki, çıxmır.

Qadın. Yaxşı olacaq. Orda mən sənlə ciddi məşğul olacağam. Qayıtmaq istəməyəcəksən. Hə, deyəsən yavaş-yavaş yola gəlirsən?

Kişi. Çox maraqlıdı. Yəni… Maraqlı şeylər çoxdu – fikirləşmək lazımdı. Deyirsən...

Qadın. Nə? Soruş, utanan adama oxşayırsan.

Kişi. Yox, heç. Nəsə soruşmaq istəyirdim, yadımdan çıxdı.

Qadın. Nə?

Kişi. Heç, istəyirdim soruşam... ora get-məyin... sənin yanına deyirəm, keçməyin üsulu nə cür olacaq? Mənə bir dənə iynə vuranda qışqırığım göyə çıxır. Özün ki, bilirsən.

Qadın. Bu məsələnin ən asan tərəfidir. Təki sən razı ol. Könüllü istə bu işi. Razısan?

Kişi. Əlbəttə, asan məsələ deyil. Amma mən...

Qadın. Sənin yerinə mən olsaydım, bu qədər fikirləşməzdim. Sən başa düşürsən ki, bu sənin mənə əsl münasibətini göstərir?!

Kişi. O necə olur elə? Özündən uydurursan.

Qadın. Uydurmuram. Bəli. Bəli. Mən olsaydım sənin yerinə... Ayıb olsun.

Kişi. Yaxşı, yaxşı, nə deyirəm ki, mən? Söz soruşuram da. Niyə yenə tərsliyin tutur?

Qadın. Sən ... sən nankorsan.

Kişi. Başlandı yenə.

Qadın. Sən nankorsan!

Kişi. İşə düşmədik?!

Qadın. Sən nankorsan!

Kişi. Allahu-əkbər!

Qadın. Nankorsan, nankorsan. Sən mənə dedin ki… dedin, dedin, mən gedim, sən də ardımca gələcəksən. Mən getdim. İnandım sənə. Getdim. Bəs sən? Aldatdın məni sən. Mən sənə hər nə zaman söz verdim, sözümə də əməl elədim. Sən isə verdiyin sözün sahibi olmadın.

Kişi. Uydurursan. Mən sənə söz-zad verməmişdim. Sən axı getməyə bilməzdin. Niyə elə deyirsən?

Qadın. Söz vermişdin. Mən, düzdü, getməyə bilməzdim. Amma biz bir-birimizə söz vermişdik. Nə tez unutdun?

Kişi. Yaxşı da, mən nə deyirəm ki? Qaçıram sözümdən? Bir "ağıllı" adam deyib: "unutmağa heç bir söz yoxdu…"

Qadın. Zarafata salma. Sən söz vermişdin.

Kişi. Yaxşı yerdə axşamladıq. Elə danışırsan ki, elə bil, bir içim su içmək kimi şeydi bu.

Qadın. Bir içim su içmək kimidi. Bir içim su içmək kimidi.

Kişi. Yaxşı da. Sakit ol. Sakit ol. Nə soruşacaqdım yenə? Nəsə soruşacaqdım. Unutdum.

Qadın. Tez ol. Soruş. Daha hər şeyi soruşmusan, bir şey qalmayıb.

Kişi. Heç peşman deyilsən?

Qadın. Bu heç mənim ağlıma da gəlməyib.

Kişi. Yəni, oranı elə belə də görürdün?

Qadın. Bax, bir daş altda, bir daş üstdə. Elə belə də görürdüm. İndi nə deyirsən? Sözünü de.

Kişi. Deyəcəyəm. Bir az da döz. Bu qədər ki, sən dözmüsən. Deyəcəyəm. Az qaldı daha. Və son sualım. Sən... yenə də sevə bilirsən?

Qadın. Sən ki bunu hiss eləməliydin. Ay dəli, əlbəttə, mən sevə bilirəm. Mən sevə bilirəm...

İşıq zolağının ikisi də birdən sönür.

IV ŞƏKİL

Qaranlıqda uşaq səsləri.

Bir, iki –
Bizimki.
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı.
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don.

Yenə də Oğlan və Qızın səsləri eşidilməyə başlayır.

Qız. Sən pis oğlansan. Məni itələyirsən. Burda mən oynayacağam.

Oğlan. Mənim yerimdi bura. Çünki mən birinci gəldim.

Qız. Yox, mən birinci gördüm buranı. Mənim yerimdi.

Oğlan. Get burdan. Yoxsa... Pis olar sənincün.

Qız *(ağlamsınır).* İtələdi məni, itələdi, Sara müəllimə, məni itələdi.

Oğlan. Yavaş. Qışqırma. Mənim yerimdi axı.

Qız. Yox, mənim yerimdi. Sara müəllimə...

Oğlan. Yaxşı, yaxşı. Gəl bölək. Bura sənin, bura mənim.

Qız. Yox, yox, hamısı mənim.

Oğlan. Bəs mən?

İşıq zolaqları yenə də Kişi ilə Qadını axtarır. Nəhayət, tapıb onların üstündə donur.

Qadın *(yuxulu kimi).* Sən mənə nə sözlər demədin, nə vədlər vermədin... Hara getdi o sözlər, hara itdi o vədlər?

Kişi *(yuxulu kimi).* Sözlər, vədlər, kəlmələr, adlar... hamısı əfsanədi. Adama qalan başqa şeydi.

Qadın. Adımı hardan bilmişdin? Mən deməmiş adımı bilirdin.

Kişi. Sənin adını mən çoxdan, lap çoxdan bilirdim.

Qız. Yeddi, səkkiz –

Oğlan. Firəngiz!

İşıq zolaqları dolanıb Qızla Oğlanı axtarır, axtarır, tapa bilmir, yenə gəlib Kişi ilə Qadının üstünə qonur.

Qadın. Yoruldum. Yordun məni sən. Bir bilsəydin...

Kişi. Mən razıyam.

Qadın. Doğrudan deyirsən? Çox Şükür. Nəhayət ki. İndi deyəcəksən, həmişə mən deyən olur.

Kişi. Deyəcəm: həmişə sən deyən olur.

Qadın. Sən mənim canımsan, ürəyimsən… Onda hazırlaş. Qorxmursan?

Kişi. Yox, qorxmuram. Cavab vermək vaxtı əvvəl-axır gəlib çatacaqdı onsuz da.

Qadın. Səni ora bağlayan heç nə qalmadı ki? Bax, düzünü de.

Kişi. Deyəsən, qalmadı.

Qadın. Nə deyim sənə? Bilirdim ki, cavabın belə olacaq. Bilirdim və inanırdım.

Kişi. İnanmırdın.

Qadın. İnanmırdım.

Kişi. Axır ki, istəmədin sən orda qalasan, mən burda.

Qadın. Sənin ordakı yerin də mənimkiydi. Mənimki.

Kişi. Adətən deyirlər ki, ölüm həyatın içindədi, ölüm həyatın davamıdı...

Qadın. Ağıllı adamlar belə deyir? Belə deyil.

Kişi. Əlbəttə, belə deyil. Həyat, əslində, ölümün içində, həyat ölümün davamıdır. Belə yaxşıdı.

Bir-birimizin içində çabalaya-çabalaya qalmışıq. Ayrılaq. Sən sən ol. Mən mən olum.

Qadın. Heç olmasa bir-birimizi görərik o zaman.

Kişi. Yəqin ki. İşıq olsa, görərik. Həyat işıq deyilmiş.

Qadın. Sən ki bilirsən, həyat bir uzun və bütöv gecədən ibarətdir. Bu uzun və bütöv gecə arabir gündüz adlanan fasilələrə bölünür.

Kişi. O işığa çatmağı mən... necə arzulayırdım?! O işığı görə biləcəyəm?

Qadın. İşığı görə bilməyəcəksən. İşıq sənə imkan verəcək ki, mənim ibarət olduğum qaranlığı görəsən.

Kişi. Yaxşı. Mən razıyam. Nə etməliyəm?

Qadın. Qətidi fikrin? Sonra başqa söz deməyəcəksən? Həmişəki kimi.

Kişi. Yox, yəqin ki… yox.

Qadın. İndi ki, qəti fikrə gəldin, onda mən sənə bir məsələni də açıb deməliyəm.

Kişi. Sən lap sirlər xəzinəsiymişsən...

Qadın. Diqqətlə qulaq as. Zarafata salma. Məsələ belədi. Son, sonuncu an bu işdə ən vacib nöqtədi. Diqqətlə qulaq as.

Kişi. Sən məni yenə də qorxudursan.

Qadın. Dinlə məni. Ən son an gələn zaman ehtiyatlı ol. Bil ki, son anında əgər bir adam və yaxud nəsə başqa bir şey haqqında düşünsən, onun ardınca sən də mənim kimi qayıdacaqsan. Onu özünlə aparmayana qədər dönə-dönə qayıdacaqsan. Noldu sənə? Eşidirsən? Son anı unutma. Çalış, heç kimi düşünməyəsən. Qoy şad-xürrəm yaşasınlar özləriyçün. Bizim onlarla nə işimiz?! Lazımdılar… burdakılar bizə?

Kişi. Bu, mümkün olan iş deyil. Onları xatırlamaq gözəl olardı…

Qadın. Gərək bacarasan. Özünü ələ al. Qorxutma özünü. Sən bacaracaqsan. Bizə daha heç kim lazım deyil burda. Elə deyil? Heç kim.

Kişi. Deyirsən: “bacaracaqsan”. Mən... bilmirəm.

Qadın. Bacaracaqsan. Bacarmalısan. Mənim son anım sən oldun. Səninki də qoy mən olum. Orda qoyduqların barədə düşünmə.

Kişi. Nə bilim?! Deməsəydin, bəlkə də. İndi çətin olacaq.

Qadın. Düşünmə heç nə barədə. Qorxma. Mən də sənə kömək edəcəyəm. Yox. Yox. Unut sənə dediyimi. Yaxşısı budur, unut. Onda asan olar.

Kişi. Unutmaq artıq müşküldür. Görək də. Bunun özü də elə qəribə bir oyundu. Bəlkə, deyirəm, qayıtmaq üçün balaca bir… körpü qoyaq?

Qadın. Necə yəni, körpü qoyaq? Yox, elə bir şey eləmə. Özünü başqalarından ağıllı sayma. Bilərəkdən edilən heç bir şey alınmayacaq.

Kişi. Yaxşı da, nə deyirəm ki?!

Qadın. Yadında qaldı dediklərim?

Kişi. Qaldı. Qaldı. Sən məndən çox həyəcan keçirirsən.

Qadın. Eybi yox. Bütün həyəcanlarımızın sonuna az qalıb. O gözəllikləri sən görəcəksən. Lap az qalıb.

Kişi. Sən bilən məsləhətdi.

Qadın. Deməli, belə, danışdıq...

Kişi. Nə danışdıq? Yadıma sal.

Qadın. Ələ salmısan sən yenə məni?

Kişi. Yaxşı. Yaxşı. Qızışma. Sən elə əvvəldən hövsələsiz idin. Danışdıq. İndi nə etməliyəm mən? Nə etməliyəm? Nə?

İşıq zolaqları sönür. Pərdənin tənha və kimsəsiz titrəyişləri...

V ŞƏKİL

Qaranlıqda uşaq səsləri.

Bir, iki –
Bizimki.
Üç, dörd –
Qapını ört.
Beş, altı –
Daşaltı.
Yeddi, səkkiz –
Firəngiz.
Doqquz, on –
Qırmızı don.

Yenə də qarmaqarışıq uşaq səslərinin içindən Qızla Oğlanın səsi seçilməyə başlayır.

Qız. Mən qorxuram. Bura qaranlıqdı. Burdan necə çıxacağıq?

Oğlan. Qorxma, sən bir şey görürsən?

Qız. Yox, mən heç nə görmürəm. Sən məni saldın bura. Sara müəllimə, Sara müəllimə...

Oğlan. Ağlama. Qorxaq! Qızların hamısı qorxaqdı. Sən bir şey görmürsən?..

Qız. Sən məni saldın bura. Sən saldın. Hamısı təqsirlər səndədi. Heç nə görmürəm.

Oğlan. Gəl bu tərəfə gedək.

Qız. Yox, o tərəfə getmirəm. Mən qorxuram.

Oğlan. Yaxşı. Yaxşı. Onda gəl bu tərəfə gedək.

Qız. O tərəfə də getmirəm. Sən elədin. Sən. Sən...

İşıq zolaqları Qızla Oğlanı axtarır. Tapa bilmir.
Kişi ilə Qadının üstünə düşür.

Kişi *(yuxulu kimi).* Hər gecə eyni yuxunu görürdüm. Görürdüm ki, uzun bir yol gedirəm. Yolun axırında da bir kötüyün yanında cəllad əlində balta durub məni gözləyir.

Qadın *(yuxulu kimi).* Sənə bu köynək yaman yaraşır. Rəngini mən seçmişdim.

Kişi. Qırmızı... Qırmızı bizim rəngimizdi. Unutmamısan? Bizim rəngimiz.

Qız. Doqquz, on –

Oğlan. Qırmızı don!

İşıq zolaqları yenə də Qızla Oğlanı axtarır,
tapa bilmir və yenə də,
bu dəfə son dəfə Kişi ilə Qadının üstündə donub qalır.

Kişi. İndi mən artıq sənlə gedə bilərəm. Mən getməyə hazıram. Burda heç nə daha məni saxlamır, əlvida deyim, deməyim bu dünyaya? Əlvi-

da. Göz yaşları lazım deyil. Gül-çiçək də. Alqışa ehtiyac yoxdur. Amma... *(pıçıltıyla)* qayıdacağam. Qayıtmasam, olmaz. Ürəyim partlar. Ölərəm.

Qadın. Qayıda bilsən, qayıdarsan. Dediklərimi yadından çıxarmamısan?

Kişi. Yox, arxayın ol. Elə də iş olar?

Qadın. Onda gəl. Gəl, qorxma.

Kişi. Qorxmalı bir şey qalmadı. "Qorxma". O nə olan şeydi elə?

Qadın. Bax belə. Birinci addımı artıq atmısan. Dediyimi unutma. Gəl. Belə. Ora-bura boylanma. Gəl, gəl.

Kişi. Yenə də Yol. Yenə də Yolun əvvəli və yenə də uzaqda görükən o qırmızı işıq. O qırmızı işığın yanına gəlib çatanda nə baş verəcək – heç kim bilmir. De görüm, biz qırmızı işıqdan o yana keçəndə, nəhayət, bir-birimizi tanıya biləcəyikmi?

Qadın *(başqa, sərt səslə).* Bir-birimizi tanımağımız lazımdı bizə?

Kişi. Nə dedin? Necə? Bu sən idin?

Qadın *(öz səsiylə)*. Mənəm, Mənəm. Heç nə demədim. Bir şey görürsən?

Kişi. Yox, heç nə görmürəm. Amma elə bil, hər şeyi görürəm. Nə zaman bitəcək bu oyun? Ürəyim bərk sıxıldı. Nəfəs ala bilmirəm.

Qadın. Bax, bir addım da keçmisən. Darıxma. Özün də tələsmə. Gəl. Bax belə. Yavaş-yavaş. Bir azdan. Bir azdan. Hər şey gözəl olacaq.

Kişi. Qəribədi. Sən nəsə sonuncu andan danışdın. Mən, elə bil, o anı görməyə başlayıram. O sonuncu an haradansa saatların, dəqiqələrin içindən sıyrılıb üzə çıxır və mənə doğru gəlməyə başlayır.

Qadın. Gördün onu?

Kişi. Görürəm. Aman!

Qadın. Bax, sən indi sonuncu addımını atırsan. Bir az da döz, indi, bax, elə indi birdən rahatlaşacaqsan. Quş kimi yüngül olacaqsan. Bu boyda dünya qov kimi yumşaq görünəcək sənə. Sənə elə gələcək ki, onu bir əlinlə qaldırmaq istəsən, qaldıra biləssən. Və bütün qayğıların, əzabın, demək və deməmək istədiklərin hamısı, hamısı gedəcək uzaq-uzaqların uzaqlığına. Məni dinlə. Mənim səsim sənin istiqamətindi. Səsimi unutma. Səsimdən yapış, yıxıla bilərsən. Gəl, gəl... Heç kimi düşünmə. Heç kim yoxdu. O tərəfdə heç kim yoxdu. Yoxu düşünməzlər. Yox barədə danışmazlar. Sən və mən. Bir, iki... bizimki. Bir, iki – bizimki! Hər şey bizimki olacaq. Yalnız bizimki. Səsimi unutma. Bax belə. Asta. Yavaş. Yox, tələsmə. Tələsdin. Bir də. Yavaş-yavaş. Hər şey yaxşı olacaq. Bax, belə. Heç

kim yoxdu, heç kim yoxdu. Bir sənsən, bir də mənəm. Bir, iki – bizimki. Bir, iki – bizimki...

Kişi. Mən heç nə görmürəm. Qırmızı qaranlıqdı bura başdan başa.

Qadın. Tələsmə. İndi hər şey düzələcək. Hər şey yaxşı olacaq... Görəcəksən. Görəcək... *(səsi yox olur, Qadının üzərindəki işıq zolağı sönür).*

Kişi. Nə oldu? Niyə belə uzun çəkir bu iş? Mən deyirdim axı, asan məsələ deyil. Elə həmişə sən adamı tələsdirirsən. Niyə susdun? Bir söz de. Məni tək qoyma. Heç nə görmürəm. Niyə mən heç nə görmürəm? Hara, hara itdin sən? Qayıt. Mən tək qalmaq istəmirəm. İstəmirəm. Niyə yox oldun? Sən məni aldatdın. Sən məni aldatdın. Mən səni görmürəm. Sən... sən yoxsan! Sən harda gizləndin? Bura niyə belə soyuqdu? Axı biz belə danışmadıq. Mən geri qayıtmaq istəyirəm. Geri. Geri. Yol, yol, bir yol olmalıdı burda, ya yox? Bu tərəfə gedim?! Yox. Bu tərəfə gedim?! Yox, o da yol deyil. Yol. Hanı bu yol? Bir əvvəli var, bir də sonu. Bəs bu yolun özü hanı? Hanı bu yol? Sən məni aldatdın. Sən məni aldatdın. Hanı, hanı o gözəlliklər? Niyə? Niyə? Dediklərinin hamısı yalan çıxdı. İstədiyin nə idi?

Qadın *(yalnız səsi gəlir).* Sən hara yox oldun? Hara itdin? Səsimi unutma. Səsimdən yapış.

Kişi *(onu eşitmir).* Aldatdın məni. Heç nə görmürəm. Heç nə eşitmirəm. Bu sənin nəyinə lazım idi?

Qadın *(səsi gəlir).* Axı sən hara yox oldun? Mən buradayam. Niyə məndən qaçdın? Sən hardasan?

Kişi *(eşitmir).* Sən hardasan? Yenə qaçıb harda gizləndin? Mən səni tapa bilmirəm. Gizlənpaç oynayırıq?! Nə üçün idi bütün bunlar? Səsini çıxart, səsini. Heç nə görmürəm. Heç nə. Hər şey bitdi.

Qadın. Eşitmirəm səni. Hara gizləndin? Sən məni yenə də aldatdın. Amma niyə? Nə üçün? Bu sənin nəyinə lazım idi?

Və Kişi ilə qadının arasındakı pərdə sürətlə yuxarı qalxır, yox olur.

Kişi. Hər şey bitdi. Mən gəldim. Eşidirsən, mən gəldim. Sən yoxsan. Bura necə də soyuqdu. Necə də soyuqdu. Soyuqdu...

Qadın. Sən yenə də yoxsan. Sən axı niyə yoxsan?.. *(başqa səslə)* Sən heç vaxt var olmamışdın. Olmamışdın.

Kişinin üzündəki işıq zolağı sönür.
Və bununla hər şey qurtara bilərdi,
əgər yenə də həmən uşaq səsləri qaranlıqda eşidilməsəydi.

Oğlan. Tapdım, tapdım yolu. Ordan işıq gəlir. Görürsən, bax, ordan işıq gəlir.

Qız. Mən heç nə görmürəm. Mən ancaq eşidirəm. Sən hardasan? Hardasan?

Oğlan. Tut səsimdən, yıxılma. Gəl səsimin dalınca.

Qız. Mən heç nə görmürəm. Sara müəllimə, Sara müəllimə...

Oğlan. Ver əlini. Hardadı sənin əlin? Titrəmə. Gəl. Gəl gedək.

Qız. Yox, gəlmirəm. Qorxuram. Sən məni saldın bura.

Oğlan. Ağlama. Gəl dalımca. Səsimdən yapış...

Qız. Sara müəllimə, Sara müəllimə...

Səslər yavaş-yavaş öləziyir və sükutun içində

SON

KİM DEDİ Kİ, SİMURĞ QUŞU VAR İMİŞ?!

(2 hissəli fəlsəfi,
sentimental duyumlar dramı)

İŞTİRAK EDİRLƏR:

Kapitan
Səs
Ada sahibi
Nağılçı
Zabit
Padşah
Gözəl qız
Şahzadə
Vəzir
Cəllad
Dev

BİRİNCİ HİSSƏ

I ŞƏKİL

Adi bir otaq. Divardan tor asılıb. Divan, kitab dolabı, stol (bir küncdə). Otağın ortasında pəncərəyə yönəli üstünə örtük çəkilmiş stolvari bir şey var. Kapitan əlində şam qaranlıqda gəlir, şamı küncdəki stolun üstünə qoyur, birdən işıqlar yanır. Kapitan tez şamı söndürür.

Kapitan. Ay zibil. Xarab olan kimi xarab olmur, yanan kimi yanmır. Günümüzə bax da *(pəncərəyə yanaşıb küçəyə baxır)*. Yenə zülmətdi ki. Amma sabah zülm isti yağar. Ulduzlar, elə bil, gəlib başımızın üstünə qonub. Heç bu boyda yaxına gəlməzdilər. Buna bax e, buna. Əl atsam, əlim dəyər. Əzizim, bəlkə evə gələsən, qonağım olasan. Utanma. Bilirəm ürəyindən keçir... Günümüzə bax da. Yol göstərin, yol. Yoxsa ki... *(pəncərədən aralanır).* Bundan xəbər çıxmadı. Ölər bir mərtəbə yuxarı qalxsa. Cəhənnəmə gəl. Amma mən səndən onu almasam, mən heç mən deyiləm *(oxuyur)*.

Sən o tərəf, mən bu tərəf
Ağla uca, barı, ağla

Həyat güllə, ömür hədəf
Ağla uca barı, ağla.

Əla şeydi ən uca mərtəbədə yaşamaq. Doğrudan. Səndən ki yuxarıda heç kim olmadı – gözəldi. Aşağıdakıların işi zülmdü. Balaca tappıltı (ayağı ilə döşəməni döyür), dur, köç evdən. Amma yuxarıda – heç kim, heç nə. Ancaq havanın səsi. Külək olanda vıyıltısı. Bir də... ulduzlar, ulduzlar... Buna bax, buna, elə bil, o da mənə baxır. Əl atsam əlim dəyər. Əzizim, doğrudan bəlkə gələsən bura, qonağım olasan?

Qapı zənginin səsi.

Bu olar yəqin. Başqa kim olacaq? Gör nə tez gəldi. Gələrsən, hara itəcəksən, gələrsən. Gələrsən də, gətirərsən də. Ağla uca barı ağla *(gedib qapını açır. Zabit gəlir).*

Zabit. Salam, yoldaş, bəy, ağa, müəllim... ha-ha-ha, təksən? Hay-küydən elə bildim, bir rota əsgər var burda? *(Ora-bura boylanır.)*

Kapitan. Salam, salam. Heç kim yoxdu. İnanmırsan? Noldu, bəs sən söz vermişdin? Nə oldu?..

Zabit *(şübhə ilə örtüklü stola baxır).* Təzə bir şey yoxdu bunun altında? Denən görüm bu istidə

soyuq piyvəynən necəsən? Bir balonu xolodilnikə indi qoydum. Bir az soyusun, gətirim vuraq getsin. Voblan qalıb? Bəlkə bizə düşək?

Kapitan. İçmirəm. Noldu niyə gətirmədin?

Zabit. Sən allah, istəyirsən düşək bizə. Bu nə tappıltı idi salmışdın? Lyustralar uçurdu lap. Elə bildim, köçürsən. Perestanovka eləyirdin? Demişəm, gətirəcəyəm o zəhrimarı sənə, demək, gətirəcəyəm. Nöşün kəmhövsələ olursan sən? Pivə? Özü də soyuq. Hə?

Kapitan. Sağ ol. Hə qoyub, nə axtarırsan?..

Zabit gedir örtüyü stolun üstündən çəkmək istəyir. Kapitan özünü atır ona tərəf, Zabitin əlindən tutur.

Zabit. Qoy bir dəfə baxım da. Nolar?

Kapitan. Heç nə olmaz, nolacaq? Bir dəfə sənnən bu barədə danışdıq axı.

Zabit *(barmağını alnına tutur).* Çatmır e, çatmır. Deyirəm, bir yakorun çatmır elə. Amma gətirəcəyəm. Yakor deyə-deyə mələyib durmusan. Sən allah, bura onsuz da gəmidi də. Nəyinə lazımdı bu yakor? Mən ölüm, neynirsən bu yakoru?

Kapitan *(qaşqabaqla, ciddi)***.** Getdiyin yerin yanında dayanmaq istəyəndə gərək dayana biləsən ya yox?

Zabit *(Kapitana diqqətlə baxır, yəni "sən düzələn deyilsən").* Yaxşı, yaxşı, mısmırığını sallama. Sabah – yüz faiz o lövbər burda olacaq. Hara üzürsən, üz. Amma düz sözümdü, lazım deyil o sənə. Onsuz da gəmidi də bura.

Kapitan. Bilirsən...

Zabit. Aydındı, aydındı. Bilirəm. Üç dəfə yalançı çıxmışam. Amma başa düş. Bu da sükan deyil, tor deyil. Yakordu bu, yakor! Çıxartmaq asandı bunu bəyəm? Söz vermişdilər bu günçün – alınmadı. Mən yazıq neynim?

Kapitan. Hə, deyirəm. Amma mən də işimi bilim də...

Zabit *(ələ salır)*. Hə də, sən də, gərək işini biləsən də. Dənizə çıxırsan – zarafat deyil. Birdən üzüb getdin dünyanın o başına.

Kapitan. Dünyanın o başına?.. Nə deyirəm.

Zabit *(ona qəribə bir heyranlıqla baxır)*. Xırda-xırda gününü keçirirsən də özünçün. Vallah düz eləyirsən. Adamın gərək bir məşğuliyyəti olsun. Özü də bu zamanda. Yoxsa ki...

Kapitan. Başa düşmədin deyəsən...

Zabit *(birdən özünə gəlir, zarafatla)*. Oldu, yoldaş Kapitan *(mil durub əsgər salamı verir).*

Kapitan *(birdən heydən düşür, az qalır pıçıldasın)*. Bəsdi.

Zabit *(yenə əvvəlki tərzdə)*. Oldu, yoldaş Kapitan.

Kapitan *(az qalır yalvarsın)*. Heç nə lazım deyil *(Zabit donuq).* Voblanı aparırsan?

Zabit *(yenə əvvəlki kimi)*. Oldu, yoldaş Kapitan.

Kapitan *(ona baxır)*. Mən səni... bir adam bilirdim *(birdən qışqırır)* Götür! *(toru yığışdırmaq istəyir)* Bunu da apar, lazım deyil. Götür.

Zabit *(gəlib onu tutur, qucaqlayır).* Yaxşı da, yaxşı, zarafat eləmək olmaz? Dayan görüm. Qurtar. Qurtar görüm. Gəl düşək bizə. Mən ölüm, niyə dağıdırdın buranı? Bəs vobla verirdin mənə? Hardadı bu vobla? Sən lap xəsismişsən ki. Ay-yay-yay...

Kapitan heysiz keçib divanda oturur.

Zabit. Zarafat başa düşmürsən? Nə dəymədüşərsən sən. Yaxşı, ver voblanı, mən gedirəm *(Kapitan hərəkətsiz).* Sən lap qovursan ki, adamı. Qonaq görəndə elə bil düşmənini görürsən?

Kapitan. Vobla pəncərənin dalında. Götür.

Zabit *(gedir pəncərənin dalından əl atıb balaca bir vobla çıxardır).* Bu boyda vobla? *(zarafatla)*

Əladı, əla. Sağ ol, vallah. Atlantik okeandan tutmusan bunu? Akulaya oxşayır.

Kapitan *(hirslənmək istəyir, amma heyi qalmayıb, yavaş səslə).* Hə, Atlantik okeandan tutmuşam.

Zabit. Yaxşı, yaxşı. Mənə bax, sabah yüz faiz gətirəcəyəm. Yüz faiz. Salladın ki onu burdan – əsl gəmi qələt elər *(gedib toru düzəldir).* Onsuz da gəmidi... *(pəncərədən baxır)* Elə bil, dənizin içindəsən... Üz, üzə bildiyin qədər.

Kapitan. Yaxşı, sağ ol.

Zabit. Bizə düşmürsən? Nə görmüsən sən bu təklikdə? Hər olmasa, bir adam çağır evə. Gəlib gedən olsun. Noldu sənə?

Kapitan. Heç, heç. Başım ağrıdı, keçər.

Zabit. Sərf eləməyəndə tez başını tut. Yaxşı. Mən getdim. Gəl qapını bağla. Ürəyinə salma. Dəniz zülm şeydi. Çəkdi səni özünə, buraxmayacaq. Buraxmaz. Qalan hər şey yalandı.

Kapitan. Aydındı, aydındı.

Zabit. Bilirsən... *(Nəsə demək istəyir, fikrini dəyişir.)* Sənin işin allaha qalıb. Gəl qapını bağla *(gedir).*

Kapitan durub qapını bağlayır. Gəlib yenə divanda oturur.
Durub pəncərədən baxır.
Mayakın yanıb-sönən işığı otağa düşür.
Kapitan gedib toru düzəldir. Özünə yer tapa bilmir.

Kapitan. Bu nəydi? Gözümə görükdü?! Yox. Hələ bir şey yoxdu. Olsaydı belə olmazdı *(özünə ürək-dirək vermək məqsədilə oxuyur).*

Sən o tərəf, mən bu tərəf
Ağla uca barı, ağla.
Həyat güllə, ömür hədəf
Ağla...

Gözümə görükdü axı. Yox, burda nəsə var. Elə bil həm var, həm də yoxdu. Beləmi olmalıydı? *(Birdən donub qalır. Qorxu içində pıçıldayır).* Kimsən?

Mayakdan gələn işıq sönür. Kapitan qaranlıqda birtəhər gedib stolun yanına çatır, şamı götürüb yandırır. Şam işığında bir qılınc gölgəsi Kapitana tərəf gəlir.

Kapitan *(qorxa-qorxa).* Bu nədi belə? Kimsən? Ya Allahın adı...

Qapının zəngi çalınır. Qılıncın gölgəsi geri qayıdır.

Kapitan. Ya Allahın adı. İşıq yox, bəs bu zəng səsi hardan gəldi? *(Yavaş səslə – elə bil öz-özünə)* Kimsən? Səsin gəlsin.

Sükut.

Kapitan. O nəydi elə gözümə göründü? *(Pəncərəyə yanaşır.)* Küləkdi vıyıldayır. Dəniz də bir azdan aşıb daşacaq. Yandı. Yandı. Axır ki, göründü. Uf. Bu da yol. Göründü, nəhayət. Vaxtdı, deyəsən. Vaxtdı.

Sən o tərəf, mən bu tərəf
Ağla uca barı, ağla.
Həyat güllə, ömür hədəf?
Ağla, ağlaya bilsən.

Yanır. Ya Allahın adı. Yanır. Vaxtdı. Ya Allahın adı. Sən özün kimsəsizlərə, yol azanlara, kömək gözləyənlərə imdad elə. Ya Allahın adı. Amin.

Kapitan otağın ortasında üstü örtüklü stolvari şeyin üstündən örtüyü çəkir. Mayakın işığı yenə də yanıb-sönməyə başlayır. Bu işığın altında örtük çəkilən kimi gəmi sükanı, kapitan körpücüyü görünür. Körpücüyün üstündə durbin, şapka, xəncər var. O, köynəyini dəyişir, zolaqlı köynək geyir. Şapkanı başına qoyur, durbini götürüb xəncəri belinə taxır. O artıq körpücüyün üstündədi. Külək vıyıldayır, gəmi göyərtəsinə dəyən dalğa səsləri eşidilir. Hər tərəfdən gəminin üstünə ulduzlar axmağa başlayır. Bu gəmi dənizdəmi üzür, bu gəmi göydəmi uçur? Mayakın işığı sönür. Qaranlıqda dalğa səsləri.

II ŞƏKİL

Göydən yerə yağan ulduzların işığında Kapitan elə bilir, gəmini idarə edir. Çox oynaq bir marşı o eşidir, bizim qulağımıza isə həzin və sentimental bir musiqinin titrək sədaları dəyən kimidir. Və bu həzin musiqi yavaş-yavaş gücləndikcə otaqdakı stolun altından sehrli sandığın içindən çıxan kimi Ada sahibi çıxır. Ada sahibi qəmli-qəmli gəlib Kapitana baxır, baxır, sonra bardaş qurub yerdəncə oturur.

Ada sahibi. Axır ki, gəlib çatdı. Ümidim vardı ki, çatacaq. İndi başlamaq olar. Adamın ürəyi həmişə qəribə bir ümidlə döyünür. Nəyəsə inandığın üçün yaşamağın da davam edə bilir. Kimlərsə bizi körpəlikdən aldadıblar – biz cəsur qəhrəmanlara, qara devlərə, huri-mələklərə, sehrbazlara inanmışıq. Kim idi ilk nağılı danışdı bu dünyada?! O ilk nağıla qulaq asanlar kimlər idi?!

Ada sahibi danışdıqca stolun altından sıçrayıb Nağılçı çıxır. Gəlib Kapitana heç bir məhəl qoymadan Ada sahibinin yanında yerdən o da oturur.

Nağılçı. Deyəsən, saxlaya bilmir gəmini. Lövbəri yoxdu, nədi? Nə olacaq bunun axırı? Bir əncam qılmaq lazımdı.

Ada sahibi. Qulaq as mənə. Hər şey yaxşı olacaq. Gəlib tapdı bizi. Bu artıq yaxşıdı. Qulaq as. Sənnənəm. Nağılla yaşamaq, onu son nəfəsinə qədər öz içində qoruyub saxlamaq mümkün deyilmiş. Vaxt gəlir – ayılırsan. Ayılırsan və ayıldığın üçün də səni ayıldan qüvvəyə yox, nədənsə o nağıla nifrət edirsən. Məlum olur ki, nağıl sənə heç nə verməyib. Səni əliboş, silahsız edib göndərib əjdahalar və devlər qaynayıb-qarışan bir dünyanın düz içinə...

Nağılçı. Nə bilim, vallah. Amma mən onu bilirəm ki, nağılla yaşayanlar xoşbəxt adamlardır. Nağıl danışanlar xoşbəxt adamlardır. Nağıla qulaq asmaq da xoşbəxtlikdir. Nə umacağın qalır bu dünyadan, nə də ona verəcəyin. Hər şey gözəl bir tül pərdənin arxasına keçir və indi o pərdənin arxasında qarı nənələr və keçəllər, qəddar padşahlar və gənc şahzadələr, gözəl qızlar və cəlladlar, ağ və qara devlər, hiyləgər vəzirlər nağılın başlanmasını gözləyirlər. Deyəsən gəldilər...

O danışdıqca stolun altından bir-bir Padşah, Şahzadə, Gözəl qız, Vəzir, Cəllad, Dev çıxırlar. Padşah qürurla irəliyə keçir. Yanında o saat Vəzir əlləri sinəsində peyda olur. Cəllad çiynində qılınc (bayaq kölgəsi Kapitanın üstünə gələn qılınc deyilmi bu?), dalınca boğazı zəncirə keçirilmiş Dev dizin-dizin gəlib Vəzirin yanında dururlar. Şahzadə əlləri bağlı gəlir və axırda

Gözəl qız xüsusi işvə ilə gəlib Nağılçının və Ada sahibinin önündən keçir, Padşahın yanında durur.
Sonra nə fikirləşirsə, yerini dəyişir, Şahzadənin yanına gəlir.

Ada sahibi. Kimin üçündür bu oyun?

Marşın səsləri güclənir. Ulduzların işığı Kapitanın üstündə donub qalır.

Nağılçı. Bilmirsən? Sən bu boyda adanın sahibisən? Sən də bunu bilmirsən?

Ada sahibi. Mən artıq bu dünyada hər şeyi bilən adamlardan qorxuram. Qorxulu adamlardı belə adamlar. Doğrudan da, kim idi bizi qəddarcasına aldatdı və bizi heç zaman olmamış, olmayan və olmayacaq şeylərə inandırdı? Kim idi, hansı ecaskar və dəhşətli bir qüvvə idi bizi böyüməyə və yaşamağa qoymaq istəmədi, bizə əbədi layla çalmaq istədi?! O gözəl nağılı oyun kimi oynayanlar hara getdilər?! Elə bil, heç yox imişlər. Bəlkə, elə doğrudan da, o tül pərdənin arxasında heç nə baş verməyib? *(Əli ilə Kapitanı göstərir.)* Heç kim də günahkar deyil?! Bəlkə o nağılın yeganə müəllifi mən özüm, Mən Ada sahibi olmuşam? Bütün bunlar da mənim sahibi olduğum adanın ölməz gölgələridi? *(Ayağa durub Padşaha yaxınlaşır.)* Sən padşahsan? *(Şahza-*

dəyə) Şahzadə həzrətləri... *(Vəzirə)* Vəzir? *(Gözəl qıza)* Sən bir huri-mələksən. *(Cəllada baxır diksinir.)* Aydındı. *(Devə acı-acı)* Sən də bir devsən, eləmi? *(Kapitana yaxınlaşır, baxır, baxır, elə bil ki, öz-özünə.)*

Ürəyinin şırım-şırım yerinə
Elə gəlib qaranəfəs çatarsan
Mat qalarsan bu dünyanın sirrinə
Dərin fikir dəryasına batarsan.
Ümidlərin göydə durna lələyi
Kim dedi ki, Simurğ quşu var imiş?
İtən ümid ömrümüzün bəzəyi
Elə bil ki, göydən yağan qar imiş.
Arzuların dil açıb yalvarar ki,
Əvvəl-axır bir oyuncaq ver mənə.
Olacağın olmağına nə var ki,
Bircə dənə olmayacaq ver mənə.

Gəlib yenə də yerdən bardaş qurub oturur. Pıçıltıyla.

Kim dedi ki, Simurğ quşu var imiş?..
Nağılçı. Kim dedi ki, Simurğ quşu var imiş???

Padşah, Vəzir, Gözəl qız, Şahzadə, Cəllad, Dev bir-birinə baxıb bir-birinin sözünü kəsə-kəsə soruşurlar: "Kim dedi ki, Simurğ quşu var imiş? Çəkilin, çəkilin, gizlənin. Gəlir. Gəlir".

Padşahla Vəzir bir tərəfə, Cəlladla Dev bir tərəfə, Gözəl qızla Şahzadə də bir tərəfə çəkilib ehtiyatla dururlar. Musiqi susur. Ulduz işığı sönür. Kapitan körpücükdə hərəkətə gəlir. Həvəslə sükanı sola-sağa fırlayır. Sonra var gücü ilə son dəfə yellədib kefi kök körpücükdən otağa tullanır. Elə bil qəfildən tamam başqa bir yerə düşür. Heyrətlə ətrafa baxır.

Kapitan. Sən o tərəf, mən bu tərəf
Sən o tərəf, mən bu tərəf...
Kimdi güllə, kimdi hədəf
Ağla, ağla, ağla bir az.

Bu nə yol idi göstərdi mənə ulduzlar? Yəni, mən gəlib çıxdım bura? Dayan. Dayan. Elə bil, uzaqda nöqtə kimi nəsə görünürdü axı? Adadı, nədi bura?.. Ada? Uzaq, yaşıl ada? Sən – uzaq, yaşıl ada. Nağıldı bunlar, əfsanədir. Amma nəsə bir mahnı vardı. Məhəbbət bir dənizdir. Sən uzaq, yaşıl ada *(gülür).* Yox, adadı bura. Yəni... Bəlkə kitabda bu Ada barədə yazılıb bir şey? Baxaq, görək *(gedir oturur stolun dalında, kitab dolabından qalın bir kitab götürüb vərəqləməyə başlayır).*

Ada sahibi gəlir otağın ortasına, Kapitana baxıb otağın bir küncünə qısılmış kölgələri yanına çağırır. Hamısı gəlib onun ətrafına yığışır. Nağılçıdan başqa.

Ada sahibi. Gəlin, gəlin bura. Bəs bu hara getdi? Onu deyirəm, burda durmuşdu. Yox, oturmuşdu burda. Hara itdi? Elə bil, nəsə demək istəyirdi. Sözü vardı, elə bil. Yəni, bu yox oldu? Görmədiniz siz?

Padşah. Yox, görmədik. Başlayaq? Bizim vaxtımız elə də çox deyil. İllər, illər...

Vəzir. Əlahəzrət doğru buyurur.

Padşah. Başlayaq. Siz burdasınız. Başqa adam-zad lazım deyil. Düzdü?

Vəzir. Düz buyurursuz, Padşah sağ olsun.

Ada sahibi. Nə deyim? Başlayaq deyirsiniz... amma nə eləmək istəyirsiniz... Biz bunun nağılıyıq axı. Elə edin ki...

Padşah. Bilmək olmaz. Bəlkə o bizim nağılımızdı.

Vəzir. Əlahəzrət doğru buyurur. Görərsiz, axırda elə olacaq.

Nağılçı birdən tələsik onların yanına gəlir.

Nağılçı. Nə "başlayaq", "başlayaq" salmısınız? Hələ olmaz. Vaxtı deyil. Hər şeyin bir vaxtı var. "Başlayaq", "başlayaq"...

Ada sahibi. Görürsünüz?

Padşah. Mənim ağlım bir şey kəsmir. Mən çıxıb gedirəm.

Vəzir. Bəs biz? Sizsiz biz nəyik ki?

Şahzadə. Bəs mən? Mən? Elə belə qalacam? Məni burda tək qoymayın.

Gözəl qız. Yox, gəlin hamımız qalaq. Bura elə gözəldi ki... çiçəklər, çəmənliklər, güllər...

Cəllad. Mənlik iş yoxdursa... *(Şahzadəyə tərəf gedir. Qollarını açmaq istəyir).*

Vəzir. Tələsmə. Sən niyə belə kəmhövsələ oldun?

Dev *(Cəllada).* Yaralarımı bağlamayacaqsan? Söz vermişdin axı.

Ada sahibi *(Nağılçıya).* Görürsən? Aləm qarışdı bir-birinə.

Nağılçı səhnədəkiləri sakitləşdirməyə çalışır.

Nağılçı. Əlahəzrət, darıxmayın. Bir durun görüm. Sakit. Sakit. Yaxşı nə deyirəm. Özünüz istədiniz bunu. Özünüzdən oldu. "Başlayaq". Nə deyirəm, başlayaq *(əli ilə işarə edir).*

Musiqinin həzin və sentimental səsi eşidilir.
Bu musiqinin səsi altında
Nağılçı sözünü davam edir.

Ada sahibi *(pıçıldayır).* Sakit. Qulaq asın, Əlahəzrət.

Nağılçı. Başlayaq. Görək, kim-kimin nağılıdı *(gəlir Padşahın yanına).* Padşah, sağ olsun. Harda həyat varsa, ölüm də, elə bil ki, onun həndəvərində gizlənib. *(Gözəl qıza)* Harda gözəllik varsa, *(Devi göstərir)* eybəcərlik də yanındadır. *(Vəzirə)* Ağıl nadanlıqdan uzaq deyil. *(Şahzadəyə)* Cəsurluq qorxaqlıqla yanaşı yol gedir. *(Kapitana yanaşır)* Xeyir və Şər kimi. Mərhəmət və zalımlıq kimi. İşıq və zülmət kimi. İnsan və adam kimi *(yavaş-yavaş səhnənin ortasına gəlir).* Və belə yanaşı yaşamaq günlərin bir günü hamını yoranda, adamlar bir-birindən dincəlmək istəyəndə və bir-birindən ayrılıb hər biri öz təzə yolu ilə getmək istəyəndə yalnız işıqdan, mərhəmətdən və xeyirdən ibarət bir dünya qurub o dünyada yaşamaq istəyənlərin sayı son dərəcə az olacaq. Təəccüb etməyin. Sözdə hamı belə bir dünya arzusunda olduğunu deyəcək. İşdə isə... Niyə? Nə üçün? Nəyə görə? Səbəb? *(Vəzirə)* Niyə biz bu dünyada bizə buraxılmış yaşama müddətinin mənasını bir-birimizin həyatını zəhərləməkdə, *(Cəllada)* bir-birimizin axırına çıxmaqda görürük? Bunun *(Devi göstərir)* xaltasını boşalt, bu yazıqdı *(yenə Vəzirə dönür, Vəzir addım-addım geriləyir).*

Nə üçün bizim içimizdəki Şər bizim içimizdəki Xeyiri üstələyir? Nəyə görə zülmət işığın rəddi üzərində qurulub? *(Gözəl qızın əlindən tutub ortaya çəkir*) Kim deyib ki, İblis hökmən qoca, idbar bir görünüşdə olmalıdı? Nə səbəbə Xeyir və Gözəllik mələkləri İblislə bacara bilmir? Niyə Allah bu əksliklərі birləşdirmir? Niyə çevrə qapanmır? Bəlkə o çevrənin qapanması heç bizə lazım deyil? Bəlkə o çevrə qapansa, biz görəcəyik ki, xeyir, əslində, xeyir deyil, şərdi, işıq zülmətdi və mərhəmət də əzazillikdi? *(Musiqi susur.)*

Padşah. Yəni, doğrudan belədi? İnanmağın gəlmir.

Vəzir. Əlahəzrət. Mən sizə olanları, necə varidisə o cür danışdım. Bu mənim borcumdu.

Padşah *(Nağılçıya).* Yol göstər, mən nə etməliyəm? Hansı hökmü çıxarmalıyam? *(Şahzadəyə baxır)* Bir səhv, bircə səhv – sonra bütün ömrünü bük göy əskiyə, tulla getsin.

Nağılçı. Eh, bizim bildiklərimiz *(Kapitana işarə edir)* onun başına gələnlərin yanında nədi ki?! *(Padşaha)* Səhv deyirsən? Səhv etməsən olmaz. Alınmaz.

Padşah *(Ada sahibinə).* Yaxşı, sən de mənə. Səhv edirəm, ya yox? Niyə hamınız susmusuz? Kim bunu mənə deyə bilər? Kim bunu bilir?

Şahzadə gəlir Padşahın yanına, önündə diz çökür, başını onun dizlərinə sürtür. Padşah istər-istəməz, elə bil, uzaq bir xatirəni yada salırmış kimi onun başını tumarlamağa başlayır. Cəllad və Dev göz yaşlarını saxlaya bilmirlər. Gözəl qız təəccüblə Vəzirə baxır, Vəzir onu Padşaha tərəf itələyir. Padşah Gözəl qızı görüb birdən ayılır. Arxasını Şahzadəyə çevirir.

Ada sahibi *(Padşaha).* Səhv edirsən, ya yox? Bəlkə də. Kim bilir?! *(Şahzadəni yerdən qaldırıb kömək edir, aparır öz yerinə. Yenə həzin musiqi. Qayıdır Padşahın yanına)* Əgər biz İblisə yalnız İblis kimi yox, həm də alçaldılmış və cənnətdən qovulmuş bir mələk kimi də baxa bilsəydik?! Əgər biz indi iki müxtəlif səmtə doğru çırpınan qanadların zorla aparmaq istədiyi və apara bilmədiyi bir quş olduğumuzu dərk eləsəydik?! Kimsə bunu bizə pıçıldasaydı və bizi buna inandırsaydı... *(Cəllada)* Sənə dedilər axı bu yazığın xaltasını bir az boşalt, boğuldu bu ki. Əgər biz, nəhayət, doğula bilsəydik... və belə olan zaman ulu böyük keçmişimiz bizdən aralanardı, nəhayət, bizi rahat buraxardı. Artıq keçmişə dönmək təhlükəsi ilə yaşayan gələcəyimiz də asudə-asudə köksünü ötürərdi...

Gözəl qız *(Şahzadəyə).* Gələcəyimiz, elə bil ki, bizə yaxınlaşmağa qorxur.

Şahzadə. Qorxur ki, bizim "qəhrəmanlıqla" dolu keçmişimizin nəhəng və qaranlıq bətnində ərisin, itsin, heçliyə qovuşsun. Keçmiş onu elə udsun ki, "əlvida" pıçıldamağa da macal tapmasın.

Cəllad *(Şahzadəni və Gözəl qızı sakitləşdirir).* Sakit, sakit olun, qorxmayın.

Dev. Qorxmayın. İnanın ona. *(Cəlladı göstərir)* O mərhəmətlidi.

Gözəl qız. *(Şahzadəyə)* Bir-birimizin içində çabalaya-çabalaya qalmışıq. Ayrılaq, sən-sən ol, mən-mən olum. Bir-birimizi görə də bilmirik – ayrılaq! Birləşməyin də təhəri var. Sən harda itdin, mən bilmirəm. Mən hardayam, sən bilmirsən. Günlərin bir günü bizi birləşdirənlərin yadına düşərik, amma yenə də istəmədiklərindən ayırmazlar bizi. Bəlkə də o zaman heç ehtiyac da olmadı buna. Ayırmağa bəlkə dəyməz? Artıq dəyməz?! Biz necə də bir-birimizi sevirdik. *(Vəzirə nifrətlə baxır)* Biz necə də bir-birimizə nifrət edirik. *(Vəzir Padşahın yanına gəlir).*

Padşah *(Vəzirə).* Neyləmək olar? Məcbur etmək olmaz ki...

Vəzir. Əlahəzrət! Axır ki, söylədi. Aldı boynuna... Gördüz?

Padşah. Sus. Artıq söz lazım deyil.

Cəllad (*Padşaha yaxınlaşır).* Əlahəzrət...

Padşah. Yox, Cəllad. Tələsmə. Tələsmə, Cəllad...

Mayakın yanıb-sönən işığı yenə də Kapitanın üstünə düşür. O oxuduğu kitabdan başını qaldırır və bu sözləri bir nəfəsə deməyi, elə bil ki, özünə borc bilir. Kimə deyir özü də bilmir.

Kapitan. Mən başa düşə bilmirəm. Kimi məcbur eləmək olar ki, sən bu dünyada elə yaşama, belə yaşa?! Heç kimi. Kim kimin hakimi ola bilər bu dünyada? Heç kim, heç kimin. Adam var ki, bu dünyada böyük-böyük qəhrəmanlıqlar göstərmək həsrətilə yaşayır və o qəhrəmanlıqları göstərir. Adam da var ki, sakitcəsinə yaşayır və sadəcə, öz yolunu gedir. Hər kəsənin öz payı.

Nağılçı Kapitana yanaşır. Mayakın işığı sönür. Kapitan Nağılçının baxışları altında yenə də başını aşağı salıb kitab oxumaqla məşğul olur.

Cəllad. Görəsən düz deyir? Eh, gidi dünya...

Dev. Yaxşı adama oxşayır... *(Cəllada)* Noldu sənə?

Cəllad *(əli ilə ürəyini ovuşdurur).* Bilirsən, bura nə zülmdü? Zülm var, zülm var. *(Xaltanı boşaldır)* Boynunu sürtmür?

Dev. Çox sağ ol. Necə də incə qəlbin var... Az adam sənin kimi olur. Çox sağ ol. Sən... Sən... Nə edirsən?

Cəllad, elə bil, yuxudadı,
Şahzadəyə yanaşıb əllərini açmaq istəyir.

Vəzir *(Cəllada).* Dərinə getmə, bala, ağıllı ol. Dərinə getmə. Mən sənə dostam. Bunu unutma. Unutmaq istəsən də, unutma.

Cəllad. *(özünə gəlir, ayılır)* Elə bilirsən, unutmamaq asandı? *(Şahzadəyə)* Sənin bəxtin onda gətirmədi ki, o, *(Vəziri göstərir)* mənim atamdan üzü bu yana yaxşılıq eləyə-eləyə gəlir. Mən ona özüm istəsəm də, istəməsəm də ömürlük bağlıyam. Atama, mənə verdiyi çörək gözümü tutar. *(Devi göstərir.)* Bu da mənim kimi.

Dev *(Şahzadəyə).* Elədi. Düz sözdü. O qoymadı mənim axırıma çıxasan. Az qala öldürürdün məni. Yadındadı? Amma o qoymadı. Necə olsa bu da həyatdı da. Mən səni bağışlayıram. Sən də məni bağışla.

Cəllad. *(Şahzadəyə)* Məni taxsırkar sayma. Mən kiməm ki? Atasını unutmayan bir adamam.

Şahzadə *(Devə).* Zavallı! *(Cəllada)* Sən deyə bilərsənmi qırmızı rəng daha çox kiminkidi – qanı axıdılan qurbanın, yoxsa o qanı axıdan cəlladın?

Cəllad. Özünü üzmə. Gərək əvvəldən işini düz quraydın. Nəyin, nəyin, bir qızın üstündə... Eh... nə deyim sənə? Həyat qurtarırsa, yəqin ki, elə bu cür də qurtarır. Hər tərəfdən yollar bağlanır və qəribədir ki, sən bu bağlı qapıları açmağa, onları vurub keçməyə heç bir həvəs göstərmirsən. Sakitcə durub gözləyirsən. Gözləyirsən ki, indiyədək həyat adlanan bu qüvvə tez olsun, axır ki, adını dəyişsin. *(Şahzadə gəlib Kapitan körpücüyünə çıxır. Körpücüyün, elə bil, içindən bir kötük çıxır. Bu kötüyün ağac olan vaxtı vardı. Şahzadə başını kötüyün üstünə qoyur)* Cəllad kötüyünün önündə diz çöküb ölüm hökmünün icrasının həsrətini çəkən ürək çırpıntılarını yalnız təzə-təzə sökülən şəfəqin ilk parıltıları duyar *(Cəllad yavaş-yavaş Şahzadəyə yanaşır. Qılıncı sıyırır*). Cəllad da adi adamdı. Tələsmədən paltarını dəyişir, qırmızı niqabını taxır, qılıncını götürür və gəlib yavaşca sənin lap arxanda dayanır. Başın aşağı olsa da, gözlərin balta zərbələrindən kəsik-kəsik, dəlmə-deşik olmuş bu nahamvar kötüyə zillənib qalanda sən duyursan ki, tək deyilsən. Bu zaman sən cəlladın hənirtisini duyursan. Duyursan ki, arxanda kimsə gəlib dayandı. *(Musiqi guruldayır və susur)* O zaman ki, o adi adam qırmızı niqabını taxıb cəllada dönür və gəlib sənin arxanda

dayanır, o zaman həyat da adını dəyişir. Yalnız adını dəyişir, çünki qalan nə varsa hər şey əvvəlki kimi, əvvəlcədən nəzərdə tutulan kimi davam edir. Yalnız həyatın adı artıq ölüm olur *(Cəllad əlində sıyrılmış qılınc donub qalır).*

Kapitan öz yerindən durur, gəlir Şahzadənin önündə o da diz çökür. Bir cəllad kötüyünə iki baş əyilir.

Kapitan. Qorxursan?

Şahzadə. Qorxuram, əlbəttə. Bəs sən? Sən qorxmursan? Biz hamımız bu dünyaya çağrılmışıq. Biz çağrılanlarıq. Mən doğulan gün elə o saat, o dəqiqə məndən xeyli uzaqlarda, ağılla bilinməyən, duyğuyla duyulmayan bir yerdə gözə görünməz bir ölüm də doğuldu. Və o ölüm doğulan kimi yol alıb yavaş-yavaş mənə tərəf gəlməyə başladı. İndi, elə bil, addımlarını getdikcə yeyinlədir. Mən də, elə bil, harasa tələsməyə başlamışam. Deyirlər ki, qorxma, heç qorxma, nədi ki, ölüm, ani bir duyumdur. Belə deyil. Ölümün ömrü insanın ömrü qədərdir. Eyni yolumuzun tən ortasında üzbəüz gəlirik. Mən ömrüm boyu qorxuram.

Padşah *(Vəzirə).* Sən bir şey anlaya bildin?

Vəzir. Əlahəzrət, mənim üçün hər şey gün kimi aydındır. Qorxursa, günahı vardır. İcazə versəniz... bu işə son qoyardıq.

Padşah. Qoy bir istixarə eləyim... *(Əlindəki təsbehi oynadır, göyə baxır, ora-bura baxır. Cəllada işarə edir. Cəllad qalıncı aşağı salır. Keçir gəlir Devin yanına).*

Gözəl qız *(gəlir Şahzadənin əlindən tutur, Kapitan körpücüyündən aşağı salır).* Gəl. Qorxma. Hər şey yaxşı olacaq. Gəl, bura, bura. Otur.

Şahzadə Gözəl qız deyən yerdə oturur.
Bütün bədəni əsim-əsim əsir. Kapitan sükanı
fırladıb şux addımlarla körpücükdən düşür.
Ora-bura boylana-boylana qalır.

Kapitan. Deyəsən, gəlib çıxmışam. Çata bildim, deyəsən. Bura haman o adadı? Oradı. Yəni, lap elə doğrudan gəlib çatdıq? Kim deyər? Kim var burda? Kim? Kim?

III ŞƏKİL

Kapitanın üstündə ulduz işığı.
Ada sahibi ehtiramla ona yanaşır.

Ada sahibi *(qonaqpərvərliklə).* Xoş gəldiniz. Siz ki o uzaqlardan gəlib bizi tapdınız, inanın xoşbəxtlik verdiniz bizə. Səfəriniz necə keçdi? Ulduzlar aydın oxunurdumu? Dənizlər sakit idilərmi? Bir rahatsızlığınız olmadı ki?

Kapitan. Sağ olun. Heç bilmədim, dənizlərdən dənizlərə üzdükcə vaxt necə keçdi. Nə gözəl yerdi bura. Hava deyil, elə bil, kərə yağıdı. Adam köçüb gələ bura yaşamağa, heç yana getməyə. Yaşaya, yaşaya...

Padşah *(Vəzirə).* Vəzir, get onu salamla. Qəribdi.

Vəzir *(yarına-yarına Kapitana yanaşır).* Xoş gəldiniz. Quşların səsini eşidirmisiniz? Sizi salamlayırlar.

Kapitan. Eşidirəm. O nəydi elə? Qaçdı, getdi. Yəni, bura... *(Devi görür.)* Sən...

Dev. Mən kimisini, yəqin, ömründə görməmişdin? Qorxmadın?

Cəllad. Qorxma. Bizim adamdı.

Kapitan. Dayan, dayan. Sən... o dənizlərin birində deyildin? Elə bil, sən idin... özü də ikiniz idiniz?

Dev. Yox, canım, mən heç vaxt burdan başqa yerə getməmişəm. Mənim dənizdə nə işim var? Ağlım başımdan çıxıb? Doğulandan burdayam. Özü də təkəm. *(Şahzadəni göstərir)* Məni bu günə bu saldı. Nədi, nədi...

Ada sahibi *(Devin sözünü kəsərək).* Doğru deyir. Onun başqa bir yeri yoxdu, məskəni elə buradı. Əvəllər şuluq-zad eləyirdi, indi... görürsən də... Xalta boğazını sıxmır? *(Cəllada)* Bir az boşalt. *(Kapitana)* Siz, yəqin, o uzaq dənizdə başqa dev görmüsünüz.

Kapitan. Qəribədi. Lap elə bil, bu idi. O uzaq dənizdə... Dənizin ortasında nəhəng devlər çimirdi. Dəniz aşıb-daşırdı, çıxırdı sahilindən. Ətrafda nə vardısa hər şeyin matı-qutu qurumuşdu. Heyrətindən nəfəsini içinə alıb susmuşdu. Dəniz ləpələnir, buğum-buğum qaynayırdı. Deyəsən, bu dəniz özü də başa düşmürdü ki, nə baş verir... Dənizin ortasında nəhəng devlər çimirdi... Mən bu günə qədər elə bilirdim ki, devlər yalnız nağıllarda olur. Qəhrəmanların xilaskarına və yaxud düşməninə çevrilən ağ devləri, qara devləri uşaqlıq aləmində kim tanımadı?

Cəllad. Bunun rəngi yoxdu. Alabuladı. Həm qara, həm ağdı.

Dev. Vallah, mən olmamışam. Elə nə olur yıxırsız mənim üstümə.

Kapitan. Hə, görürəm, bu deyildi. O devlər başqa devlərdi. Bir gör. Kim güman edərdi, kim xəyalından keçirərdi ki, uzaq uşaqlıq aləminin sirli və tilsimli sərhədlərini bu gün keçib o dənizin ortasına gəlmək olar? Doğrudan da, sən saydığını say, görək fələk nə sayır.

Padşah diksinir.

Padşah. Sən saydığını say, gör fələk nə sayır. Gör hələ bir bu nə deyir...

Kapitan. Dənizin ortasında nəhəng devlər çimirdi. Və bu devlər çimib-çimib nəhayət ki, yorul-dular. Elə bil, bir az da, ağırlaşdılar. Suyu tənbəl-tənbəl ovuclayıb günəşə sarı atdılar. Günəşdən üzü yerə par-par parıldayan yağışlar yağmağa başladı. Devlər, yavaş-yavaş bədənlərini sudan çıxarmaq istədilər. Par-par parıldayıb yağan yağışın altında sudan, elə bil, iki nəhəng dağ dikəldi. Dəniz, elə bil, doğdu bu devləri. Və bu devlər və bu nəhəng devlər birdən-birə dənizdən çıxan kimi bir cüt göyərçin olub qanad çalıb uçdular. Təsəvvür eləyirsiz?

Gözəl qız. Ah... *(Devə)* Sən də göyərçin ola bilərmisən?

Dev. Mən? Nə bilim? Necə ki?.. Lazımdı?

Ada sahibi *(Nağılçını axtarır).* Hara getdi? Yenə yox oldu, itdi bu. Hara getdi?.. Görən olmadı bunu?

Hamı çiynini çəkir. Heç kim bilmir Nağılçı hardadı.
Bu zaman qapının zəngi çalınır.

Kapitan. Aaa. Gələn var. Siz Allah, bağışlayın. Baxım kimdi? Bir dəqiqə...

Kapitan gedib qapını açır. Zabit gəlir.

Zabit. Qonağın var deyəsən. (*Ətradakılara)* Salam. Xoş gəlmisiz. Əla. Gözəl. *(Kapitana)* Bu başqa məsələ. Təklikdən bir şey çıxmaz. Bir şey-zad lazım deyil? Vurmağa deyirəm... Varımdı, biləsən.

Padşah. Bu kimdi belə? *(Vəzirə)* Vəzir! Çağır yaxın gəlsin.

Vəzir *(Zabitə).* Buyurun, siz də bizimlə...

Zabit. Yox, çox sağ olun. Çox sağ ol. Gedirəm. Mənim də qonaqlarım var. *(Kapitana)* Bir dəqiqə olar səni? *(Yavaşdan)* Voblan qalmadı? Bir dənə, lap balacası varsa... Amma mən ölüm, bular bilməsinlər. Yaxşı çıxmaz. Xaricidirlər? Əyin-başları qəri-

bədi, deyirəm. Hardan gəliblər?! *(Birdən Devi görür)* Bu nədi, alə?

Ada sahibi Kapitanın pəncərəyə getdiyini görüb yanına gəlir.

Ada sahibi *(əlində gözəl bir balıq tutub).* Bunu verin. Siz tərəflərdə beləsi olmur.

Kapitan bu gözəl balığı Zabitə verir.

Zabit. Bu... bu nədi? Bunu hardan tapmısan? Bazardan? Nə gözəldi... Mən ölüm hardan tapdın? Bunlar gətirib? Sağ ol, vallah. Maşallah. Mən get-dim. Qoy bir sağ ol deyim. Deyərlər, nə qanacaqsız qonşusu var. *(Padşaha yanaşır. Özündən ixtiyarsız baş əyir.)* Sağ olun. Çox-çox sağ olun. Ölənəcən minnətdaram. Ölənəcən *(geri-geri çəkilir).* Gedə bilərəm? Xudahafiz. Sağ olasız. Allah əmanətində *(Cəllad Zabitin qabağını kəsir).*

Padşah. Gedə bilərsən. Qoy getsin. (Cəllad çəkilir).

Gözəl qız. Xoş getdiz.

Zabit. Heç istəmirəm gedəm, biləsiz...

Ada sahibi. Yenə gəlin.

Zabit hamı ilə bir-bir görüşmək istəyir.
Dev Zabitə dalını çöndərir.
Cəllad zarafatla Devi kötəkləyir.

Cəllad. Fikir verməyin. Dərsini verəcəm bu saat.

Dev *(birdən, elə bil, nəhəngləşir, ayağa qalxır, gur səslə).* Kimdi mənim dərsimi verən? Adambadam iyisi gəlir. Yağlı adam iyisi gəlir. Ooo... yyy...

Zabitin az qalır ürəyi getsin. Ondan başqa heç kim Devə məhəl qoymur. Zabit tir-tir əsir.
Kapitan güclə onu qapıdan itələyib salır bayıra.
Dev yenə diz çökür, yazıqlaşır.

Kapitan. Qonşumdur. Pis adam deyil *(gəmini, toru göstərir).* Bunları tapmaqda mənə köməklik eləyib. Oxumağı da var. O mahnı vardı ha...

Sən o tərəf, mən bu tərəf
Ağla uca barı... ağla,
Sənsən hədəf, mənəm hədəf,
Ağla gülə bilən kimi... (Gülür.)

Padşah. Ağla gülə bilən kimi? Hədəf kimdi? Budu? Ola bilməz. Bəlkə... Bu niyə gülür?

Kapitan gülməyini kəsə bilmir.

BİRİNCİ HİSSƏNİN SONU

İKİNCİ HİSSƏ

IV ŞƏKİL

Kapitanın gülüşü ağzında qalır. Otağın işığı öləziyir. Alaqaranlıq. Musiqi əvvəl hay-küylü, sonra həzin bir ahəng alır. Birdən musiqi susur və qapının zəngi səslənir və kəsilmir. Zəngin budəfəki səsi həm də musiqini xatırladır. Sızıltılı bir musiqini. Hamı qorxuya düşür, gizlənməyə yer axtarır. Elə bil, hamı hiss edir ki, bu gələn adi gələn deyil. Hamı duyuq düşür ki, indi nəsə baş verəcək. Amma nə? Ətrafdakıların həyəcanı Kapitana da keçir. Artıq o əməlli-başlı qorxu içindədir. Həm də təkdir. Bunlar hara yox oldular?

Kapitan *(ətrafa boylanır).* Bəs bunlar hara getdilər? Var idilər elə bil. İşıq yanmayanda zəng işləməz axı. Bəs bu zəngin səsi necə olur ki gəlir? Belə havada kim ola? Bu necə zəng səsidi? Mənim zəngimin səsinə oxşamır. Gəldim, gəldim.

Stolun üstündəki şamı götürüb yandırır. Şam əlində qapıya yaxınlaşır. O tərəfdən heç bir səs-səmir gəlmir. Qapının o tərəfində Zabit görünür. O da qulağını qapıya dirəyib qulaq asır.

Kapitan *(yavaşdan).* Kimdi?

Zəngin səsi kəsilir. Sükut.

Kapitan. Kim lazımdı? *(Artıq şəstlə, bərkdən)* Kimsən? Deyəsən, heç kim yoxdu axı? *(Qapını açmağa başlayır. Zabit tez gizlənir. Kapitan qapını açıb tez bağlayır.)* Yox, heç kim yoxdu. Bu havada adam gələr? *(Pəncərəyə yanaşır)* Bütün şəhər, elə bil, qaranlıq içindədi. Bu şamı da qoyaq pəncərənin önünə. Dənizdəki gəmilər üçün bir istiqamət nöqtəsi olar. *(Zəngin musiqili səsi yenidən eşidilir. Kapitan donub qalır. Sonra şamı götürüb yenə yavaş-yavaş qapıya tərəf gəlir.)*

Kapitan. Kimdi? *(Açarla burub qapını daha bərk bağlayır. Arxayın olur ki, qapı möhkəm bağlıdır. Taqqıltı ilə vurub paltar dolabını açır, bağlayır, səs salmağa çalışır. Bərkdən)* Kimsən? Heç nə eşitmirəm.

Zəng bir də səslənib kəsir. Kapitan donuq. Əlindəki şamın zəif işığı qaranlıqda birdən-birə par-par yanan ağ bir zolaq olub otağın ortasınadək gəlir. Onun yolu açılır.
Kapitan yavaş-yavaş ehtiyatla bu işıq zolağının üstü ilə özünü qapıdan uzaqlaşdırır. Birdən yarıxəyal kimi bir səs eşidilir. Bəlkə də bu bir pıçıltıdır.

Səs. Kapitan. Kapitan. Bura bax. Mənəm. Noldu, tanımadın məni? Hara baxırsan?

Kapitan birtəhər əlindəki şamı pəncərənin kənarına qoyur, yerini düzəldir ki, bayırdan işığı görünsün.

Səs. Eşitmirsən? Mənəm, qorxma. Sakit ol. Keç, otur. Keç yerinə.

Kapitan keçib divanda əyləşir. Səs bu dəfə divanın o biri küncündən, lap yaxından gəlir.

Səs. Mənəm, Kapitan. Tanımadın yoxsa? Hara baxırsan? Doğrudan, tanımadın məni? Eşitmirsən? Bəs deyirdin ki, sənin səsini dünyanın o başından da olsa eşidərəm. Eh, Kapitan, Kapitan... Sənə güvəndiyim dağlar...

Kapitan *(elə bil, tamam başqa səslə).* Gözlərindən doğmalıq çıxdı. Gözlərindən çıxan kimi, elə bil, havada üşüyən kimi oldu. Qayıtmaq istədi çıxdığı yerə. Sonra nə fikirləşdisə ətrafa oğrun-oğrun baxıb tez-tələsik gözlərimə girdi...

Padşah və Vəzir yavaş-yavaş ehtiyatla o ağ işıq zolağına çıxırlar.

Padşah. Bu nə danışır? Budu bunun nağılı? Vəzir!

Vəzir. Qəribədi. Belə görünür ki, budu.

Nağılçı gəlib ikisini də işıq zolağından çıxarır.

Səs. Gör necə yadında qalıb *(pəncərənin yanına gedir).* Havaya bax, yaman yağışlayır. Külək də

kəsib. Hələ də çaşıb qalmısan? Cavab ver, dilləmməsən də düşün. Mənim bəsimdi.

Kapitan *(düşünür).* Necə yəni, düşün, mənim bəsimdi?

Səs. Yəni, deyirəm düşünməyin kifayətdi, danışmasan da olar. Mən danışacağam, sən isə düşünəcəksən. Kim idi deyirdi ki, sənin fikrindən keçənləri də hiss edərəm, sən danışmasan da olar. Kim idi bunları deyən?.. Hə? Sənə güvəndiyim...

Kapitan *(pıçıltıyla).* Sənsən? Bu sənsən?

Səs. Axır ki. Mənəm, mənəm. Qorxma. Kim olacaqdı ki, mənəm. Nə tez yaddan çıxartmısan məni?

Kapitan. Sənsən. Sən... sən necə... qayıda bildin?

Səs. Həmişəlik gəlmədim ki. Sən çağırdın gəldim. Bir az vaxtım var hələ. Hələ yağır.

Kapitan. Mən səni çağırdım? Mən səni çağırmadım.

Səs. Çağırdın, çağırdın. Unutmusan, yəqin. Elə əvvəl də səndə yaddaş yox idi

Kapitan *(düşünür).* Bəlkə, doğrudan da, çağırmışam?

Səs. Əlbəttə, çağırmısan. Biz çağrılmamış yerə getmirik. *(Yamsılayır)* "Sən ulduza baxıb de-

mədin “bəlkə evə gələsən, qonağım olasan?! Bilirəm, ürəyindən keçir.” Bu nədi, buraları nəyə döndərmisən? Guya gəmidi bura? Sən də kapitansan, hə? Nəyinə lazımdı bütün bunlar? Bəlkə gəmiylə məni axtarırsan? Dəli olmusan?

Kapitan. Yox niyə?.. Amma heç kim mənə dəli kimi baxmır. İşim, gücüm...

Cəllad və Dev işıq zolağına çıxırlar.

Dev. Bəs sən deyirdin adam aldatmaq yaxşı iş deyil? Bu deyir, heç kim mənə dəli kimi baxmır.

Cəllad. Hərdən olar. Həmişə yox. Hərdən.

Nağılçı işıq zolağına girib Dev ilə Cəlladı təkrar qaranlığa çəkir.

Səs. Bəs saçın niyə belə ağarıb? *(Zarafatla)* Kimin dərdin çəkirsən?

Kapitan. Mən?.. Mən dərd çəkmirəm.

Səs. Düz deyirsən? Bax, düz danış. Yenə institutdasan?

Kapitan. İnstitutdayam.

Səs. Kiçik elmi işçi?

Kapitan. Hə.

Səs. Elə hər şey əvvəlki kimidi oralarda? Söhbət elə də, cirəylə danışırsan lap. Bəs darıxmamısan sən? Mənimçün deyirəm, darıxmamısan? Darıxmamısan, görürəm heç bir qırıq da darıxmamısan...

Kapitan. Darıxmışam.

Səs. Onda danış da mənimlə. Ancaq yağış qurtaranacan vaxtım var ha. Yağış kəsən kimi gedəcəyəm. Susma. Danış.

Kapitan. Gedəcəksən?

Səs. Getməliyəm. Yağış qurtaran kimi sənin də əzabların bitəcək. Gedəcəyəm. Bilirsən, necə gözəldi oralar?! Ruhlar dünyası?! Siz dirilər də elə bilirsiniz ki, bəxtiniz gətirib.

Şahzadə və Gözəl qız ağ işıq zolağına çıxırlar. Bir-birinin əlindən tutub doyunca bir-birinə baxırlar. Gözəl qız qısılır Şahzadəyə. Şahzadə onu itələyir. Nağılçı yenə də işıq zolağına çıxıb onları qaytarır qaranlığa.

Kapitan. Deməli, ətrafımızda hərlənirsiniz. Biz sizi görmürük, eşitmirik, sizə toxunmuruq, amma həndəvərimizdəsiz. Açıq kitab kimi bir şeyik sizinçün. Biz də elə bilirik ki, təkliyə çəkilməklə hamıdan gizlənirik.

Səs. Bax, biləsən. Sizi sevənlər o dünyada da sizi sevməklərində davam edirlər. Ölümün huşsuz-

luğunu bu dünya uydurub. İnan mənə. O dünya bu dünyanı heç cür unuda bilmir. Mən sənin tayın deyiləm.

Kapitan. Mən də səni unutmadım.

Səs. Sən də? Sənin unutmamağınla mənimkinin arasında fərq var, yoxdu? De də, var, yoxdu?

Kapitan. Var, var. Yəqin ki, fərq var. Deməli, açıq kitabıq biz. Axı bu ədalətli deyil. Bəs bizim sirlərimiz?

Səs. Kim idi deyirdi: Sirr nə vaxtsa açılacaq sirdisə, heç əvvəldən yaranmayıb sirr kimi... Yadındadı? Kim deyirdi?

Ada sahibi ağ işıq zolağıyla gəlir Kapitanın yanına.

Ada sahibi *(Kapitana).* Yadındamı? Sən idin deyirdin. Adamın sirri ola bilər, dağın, daşın, dərənin, düzün, yerin, göyün, dənizin, adanın sirri ola bilər və yəqin ki var. Və yəqin ki, dağ da, dərə də, dəniz də, ada da, bir sözlə, öz içində sirr gəzdirən hər bir şey vaxt gəlir ki, bu sirri daşımaqdan yorulub bezir, bir az da sirsiz-müəmmasız, elə-belə yaşamaq istəyir – öz bildiyi, öz bacardığı kimi. Özünün alnına yazılan kimi. Nə zaman ki, bu sirdən yaxa qurtarmaq vaxtı, o böyük və azad An gəlir və sən bu sirri nəyə isə, kimə isə, verib yalnız bundan

sonra azadlaşmaq istəyirsən, o zaman dünyadakı sirləri daşımaq istəyən yeni-yeni qurbanlar meydana çıxır. *(Vəzirə işarə edir)* Eynən, Vəzir kimi. Bu təzə qurbanlar elə bilirlər bəxtləri gətirib – sirr sahibi olublar. Sirri həvəslə kökslərinə sıxır, sevinə-sevinə gələcəklərində onları gözləyən yorğun və bezikmiş anlarından xəbərsiz o ana doğru tələsirlər *(yenə qayıdır qaranlığa).*

Kapitan. Sirr nə vaxtsa açılacaq sirdisə, heç əvvəldən yaranmayıb sirr kimi... Hardasan sən? Deyirsən, oralar gözəldi?

Səs. Elə gözəldi. Qulaq as, bir şey danışım sənə. Bilirsənmi, dünyaya hələ doğulmamış, amma hökmən doğulacaq adamların da ruhları var. Və bu hələ doğulmayanların ruhları oralarda bizim ətrafımızda gəzib-dolaşır, doğulub yaşamış, ölmüş adamların ruhları ilə təmasa girməyə çalışır. Onlardan bir uşaq həvəsi və bir uşaq inadı ilə dünya barədə, həyat barədə nəsə öyrənmək istəyirlər. Ölmüş adamların ruhları bəzən səbr və təmkinlə, bəzən də hövsələsiz halda bildiklərindən və bilmədiklərindən, eşitdiklərindən və eşitmədiklərindən onlara bəzi şeylər danışır, danışdıqca da ağızlarını açıb böyük hörmət və maraqla onları dinləyən, onlardan nəsə öyrənmək istəyən və dünyaya gəl-

mə növbələrini gözləməyə səbrləri çatmayan bu hövsələsiz, dəcəl ruhlara məyus-məyus, acı-acı baxırlar. Maraqlıdı? Mənə bax. Hara baxırsan?

Vəzir ağ işıq zolağına Gözəl qızı dartıb çıxarır. Qucaqlaşırlar.

Nağılçı *(işıq zolağına çıxır).* Dünyaya gələndən sonra o tərəfdə nə vardısa, nə olmuşdusa hər şey yaddan çıxır *(Vəzirlə Gözəl qızı itələyib salır qaranlığa).*

Səs. Elədir. Düz deyir. O hardan bilir?

Ağ işıq zolağında Şahzadə görünür. Kapitan gedir onun yanına. Şahzadə tir-tir əsir.

Kapitan. Qorxursan?

Şahzadə. Mənə heç kim inanmayacaq. Heç kim. Əlahəzrət, doğma atam da. Bircə sən bilirsən həqiqəti. Qorxuram.

Səs Kapitana yaxınlaşır.

Səs. Bu kimdi, Kapitan? Lap sənə oxşayır. Qardaşındı?

Kapitan. Yox, yox, sən tanımırsan. Tanışdı. Təzə gəlib instituta.

Səs. Deyirəm axı. Amma... sənə çox oxşadı. Yağış yağır hələ...

Kapitan. Sən indi getsən, sonra yenə də qayıda biləcəksən?

Səs. Bilmirəm. Sən istərdin ki, qayıdım? Yenə nə oldu sənə?

Kapitan *(Şahzadəyə).* Qorxma. Gözlə məni, gəlirəm. Qonağım var yenə. Qorxma. Hər şey yaxşı olacaq. *(Səsə)* Nə dedin?

Nağılçı Şahzadəni işıq zolağından çıxarır.

Səs. Səndən söz soruşuram. Mənə heç fikir vermirsən. Bax a, küsərəm və çıxıb gedərəm. Sən istərdin mən yenə qayıdım?

Kapitan. İncimə. Sən Allah, incimə. İstərdim. İstərdim məni tək qoymayasan. Doğrudan da, sən düz demişdin. Heç kim səndən yaxşı ola bilmədi.

Səs. Sənə güvəndiyim dağlar... Yaxşı axtarmamısan yəqin.

Kapitan. Bəlkə də...Nə bilim?!

Vəzir *(ağ işıq zolağına girib nəzakətlə onlara yanaşır).* İcazənizlə. Hamı bu dünyaya gələli nəsə axtarır. Kimi tapır, kimi tapmır. Axtarırsan, çabalayırsan, özünü oda, gözə vurursan. Adam var ki, bu dünyada bəxti gətirmək adına nəyi varsa, o da an-

caq və ancaq doğulub yaşamağıdır. Məsələn, bizim Şahzadə kimi. Deyirlər ki, tale alın yazısıdır. Alnına nə yazılıbsa, o da başına gələsidi. Kim yazdığını soruşmuram – az-çox aydındı. Amma... Nə zaman yazıldı bu ədalətsiz yazı? Niyə ona hər şey, mənə heç nə? Bəlkə bizim alnımız tər-təmizdi? Nə yazacağıqsa, özümüz yazacağıq ora?! Bəlkə bütün bunları özümüz uydurmuşuq? Bəlkə elə o qədim və əlçatmaz ilkin nöqtədə yazılandı, indiyədək gəlir və artıq bütün etdiklərin, edəcklərin də o qədimlikdən məlum imiş?.. *(Şahzadəni göstərir)* Şahzadənin bəxti gətirib. Bəxti yaman gətirib. Ən böyük zəhməti o olub ki, doğulub. Deməli, nədənsə, haradansa seçilib, ələkdən keçib. Ələkdə qalanlardan – bizdən, sizdən indi xəbəri yoxdur. Bizsə özümüzə toxtaqlıq veririk: bizim də bəxtimiz gətirib, biz də doğulmuşuq, biz də varıq, deyirik. Biz də varıq... Amma... Bəlkə heç vacib deyil ki, bəxtin əvvəldən gətirə? Vacib odur ki, bəxtin bir dəfə gətirə – amma axırda? Necə bilirsiz?

Nağılçı gəlib Vəziri aparır.

Səs. Deyirəm, bəlkə yaxşı axtarmamısan? Nə istəyirsən sən bundan? Neynirsən onu?

Kapitan *(Şahzadəni çıxarır işığa).* Qorxma. Dur burda. *(Səsə)* Axtarmamışam, heç nə də istəmirəm. Bu otaqda qalmaq, sənlə bu otaqda əbədiyyən tək qalmaqdan savayı heç nə. Amma o da yazıqdı. Bəs sən? Niyə susdun sən? Yağış hələ kəsməyib ha. Hələ gedə bilməzsən. Ulduzlar görünmür. Azarsan.

Səs. Kəsməyib, hə. Amma yavaş-yavaş, elə bil, kəsmək istəyir. Azaram deyirsən? Yox. Ulduzlar artıq uzaqdan görünməyə başladı. Göy üzü aydınlaşır yavaş-yavaş. Sən elə bilirsən, onlar həqiqətən uzaqdadırlar? Ulduzları deyirəm. Yaxındılar, lap yaxın. Bax, onu, onu görürsən? Yox, onu yox e. Hara baxırsan? Bura bax. Görürsən? Görəcəksən? Lap yanınacan gələcəklər. O da gələcək. Mən necə gəldim...

Kapitan. Sən... Sən... Hələ də anlamadın bunu? Bir şeyi birdəfəlik başa düşmək lazımdı. *(Şahzadəyə)* Sən də bil bunu. İstər günəş olsun, istər ay, istərsə də ulduzlar – bir sözlə bütün bu göy qübbəsi – tanrısıyla, möcüzəsiylə, o biri dünyasıyla bizə tərəf gəlmir. Biz, biz, yalnız biz öz dünya adlandırdığımız bu gəmidə onlara tərəf yavaş-yavaş üzürük.

Səs. Bəlkə də. Nə deyim, bəlkə də sən düz deyirsən. Sən həmişə düz deyirsən. Əlini ver mənə.

Yadındamı, onda əllərini, gözlərini məndən necə qaçırırdın. Birinci və axırıncı dəfə məni öpəndə... Bəli, bəli, sən, sən məni öpəndə. *(Gülür)* Mənə bax e... Güclə də adam öpərlər? Yaxşı, mən səni öpəndə.

Kapitan *(Səsə tərəf gedir. Nağılçı Şahzadəni aparır).* Mənə elə gəlir ki, bu dəqiqə sən adlı heç kim yoxdur. Sən yalnız səsdən ibarətsən. Sən heç əvvəldən də yox idin. Əvvəldən yox idin. Sən yalnız o zaman olurdun, o zaman ətə-qana dolurdun, canlanırdın ki,... tutalım, mən götürüb sənə zəng eləyirdim. Gəlirdim evinizin qabağına. Saçlarını düzəltdirəndə səni gözləyirdim. Mənim gözlərimin, qulaqlarımın, əllərimin əhatəsindən çıxdınmı, sən o andaca dağılırdın, yox olurdun, havaya qarışıb itirdin. Sən həmişə "yox"la, "var"ın arasında oldun. *(Şahzadə işığa gəlmək istəyir. Nağılçı qoymur.)* Gah "yox"un içinə girib gizləndin, gah da "var"ın içində hər dəfə yenidən doğulmağına sevindin. Səni yaradan, hər dəfə bu dünyaya, işığa gətirən mən idimsə, necə oldu ki, sən mənim ruhuma hakim kəsildin? *(Gözəl qız xəyal kimi işığa girir, çıxır)* Məni də hər dəfə bəlkə sən yaradırdın? Amma "var"dan "yox"a keçməyin o gözəl yolunu, olmaya bilməyin müdhiş sirrini səndən yaxşı heç kim bilmir. Mən "yox"un içinə girib orada gizlənə bilmirəm. Bəlkə elə

indi mən özüm “yox”un içindəyəm? Özümdən xəbərsiz?! Sən məni səsləmirsən hələ ki. Səslərsən, mən də unutqanlıqdan sıyrılıb çıxaram, mən də həyat adlı bu qəribə mayeylə dolaram və... düşünməyə başlayaram. Və səni görmək üçün, səni də “yox”un içindən çıxarmaq üçün həmişəki kimi cürbəcür bəhanələr axtarram. Elə billəm tapdım. Burdasan?

İkisi də birdən. Kimin ad günü idi? *(Gülüşürlər.)*

Kapitan. Sən məndən çox... *(Səs gülür.)* Bağışla, bağışla. O gecə yadındadı?

Səs. Yadımdadı. Yadımdadı.

Kapitan. Bu ulduzlar o gecənin ulduzlarıdı. Elə bil, incimişdin məndən, qoy görüm, kimin ad günüydü?

Səs. Hamı işi elə qurdu ki, məni sən ötürəsi oldun.

Kapitan. Yamanca şeysən a. Bunu da bilmişdin?

Səs. Bəs necə?

Kapitan. Mənsə elə bildim, sən də mənim kimi...

Səs. Sənin kimi, yəni, necə?

Kapitan. Elə bildim, sənə də xoşdu ki, səni mən ötürürəm. Elə bildim, bizim ayrıca getməyimizi sən də istədin.

Səs. Niyə elə bildin? Bəlkə elə-elə idi?! Bəlkə mən özüm qurmuşdum bunu? Avamsan e avam. Gərək elə dilimnən deyəydim sənə ki, dur, məni ötür, dur, burdan gedək. İkimiz, ikimiz qalaq... Sən də içmişdin nəydi, elə salmışdın ki, nağıllar belə gəldi, nağıllar elə getdi. Nə bilim devlər, mələklər, simurğ quşları... Yadında? Simurğ quşları yadında?

Kapitan. Hə, doğrudan da. İndi anlayıram ki, avam olmuşam. Onda isə...

Səs. Onda isə mən yox, sən incidin. Niyə? Nə üçün?

İkisi də işıq zolağında yol getməyə başlayır.
Göydəki ulduzlar, elə bil, lap başlarının üstündə durub.

Kapitan. Mənə elə gəldi ki, biz sənin tək qalanda və o uzun küçə ilə üzüyuxarı sizin evinizə tərəf bərabər yol gedəndə sənin danışığın da dəyişdi, kəsik-kəsik oldu, addımların da yeyinlədi. Mənə elə gəldi ki, sən tələsdin. Evə çatmağa, məndən ayrılmağa birdən-birə tələsdin. Qorxdun. Əgər özün mənimlə tək qalmaq istəmişdinsə...

Səs. O gecə gözlərin elə alışıb yanırdı ki, tək qalanda... Səndən qorxdum. Gözlərinin içinə ulduz girmişdi, elə bil. Bilirsən, birdən qorxdum. Doğru deyirsən. Qorxdum və tələsdim.

Padşah və Vəzir işıq zolağında.

Padşah. Budu bunun nağılı? Yəni, bizim nağılımız?

Nağılçı *(gəlir).* Budu, budu. Buyurun bura, Əlahəzrət *(onları qaranlığa salır).*

Səs. Hə, o gecə qəribə gecə idi. Deyirsən, tələsirdim? Tələsirdim. O gecənin ulduzlarını isə sonralar bir-bir tapdım. Hamısını tapdım. Nə qədər çox idilər... Onlar da məni o saat tanıdılar. O gecə... Küçə ilə üzüyuxarı gedəndə onlar da məni görmüş-dülər. Mənə elə gəlirdi ki, o yol qurtarmayacaq. Biz sənin-lə elə yoldaca, bizim evə gedən yoldaca qala-cağıq. Tələsirdim deyirsən. Mən tələsmirdim. Vaxt özü elə gec keçirdi ki, lap indiki kimi. Amma... kim bilir, bəlkə də mən tələsirdim. Yəni, bu nəyisə dəyişdi?

Kapitan. Dəyişdi. Mən yəqin etdim ki, bizim ulduzlarımız heç vaxt barışmaz. Yadındasa, sən də o gecədən sonra daha açıq-aşkar məndən qaçmağa başladın... Hamını mat qoydun.

Səs. Mən a? Bəlkə də təsadüf idi. Amma... Ağlım vardı? Ağlımı sən aparmışdın. Sonra da elə bildim, həyat idealımı tapmışam. Eh... nə qoyub, nə axtarıram?! Heç vaxt, heç nə tapmadım sizlərin arasında. Mən axtaran şeyi elə itirmədilər ki, mən

də onu tapaydım. Sənə düzünü deyim? İndi oralarda sənin ulduzunun boş yerində fırlana-fırlana qalmışam. Gözləyirəm səni.

Cəllad *(özünü işıq zolağına dürtür, onlara yaxınlaşır).* Gözlə, gözlə. Sən çətin tapasan axtardığını. Sən axtardığını itirməyiblər. Hələ ki.

Dev *(qaranlıqdan qışqırır).* Mənim kimi, mənim kimi.

Səs. İtirmədilər, itirmədilər. Tapa bilmirəm ki itirilməyən şeyi. Düz deyir.

Padşah *(İşığa Ada sahibi ilə çıxır).* Deyirsən, bunlar da bizim nağılımızdı? Maraqlıdı. Çox maraqlıdı. Amma bu yağış kəsməsəydi, yaxşıdı. Elə elə kəsməsin. Görürsən, hər şey Kapitanın necə yadından çıxıb? Dəniz də, tufan da, qasırğa da, fəlakətə uğrayan gəmilər də ilk dəfədi, elə bil, harasa uçub gediblər. Nolar, qoy yağış kəsməsin. O qalsın. Bu ikisi axı xoşbəxtliyə layiqdilər.

Ada sahibi *(Padşaha).* Siz onların nağılısız, onlar sizin. Bilirsiz, ilk dəfədir ki, bu cür söhbət edirlər. Bu söhbət əvvəl-axır olmalıydı aralarında. O zaman olmadı. Alınmadı. Nə bilim niyə? Alınmadı. Onun gənc ikən ölümü hamını yandırmışdı.

Kapitan *(onlara yaxınlaşır).* Məni yandıran ölümdən çox söhbətin açılmaması oldu. Ölüm nədi

ki, hələ bilinmir, kimin bəxti daha çox gətirib – ölüb gedənlərin, ya bizim?! *(Səsə)* Hardasan? Belə deyil?

Padşah. Niyə elə deyirsən, oğul? Hansı söhbətdən danışırsan? Elə danış, biz də bir şey anlayaq. Gizli, qaranlıq işlərin axırı yoxdu – biləsən.

Kapitan. Bu, sən deyən deyil. Məni də onun *(Şahzadəyə işarə edir)* gününə salmaq istəyirsən? Söhbət! Söhbət alınmamışdı. Dəfələrlə bu söhbəti beynimdə qurmuşdum. Həmişə də yarımçıq qalırdı. Son. Son yox idi. Məntiqi sonu gəlmirdi bu söhbətin. İndi hər şey bir andaca dəyişdi. O qayıtdı. İndi nöqtəni qoymaq olar.

Ada sahibi. Nöqtəni qoymaq olar? İndi də nöqtə səndən qaçacaq. Yenə son həsrətilə çırpınacaqsan.

Kapitan. Hardadı bu?

Padşah. Belə tez çıxıb gedə bilməz axı. Necə gözəl idi... *(Vəzirə baxır.)*

Vəzir. Anam, bacım olsun.

Cəllad *(işığa çıxır).* Əlahəzrət.

Padşah. Çəkil, Cəllad, çəkil. Bircə bu yağış kəsməyəydi *(Cəllad gedir).*

Dev *(işığa çıxır).* Hələ damcılayır. Bu da son damcı... Tələs, tələsə bilsən.

Kapitan. Yox, hələ vaxta var. Hardasan? Demək istəyirsən, o gün sən o yolu təngənəfəs getmirdin? O nə idi hələ mənə dedin də? “Kim nağıla inandırıb səni? Bəyəm Simurğ quşları olur həyatda?” Cavab ver, hələ vaxta var.

Dev. Kəsdi. Yağmır. Qurtardı *(qaranlığa çəkilir).*

Cəllad *(işığa çıxır, Kapitana tələsik).* Qurtardı. Bax ulduzlar da öz yerini tutdu. Buna bax, buna, lap elə bil, bizə baxır. Qurtardı. *(Padşaha)* Padşah sağ olsun. Getdi. Bizi tərk edib getdi.

Kapitan heysiz gedib divanda oturur. İşıq zolağı yox olur. Hamı alaqaranlıqda görükməyə başlayır.

V ŞƏKİL

Ulduzların gur işığı otaqda.

Ada sahibi *(Cəllada)*. Bizi tərk edib getdi dedin? Yox, tələsmə elə deməyə. Nə üçün əziz və dəyərli bir adamı itirəndə adətən deyirik: bizi tərk eləyib getdi. Bizi deyib nəzərdə tuturuq ailəsini, nəslini, yaxınlarını, əzizlərini, nəhayət, şəhərini, xalqını... Amma öləndə "bizi" tərk eləmirlər. Öləndə dünyanı tərk eləyib gedirlər.

Şahzadə qəmli-qəmli durub getmək istəyir.

Padşah *(nəvazişlə).* Dur. Dur dedim. Oğul...

Vəzir *(tələşlə).* Əlahəzrət.

Padşah *(kəskin).* Vəzir! Xamuş! *(Şahzadəyə)* Yaxın gəl. Gəl yaxına. Gəl.

Şahzadə gəlib diz çökür. Başını onun dizlərinə sürtür, Padşah yenə xəyaldakı kimi onun başını tumarlayır. Vəzir Gözəl qızın paltarını cırır, saçını dağıdır, itələyir Padşahın qabağına. Şahzadə bağlı əllərini Padşaha uzadır. Padşah, elə bil, ayılır.

Padşah *(Şahzadəyə).* Çəkil, çəkil dedim. Gözlə. Bəzən bütöv bir ömür – qocalığa qədər uzanan tələ-

tümlü, amma bu şərtlə ki, bütöv bir ömür yaşamaq lazım gəlir ki, səndən çox-çox uzaqlarda və sakit bir qədimlikdə qalmış o təmiz uşaqlığın mənasını və qədrini anlayıb biləsən. Bəzən bir ömür də bəs eləmir.

Gözəl qız. Anladınsa, bağışla. Bağışla onu. Bağışlamaq böyüklükdəndi. *(Şahzadəyə)* Qorxma.

Cəllad. Əlahəzrət *(Padşah fikirdə).*

Vəzir *(ehtiyatla ona yanaşır).* Əlahəzrət, həyatın boyu ona-buna çox söz deyə bilərsən. Amma həyatın boyu adamlara yalnız bir dəfə Söz demək imkanın olur. Əgər ikinci dəfə belə bir imkan əlinə düşsə və Söz deməyə məcbur olsan, o ya təkrar olacaq, ya da ki, yalan. Siz bütün dünyanın qarşısındasız. Sizə bütün dünya baxır. Siz sözünüzü deməlisiz.

Gözəl qız *(Padşaha).* Dünyanı xilas etmək, qorumaq, eyni zamanda *(Şahzadəni göstərir)* insanı xilas eləmək, insanı qorumaqdır. Bütün bunların canında isə bir şey durur – inam. İnsanın insana inamı. Sən batırsansa, sənə uzadılan əldən yapışmaq üçün əvvəl-əvvəl o əlin sahibinə inanmalısan. *(Vəzirə nifrətlə baxır)* Hər nəyə gəldi əl atmaq olmaz. Mən də çox şey anladım. Göydəkinə inam, əslində, dolayı bir məqsəd güdür – səni özünə oxşayan yerdəkilərə inanmağa çağırır. *(Padşahın əlindən tutur, Şahzadəyə tərəf aparmaq istəyir,*

Vəzirə dönür) Qardaşın qardaşa və bacının bacıya, min illər boyu tanıdığın və ilk dəfə gördüyün adama *(Kapitana işarə edir)* inam – bu deyilmi böyüklük?! Allah deyənin və üzünü göyə tutub əllərini göyə qaldıranın gərək ayaqları da göyə zillənən baxışları qədər torpağa işləsin. Gərək göyə baxan təkcə göydəkinə yox, yerdəkinə də inansın. Nə olar, bir dəfə də bir-birimizin gözünə baxaq və heç nə deməyək, amma inanaq bir-birimizə. *(Padşaha)* Nə olar, bir dəfə də neçənci dəfə aldanaq, amma yenə inanaq. İnanaq ki, haqq qalib gələcək. Yerə və göyə inanaq. Məhəbbətə və nifrətə. Həsrətə və vüsala. Həyata və ölümə. İnanaq. Yoxsa biz elə bilirik ki, heç zaman ölməyəcəyik və cavab vermək vaxtı, o böyük vaxt gəlib çatmayacaq?

Dev. Vallah, hamınız cavab tapacaqsınız. Elə gözəl-göyçək cavablar tapacaqsınız ki. Bəs mən?

Vəzir *(Gözəl qıza).* Əsl cavab, sizi düşündürən və bizim axtardığımız o böyük cavab, əslində, verilən və verdiyimiz cavablar deyil. Əsl cavab verilən sualdır. Biz məhz sualla dərk edirik, məhz sualla axtarırıq və əgər tapırıqsa da, məhz sualla tapırıq.

Gözəl qız *(Padşahın önündə diz çökür).* Anlayın. Anlayın onu, əlahəzrət. Müdriklər deyir: Anlayan bağışlayır. Hamı səhv edə bilər.

Vəzir. Çox deyilmi səhvlərimiz? Hər biri bir cavan, güclü oğlana dönüb qəddar baxışlarıyla bizi qorxudar. *(Cəlladın qılıncını əlindən alır)* Səhvlərimiz – başımızın üstündən sallanan iti qılınc! Hər kəsənin öz başının üstündə öz qılıncı! Bir gözümüz yuxarıda – o qılıncların yanında, bir gözümüz aşağıda – ayaqlarımızın altında getdiyimiz yolda... Əsəəsə keçdiyimiz, qılınc kölgələrindən qaranlığa bürünən bu yol bir ürək döyüntümüzdən o birinə aparan yol deyilmi? Və bir ürək döyüntüsü bu boyda sevincə və bu boyda əzaba dəyərmi?

Qılıncı göyə atır. Cəllad göydə qılıncı tutur.
Şahzadənin başı üzərinə qaldırır.

Şahzadə. Çox dəhşətli bir duyğu qəfildən məni sarsıtdı. Dəhşətli olduğu qədər də aydın və sadə idi. Birdən anladım ki, bütün arzularımla bir yerdə mən özüm-özümü ölümü qarşılamağa hazırlayıram. Birdən onu da anladım ki, sən demə lap çoxdan *(Gözəl qıza tərəf getmək istəyir, durur)* bir çox hərəkətlərimlə ölümü qarşılamağa hazırlaşırmışam. Və bundan sonra hər şey, elə bil, öz yerini tutdu, hər şey aydın oldu. Mən elə doğulan gündən üzü bu yana qədər nə etmişəmsə, nə düşünmüşəmsə, hamısıyla bir yerdə ölümü qarşılamağa hazırlaşmışam.

Padşah. Doğulan gündən? Doğulan gündən. Gör bir nəyi xatırlayır...

Dev. Mənim günahım nə idi, Əlahəzrət? Son məkanadək izləndim, orda da qan izimə düşüb məni tapdılar, əzdilər, öldürdülər. Mənim qan izim... Mən yazığın günahı nə idi? Allah babalarım kimi sevə bilirdim. Onunçünmü? Və canımı göyərçinlərə tapşırmışdım. Onunçünmü? Padşah sağ olsun, vallah mənim günahım yoxdur. Məndən sizə qəsd edən çıxar?

Vəzir. Sus, qorxaq. Qanın halaldı sənin.

Dev. Mənim qanım? Yaxşı. O zaman mən də daha susmayacağam. Məni bu öyrətdi, Padşah sağ olsun. *(Vəziri göstərir)* Bu! Yoxsa mənim sizlə nə işim? Bu dedi ki, sizi qorxutmaq üçün bir-iki dəfə gecə sarayın bağında bağırım. Mən də bağırdım. Məqsədi vardı. Şahzadəni istədi ki, sən mənim üstümə göndərəsən. Padşah sağ olsun... Bunu bilməkçün elə böyük ağıl lazım deyil. Mənimki bəsdi. Şahzadə də ki... əsl dev elə o çıxdı. Sənə gələn bu gözəl hədiyyəni də *(Gözəl qızı göstərir)* Vəzir mənə gətirdi o zil qaranlıq gecədə. Mən götürüb getdim yeraltı mağarama. Mən nə biləydim ki, siz onu, o söz... *(pıçıldayır)* sevirsiz?! Mən nə biləydim *(Şahzadəni göstərir)* bu oğlanı göndərəssiz üstümə?!

Mənə bax e, mən də canımı tapşırmışam göyərçinə ki, ala saxla. Bu isə əjdaha kimi, yox, dev kimi gəldi, qırdı, çatdı. Qızı qurtardı. Məni də saldı qabağına, bu halda gətirdi sənincün. And içirəm babalarımın ruhuna, əlini də vurmadı buna. Baxma indi belə qorxur. *(Şahzadəyə)* Sən, elə bil, əvvəlki deyilsən. Bu nədi, az qala titrəyirsən?! Bilmək istəyirsən, mən də qorxuram. Vallah mənim heç günahım yoxdu. Ölürəm. Burax məni. Ömürlük qulun ollam.

Gözəl qız *(günahkar).* Məni də o...

Padşah *(çaşqın).* Nə dedin? Nə deyir bunlar?

Vəzir. İnanma, Əlahəzrət. O bir devdi, canı üçün əlləşir. Bu... bir ləçər. Mən sizin yolunuzda ölməyə hazıram. Öl desəniz ölərəm. Mən sizi... sevirəm.

Cəllad. "Ölürəm" deyə bilənə qədər cavansan. "Sevirəm" deyə bilənə qədər hiyləgərsən. Nə cavanlığından xəbərin var, nə hiyləgərliyindən.

Vəzir. Yalvarıram, inanmayın *(hönkürür, diz çökür)* İnanmayın bunlara!..

Padşah *(qəmli-qəmli Şahzadəyə yanaşır. İstəyir önündə diz çöksün. Şahzadə qoymur).* Bizdə həmişə sızıltı çox olub. Solan nə varsa, hökmən solmalı, öləziyən ölməlidi. Göz varsa, deməli, ağlamaq üçün yaranıb, ürək varsa, dərd çəkməlidi. Bu ürəyin

günahı nədi? *(Vəziri qaldırır)* Sən ki bu qədər sən-sən, bəs sənin günahın nədi?

Ada sahibi. Solan çiçəyin arxasınca yetişən, yetişməli olan meyvəni görə bilmiriksə, milyon-milyon illərin yaşamaq təcrübəsi hara qaçır bizdən? Və bəlkə də o meyvəni əvvəlcədən görməyə heç bir lüzum yox imiş?! Bəlkə çiçəyin solmazlığına hər dəfə ürəyimizdə dəli bir ümid, yaşayırıq. Və hər dəfə aldanırıq?!

Padşah Cəllada işarə edir.

Cəllad. Bizim səhvlərimiz tükənməyəcək *(Göz yaşını silə-silə Şahzadənin əllərini açır).*

Şahzadə diz çöküb əllərini göyə uzadır.

VI ŞƏKİL

Əl-ələ tutub Gözəl qız, Padşah, Vəzir, Şahzadə, Cəllad, Dev durublar. Kapitan divanda oturub.

Gözəl qız. Yaşıl nar ağacının
Soldu nar çiçəkləri.
Soldu nar çiçəkləri,
Kim deyərdi solacaq?
Vəzir. Birdən-birə büzüşdü,
Qocaldı ləçəkləri.
Soldu nar çiçəkləri –
Guya ki nə olacaq?
Kapitan. Bu ağrılar, əzablar
Bizə gəlib dəydilər.
Unuduldu sevilən,
Unuduldu sevəni.
Şahzadə. Bu kötüyün içində
Məni gizlədəydilər,
Dost da gəlib baxaydı
Tapammayaydı məni.
Padşah. Kağızdan evcik qurub
Qızıl saray bilmişik
Nahaqdan incitmişik
Qüssəli ürəkləri.
Zabit *(qapı dalından).*

Biz buraya bəlkə də
Bir az vaxtsız gəlmişik.

Kim deyərdi solacaq
Soldu nar çiçəkləri.
Dev. Bütün ağrılarımız
Örtüləcək çiçəklə.
Bütün yaralarımız
Yenidən bitişəcək.
Cəllad. Hər şey qurtaracaqdır
Xoşbəxt bir gələcəklə.
Soldu nar çiçəkləri –
İndi nar yetişəcək.

Nağılçı, elə bil, yoxdan peyda olur. Gəlib bir-bir bu adamların üzünə baxır. Elə bil, onları tanımaq istəyir. Təkcə Kapitana heç bir məhəl qoymur.

Nağılçı *(yorğun-yorğun).* Uf, yoruldum, deyəsən. "Biz Allahın yuxusuyuq" deyib rahat-rahat köks ötürməyə nə var ki?! Biz şeytanın təmizlənmiş, yenidən mələk siması geymiş ruhuyuq. Buna inanmaq asandan asan. Niyə bizi unutdular? Bəlkə unutmadılar? Bəlkə itirdilər? Bu yuxunu görən yuxusundan hövlnak ayılıb xatırlamağa çalışacaqmı gördüklərini? Və xatırlamağa çalışsa xatırlaya bilə-

çəkmi? Yuxuları aydın, təmiz şəkildə xatırlamaq çətindi. Çox çətindi. Hər şey dağılacaq, dumanlar varsa dumanlara qarışıb itəcək – yeni gecələrə, yeni yuxulara qədər... *(Gedir Kapitanın yanında durur. Kapitan üzünü ondan gizlətməyə çalışır.)*

Nağılçı. "Biz Allahın yuxusuyuq", – dedilər ona. Sadəlövh, nankor adam. "Bu yuxudan çıxıb qaçmağa nə var ki", – düşündü. Və... yuxudan qaçmağı qərara aldı. Yuxu görən mat-məəttəl qalmışdı, və elə yata-yata bütün diqqətini cəm eləmişdi ki, bu gözəl və nə vaxtsa unudulmuş vaqeələri seyr eləsin, bircəciyini də buraxmasın. Yuxusundan qaçmaq istəyənin məramını əlüstü duyub əvvəl dilxor oldu. Sonra elə yuxusundaca bic-bic qımışdı. Və nə elədi, nə eləmədisə yuxusundan qaçmaq istəyən nankor adam ona sirr kimi deyilmiş o böyük həqiqəti də, özünün könlündən keçən o cəsarətli niyyəti də bir göz qırpımında unutdu. Ona elə gəldi ki, bütün bunları o özü də yuxuda görüb.

Nağılçı əli ilə çağırıb hamını yanına yığır. Gedir qapının dalından Zabitin də əlindən yapışıb gətirir qatır camaata. Kapitan görür ki, tək qalıb, o da istər-istəməz onlara yaxınlaşmaq istəyir.

Nağılçı. “Biz Allahın yuxusuyuq”. Görəsən, bizim bütün bu əlacsız və artıq hər bir məntiqdən kənar hərəkətlərimiz onu diksindirirmi? Diksindirə bilirmi? Və o, nəhayət, anlayacaqmı bizim bütün bacardığımız, bütün elədiklərimiz onun bu gözəl yuxusunun sakitliyi üçün verə biləcəyimiz sonuncu güc yığımımızdır?!

Kapitan cəld qaçıb körpücüyə qalxır.
İşıq ancaq onun üstündədir.

Zabit. Hara? Hara aradan çıxırsan?

Kapitan. Lövbəri verdin ki, saxlaya biləsən məni? Bəs səndən lövbəri niyə istəmişdim? Qalmaq üçün, əzizim. Anladın indi? Saxlaya bilməzsən artıq məni. Onlar da saxlaya bilməzlər. Hara deyirsən? Ulduzların arasıyla. Hara? Özün də bilməyəsən. Nə üçün? Heç kim sənə deməyə. Ağlına da gəlməyən bir sürətlə. Ulduzlar da bitib-tükənməyə. Hər dəfə yanından sıyrılıb bir andaca min ilin uzaqlığında qalanda ötəri bir nəzər salıb aralarından birini, elə bil ki, tanıyasan. Tanıyan kimi olasan. “Bu idimi onun ulduzu?” Sonra yenə irəli, bəlkə də irəli yox, dövrələmə, bəlkə də elə lap geri – kim bilir bunu? O ulduz nə oldu? İtdi, getdi, hər şey itən kimi? Yox oldu, elə bil, heç zaman var olmayan

milyon-milyon zərrəciklər kimi? Heç yox imiş, elə bil. Bir də ki... bundan asan nə ola bilər? Yoxdan vara, vardan yoxa keçməyin qəribə sirrini o ulduzlardan yaxşı kim bilir? Ya Allahın adı...

Padşah. Yaxşı. İndi niyə gedir bəs bu? Nə var o ulduzların arasında? Nağıl axtarır? Eh... Boş əziyyətdi. Nağıl?! Yalandı nağıllar. Nağıl yoxdu. Hər şey həqiqətdi. Nağıl tərəfdə də, həyat tərəfdə də. Kim dedi ki... Kim dedi ki, Simurğ quşu var imiş?

Vəzir, Şahzadə, Cəllad, Gözəl qız bir-birinə baxıb soruşurlar:
Kim dedi ki, Simurğ quşu var imiş?
Kapitan elə bilir, gəmi sürür. Sükanı sağa-sola fırlayır.
Padşah, Vəzir və Şahzadənin əllərini birləşdirir. Cəllad Devin xaltasını və zəncirlərini açır. Padşah gəlib Gözəl qızı qucaqlayıb durur. Onlar hamısı Kapitana vida edir. Zabit çox ciddi şəkildə mil durub əsgər salamı verir. Nağılçı Ada sahibiylə görüşüb gedib girir stolun altına və yox olur.
Gəmiyə dəyən dalğaların səsi musiqinin təntənəli səsinə qarışır. Göydən gəminin üstünə ulduz yağışı yağır.
Bu gəmi dənizdəmi üzür, bu gəmi göydəmi üzür? Kim bilir?
Kim dedi ki, Simurğ quşu var imiş?

SON

RUH

(2 hissəli, yarı xəyali, yarı dramatik oyun)

İŞTİRAK EDİRLƏR:

Ruh
Tərki-Dünya
Qorxacaq Qadın
Şübhəli Məxluq
Narahat Adam
Ağciyər
Kimsəsiz

BİRİNCİ HİSSƏ

Alaqaranlıq bir otaq. Narahat Adam, Şübhəli Məxluq, Qorxacaq Qadın, Kimsəsiz, Ağciyər hövlnak qorxa-qorxa, bir-birini itələyərək içəri girirlər. Onların gəldiyi arxa otaqda nə isə baş verib, özü də bu nə isə çox müdhiş "nə isə"dir.

Narahat Adam *(Hələ o biri otaqda ikən).* Öldü!

Şübhəli Məxluq. Öldü?

Narahat Adam *(səndələyə-səndələyə gəlir).* Öldü. Öldü, öldü, öldü...

Qorxacaq Qadın. Yəni... Necə yəni?.. Doğrudan, öldü?!

Kimsəsiz. Dəqiqdi? Diaqnoz deyirəm, dəqiqdi?

Narahat Adam. Öldü. Ürək dayanıb, nəbz vurmur, gözlər açıq...

Qorxacaq Qadın *(dəhşətlə).* Gözlər açıq... Oy, oy...

Ağciyər. Öldü. Əcəb işə düşdük. İndi biz neyləyəcəyik? Bu da gəlib çıxmaz ki... Bir məsləhət verən olsaydı. Aman, aman, niyə belə oldu?! *(Qorxacaq Qadına)* Bircə bu gəlib çıxsaydı... Sən necə bilirsən? Deyirəm, bir iş görmək lazımdır, yəqin. Nə edək?

Qorxacaq Qadın. Bəlkə həkim çağıraq? Telefon var burda? Bura haradı belə? Bu nə yerdi yığmısız camaatı?

Ağciyər. Həkim??? Sən nə deyirsən? Bu... ölüb. Nə həkim?! Hamınızı bura o *(o biri otağa işarə edir)* çağırmadı? Biz nə biləк, nə yerdi bura?!

Şübhəli Məxluq. Kimi deyirsən? Mənim dalımca danışırsız?

Qorxacaq Qadın. Sənin niyə? Sənin niyə? Heç elə şey olar? *(Ağciyərə)* Bu lap gicəlib ki... *(Şübhəli Məxluqa)* Sənin dalınca niyə danışırıq?! Adam qəhətdi bəyəm? Onun. Onun.

Ağciyər. Sən elə həmişəki kimi özündən bədgümansan ki, bədgüman.

Qorxacaq Qadın. Düz deyir. Elədi. Nə oldu? Doğrudan, niyə öldü bu? Ərim məni öldürəcək. Mənim burda nə işim vardı?! Öldürəcək.

Narahat Adam. Öldü, öldü, öldü...

Şübhəli Məxluq. Nəsə mənə elə gəldi ki... elə bil, nəsə deyinirsiniz. Həmişə səninki deyinmək olsun. Ay qorxacaqdın ha. Xox... *(Ağciyəri qorxudur guya)* Ha-ha... *(Gülüşü ağzında qalır.)*

Kimsəsiz. Olmaz axı. O biri otaqda ölü var. Yaxşı deyil axı. Müsəlmançılıqda...

Şübhəli Məxluq. Bağışla, vallah, nə deyim, yadımdan çıxdı. Mənim dalımca danışır... deyəsən... Allah rəhmət eləsin, Allah əcr versin. Son qəmin... Nə oldu sənə?

Kimsəsiz. Eh... sən adam olmadın. Sən...

Ağciyər. Bu gəlmədi. Gəlsəydi...

Qorxacaq Qadın. Vallah, ərim məni öldürəcək. Nə soyuqdu bura vayyyy....

Narahat Adam. Təsəvvür edirsiz, nəbzini tuturam, gözləri axır, nəbz yox, yəni, bu elə belə olurmuş?.. Bir anın içində. Doğru deyirlər...

Şübhəli Məxluq. Nəyi? Nə deyirlər?

Narahat Adam. Doğru deyirlər, ölüm göznən qaşın arasındadı. Bəs indi biz neyləyək? Nəsə eləmək lazımdı axı.

Ağciyər. Mən də onu deyirəm. Yəqin, əvvəl-əvvəl evinə zəng eləmək lazımdı *(Hamı bir-birinə baxır və sonra Qorxacaq Qadın hamının baxışları önündə).*

Qorxacaq Qadın. Mənə niyə baxırsınız? Mən niyə? Mən bəyəm onun arvadını-zadı tanıyıram? Lap elə tanısam da... Mən niyə axı, kişi deyilsiz? Mən qorxuram. Ərim bilsə... məni öldürəcək. Bu niyə gəlib çıxmadı? Bir də ki... mənə soyuqdu.

Narahat Adam. Yenə gecikir. Həmişəki kimi.

Şübhəli Məxluq. Onun nə vecinə? Sən də...

Ağciyər. Yox, yəqin, bir iş var başında. Çoxdan gəlib çıxmalıydı.

Narahat Adam. Hə... Sən də danışırsan? Ömür boyu bütün dərslərə gecikməyib? Qırx il əvvəl? Yadınızdan nə tez çıxdı?

Kimsəsiz. Qırx oldu, ay Allah. Qırx il bəyəm azdı? Unutmuşuq da kim necə olub olmayıb...

Qorxacaq Qadın *(yavaş yavaş o biri otağın qapısına tərəf gedir, guya qulaq asır).* Sakitlikdi. Heç nə eşitmirəm. Bir az yavaş-yavaş danışın.

Şübhəli Məxluq *(daldan ona yanaşır).* Xox...

Qorxacaq Qadın. Oy, oy, oy, tutun, tutun məni...

Ağciyər. Noldu? *(Tutur onun qolundan)* Gəl bura, otur.

Qorxacaq Qadın *(Şübhəli məxluqa).* Sən də kişisən? Vallah, necə uşaq idin, elə o cür də qalmısan. Abırsız.

Narahat Adam. Ver əlini, nəbzini tutum, bir, iki, üç, özünü darıxdırma. Mənə bax, gözümə, ürəyin atır...

Qorxacaq Qadın. Oy... vallah, pisəm.

Şübhəli Məxluq. Yaxşı, yaxşı, sərçədən fil düzəltmə. Zarafat da eləmək olmazmış. *(Kimsəsizə baxıb)* Aydındı. Allah rəhmət eləsin. Aydındı.

Hamı. Allah rəhmət eləsin.

Qorxacaq Qadın *(yazıq-yazıq).* İndi biz neyləyəcəyik?

Narahat Adam. Qoy bu bir gəlsin çıxsın. Hamılıqla məsləhətləşək.

Kimsəsiz. Qırx ildə dedik, bir dəfə toplaşaq. Köhnə günləri, məktəbi, uşaqlıq dostlarını, müəllimləri yada salaq. O illər üçün burnumun ucu necə də göynəmişdi!

Qorxacaq Qadın. Yaxşı. Yaxşı. Sən Allah, ətimizi tökmə. Fikirləşin də, kişi deyilsiz, belədə neyləmək lazımdı? Məsuliyyətli məqamdı.

Ağciyər. Necə yəni, neyləmək lazımdı?! Sən bilmirsən ki... Evi var, ailəsi var, xəbər vermək lazımdı. Amma... sabahı gözləyək.

Qorxacaq Qadın. Qoy bu da gəlsin. Gecikməsə olmaz. Öyrənmədi dəqiq olmağı. Yəqin öyrənər hələ, vaxtı var, bəlkə də hələ gec deyil. Ailəsinə, düz deyirsən, xəbər vermək lazımdı.

Şübhəli Məxluq. Nə gözəl dedin? Əla dedin. Amma... amması var. Bağışla məni... söhbət ki, ondan düşdü, bir adam ki, həyatı boyu hər yerə geciksin, nə vaxt istədi gəlsin, nə vaxt istədi getsin...

Narahat Adam. Salamsız, sağ olsuz. Amma əla dedin, düz sözümdü...

Şübhəli Məxluq. Özünün də, sözümü kəsmə, balalarımızın toyunda, özünün də bilirik də, bir ayağı burdadı, bir ayağı... uşaqlıqdan ürəyi xəstədi, bilirik də... Pay atonnan, alçaq dağları da bu yaradıbmış, hamı da buna borcluymuş. Bütün dünyadan küskün, hamıya acıqlı... *(Narahat Adama)* Buyur, buyur de sözünü, ürəyində saxlama.

Narahat Adam. Sağ ol. Belə adam adətindən əl çəkər? Ömründə. *(Qadına)* Amma gözəl dedin.

Şübhəli Məxluq. Gözəl dedin, onu düz deyir. Sən Allah, bağışla məni, belə özümdə deyiləm e, bir az. Zarafat deyil – bu boyda həngamə düşdü araya *(o biri otağa işarə edir).*

Kimsəsiz. Düz deyirsiniz. Belə adam xasiyyətindən əl çəkməz. Bir də ki, bəlkə heç gəlmədi...

Qorxacaq Qadın. Ərim məni öldürəcək...

Ağciyər. Yox, gəlməlidi. Gələcək. Mən deyirəm, gözləyək. O bizə yaxşı məsləhət verəcək. Birdən-birə belə iş. Biz nə etməliyik? Bəlkə milisə deməliyik? Bəlkə evinə zəng edək? Ya təcili yardıma? Hərəniz bir söz deyirsiniz.

Kimsəsiz. Vallah, düz deyirsən. Ayda, ildə, deyirəm, bir dəfə görüşdük. O da belə. Evinə deyirsən? Evinə xəbər versək onsuz da gərək sabahın açılmağını gözləyələr. Gələ bilməyəcəklər gecənin bu vaxtı.

Narahat Adam. Ayda, ildə? Qırx ildə denən. Ay, il... ay hay... Gözləyək deyirsiz, gözləyək. Gözləyək, səhər açılsın.

Şübhəli Məxluq. Ay maşallah. Doğrudan da, qırx il keçib bizim birinci sinfə getməyimizdən?! Qırx il. Yadınızdadı? Mən də deyirəm, gözləyək. Gecənin bu vaxtı heç nə eləmək olmaz.

Kimsəsiz. Aman Allah... Qırx il...

Qorxacaq Qadın. Az vaxt deyil qırx il *(çantasını çıxarıb güzgüyə baxır).* Bu, yəni, xəstə idi – birdən-birə belə oldu? Nə dəhşətli ölümdü. Son sözünü demədən, vəsiyyətini eləmədən. Arvadı yazıq, uşaqları yazıq... Bəlkə heç bilmirlər, bunun nəyi vardı, nəyi yoxdu. Çox sirriçində adam idi.

Şübhəli Məxluq. Yəni, deyirsən, vəsiyyətini yazıb eləməyib? Yazıbsa yaxşıdı. Yazmayıbsa...

Kimsəsiz. Son söz məsələsi, doğrudan da, dəhşət oldu. Hayıf, bir şey deyə bilmədi.

Şübhəli Məxluq. Axı, elə bil, nəsə demək istəyirdi. Hıqqandı, hıqqandı, səsi-zadı çıxmadı. Öldü.

Narahat Adam. Hə, elə bil, nəsə demək istəyirdi. Gözlərilə yeyirdi adamı. Düz deyirsən. Yazıq. Sözü ürəyində getdi.

Qorxacaq Qadın. Pis şeydi bu. Yazıq. Görəsən bir şey eləmək olmaz?! *(Divarda şəklə baxır)* Bu kimdi belə?

Ağciyər. Nə eləmək olar ki. Heç olmasa qoy bu gəlsin çıxsın barı. Doğrudan da, kimdilər bunlar?

Narahat Adam. Neyləmək istəyirsən sən? Orda nə tapdınız?

Şübhəli Məxluq. Dirilər deyirsən? "Görəsən bir şey eləmək olmaz?"...

Kimsəsiz. Sən lap ağ elədin. Müsəlmançılıq-zad başa düşmürsən sən?

Şübhəli Məxluq. Görmürsən, nə deyir bu? Son sözünü deyir, demədi. Görəsən, indi deyir, bir şey eləmək olar? Yəni, dirildib son sözünü dedirtmək istəyir buna. Başa düşmürsən?!

Kimsəsiz. Qırx ildi bir-birimizi görmürük. Siz elə mübahisə edirsiz...

Şübhəli Məxluq. Vallah, bundan sonra da qırx il görməsək heç zad olmaz. Düz sözümdü. Bəlkə bu bədbəxt də burda ölməzdi.

Qorxacaq Qadın. Mənim sözümü xahiş eləyirəm, qəribçiliyə salmayın. Mən bir şey eləmək olmaz soruşanda... başqa şey nəzərdə tuturam.

Narahat Adam. Nə?

Kimsəsiz. Nə nəzərdə tuturdun sən?

Ağciyər. Tələsdirməyin, qoyun bir sözünü desin.

Qorxacaq Qadın. Nə bilim? Amma yəqin, bir şey eləmək olardı ki, son sözünü adam kimi deyə biləydi bu yazıq. Bəlkə lap elə indi... nə bilim?

Şübhəli Məxluq. “Nə bilim, nə bilim”. Nə bilimdən bir şey çıxmaz.

Ağciyər. Yenə də bu gəlib çıxsaydı, bir şey fikirləşib tapardı.

Qorxacaq Qadın. Bura baxın. Bəlkə bu yazığın... ruhunu çağıraq. Hə?

Narahat Adam. Nə edək ruhunu?..

Şübhəli Məxluq. Malades. İsti-isti... çağıraq bunun ruhunu. Niyə? Adamdan soruşarlar da – niyə?

Kimsəsiz. Ruhları rahatsız etməzlər. Allaha xoş getməz. Müsəlmançılıqda belə şey yoxdu.

Ağciyər. Ruhunu çağıraq deyirsən? Necə gəldi ağlına bu? Qəribədi.

Qorxacaq Qadın. Dayanın. Bir qulaq asın mənə. Anlayırsız? Ruhu, yəqin ki, uzaqlaşmağa da macal tapmayıb. Çağıraq. Mən eşitmişəm. Qonşum var – qoca qadındı, işdən-zaddan da çıxıb. Ancaq onun-bunun – ölmüşlərin də – ruhlarını çağırıb gətirməklə məşğuldu. Çağıraq. Qulaq asın. Çağıraq, son sözü nədi, bilək. Yoxsa belə birtəhər çıxır. Arvadı eşidəndə nə deyəcək? Qoy ruhu gəlsin vəsiyyətini eləsin.

Şübhəli Məxluq. Ruhu sən çağıranda gələcək, yəni?

Narahat Adam. Bilmirəm, bilmirəm. Bir ağıllımız vardı, o da gəlib çıxmayıb. *(Kimsəsizə)* Sən nə deyirsən bu işə?

Ağciyər. Mənə baxın. Mən bilirəm. Düz deyir. Gəlin bu işi görək-çağıraq ruhunu.

Şübhəli Məxluq. Çağıraq. Çağıraq. Ancağı var. Necə çağıraq? Sən bilirsən necə? Sən ruh çağırmısan? Sən necə? Sən?

Narahat Adam. Mən... yox, mən bacarmıram, deyəsən.

Kimsəsiz. Qalıb yazıq o biri otaqda tək, tənha, kimsəsiz... Necə də qəflətən öldü... Mən də deyirəm çağıraq. Amma mən bacarmıram.

Ağciyər. Mənə qulaq asın. O gəlsə, bacarardı. Bir dəfə mənə özü danışdı, hansı ölmüş yazıçıdı, şairdi, nədi, ruhunu çağırıbmış. O bilir. İndi gələcək, saat neçə oldu, söz verdisə gələcək.

Qorxacaq Qadın. Hə, o bilir, Füzulinin ruhunu çağırmışdı bir dəfə...

Şübhəli Məxluq. Sən hardan bilirsən? Gör bir kimin ruhunu çağırıb.

Narahat Adam. Doğrudan, sən bunu hardan bilirsən? Görüşmüsünüz, deməli, bu vaxt ərzində.

Qorxacaq Qadın. Eh, mənim əziz sinif yoldaşlarım. Bizim yaşadığımız bu dünya o getdiyimiz məktəbin yanındakı küçə kimi balaca və ensizdi.

Kimsəsiz. Yəni, o gəlib, yəni, ruhu da... gəlib deyəcək nəsə bizə? Sən necə bilirsən?

Qorxacaq Qadın. Deyəcək. Deyəcək. Əsas məsələ odu ki, bizim də çiynimizdən daş götürüləcək. Görərsiniz. Yüngülləşəcəyik. Ərim məni öldürəcək. Bu harda qaldı, ay allah?!

Ağciyər. Onsuz da gecəni burdayıq. Bu qədər gözləmişik, axıracan gözləyək. İndi biz hara gedə bilərik? Yəqin, ərin səni başa düşər.

Qorxacaq Qadın. Ərim məni öldürəcək.

Narahat Adam. Adam lap nigaran qalır. Hardadı bu? İndi küçələr də sakit deyil. Hər tərəfdə narahatlıq...

Şübhəli Məxluq. Yəni, bizə inanacaqlar ki, bu, bir şey demədi – eləmədi, baxdı, baxdı – öldü?!

Ağciyər. Əşi, başqa söhbət eləyin. Görərsiniz, hər şey yaxşı olacaq. Bəlkə nə bilirsiz, ruhu gəlib elə bir şey dedi ki, arvadı üçün əsl sərvət oldu?!

Qorxacaq Qadın. Deyirsən, alınacaq?! Mən də inanıram. Qonşum deyir ki, gəlirlər. Var da, var bu dünyayla o dünya arasında var əlaqə. Mən inanıram.

Şübhəli Məxluq. Vallah, xoşbəxt adamsan. Belə ki sən inana bilirsən.

Narahat Adam. Yaxşı indi nə qədər gözləyəcəyik? Sən nə deyirsən?

Kimsəsiz. Mən deyirəm, qırx ildi bir-birimizi görmürük, gərək elə belə olaydı?!

Susurlar. Sükut.

Qorxacaq Qadın. Yox, bu gəlmədi. Bu qədər gecikməzdi. Mən gedirəm. Birtəhər çataram evə yəqin, ərim evdə məni öldürəcək. Ay Allah... Mən neyləyim?! Eh, getdim, getmədim, fərqi yoxdu, onsuz da öldürəcək. Qalıram. Soyuqdu, sizə soyuq deyil?

Şübhəli Məxluq. İndi ağıllımız gələr, qızışdırar... bizi.

Qorxacaq Qadın. Bu nədi, eyhamdı? Ədəbsiz. Səndən bundan artıq nə gözləmək olar?

Şübhəli Məxluq. Mənə deyirsən? Məktəbdə sevmirdiz bir-birinizi? Aşiq-məşuq idiz ki...

Qorxacaq Qadın. Oh, eh... sən nə qədər... nə qədər...

Şübhəli Məxluq. Nə qədər nə?

Kimsəsiz *(Şübhəli Məxluqa).* Necə adamsan e sən...

Şübhəli Məxluq. Sən sus.

Narahat Adam. Qurtarın. Qurtarın. Dedim, qurtarın, bəsdi.

Ağciyər. Olmadı ki, sən lap təhqirə keçdin.

Şübhəli Məxluq. Ona de, ona. Təhqiri o eləyir.

Ağciyər. Ayıb deyil sənin̂çün? Qadındı axı. Ayıb olsun. Gözləməzdim.

Şübhəli Məxluq. Mənə deyirsən, ayıbdı? Sən indi özünü bizə göstərirsən? Sən, mənə bax, bilmirsən, mən səni necə tanıyıram?! Bu saat mən açım ağzımı, sən də bax gör, kimə ayıb olsun. Gözləməzdi bu.

Qorxacaq Qadın. Ədəbsiz. Bəli, ədəbsiz.

Narahat Adam. Sakit, sakit, qoyun eşidək, səs gəldi, gəldi deyəsən, dəhlizdən kimsə keçdi.

Kimsəsiz. Vallah, ölüləri narahat eləmək düzgün iş deyil. Özü də təzə ölü ola. Deyirsən gəldi?! Birdən girər o otağa?

Şübhəli Məxluq. Gəldi, ağa gəldi. O otağa girəndə nolacaq, bəziləri kimi arvad-zad deyil ki, ürəyi getsin. Ölüdü də, ölüb, Allah rəhmət eləsin.

Hamı. Allah rəhmət eləsin. Son qəminiz olsun.

Narahat Adam. Bu nə oldu? Gələn-zad yoxdu. Deyəsən, qulağıma səsdi gəldi. Heç kim gəlməyib.

Birdən tükürpədən musiqi sədaları altında işıq gur yanır və sönür. Bir an sonra yenə həmən alaqaranlıq. Hamı əvvəlki yerində. Tərki-Dünya, elə bil, çoxdan burdadı.

Tərki Dünya. Bağışlayın, siz deyəsən kimisə gözləyirdiniz, cənablar.

Hamı hərəkətə gəlir. Hamının çiynindən, doğrudan da, elə bil, daş götürülür. Elə bil, bir an əvvəl çəkişən, qapışan, yola getməyən adamlar heç bunlar deyildilər.
Sakit və ahəngdar musiqi qəlblərə yağ kimi süzülür.

Narahat Adam. Gəl çıx da. Səbrimiz tükəndi ki.

Tərki Dünya. Allah səbrli bəndələrini sevir.

Şübhəli Məxluq. Ay maşallah, məndən başqa hamı az qalmışdı çıxıb getsin. Səni bir mən idim gözləyəcəkdim. İnanırsan? Ha-ha... *(Səsini kəsir.)*

Ağciyər. Mən bilirdim ki, gələcəksən.

Qorxacaq Qadın. Heç kim inanmırdı.

Kimsəsiz. Qırx il. Qırx ildi görüşməmişdik sənlə. Dəyişmisən? Dəyişməmisən? Necəsən?

Tərki Dünya. Qəribədi. Əlbəttə qəribədi. Əşi bir dayanın görüm. Gedirdiniz deyirsən? Bəs biz bir quranlıq söz danışmışdıq. Görüşüb daha ayrılmayacaqdıq. *(Ağciyərə)* Bunlar heç, bəs sən, sən bilmirdin ki, mən hökmən gələcəyəm.

Qorxacaq Qadın. Gələcəkmiş bu. Deyirlər, sən cənab həmişə hər yerə gecikirsən. Xasiyyətin belədi. Bunlar da səni gözləməyə məhkumdular. Gələndə salamsız gəlirsən, gedəndə sağolsuz gedirsən... *(Həsrətlə yalnız ona)* Gör bir nə vaxtdı görmürəm səni. Üzünü qaçırma. Qırışların çoxalıb, saçın bir az da ağarıb. Necə də dəyişmisən... *(Elə*

bil, ayılır, sərt, hamı üçün) Sən heç bir qırıq da dəyişməmisən. Necə vardın, elə həmənsən. Heç bilirsən, burda nə oldu?

Tərki Dünya. Dəyişmək üçün gərəkdir bir səbəb ola. O da yoxdur. Sən necə? Sən əvvəlkisən? Sən də bəlkə heç dəyişməmisən. *(Yavaşdan Qorxacaq Qadına)* Bunlar bilir?

Qorxacaq Qadın. Mənim üçün fərq eləməz. Ərim məni öldürəcək.

Kimsəsiz *(Tərki Dünyaya).* Sən bilməlisən. Bilirsən nə oldu burada?

Narahat Adam. Hə, hə. De, qoy bilsin. Tez olun, vaxt gedir, bir məsləhət eləmək lazımdı. Denən ona.

Tərki Dünya. Ehtiyac yoxdu. Gördüm. Mən onu gördüm. O biri otaqda. Mən ora girmişdim. Çox dəhşətli hadisədi. Necə oldu? Elə birdən-birə?

Narahat Adam. İnan mənə. Elə, vallah, birdən-birə gözlər axdı, dil topuq çaldı, nəbzini tuturam, nəbz yox, ürək dayanıb...

Şübhəli Məxluq. ...Ölüb...

Tərki Dünya. Barı bir şey dedi öləndə?

Hamı. Yox, demədi, iş də bundadı da, heç nə demədi.

Tərki Dünya. Kəlmeyi-şəhadət üçün də imkanı olmadı?

Narahat Adam. Kəlmeyi-şəhadət?

Qorxacaq Qadın. Kəlmeyi-şəhadət nədi, heç bir kəlmə də çıxmadı ağzından. Mən elə qorxdum, elə qorxdum... İndi bu heç. Biz bəlkə deyirik arvadına, uşaqlarına çatdırılası yazığın sözü vardı? Əlvida sözü... Ya da ailədi də, nə bilmək olar nəyi vardı, nəyi yoxdu... Pul-daş... Başa düşürsən də bizi?

Ağciyər. Qulaq as. Bunlar deyir bəlkə pulu, sərvəti barədə nəsə demək istəyib, deyə bilməyib. Çox varlıydı, deyəsən, rəhmətlik.

Hamı. Allah rəhmət eləsin.

Tərki Dünya. Son sözünü deyə bilməyib. Bəlkə vəsiyyət yazıb? Nə bilirsiz?

Şübhəli Məxluq. Bəlkə yazmayıb?

Tərki Dünya. Bəlkə yazmayıb... Yaxşı, bəs nə eləməliyik biz? Evinə zəng etmisiz? Xəbər vermisiniz bunun adamlarına?

Qorxacaq Qadın. Yox, hələ heç nə eləməmişik. Ancaq səni gözləmişik. Deyirlər, sən ruh çağıra bilirsən? *(Ancaq ona)* Heç biz bilməmişik, sizin bu istedadınızdan necə olub, xəbərimiz olmayıb...

Tərki Dünya. Ruhunu çağırmaq istəyirsiniz? Niyə? *(Ancaq Qadına)* Sən elə bilirsən hər şeyi bilirsən? Hər şeydən xəbərin var?

Kimsəsiz. Mən dedim onlara.Müsəlmançılıqda...

Tərki Dünya. Doğrudan da, niyə də yox? Səsə qoyaq. Mən razı. *(Kimsəsizə)* Sən necə? Bəs sən? Etiraz edən yoxdu ki? Əla fikirdi. *(Qorxacaq Qadına)* Bu ancaq sənin ağlına gələ bilərdi.

Qorxacaq Qadın *(ancaq ona).* Hardan bildin? Sən məni hamıdan tez və yaxşı anladın. Nə fayda? Qədrimi bilmədin.

Tərki Dünya. Yaxşı, yaxşı... Hamınıza qədir ağacı əkəcəyəm. *(Kimsəsizə)* Sən özünü bu gün yaxşı aparmısan, papasının balası, şuluq-zad eləməmisən ki, cəbr dərsində? Yadında?

Kimsəsiz. Nə yaxşı gəldin... Mən də razıyam, sən deyirsənsə müsəlmançılıqda belə şey olar, nə deyirəm, mən də razıyam. Əlbəttə, yadımdadı.

Tərki Dünya. Bax belə, hamı razıdı. Nə deyirəm, mən də razıyam. Çağıraq bunun ruhunu deyirsiz, çağıraq. Amma nolub sizə, yox, belə olmaz, mən qaraqabaq, qaşqabaqlı sifətlər görürəm. Siz, deyəsən, heç nə anlamırsınız, cənablar. Ruhlarla görüşə bu licimdə getməzlər. *(Şübhəli Məxluqa)* Hə, tez ol görüm, kini-küdurəti tez ol çıxar, çıxar at, at, tulla getsin... Təmizlən. Kirlisən. Təmizlə özünü.

Şübhəli Məxluq. Bir dəqiqə dayan. *(Ağciyərə)* Bura gəl *(çəkir onu bir tərəfə).* Bayaq nə deyirdin? Sən elə bilirsən, mənim sənin işlərindən xəbərim

yoxdu? Adam vurmusan, öldürmüsən, başqasının üstünə də yıxmısan. O yazıq da neçə ildi yatır, hələ neçə il də yatacaq. Sən sağ-salamat... azad... Hələ mənə deyirsən: ayıb olsun. Adam öldürmək necədi, gecələr yata bilirsən? Doğma qardaşını türməyə saldın, ax...

Ağciyər. Sən, sən uydurursan bütün bunları. Sən... mən heç kimi öldürməmişəm. Heç kimi. Sən... əclafsan. O bir təsadüf idi...

Şübhəli Məxluq. Bax belə. Başqasının gözündə tük görəndə öz gözündə tiri də gör.

Ağciyər *(pıçıltıyla).* Sən nə haqla... Sən kimsən axı... Mənim günahım yoxdu, yoxdu. *(Qışqırır)* Mənim günahım yoxdur. O bir iş idi, gəldi başıma. Haqqına danış.

Tərki Dünya. Dayan. Sus. Bunlar – sonra. Heç nə demək lazım deyil. Sus. *(Şübhəli Məxluqa)* Sən belə təmizlənirsən kindən, küdurətdən?.. Olsun. Keç belə. Otur burda.

Şübhəli Məxluq. Bəli. Mən indi hazıram. *(Keçib oturur)* Başqasının gözündə tir görürsən, gör. Amma öz gözünü də yaxşı aç, ordakı balaca tükü sən də seç.

Tərki Dünya. Cənablar, keçin bura. *(Kimsəsizə)* Sən. Sən keç bu tərəfə.

Kimsəsiz. İndi. Bir saniyə. *(Gəlib durur Şübhəli Məxluqun qarşısında, birdən-birə cəsarətə gəlir)* Sən nə haqla... camaata qara yaxırsan? Sən, sən özün... sən özünü onun-bunun maşınına toxundurub dəfələrlə xəstəxanalara düşüb naəlac günahsız Allah bəndələrini inək kimi sağmısan. Sənin peşən budu. Allah cəzanı verəcək – bir gün o maşınlardan biri səni, doğrudan da, əzib xurd-xəşil edəcək. Susursan, de də, de ki, mən yalan deyirəm, deyə bilməzsən.

Kimsəsiz danışdıqca Qorxacaq Qadın qulağını çəkib "iraq olsun, iraq olsun" deyir.
Şübhəli Məxluq heykəl kimi tərpənməz, lal.

Tərki Dünya. Bu lap gözlənilməzliklərlə dolu qəribə macəralar filminə bənzədi. Qurtardın? Boşaltdın ürəyini, gəl keç bura. Yox, ora yox, bu tərəfə. Daha heç kim danışmaq istəmir?

Narahat Adam. Mən danışmaq istəyirəm.

Tərki Dünya. Bəlkə lazım deyil? Sonraya saxlayaq bəlkə, hə?

Qorxacaq Qadın. Bu nə oyundu çıxarırsız? Mən gedirəm. Ərim məni öldürəcək.

Narahat Adam. Yox, indi. Mən deyəcəyəm. Xanım, siz bilin ki, uşaq bağçasında işləyən, uşaqların əziyyətini çəkən bir adam uşaq bağçasının ətindən evinə apara bilər...

Qorxacaq Qadın. Oy, bu nə deyir?

Tərki Dünya. Bura baxın...

Narahat Adam. Bəli, bəli...Yağından evinə apara bilər, almasından-armudundan doyunca yeyə bilər, hətta balalarını da o bağçadan yedirdə bilər. Adamıq, insanıq, biz bunları başa düşürük. Amma uşaq bağçasının puluyla, uşaqların boğazından kəsilən ətin, yağın puluyla... *(qışqırır)* özünə brilyant sırğa ala bilməz. Bilməz.

Tərki Dünya. Bura baxın. Qurtardın sən?

Qorxacaq Qadın *(əlilə qulağını tutur).* Oy, bunlar nə vəhşi adamlardılar. Oy, mən gedirəm. Oy, mən burda qala bilmərəm. Gedirəm. Gedirəm. *(Tərki Dünyaya)* Sən niyə vermirsən onun cavabını? Hamınız bir... Yox getmirəm. Açıqca qalacağam. *(Keçib özünə yer seçib oturur.)* Eybi yox, acıqca heç yana getməyəcəyəm. Yan, tökül. Buna bax, buna. İraq olsun. İraq olsun.

Narahat Adam. Mən ruhlarla görüşə ürəyimdə söz saxlayıb gedə bilməzdim. İndi, bəli mən hazıram. Olar burda oturum? *(Keçib oturur.)*

Tərki Dünya *(Ağciyərə).* Orda elə durma. Gəl sən də bura, gəl otur burda. Mənim yanımda.

Ağciyər. Sən ki, bilirsən, qardaşım özü götürdü boynuna. Dedi, mənim ailəm yoxdu, mən subayam. Sənin ailən, anamız...

Tərki Dünya. Mən bilirəm. Gəl bura. Fikir eləmə. Unut, unut bunları.

Ağciyər. Unutmaq olmur, olmur. Amma ürəklə vurdum bıçağı arxadan onun böyrünə. O vaxt aldığım ləzzətdən heç indi də utanmıram. Yenə vurardım, öldürərdim onu. Evində nə vardı yığışdırıb apardım. Mən evi süpürüb yığışdıranda hələ ölməmişdi, yerdə çabalayırdı. Bilirsən, əclaf idi, yetim-yesirin malını-pulunu alıb sələm verirdi, sonra basıb yeyirdi malı, pulu... Mən də düz hərəkət eləmişəm, mənim haqqım vardı. Haqqım vardı.

Tərki Dünya. Əlbəttə, əlbəttə, gəl, bax, burda otur. Özün də sakit ol. Sakitləş. Yaxşı, belə, əziz cənablar, arkadaşlar, dostlar, ağalar, bəylər və yeganə xanım. Hamı oturdu, yeriniz rahatdı, inşaallah. Deyəsən başlamaq olar. Yenə soruşuram son dəfə. Etiraz edən yoxdur ki? Çünki bu iş gərək ürəklə ola, hamı gərək razılıq verib otura burda. Yaxşı. Əla. Hamı razıdı. Bir şey də var ki, əzizlərim, bilməlisiz. Olur ki, bu ruh gəlib elə bir söz deyir ki, xoşunuza gəlmir. Belədə xahiş edirəm, sakitliyi qoruyasınız. Məndən başqa, mən icazə vermədən bir adam danışmasın. Yaddan çıxmadı ki, bir şey? Hə... bir şeyi də deməliyəm sizə. Bu işi mənə öyrədənlər, daha onlardan yaxşı bilən yoxdu bu işi, onlar da yüz

faiz söz verə bilmirdilər. Bəzən ruh gəlmir. Nə illah edirsən, gəlmir. Ya da ki... Bir sözlə, yüz faizli iş deyil bu iş. Çətin məsələdi. Görək. Anlaşıldı? Deyəsən, hamı başa düşdü. İndi isə... Azad olun hər bir ağırlıqdan. Ürəyinizi sıxan heç nə qalmasın beyninizdə. Heç nə. Beyin də, ürək təmizlənməlidi. Bu işin öz qayda-qanunu, nizamı, ölçüsü var. Elə belə, necə gəldi – olmaz.

Kimsəsiz. Başladıq, yəni? Başlayaq. Mənə soyuqdu.

Qorxacaq Qadın. Mən də üşüdüm.

Şübhəli Məxluq. Vaxt itiririk. Başlayaq. Bəli, başlayaq.

Narahat Adam. Bəlkə, deyirəm, qırxını gözləyək?! Axı isti-isti necə ola bilər ki?! Mənim ürəyim çox narahatdı. *(Şübhəli Məxluqa)* Sən belə şeyləri çətin başa düşəsən.

Şübhəli Məxluq. Mən? Sənin ürəyinin narahatlığının başqa səbəbi var.

Narahat Adam. Nə başqa səbəb? Sən nə danışırsan? Özünə bax. Sən... dedi də... kimsən.

Şübhəli Məxluq. Mən isə bilirəm, sən kimsən! Daha doğrusu, sənin donosçu ləqəbini, "kliçkanı" bilirəm. Deyim? Noldu? Hamıya deyim, ya təkcə sənə? Narahat Adam!

Narahat Adam. Sus. Axmaq. Deyəsən, başın bədəninə ağırlıq edir. Eybi yoxdur, mən səninlə başqa yerdə danışaram. Eybi yox. Heç eybi yox.

Şübhəli Məxluq *(Tərki Dünyaya).* Bax, indi, doğrudan da, başlamaq olar. Biz qurtardıq.

Tərki Dünya. Belə. Açılmayan sandıqlar açıldı bu gün. Qurtarın. Bəsdi, 10-cu sinifdə deyilsiz. İndi heç bir qayğın, heç bir tələşın olmamalıdı. Beynində, qəlbində, heç nə, heç kim. Azad və sərbəst olmalısan. Quş kimi. Quş kimi azad və sərbəst. Göylər sənin vətənindi. Göylər dolur sənin gözlərinin içinə, keçir qəlbinə, beyninə, doldurur bütün varlığını. Quşsan, azad, sərbəst, cəsarətli quş... Uç. Pərvaz elə.

Qorxacaq Qadın. Ay Allah, necə də soyuqdu... Niyə belə soyuqdu?

Ağciyər. Yaxın otur, utanma, gəl, gəl yaxına.

Qorxacaq Qadın. Canım, canım isinmir.

Şübhəli Məxluq. Bəlkə qırxını gərək gözləyəydik?!

Narahat Adam. Nə istəyirik biz? Bu saat ən vacib sual budu. Bəlkə deyirəm, biz bu... ruhdan nə soruşacağımızı əvvəlcədən dəqiq müəyyənləşdirək. Sonra yenə mübahisə-filan başlamayaq?!

Ağciyər. Düzdü. Məqsəd aydın olmalıdı.

Kimsəsiz *(Tərki Dünyaya).* Sən özün hər şeyi bilirsən. Sən özün soruş.

Tərki Dünya. Mən də razıyam məsələnin belə qoyuluşu ilə. Doğrudur, biz öz məqsədimizi aydın şəkildə bilməliyik. Biz ondan nə istəyirik? Nə sual verəcəyik... ona?

Şübhəli Məxluq. Yaxşı da, əgər biz bu işin altına giririksə, onda mən elə bilirəm, biz hamımız ondan bir şeyi öyrənmək istəyirik.

Kimsəsiz. Qardaşım düz deyir.

Tərki Dünya. Ay sağ ol. Bax belə.

Kimsəsiz. Bəli, qardaşım düz deyir. Biz istəyirik, biz istəyirik, əvvəla, rəhmətliyin son sözünü, vəsiyyətini bilək. Vəssalam, şüdtəmam.

Şübhəli Məxluq *(Ağciyərə).* Sən necə bilirsən, əzizim?

Ağciyər. Vallah, siz necə, mən də elə. Düz deyir, gəlin çağıraq görək bəlkə son nəfəsdə son sözünü demək istəyib, deyə bilməyib?!

Qorxacaq Qadın. Bəli, sonra da arvadına zəng edək. İndi gecədi, indi yox, yazığı niyə səhərədək incidək?! Biz onsuz da burda sabahadək qalmağa məhkumuq. Onun ağır günləri isə qabaqdadı. Yas vermək asan məsələ deyil. Qoy heç olmazsa bu gecə rahat yatsın. Çağır, çağır gəlsin. Sual aydındı. Hardadı var-dövlətin, arvadına, övladlarına nə qoyub getdin? Denən, biz də bilək. Açsın, söyləsin.

Narahat Adam. Çox doğru buyurursan.

Qorxacaq Qadın. Ah, eləmi?

Narahat Adam. Çox gözəl deyirsən, hi-hi-hi... Hələ bəlkə bizə də köhnə dostlar kimi nəsə vermək istəyib? Nahaqdan yığmayıb ki, bizi bir yerə bu gecə. Yazıq, rəhmətlik... bəxti beləymiş.

Qorxacaq Qadın. Hə, elədi, alnına nə yazılıbsa o da olacaq.

Tərki Dünya. Belə, belə... gözəl... Deməli məqsəd aydınlaşdı.

Hamı. Aydınlaşdı. Aydınlaşdı. Başlamaq olar, vaxtdı. Başlayaq.

Tərki Dünya. Sualımız qətidi. "Son sözün nədi, de bizə". Ailənə çatdırılası son sözün, son iradən nədi?! Belədi?! Bunu soruşuruq, eləmi?!

Hamı. Yordun bizi sən. Belədi. Belədi. Başlayaq. Nə uzadır e bu? Nədi görəsən məqsədi? Başlayaq.

Tərki Dünya *(qətiyyətlə).* Yaxşı başlayaq. Başlayaq *(əli ilə ürəyini tutur)*

Qorxacaq Qadın. Ərim məni öldürəcək. Öldürəcək... Noldu sənə?

Tərki Dünya. Heç...

Ağciyər. Yaxın otur *(Qadını qucaqlayır).* Qorxma, qorxma. Ona heç nə olmayacaq. Onda bilirsən, nə güc var?

Şübhəli Məxluq. Yəni, alınacaq görəsən?

Ağciyər. Alınacaq.

Tərki Dünya. Alınacaq soruşursan? Gəlin, bax, belə sən, sən də, əllərinizi gətirin, stolun üstünə qoyun əllərinizi, bax belə, indi əl-ələ verin. Tutun bir-birinizin əlindən. Yox, elə yox. Bax belə. Sən sağ əlini onun sol əlinə, sən sol əlini onun sağ əlinə yaxınlaşdır. Belə. Ay sağ ol. Əllər. Əllər stolun üstünə. Görüm əllərinizi. Belə. İndi isə sakit. Sakit olun. Və bərk-bərk sıxın bir-birinizin əlini.

Hamı stol ətrafında oturub və əl-ələ vermiş şəkildə donub qalıb.

Sıxın və ürəyinizdə. *(Kimsəsiz əl qaldırır, məktəbli kimi nəsə demək üçün elə bil icazə istəyir)* Yox, sonra, sonra, sakit olun, səs salmayın, ürəyinizdə, yalnız ürəyinizdə çağırın qırx illik uşaqlıq dostunuzu. Çağırın. Hər kəs onu qoy öz ürəyində çağırsın. Hər kəs qoy ürəyində onunla bağlı ən əziz xatirəsini yada salsın. O həmən əziz xatirənin işığına gələcək. O gələcək. Gəl... gəl... gəl... aman *(ürəyini tutur).*

Qorxacaq Qadın. Noldu?

Şübhəli Məxluq *(pıçıltıyla).* Noldu buna? Hanı, heç kim gəlmir ki?

Narahat Adam. Sussss...

Şübhəli Məxluq. Mən... Niyə mən?..

Ağciyər *(pıçıltıyla).* Noldu sənə?

Tərki Dünya. Heç... heç... Diqqətinizi dağıtmayın. Gəl... Gəl... Sən gəlməlisən. Gələndə bizə də o tərəflərin işıqlı qaranlığından pay ver...

Qorxacaq Qadın. Ay Allah...

Tərki Dünya. Pay ver... İstəməsən də... Gəl... Gəl... Gələndə bizi də içindən gəldiyin soyuqluq alovunun dilinə tut. Anlat bizə bu alovun titrəşən və oynaşan dillərindəki mənanı. Gəl... gəl... istəməsən də gəl... gəl... aman...

Qorxacaq Qadın. Ay Allah, adamın canına vicvicə düşür lap. Mən xoflanıram.

Ağciyər. Mən də. Qorxma. Yadına sal. Sal yadına. Gör o bizə nəyi xatırlatmaq istəyir??

Qorxacaq Qadın. Nəyi? Nəyi salım yadıma?

Ağciyər. Unutmusan. Qırx il əvvəl... Bənövşə...

Qorxacaq Qadın. Nə?

Ağciyər. Bənövşə də. Bənövşə.

Qorxacaq Qadın. Bənövşə?

Ağciyər. Hə də, Bənövşə.

Narahat Adam. Nə "Bənövşə", "Bənövşə" salmısız? Sakit olun. Məqamın sirri var. Qaçırmayın.

Qorxacaq Qadın. Bənövşə?.. Bəndə düşə?..

Ağciyər. Bizdən sizə...

Qorxacaq Qadın. Kim düşə?

Tərki Dünya (*əli ilə ürəyini ovuşdurur).* Sakit. Sakit olun. Mən, elə bil, nəsə səs eşidirəm. Ürəyinizdə, ancaq ürəyinizdə danışın. Gəl... gəl... gəl...

İşıqlar yanır, sönür. Həzin musiqinin fonunda, elə bil, hər tərəfdən hərəsi bir işıq üstə təkrar ola-ola səslər eşidilir. Bəlkə də bu adamların ürəyindən gəlir bu səslər? "Bənövşə, bəndə düşə. Bizdən sizə kim düşə? Adı gözəl, özü gözəl..." Neçənci dəfə təkrar olunur bu uşaq oyununun sadə sözləri və otaqdakılar bu sadə və təmiz sözlərin işığında özlərinin də dərk etmədikləri və ya daha doğru olardı söyləyək ki, dərk eləmək istəmədikləri bir dəyişmədədirlər. Təkcə Tərki-Dünya bu dəyişmədən kənardadır.

Tərki Dünya. Gəl... gəl... Şam işığını gəlişinlə sənmi titrətdin? Dayanın. Sakit. Sakit. Dayanın... *(Hamı donub qalır, musiqi kəsilir, işıq oyunu bitir.)* Sən... Sən gəldin? Yəni, doğrudan, sən gələ bildin? Sən... burdasan?

Elə bil, çox-çox uzaqlardan bir qışqırıq və həm də lap yaxından bir pıçıltı eşidilir. Bu, əlbəttə ki, bir az sonra Ruhun səsinə dönəcək. Tərki-Dünya son gücünü yığır.

Tərki Dünya *(əli ürəyində).* Sən burdasan?

Hər yerə dərin sükut çökür.

Ruh. Mən burdayam.
Qorxacaq Qadın. Aman.

Bu "aman" nidasından hamıya pay düşür və adamlar yavaşıdılmış kadrda olan kimi hərəkət etməyə başlayırlar. İşıq zəiflədikcə bu hərəkət yavaşıyır və qaranlıq çöküncə və hamı əriyib bir-bir yox olmağa başlarkən...

BİRİNCİ HİSSƏNİN SONU

İKİNCİ HİSSƏ

Yenə həmən otaq. Yenə həmən adamlar. Elə bil, hər şey bir qədər əvvələ qayıdır və bayaq donub qalmış bu adamlar bir qədər əvvəldə söylədikləri bəzi sözləri təkrar eləməyə daxili bir ehtiyac duyurlar.

Tərki Dünya. Baxın, baxın. Şamın işığı titrədi. O gəldi. O bizi sındırmadı. Gəldi. Sən burdasan? Söylə, burdasan?

O biri otaqdan süzülən ağ və yumşaq işıq yenə də yavaş-yavaş, yorğun-yorğun göz qabağındaca, kədərli bir səsə çevrilir.

Ruh. Mən burdayam.

Qorxacaq Qadın. Aman!

Ağciyər *(təbəssümlə).* Bənövşə, bənövşə...

Narahat Adam. Bəsdi də. Nə salmısız bənövşə, bənövşə? Susun.

Şübhəli Məxluq. Doğrudan, bu, yəni, gəldi? Biz yuxu görmürük ki? Sən də eşitdin?

Narahat Adam. Susun. Allahınız olsun. Qoyun, görək, nə deyirlər?

Qorxacaq Qadın. Mən üşüyürəm.

Kimsəsiz. İndi nə olacaq? Biz indi neyləməliyik?

Tərki Dünya. Susun. Səs salmayın. Susun. Sakit. Ürəyinizdə. Ancaq ürəyinizdə danışın. Sakit. Sakit... Sakit... *(Ruha)* Sən bizim səsimizə səs verdin. Sən burdasan. Şama baxın, şama. Titrədi. O burdadı. O danışmaq istəyir, nəsə demək istəyir. Sakit olun o nəsə deyir, nəsə deyir, mən, elə bil, eşidirəm onu. Hə o, belə deyir: Mənim sözlərimi hər biriniz öz ürəyinizdə eşidəcəksiniz.

Hamı *(donuq bir vəziyyətdə, yavaşmış kadrdakı kimi).* Necə yəni? Hər birimiz öz ürəyində? Bu necə olacaq? Bu nə deyir? Mən gedirəm. Ərim məni öldürəcək. Yuxudu, yuxudayıq biz, inanmayın. Şam, şam, şama baxın, titrədi. Nə olsun? Şam titrəyəndə bəyəm nolur?

Tərki Dünya. Şam titrədi. Hər titrəyişi sözə oxşayır. Görmürsüz. O şamın içindən danışır.

Qorxacaq Qadın. Aman Allah. Eşidirsən bu nə deyir? *(Ağciyərə)* Sən qorxmursan?

Ağciyər. Vallah nə deyim?! Maraqlıdı. Yatsam yuxuma girməzdi. Ondan-bundan eşitmək bir şey, özün şahidi olmaq bir şey...

Qorxacaq Qadın. Görəsən bizə bir şey deyəcək? Sən necə bilirsən?

Narahat Adam. Düz deyir. Soruş ondan görək bizə deyəsi sözü var?

Qorxacaq Qadın. Kimə desən inanmaz. İnanarlar bizə görəsən?

Tərki Dünya. Soruşum? Soruşum deyirsiz? Soruşuram. *(Hər şeydən təcrid olunaraq)* Sən... Hələ də burdasan? Bizimləsən? Söylə, burdasan?

Şamın dili birdən az qalır şölə vursun.

Bəli, mən bildim, burdasan. Sən bizimləsən. Ver, ver cavabını. Söylə, söylə sözünü. Biz səni, ancaq səni, yalnız səni, fəqət səni eşitmək istəyirik. Bizi duydunmu? Sən burdasan?

Ruh *(elə bil pıçıldayır, amma bu pıçıltı damarda qan donduran pıçıltıdı).* Mən burdayam.

Qorxacaq Qadın. Aman Allah...

Tərki Dünya. Sus. Sakit olun. Biz səni eşitdik. Sən gəldin. Sən bizimlə danışmaq istəmirsən?

Ruh. Mən sizinlə danışıram. Sizin hər biriniz məni öz ürəyində eşidir.

Ağciyər. Ay Allah...

Qorxacaq Qadın. Vallah heç kim bizə inanmayacaq.

Narahat Adam. Düz sözə kim inanmaz? İnanar. Eşitdik. Yəqin, hamı eşitdi. Soruş, yenə soruş.

Şübhəli Məxluq. Yəni, bu yuxu deyil, deyirsiz?

Tərki Dünya. Soruş, soruş...

Narahat Adam. Tez ol, soruş, birdən çıxıb gedər. Soruş harda gizlədib varını-dövlətini. Bu ev... bunundu? Kupçası var?

Qorxacaq Qadın. Soruş son nəfəsində nə demək istədi?

Kimsəsiz. Qızıldan, var-dövlətdən kim xeyir görüb?

Şübhəli Məxluq. Sən dayan görüm. Çəkil o tərəfə.

Narahat Adam. Bəs səhərdən niyə yığışmışıq burda? *(Əmrlə)* Soruş. Yoxsa...

Tərki Dünya. Yoxsa? Yaxşı, yaxşı. Bu saat. Bu saat. Dayan. Yaxşı. Soruşuram. Bu saat. *(Ruha)* Sən... Sən... *(qətiyyətlə)* Sən niyə belə qəfildən getdin?

Şübhəli Məxluq. Eh...

Ruh. Mən darıxdım. Bu sizə maraqsız olar.

Tərki Dünya. Yox, danış, danış, aç bizə. Sən bizi bura dəvət elədin. Bu qədər ildən sonra bizim hamımızı bir yerə yığdın. Bura sənin evin deyil. Bura niyə çağırdın bizi?! Niyə burda öldün sən? Bu şəkillər kimindi?

Ruh. Sən bunları bilmək istəyirsən? Nolar. Qulaq as onda. Düz on ildi mən evdən eşiyə çıxmıram. Düz on ildi həsrətəm dünyaya. Məni bu həyata heç nə bağlamır. Həkimlər demişdilər şərai-

timi dəyişmək olmaz. Evdə, ancaq evdə yaşamalıydım. Akvarium balıqları yadına gəlir? Bura haradı? Bura mənim atamın evidi. On ildi qapısı bağlıdı. Bu şəkillər – atamdı, anamdı, bu əmimdi, bu da... Bir həftə bundan qabaq on iki yaşlı kiçik oğlum mənə sirr açdı. Ata, dedi, mən, bir dostum var, onunla and içib əhd-peyman bağladıq. Yadınıza bir şey düşmür?

Tərki Dünya. Əhd-peyman? Yadıma düşdü, dayan, dayan, neçə yaşımız vardı?

Ruh. Oğlum dedi əhd-peyman bağladıq ki, axır günümüzə qədər bir yerdə olaq, dostluğumuz, qardaşlığımız heç zaman pozulmasın.

Tərki Dünya. Hə elə idi, "...dostluğumuz, qardaşlığımız heç zaman pozulmasın..."

Ruh. Siz yadıma düşdünüz. Düşündüm, biz indi görüşsək, bir-birimizə deyəsi sözümüz olacaq? On il olar evdəyəm, hər şeydən təcrid – bezdim bu həyatdan. Sizi axtardım, tapdım. Dedim, görüm nə edirsiz, nə etmirsiz. Amma siz...

Hamı. Amma biz...

Ruh. Amma siz... Nə illah elədim, siz biriniz də demədiniz bu gün nə işin sahibisiniz, bu gün nə ilə məşğulsuz?! Hər birinizin dilində ancaq bir söz vardı: yadındadı, yadındadı, yadındadı... Bizim ancaq dünənimiz vardı, bu günümüz yoxdu bizim.

Mən birdən darıxdım. Bu on ili hamıdan qaçmaqda heç nə itirməmişdim. Dünən onsuz da mənimki idi. Heç bilmədim necə oldu, ürəyim birdən az qaldı yerindən çıxa, gözümün qabağını ağ pərdə tutdu. Sizin qorxudan böyümüş gözləriniz... Bu qorxu sevgidən doğmamışdı. "Bu ölsə nə cavab verəcəyik?" qorxusu idi. Sizi bu qorxu içində qoyub getmək... çox maraqlı idi. Gərək evdən çıxmayaydım. Ən sadə, bəsit cavab budu.

Tərki Dünya. İndi biz... nə edək? Sənin son sözün budu?

Ruh. Son söz... Kimə lazımdı son söz? Mən orada darıxırdım. Bu da olsun son söz.

Kimsəsiz. Yaxşı dedi.

Qorxacaq Qadın. Soyuqdu, soyuqdu mənə.

Şübhəli Məxluq. Özüylə bir şaxtalıq qış gətirdi. Nahaqdan "soyuq məzar" demirlər ki. Mən də üşüdüm.

Narahat Adam. Bu niyə belə danışdı? Heç nə başa düşmürəm. Bilirsən evdən çıxmaq olmaz, hakim icazə vermir, çıxma da. Buna... bunun adına intihar deyərlər.

Tərki Dünya. *(Ruha)* Amma... yanımıza bu dəfə heç, deyəsən, gəlmək istəmirdin? Elə bil, gec oldu gəlişin...

Ruh. Mən... azmışdım.

Tərki Dünya. Sən azmışdın? Sizlər aza da bilirsiniz?

Ruh. Mən... azıb qırx il əvvələ getmişdim. Səslər, səslər məni çaşdırdı. Səsiniz qırx il əvvəlin səsi idi.

Ağciyər. Qırx il əvvələ?

Qorxacaq Qadın. Gör bir, sən Allah...

Kimsəsiz. Bizik, bizik günahkar. Bizik.

Narahat Adam. Hə, doğru deyir. Soruş, hələ bir nə gördü qırx il əvvəldə?

Qorxacaq Qadın. Soruş. Soruş.

Tərki Dünya. Özünüz soruşun. Mən istəmirəm.

Hamı. Sən. Sən soruş. O sənin*lə* danışır. O sənə cavab verir. Onun dilini sənsən ki, bilirsən. Soruş, qırx il əvvəldə nə gördü?

Tərki Dünya. Yaxşı. Yaxşı. *(Ruha)* Sən hələ burdasan? *(Şam titrəyir, yenə hamı qorxu içində susur)* Burdasan. Sən... sən deyə bilərsənmi, deyə bilərsənmi... *(birdən qətiyyətlə)* Qırx il əvvəl mən necə idim? Mən... unutmuşam.

Şübhəli Məxluq *(elə bil, yuxudadı).* Qəribədi, mən də unutmuşam.

Tərki Dünya *(Ruha).* Sən getdiyin o qırx il əvvəldə məni gördünmü? Tanıdınmı məni? Söylə, sən

məni tanıdınmı? Mən sənə nə cür göründüm? Xoşbəxt idim mən?

Ruh. Mən səni tanıdım.

Tərki Dünya. Qırx il əvvəl... Mən özüm-özümü unutmuşam.

Ruh. Qırx il əvvəldə mən bir sinif otağı gördüm. O sinif otağında çoxlu uşaq vardı. Sən də vardın orda. Sən çox sakit göründün mənə. Elə bil, bir az kədərli idin. Məndən gözünü çəkə bilmirdin. Sən də məni görmüşdün. Baxdın, baxdın, birdən yerə oturdun. Yıxılmadın, elə belə çömbəlib oturdun. Başına yığışdılar. Əl üstündə apardılar səni evinizə. Səndən başqa heç kəs məni görmədi.

Tərki Dünya *(sevincək).* Düz deyir, düz deyir. Yadınızdadı, on iki yaşımız vardı, bir dəfə məktəbdə mənim qorxudan ürəyim getmişdi. İlk ürəkgetməm idi. Dedilər, gözünə nəsə görüküb, keçib gedər. Neçə gün özümə gəlmədim, heç nə yeyə bilmirdim, rəngim sap-sarı... O həkim gəldi, bu həkim getdi. Heç düzəlmirdim. Nənəm özünü öldürdü, məni pirə apardılar. Düz deyir. Sənmişsən gözümə görükən. O zaman heç nə anlamadım. Deməli, sən idin. Daha, daha nə gördün? Söylə mənə. Daha nə vardı? Danış.

Hamı hərəkətə gəlir, kor kimi dolaşmağa başlayırlar səhnəni. Elə bil, kimisə axtarırlar.

Kimsəsiz. Mən nə cür idim, deyərmisən? Söylə mənə...

Narahat Adam. Məni də tanıdınmı? Tanıdınmı məni?

Şübhəli Məxluq. Məni gördünmü? Neynirdim mən? Neynirdim?

Qorxacaq Qadın. Bəs mən? Mən necəydim? Qəşəng uşaq idim? Məni gördün?

Ağciyər. Mən... mən... mən də unutmuşam. Söylə mənə, mən nəyi unutmuşam? Nəyi unutmuşam, söylə mənə.

Ruh. Mən səni tanıdım. Sən çox gözəl idin. Mənə məhəl də qoymadın. Sən isə... mənim məktəb yeməyimi əlimdən alırdın. Zorla alırdın.

Ağciyər *(Birdən yerə mıxlanır).* Yox. Yox. Yox.

Ruh. Mən verməк istəmirdim. Sən zorla alırdın.

Ağciyər *(yuxudaymış kimi).* İndi bir tikə çörək tapmaq üçün səhərdən axşamacan heyvan kimi yorturam. Haynan gələn vaynan getdi. İndi ruzi atlı olub, mən piyada. Hər şey məhkəmələrə, istintaqa getdi, əridi, yox oldu...

Narahat Adam *(o da sanki birdən yerə mıxlanır).* Bəs məni? Məni də gördünmü? Mən sənin lap yanında otururdum. Sənin ürək yoldaşın idim. Mən nə cür idim?

Ruh. Mən səni də gördüm. O mənim çörəyimi əlimdən alan zaman sən də üzünü yana döndərib gülməyini gizlədirdin. Altdan-altdan gülürdün. Nəyə sevinirdin – mənim ac qalmağıma? Gülməyini heç cür saxlaya bilmirdin.

Narahat Adam. Yox. Yox. Elə deyildi. Yox. Elə deyildi... Mənim...

Kimsəsiz. Bəs mən? Mən necə? Mən. Mən neynirdim? Qırx il əvvəldə məni tanıdın?

Tərki Dünya *(birdən özünə gəlir).* Dayanın. Dayanın, hamımız elə tutmuşuq "Mən necəydim", "Mən neynirdim"... Dayanın bir. Sakit olun. Bu nə suallardı biz veririk?! Biz bəyəm bununçün çağırdıq onu? Ağlınız çaşıb? Özünüzə gəlin. Qurtarın. Qurtaraq. Qırx il əvvəl nə olub, nə olmayıb, qurtardı getdi. Orda, o tərəfdə nə var, nə yox – bunu soruşaq. Əsas məsələ budu – orda nə var?.. Qırx il əvvəl, qırx il əvvəl... Nə itirmisiz qırx il əvvəldə, lap elə iki gün əvvəldə...

Qorxacaq Qadın. Sağ ol, çox sağ ol, sən, əlbəttə, heç nə itirməmisən. Özün soruşdun, cavab aldın, ürəyin gəldi yerinə... bizə nədi, olmaz? Mən də bilmək istəyirəm. Mən də unutmuşam... olmaz? Nədi, olmaz? Niyə olmaz axı?.. Niyə?.. Niyə?.. *(Ağlamsınır)* İstəmirəm. İndi ki belədi, heç nə istəmirəm.

Kimsəsiz. Dayan, dayan, bu nədi, al, al sil gözünü *(dəsmal verir)* ağlama, eşidirsən, qaçırdarsan onu. Bəlkə *(Tərki Dünyaya)* hər adam öz sualını özü versin. Hərə axı özünə cavabdehdi, belə yaxşı deyil?! Qoy kim nə istəyir, onu da soruşsun.

Tərki Dünya. Olsun, elə olsun. Elə yaxşıdı. İndi ki, kontakt yarandı, hərə qoy özü soruşsun.

Kimsəsiz. Elə yaxşıdı. Sənə də əziyyət az düşər. Olar?

Tərki Dünya. Soruş. O, yəqin, artıq hər birinizə cavab verəcək. Hələ getməyib, soruş...

Kimsəsiz. Sağ ol. *(Üzünü havaya, ora-bura tutur)* Mən də soruşmaq istəyirəm, icazə varsa... Sən, sən deyə bilərmisən... Onu gördünmü?

Ruh. O, gözünü qara yazı taxtasına dikmişdi. Qara boşluğa baxırdı. Susurdu.

Kimsəsiz. Elə həmişə susdu. Küsmüşdü, elə bil, hamıdan. Sağ ol. Bilmədin, niyə susurdu o?

Ruh. Mən bilmədim.

Ağciyər *(birdən özündən çıxır).* "Bilmədim, bilmədim". Bu nədi, ələ salmısan bizi? Necə yəni, bilmədim?! "Bilmədim" yoxdu. Get, get yenə geriyə. Hamımızın arasında bircə sən bacarırsan bunu. Get, öyrən, gir bir-bir hamımızın qəlbinə. De bizə, eşidirsən, de bizə – biz nə cür idik?! Biz... kim

idik?! Unutmuşuq, hamımız unutmuşuq. Araya, elə bil, qara bir boşluq girib.

Tərki Dünya. Doğrudan da, aramızda qara bir boşluq var *(ürəyini tutur).*

Narahat Adam. Nə deyir bu?

Şübhəli Məxluq. Hansı boşluqdan danışırlar?

Kimsəsiz. Düz deyir, vallah düz deyir – unutmuşuq.

Narahat Adam *(birdən ayılır).* Nəyi düz deyir? Unutmuşuq? Nəyi? Nolsun unutmuşuq? Neynirəm mən, kim yıxıldı, kimin ürəyi getdi, hə, ya daha nə oldu, nə olmadı kim susdu, kim susmadı... Heç dəxli var?

Şübhəli Məxluq. Yox, düz danışmırsan. Qoy desin. Mənə də maraqlıdı.

Kimsəsiz *(Narahat Adama).* Sən... sən... hansı haqla...

Narahat Adam. Sən sus. Mane olma. Nədi sənə maraqlı gələn? Qara boşluq?! Yox bir. Neynirəm, mən necə idim, nəyimə gərəkdi, kimdən xoşlanırdım? Nədən acığım gəlirdi? İstədiyim nə idi? Almaq istədiyim, vermək istədiyim...

Ağciyər. Satmaq istədiyin...

Narahat Adam. Kimi? Kimi deyirsən?

Ağciyər. Kimi nədi, kimi demirəm, nəyi deyirəm. O satmağı demirəm, onu özün bilərsən, deyirəm, həmişə nəsə satardın, yadından çıxıb – znaçok, saqqız, raqatka?..

Şübhəli Məxluq. Mənim də yadımdan çıxıb. Unutmuşam. Qoy o salsın yadıma. Bütün unutduqlarımı. Hamısını.

Narahat Adam. Bütün unutduqlarımı, bütün unutduqlarımı... Heç bilirsən, nə deyirsən? Yadından çıxıbsa, deməli, belə də lazımdı.

Qorxacaq Qadın. Düzdü, ərim məni öldürəcək. Amma sal mənim də yadıma. Mən də unutmuşam. Xatırlamaq istəyirəm, xatırlaya bilmirəm. Unutmuşam – kimi sevirdim, kim məni sevirdi... Sevirdim, sevirdim – bu yadımdadı. Amma kimi? Unutmaq olmazdı. Heç cür olmazdı. Nolar, bu da mənim səndən xahişimdi, son xahişimdi. Sənin xətrini mən çox istəyirdim. Unutma.

Tərki Dünya *(gəlib diqqətlə Qorxacaq Qadının üzünə baxır).* Əlbəttə, unutmaq olmazdı. Əlbəttə, unutmaq lazım deyildi. *(Üzünü tutur küncəbucağa, bilinmir bu sözləri Ruha deyir, ya Qorxacaq Qadına deyir, ya da burdakılardan kimə deyir)* De görüm, yadındamı günlərin bir günü səninlə ikimiz evə gedirdik. Həmişəki qaranlıq tini burulub əyri

dalanımıza girdik. O qaranlıqda uzaqda titrəyə-titrəyə qalmış lampanın zəif işığında külək elə vıyıldayırdı ki, elə bil harasa tələsirdi, yol gedəsiydi, azıb girmişdi dalana. Çaşırdı, hirslənirdi, söyüş söyürdü, elə bil. O lampa da gülməliydi, elə bil, utanır, qızarırdı. Bunlar heç. Amma biz o dalanda səninlə bir xeyli danışdıq. Üşüyə-üşüyə bir ayağımızı soyuqdan götürüb o biri ayağımızı qoyurduq yerə. Qar havasıydı, şaxta, sazaq... Nədən danışırdıq?! Elə bil, nəyəsə and içirdik. Nəyə and içirdik? Unutmuşam. Sən o əyri dalanı xatırlayırsan? Söylə, nədən danışırdıq?.. Üzmə məni, aman... *(Ürəyini tutur)* Söylə...

Narahat Adam. Düzdü, həmin gün məni gic gülmək tutmuşdu. Bütün günü elə gülürdüm. Sənin ac qalmağına gülmədim. İndiki günəcən ən çox hirsləndiyim vaxt həmən gülmək tutur məni. Nəyə gülürdüm, nəyə sevinirdim? Xoşbəxt idim, bədbəxt idim bəlkə? Deyə bilərsən? Unutmuşam.

Ağciyər. Noldu sizə yenə? Baş alıb getdiniz. *(Tərki Dünyaya)* Sən demədin, soruşaq görək, ora necədi? Ora! Əsas məsələ demədin budu? *(Ruha)* De mənə, de mənə, görüm... Mən səndən soruşmaq istəyirəm, sən gəldiyin o yer, ora *(birdən, elə bil, dəyişir)* dayan, dayan, sən gördüyün o günün

səhəri ilk dəfə məktəbə qonşumuzun qızı ilə gəldim. Bütün yolu yalvardım, yaxardım, axırda insafa gəldi, sumkasını verdi mənə, məktəbəcən daşıdım. Məktəbə çataçatda sən çıxdın qarşımıza. Mən özümə sığışdırmadım ki, qızın çantasını daşıyıram, atdım çantasını yerə, qaçdım. Gizlənib başladım sizə baxmağa. Sən getdin çantanı qaldırıb qıza verdin. Nəsə deyirsən ona. O səni dinləyir, gülümsəyir, deyəsən. Biz sonra səninlə ikimiz harasa gedirik. Birinci dərsə girmirik. İkinci dərsdən sonra səni də, məni də yaxası cırıq, üstü-başı nə gündə direktor gəlib məktəb həyətində tutur. Ayırırlar bizi. Yadındadı? Nə demişdin o qıza sən? Niyə o sənə elə təbəssümlə baxırdı? Hardadı indi o? Qonşumuz idilər, köçüb getdilər, izləri-tozları da qalmadı. Mən niyə elə elədim? Səni söydüm, səninlə dalaşdım. Niyə? Nə üçün? Hardadı indi o günlər? Necə gözəl günlər idi?.. İtdilər, getdilər...

Kimsəsiz *(Ruha).* Sən yenə gedə bilərmisən qırx il əvvələ? Bu qara boşluqdu, nədi, üstündən uçub getmək necə, çox çətin olmaz ki sənə? Gedərmisən? Və gəlib söylərmisən bizə, biz nə cür idik qırx il əvvəl?! O nə cür idi?

Qorxacaq Qadın. Nəyi və kimi sevirdik?

Narahat Adam. Nəyə və kimə nifrət edirdik?

Ağciyər. Kimlərdən qorxurduq?

Tərki Dünya. Nəyə görə yaşamaq istəyirdik?

Şübhəli Məxluq. Nəyə görə ölmək istəyirdik?

Kimsəsiz. O boşluqdan keçib gedib bunları bizə gətirə bilərmisən? Bizə bu lazımdı. Sabah nə olacaq, ora necədi – qalsın. Bizə lazım olan qara boşluqdan o tərəfdəki bizik.

Tərki Dünya. Söylə. Qaytara bilərmisən bunları bizə? Söylə.

Ruh. Mən... çalışaram.

Yavaşıdılmış musiqinin təkraredilməz ahəngində həmən ağ işığın yox olmağı Ruhun bu adamların arasından bir kəpənək kimi sakitcə uçub uzaq bir səfərə çıxdığını deyir. İşıq zolağı o biri otağa çəkilir, musiqi susur və başlayır üzücü gözləmə...

Qorxacaq Qadın. Mən üşüyürəm. Bu səhər də açılmadı ki, çıxaq gedək evimizə. Ərim məni öldürəcək.

Şübhəli Məxluq. Boşuna vaxt itiririk. Bir söz-dü, dedi, getdi.

Kimsəsiz. Qəribədi. Ona nə düşmüşdü yalan-dan desin. Qorxurdu?

Narahat Adam. Qırx il əvvəl, qırx il əvvəl... Gərək sabahı soruşaydıq.

Şübhəli Məxluq. Onlar bəyəm sabahı görə bilirlər? Bilmirlər. Boşuna gedir vaxtımız. Boşuna.

Qorxacaq Qadın *(etinasız).* Deyirsiniz, yəni, gəlməz? Amma məni... nəsə yenə üşütmə tutdu. Baxarsız indi, mən ki, üşüdüm gələcək. *(Gəlib Tərki Dünyanın yanından saymazyana keçir, Ağciyərə)* Ay səni – "bənövşə". O haradan gəlib düşdü yadına?

Ağciyər. Əllərimizi, unutmusan, lap uşaqlıqda olan kimi tutmuşduq. Bərk-bərk. Az qala barmaqlarımızı sındıracaqdıq. Elə bil, kimdisə aramıza soxulmaq istəyir, biz də onu buraxmırıq. Yadına düşdü?

Qorxacaq Qadın *(əsnəyə-əsnəyə).* Düşdü, düşdü. Bənövşə...

Ağciyər. Bəndə düşə... Hə...

Şübhəli Məxluq. Ay maşallah...

Narahat Adam. İşə düşmüşük də. Bənövşə, bənövşə...

Tərki Dünya. Yaxşı, yaxşı sakit ol, nə var burda? Uşaq oyunudu da, əsəbiləşmə.

Qorxacaq Qadın. Lağ eləmək də lazım deyil. Heç lazım deyil.

Kimsəsiz. Bəlkə bir də çağıraq? Mən lap nigaran qaldım. Yəni, keçmişə getmək belə çətinmiş?!

Tərki Dünya. Keçmişə? Keçmişə niyə? Nə bilirsən, bəlkə qırx il əvvəl irəlidədi?..

Qorxacaq Qadın. Bəli də, eradan əvvəlki illər, əsrlər dal-dalı gələn kimi bizim keçmişimiz də, sən demə, hələ irəlidəymiş... Nə danışır bu? Bu da bizim ağıllımız...

Narahat Adam. Çağıraq. Çağıraq.

Hamı. Vaxtdı, gərək gələydi indiyənəcən. Çağırmaq lazımdı *(hamı dönür Tərki Dünyaya).*

Tərki Dünya. Mən? Mən niyə?

Kimsəsiz. Sənin səsin gəlir.

Şübhəli Məxluq. Bu nə zaman xoşluqla nəyəsə razı olub?! Gərək bir-bir yalvaraq biz buna...

Tərki Dünya. Cənablar, unutmayın ki, artıq siz də onunla əlaqə qura bildiniz. Çağırın, cəsarətli olun, çağırın, gələcək.

Narahat Adam. Sən çağıracaqsan onu, ya yox??? *(Elə bil, birdən nəsə xatırlayır və yuxudakı kimi)* Dayan, dayan, o gün idi, əlbəttə, o gün idi, mən ilk dəfə həyatımda ölmək istədim, uşaq idim, nə yaşım vardı, amma ölmək istəyirdim. Atam yenə də anamı bütün həyət adamının gözü qabağında döydü. Arvad həyətdəki krantın yanında üzü üstə yerə yıxılıb başını tutdu. Atamın ürəyi soyumurdu. Bir təpik, iki təpik, üç təpik. Vururdu, vururdu, qabırğasına, ombasına, ayağına, qarnına, təpik, təpik... *(Qulağına səslər gəlir).*

Səslər. Vurma a kişi, bəsdi vurma yazığı. Çəkil, çəkil görüm, öldürdün ki, sən bunu, vurma. Dayan. Tut, tut əllərini. Çəkil, çəkilin, buraxın məni. Öldürəcəyəm. Öldürəcəyəm. Çəkil. Öldü.

Narahat Adam *(yuxudaymış kimi).* Güclə çəkib apardılar atamı. Gecə başımı yorğanın altına soxub... öz-özümə qəflətən gülməyə başladım. Nə zaman yuxuya getdim dodağımda təbəssüm, bilmirəm. Səhər məktəbdə yenə də o gic gülüş hardan gəldi tapdı məni, əl çəkmədi. Ölmək barədə fikirləşə-fikirləşə, bunu nə cür edəcəyimi götür-qoy edə-edə elə hey güldüm. Axırda gördüm, hamı mənə nəsə birtəhər baxır, bəlkə elə bildilər ki, başıma hava gəlib?! Yadıma düşür. Mən gülürəm. Elə hey gülürəm. Atam öləndə burda deyildim, kişini basdırmağa da çatdıra bilmədim özümü. Qar, çovğun. Moskvadan təyyarə üç günə gəldi. Anam qırxına qədər qəbr üstünə gizli-gizli getdi, basdıranda özünü az qala öldürürmüş arvad*. (Birdən ayılır)* Mənə nə oldu belə?..

Şübhəli Məxluq. Bax görürsən, sənin yadına düşdü. Mənimsə yadıma heç nə gəlmir. Gəlin, gəlin yenə verək əl-ələ. Çağır onu. Qoy gəlsin. Başla. Başla.

Ağciyər. Çağıraq. Qoy gəlsin.

Kimsəsiz *(Tərki Dünyaya).* Görürsən. Başlasan yaxşıdı. Səndə alınır.

Narahat Adam. Anam sonralar həmişə deyərdi ki, kor olardı, şil olaydı, amma quru nəfəsi gələydi. Atamçün deyərdi. *(Şübhəli Məxluqa)* Nə? Nə dedin sən?

Şübhəli Məxluq. Heç nə demədim.

Narahat Adam. Elə bil, qulağımda səs var, kimsə nəsə deyir. Bura niyə belə soyuq oldu? Üşüdüm mən də *(Bir küncdə büzüşüb oturur).*

Ağciyər *(yuxuya getmiş Qorxacaq Qadına).* Bənövşə. Ayıl. Ayıl görək. Sənə baxıram, mənim də yuxum gəlir.

Qorxacaq Qadın. Mən... Nə zaman... aman Allah *(əsnəyir)* nə zaman yuxu gəlib girib gözlərimə bilməmişəm.

Şübhəli Məxluq. Özü gəlməyəcək. Çağıraq. Məncə özü gəlməyəcək. Gəlsin və danışsın. Söz verdi. *(Tərki Dünyaya)* Nolar, çağır, çağır gəlsin nolar...

Tərki Dünya. Bu dəfə də sən çağır. Yoxla. Yoxla, gör, nə çıxır.

Şübhəli Məxluq. Mən? Mən necə çağırım? Evdə bişməyib, qonşudan gəlməyib.

Ağciyər *(yuxudaymış kimi).* Dayan. Dayan. Qonşunun qızını axı mən sevirdim. Sevirdim nədi, ölürdüm, ölürdüm onun dərdindən. Bir dəfə mənə

dedi ki, sənin yoldaşlarının yanında böyükdü hörmətin. Xətrini istəyirlər. Dedi ki, bu, yaxşı oğlan olmağına sübutdu*. (Qulağına qız səsi gəlir)* "Həmişə yaxşı oğlan ol. Ağıllı oğlan ol. Amma mən axı səndən böyüyəm. Sən məndən çox kiçiksən. Sənlə mənimki tutmaz".

Şübhəli Məxluq. Sss... bu da nəsə başladı içindən doğmağa.

Ağciyər. Necə ağlayırdım mən, Allah, gecələr. Necə ağlayırdım. Yorğanımı çəkirdim başıma, için-için, səsimi eşitməsinlər dişlərimi bir-birinə sıxıb pıçıldayırdım onun adını yüz dəfə, milyon dəfə... *(Əllərini göyə atır, donub qalır.)*

Kimsəsiz *(yenə də yatmağa başlayan Qorxacaq Qadına).* Ayıl. Bənövşə. Yatma.

Ağciyər. Qonşunun qızı bir də onu dedi ki... *(qulağına yenə haman qız səsi gəlir)* yoldaşın çox yaxşı oğlandı gəldi mənim çantamı yerdən götürdü dedi ki... *(Səs kəsilir.)*

Şübhəli Məxluq. A kişilər, danışmadıq başlayaq?! Başlayın da. Verin əl-ələ. Noldu? Nə tez həvəsdən düşdüz? Buna niyə hamımız qulaq asmalıyıq? "Qonşunun qızı... Qonşunun qızı..."

Tərki Dünya. Mən bir şey demirəm. Amma qoy başlayıb daha ürəyini boşaltsın.

Şübhəli Məxluq. “Qoy boşaltsın”. Burda nədi xəyal məclisi qurmuşuq?! Bunun halını görürsən? *(Bir tərəfdə donub oturmuş Narahat Adamı göstərir)* “Qoy ürəyini boşaltsın” Belə ürəkboşaltmaq olar? *(Ayaq üstə, əlləri göyə açılı qalan Ağciyəri göstərir)* Hələ bu? Biz də istəyirsən bu günə düşək? İstəyirsən?

Ağciyər *(hərəkətə gəlir, əlləri düşür yanına).* Dedi ki... *(yenə həmən qız səsi)* bax, dostun yaxşı oğlandı. Səni də çox istəyir. Mənə dedi ki, ondan, yəni, səndən inciməyim çantamı tulladığına görə. Sənincün, mənimçün, yəni, sən dəli-divanəsən. Dəli-divanə. Sən axı məndən kiçiksən. Sonra dostun dedi ki, qoy mən aparım onun yerinə sənin, yəni, mənim çantamı. Təki sən onun, yəni mən sənin üzünə xoş baxım. Sən niyə belə kiçiksən axı?! *(Səs kəsilir.)*

Qorxacaq Qadın *(Ağciyərə).* Sən də yamanmışsan. Mənə bax e, mənə. Üşüdüm yenə. Elə bil, lap bizim bağçadı. Şaxta... soyuq...

Ağciyər. Mənsə, onu söydüm, vurdum ki, mənim sevdiyim qızla sənin nə işin var?! Nə pıçıldayırdın ki ona, o da gülürdü?! Nədi? Nə? Aman. *(Özünə gəlir)* Elə köçüb getdilər ki, izləri tozları da qalmadı. Yox, əlbəttə, yox. Neçə-neçə illər sonra

bir dəfə təsadüfən küçədə gördüm onu. Tanımadı məni. Mənsə ona baxdım, baxdım, xoşuma gəlmişdi. Mən də onu tanımadım. İndi yadıma düşür bu görüş. İndi xatırlayıram ki, o idi, tanımadım onu.

Kimsəsiz. Bu ikisinin işi düzəldi.

Şübhəli Məxluq. Mənə bax, deyəsən axı bu, bir-bir bizim içimizə girir, hər birimiz barədə öyrəndiyini onun özünə, ancaq özünə deyir?! Ola bilər?!

Kimsəsiz. Necə?? Yox. Yox dedim sənə. Sən nə danışırsan? Heç kim girməsin mənim ürəyimə. İstəmirəm. Eşidirsən, istəmirəm. Bilirsən nə var?! *(Birdən sakitləşib yumşalır, yuxudadır, elə bil)* Ay aman, o gün mən necə də xoşbəxt idim. Sonralar bir də heç vaxt o günkü könül rahatlığımı, yüngüllüyü, asudəliyi hiss eləmədim. Heç vaxt. Üç dənə... "beş"i bir gündə almışdım. Düzdü, biri nəğmədən idi, amma olsun, "beş" idi, gündəliyimdə böyük-böyük yazılmışdı. O biri "beş"in biri... tarixdən idi, biri də... deyəsən, hə, coğrafiyadan. Atam hər "beş"ə beş manat ayırıb verərdi mənə. "İki" alanda, ya da "üç" alanda mən ona iki manat, ya da üç manat onun verdiyi beşliklərdən qaytarırdım. "Dörd" qiymət neytral idi, nə o mənə pul verirdi, nə mən ona. Qəribə oyun idi, oynayırdıq. Qiymət və pul oyunu. Həmişə cibimdə pul olardı mənim. Başqa uşaqlar

on qəpiklə, iyirmi qəpiklə xoşbəxt olanda mən cibimdəki kağız manatlıqlara barmaqlarımla sığal çəkərdim və... yazıq-yazıq sizə baxardım. Necə xoşbəxt idim o gün. On beş manat axşam cibimdə olacaqdı. Sənin ürəyin xarab olanda və sənինkilər gəlib səni qucaqlarında aparanda düzdü bir az qəmləndim, amma bu, tez keçib getdi. Yadıma düşdü ki, bu gün axşam futbol var, "Neftçi" oynayacaq. Televizorla verəcəklər. Bütün həyətdə bircə bizdə vardı televizor. Yadıma düşdü ki, qonşularımız üz-gözlərində müti, yaltaq təbəssüm gəlib atamın yanında oturacaqlar və biz hamılıqla mürəbbəli çay içə-içə futbola baxacaqdıq. Təki "Neftçi" udaydı, təki udaydı. Məni xoşbəxt eləməyə nə vardı?! Hər şey yaxşı olacaq. Bunu fikirləşəndə birdən ürəyimi qəribə bir rahatlıq hissi, yüngüllük, asudəlik bürüdü. Hər şeyi unutdum. Sənin ürək getməni də, sizin məni ələ salmağınızı da, hər şeyi... hər şeyi. Təki "Neftçi" udsun. Məni xoşbəxt eləməyə nə vardı ki...

Şübhəli Məxluq. Bu da çıxdı aradan. Gördün?

Tərki Dünya. Sən düz deyirdin. Görünür, bu səfər də belə gəlib.

Qorxacaq Qadın. Nə danışır bu? Siz bir şey anlayırsınız?

Kimsəsiz *(onları eşitmir, öz aləmindədir).* Sonra o axşam "Neftçi", həqiqətən, uddu. Qonşular bir xeyli oturdular, sonra hamı kefi-kök, damağı çağ düşdülər həyətə, dağılışdılar. Mən də atamın mənə verdiyi beşlikləri çin-çin elədim, o biri yığıb saxladığım pullar var idi, onların arasına qoydum. Bəziləri əzik-üzükdülər. Anama yalvardım, atamın-anamın bircə dənəsiydim, sözümü iki eləməzdilər. Ütünü aldım əlimə, başladım bu pulları səliqəylə ütülməyə. Atam, anam oturub çay içə-içə baxırdılar mənə və gülə-gülə bir-birinə nəsə deyirdilər. *(Qulağına qadın və kişi səsi gəlir*) "Gör bir nə sevinir. Ay qırışmal, təki həmişə əli pulla oynasın, həyatı boyu təki sevinsin, "neynim" deməsin bircə balam, inşaallah, elə də olar. Nəyi yoxdu?! Hər şeyi var, maşallah, hər şeyi də olacaq. Təki canı sağ olsun, xəstəlikləri, qada-balası getsin pis adamların ürəyinin başına, amin!" *(Səslər kəsilir.)* Allah, necə də xoşbəxt idim mən. *(Birdən, elə bil, gözəgörünməz bir əl onu boğmağa başlayır.)* Aman bəsdi, əl çək, əl çək, sən Allahın, bəsdi. Mənim bəsimdi... *(Yıxılır yerə.)*

Şübhəli Məxluq *(qorxa-qorxa).* İndi növbə kimindi, mənim?

Qorxacaq Qadın *(əyilir Kimsəsizin üstünə).* Ağrıdır bir yanın? Niyə danışmırsan? Qalx. Ey, xoş-

bəxt adam, ey, nə oldu sənə? Qalx, soyuq dəyər, qalx.

Kimsəsiz *(dikəlir).* Hara getdi o günlər? Mən hara getdim? İndi hardayam mən? Ordakılar kimdi elə, mənə baxıb gülümsəyirlər? Əllərində tutduqları çay sətəkanıdı? Onlardı, yenə bir yerdə... Mən isə... Tək-tənha, bayquş kimi. *(Qorxacaq Qadına)* Sən nə deyirdin? Xoşbəxt adam kimdi?

Qorxacaq Qadın *(ona qısılan Kimsəsizi qucaqlayır).* Darıxma. Darıxdırma özünü. Hər şey yaxşı olacaq. Olacaq. O gündən yenə olacaq. Görərsən. Darıxdırma özünü. Hələ irəlidədi xoşbəxt-xoşbəxt günlərin sənin. İnan mənə. İnan mənə bəsdi, eşidirsən, bəsdi deyirəm, ay-ay-ay-ay, buna bax e, buna, ağlama, bəsdi, sən Allah...

Şübhəli Məxluq. Mən gedirəm. Tutarlar, tutarlar, olsun. Qara boşluq. Yox bir. Mən getdim.

Tərki Dünya. Uşaqlıq eləmə. Hara gedirsən? Əvvəl-axır sən də hamı kimi...

Şübhəli Məxluq. Getmək istəyirəm, qoyun çıxım gedim, əl çəkin məndən. Vallah, billah, mən heç kimdən heç nəyi güclə almamışam. Kim verib, özü verib. Bunun pulu da, sərvəti də, son sözü də başına dəysin. Mən indiyəcən bir şeyi də razılıqsız... olmayıb. Olmayıb. Mən bunun guya məktəb ruzi-

sini güclə əlindən almışam. Olmayıb axı. Yadıma gəlmir. *(Elə bil, nəsə xatırlayır)* Bəlkə... bilirsən, tamahım düşdü. Həmişə dadlı kotletlər gətirərdi məktəbə. Mən isə ancaq çörək, zirə. Nolar? Az olub bir-birimizlə dəyiş-düyüş eləmişik yeməklərimizi?! Az olub siz mənim zirəmə tamah salmısız?! Marojna, pirojna yeyənə "mənə də saxla" deməmişik? Aldığı tumu kim axıracan özü çırtlayıb? *(Elə bil, kiminləsə mübahisə edir)* Bəli, yadıma düşür, düşür, arxayın ol, deyəcəyəm, üç köpüklüklər vardı, mis kimi qırmızı, sürtürdüm bunun dal tərəfini, gerb olan tərəfi deyirəm, parıldadıb-parıldadıb ağardırdım, ağappaq iyirmi qəpikliyə oxşadırdım. Bizim küçədə, evimizin yanındakı padvalda bir qoca tumsatan arvad yaşayırdı. Adı Nənəxanım idi. Ona verərdim bu qəlp iyirmi qəpikliyi. Yarısına tum alardım. Hələ on qəpik də sdaçi qaytarardı mənə. Gözləri pis görürdü.

Qorxacaq Qadın *(Kimsəsizə).* Görürsən, belə-belə işləri də varmış bunun. Allah bilir, bədənində yazığın sağ yeri yoxdu. Maşın altına düşməkdən, Allah, Allah *(barmağı ilə qulaqlarını çəkir. Bu zaman sırğası yerə düşür. Kimsəsizlə sırğanı axtarırlar, Kimsəsiz tapır).*

Kimsəsiz. Aha, tapdım. Nə böyükdü bunun daşı, ay qız. Qulaqlarını ağrıtmır?

Şübhəli Məxluq. Nənəxanım hərdən dərdini danışardı mənə. Sən demə, məndən başqa da pulun dalını sürtüb onu aldadanlar var imiş. *(Qulağına qoca arvadın səsi gəlir)* "...Qoca arvadam, a bala, gözlərim pis görür, bu evi tikilmişlər də aldadırlar məni, ciyərləri yanmasın. Sən yaxşı oğlansan, onların tayı deyilsən. Dərslərini yaxşı oxu, bala, pis-pis uşaqlara qoşulma. Heç kimə qoşulma. Oynayıb eləmə heç kimnən. Hamısı vələduznadı. Dərslərini oxu. Heç kimnən də işin olmasın, pulun olmayanda da gəl, tum verim sənə çırtla, sən yaxşı oğlansan..." *(Səs kəsilir.)* Mən ona qulaq asırdım, asırdım, ədəbli uşaqlar kimi başımı dikirdim aşağı. Sonra yenə həmən qəlp iyirmi qəpikliyi ağardılmış tərəfindən utana-utana ona uzadırdım. Mənim pulumun bir dəfə də ora-burasına baxıb yoxlamadı. Həmişə böyük bir çay stəkanını ağzından tum daşanacan doldurub tökərdi cibimə. Belə.

Tərki Dünya. Hə, belə-belə işlər. Kim qaldı? Sən qurtardın? Sən necə? *(Qorxacaq Qadına)* Sən qalmısan.

Ağciyər. Bənövşə...

Şübhəli Məxluq. İndi də, eh, indi də belə... *(Qorxacaq Qadına)*. Bilirsən, qorxma. Qorxma, rahatlaşacaqsan.

Qorxacaq Qadın. Mənimləsən? Mənimlə işiniz yoxdu. Mən... mən heç bir şeydən qorxmuram. Aman Allah, məni unutsanız yaxşı olar.

Ağciyər. Bənövşə... Noldu sənə. Özünə gəl. Üşüyürsən yenə də. Elə mən də üşüyürəm.

Şübhəli Məxluq. Soyuqdu.

Qorxacaq Qadın. Mənimlə onun işi olmayacaq, mən bilirəm. Mən... qadınam. Mən üşüyürəm.

Şübhəli Məxluq. O bəxtdən bizdə olmadı da.

Narahat Adam *(Tərki Dünyaya).* Hamı taxsırlar səndədi. Sən onu əvvəlki kimi çağırsaydın... Belə soyuq, bəlkə də, olmazdı. Mən də üşüyürəm.

Hamı bir-birinə qısılır və əllər bir-birini isitmək istəyir.

Ağciyər. Deyirəm, xahiş eləyək, gəlsə yenə də əvvəlki kimi gəlsin, içimizə girib partlatmasın ürəyimizi?! Bu dəfə gəlin ondan, həqiqətən də, gələcək barədə soruşaq. Nə deyirsiniz?... Gələcək... Görək bizi... tutalım ki qırx il... sonra nə gözləyir?

Şübhəli Məxluq. Qırx il. İştahaya bax.

Narahat Adam. Qırx gün sonra da pis olmazdı.

Kimsəsiz. Deməz.

Ağciyər. Niyə? Hardan bilirsən?

Kimsəsiz. Məncə, onlar gələcək barədə bir şey bilmirlər. Keçmiş barədə – bəli, bilirlər. Gələcək barədə...

Ağciyər. Çağıraq, soruşaq.

Narahat Adam. Çağıraq, çağıraq... Necə? Çağırmır da.

Şübhəli Məxluq. Bir də gəlsəydi, pis olmazdı. Öldürdü bizi.

Tərki Dünya. Öz işinizdi, özünüz bilərsiniz. Mənə daha heç nə maraqlı deyil *(ürəyini tutur).*

Hamı. Çağıraq. Son dəfə gəlsin. Necə? Necə çağıraq? Gələr? Gəlməz.

Ağciyər. Mən bilirəm. Mən bilirəm, necə çağıraq.

Qorxacaq Qadın. Necə?

Ağciyər. Əl-ələ verməliyik.

Qorxacaq Qadın. Əl-ələ? Əvvəlki kimi?

Şübhəli Məxluq. Hər şey təzədən?

Ağciyər. Yox, elə yox. Bu dəfə bir az başqa cür olacaq. İnanın mənə. Başqa cür. Yoxsa gəlməz. *(Tərki Dünyaya)* Düz demirəm? O, bir dəfə azdı. Qırx il əvvələ getdi. Axı hər dəfə aza bilməz. İnanın mənə. Razısınız? Deyin, razısınız?

Qorxacaq Qadın. Mən razıyam. Gələcək barədə mən razıyam. Sən doğru deyirsən. Səhər az

qalır açılsın. Ərim də məni öldürəcək. Tez olun, nə edəcəksiniz, tez olun, edin. *(Kimsəsizə)* Sən necə, razısan? Gələcəkdisə – hə!

Kimsəsiz. Mən bilmirəm. Mənimçün fərqi yoxdur. Razıyam.

Ağciyər *(o birilərə).* Bəs siz?

Şübhəli Məxluq. Məndən niyə o saat soruşursan? Mən qurtardım. Özünüz bilərsiniz.

Narahat Adam. Mən yavaş-yavaş... *(Getmək istəyir.)*

Ağciyər. Yox, olmaz. Heç yana getməyəcəksiniz?! Bu işi birgə başladıq, birgə də bitirməliyik.

Narahat Adam. Nə deyir bu?

Şübhəli Məxluq. Necə yəni, heç yana getməyəcəksiniz?! Mən gedim, sən bax.

Ağciyər. Yox, a kişilər, mən o mənada demədim. Axı bir başa düşün. Keçmişə getməyi kim istədi – biz. Hamımız. O da bizim xahişimizi yerinə yetirdi. Bəs indi? Yarımçıq qoymayaq da bu işi. Son sözünü istədik bilək. Unutdunuzmu? Nə tez unutdunuz?

Narahat Adam. Biz unutmadıq, siz unutdunuz. İmkan vardı gərək soruşaydınız.

Şübhəli Məxluq. İndi nədi, təzədən başlayırıq?

Tərki Dünya. Eybi yox, nə olacaq, qoyun başlasın. Bəlkə bu dəfə istəyinizə nail oldunuz.

Qorxacaq Qadın. Neyləməliyik biz?

Ağciyər. Bir yerdə edəcəyik. Hamımız bir yerdə.

Narahat Adam. Tez ol üzmə ürəyimizi.

Ağciyər. Əl-ələ verin. Yox, oturma. Ayaq üstə. Bax belə. Sakit olun. Bərk-bərk tutun, sıxın barmaqlarınızı. Bax belə. Bir az dala dur sən. Sakit. Sakit. Ürəyiniz, ürəyiniz danışsın. İndi, indi gəlməlidi. Harda olsa gəlməlidi. Qırx il əvvəldə də olsa gələcək. Hanı, hanı bu sözlər, hanı bu suallar, hanı bu ad, hanı, hanı?..

Hamı bir cərgədə əl-ələ verib durur. Birdən hər yana dərin sükut çökür və qulaq cingildəyir.
Və bu sükutun içindən çox aydın və ürəktitrədən səslər gəlir.
Hardan gəlir bu səslər – kim bilir?

I səs. Bənövşə.

II səs. Bəndə düşə...

I səs. Bizdən sizə kim düşə?

III səs. Bir də, bir də, təzədən.

I səs. Bənövşə.

II səs. Bəndə düşə...

I səs. Bizdən sizə kim düşə?

III səs. Bir də.

I səs. Bənövşə...

II səs. Bəndə düşə...

I səs. Bizdən sizə kim düşə?

III səs. Adı gözəl, özü gözəl...

Ağciyər. Ssssss... sakit... o gəldi. Sən burdasan?

Ruh *(işıq kimi gəlir).* Mən burdayam.

Qorxacaq Qadın. Ay Allah... yenə soyuq doldu bura.

Şübhəli Məxluq. Necə də qaranlıqdı.

Tərki Dünya. Allah, sən özün keç günahımızdan.

Ağciyər *(Ruha).* Sən bizimlə yenə danışmaq istərmisən?

Şübhəli Məxluq. Ay cavab verdi ha.

Ruh. Mən sizinlə danışdım. Nə bildimsə, nə gördümsə dedim. Hər birinizlə ürəyində. Ancaq o eşitdi məni. İndi nə istəyirsiniz?

Ağciyər. Səndən yenə də bəzi şeylər soruşmaq istərdik.

Ruh. Soruşun.

Tərki Dünya. Soruş.

Ağciyər. Sən... sən...

Ruh. Mən...

Ağciyər. Sən... *(birnəfəsə)* yenə də qırx il əvvələ qayıda bilərmisən? Söylə qayıda bilərmisən? Qayıda bilərmisən?

Tərki Dünya. Bəli, qırx il əvvələ. Məni də, məni də özünlə apara bilərsənmi? İkimiz, heç kim yox. Ancaq ikimiz. Gedək. Gedək o balaca həyətə bir dəfə də baxaq. Gedək, o küçədən keçək, o məktəb bağına girək, sinifləri gəzək. Keçirə bilərmisən məni o qara boşluğun üzərindən? Qaytara bilərmisən mənə qırx il əvvəli? Qayıtmamaq, ilişib qalmaq olarmı orada? Sən xoşbəxtsən. Bilirsən ki, sən xoşbəxtsən?! Niyə susdun? Susursan. Deməli, bacarmazsan. Bacarmazsan, eləmi?! Onda gəlmə bir də buralara. Gəlmə. Səsini də eşitməyək. Qəlbimizə də girmə. Məndən də əl çək. Özüm, özüm bacararam. Sənsiz. Sən lazım deyilsən *(Ürəyini tutur).* Əl çək məndən. Sənə deyə biləcək sözüm, yada sala biləcək heç bir şeyim yoxdu. Mən bəyəm yaşadım ki, nəyimsə olsun, nəyimsə olmasın? Mən onsuz da ordayam. Qırx il əvvəldə. Sən görmürdün ki, mən bura gəlmək istəmirəm?! Gördün, ya görmədin?! Sən görmədin?! Qaytar, qaytar məni. Yüz dənə olacaqdan, olmuşdan danışırsan, bircə dənə olmayacaq ver mənə. Ver mənə qırx il əvvəli. Ver... aman... yenə... olsun *(Ürəyini tutur, yavaş-yavaş yerə çöküb uzanır).*

Qorxacaq Qadın. Mən üşüyürəm.

Ağciyər. Validol. Kimdə validol var? *(Tərki Dünyaya yaxınlaşır, başını qaldırır)* Nə oldu sənə? Kömək edin.

Şübhəli Məxluq. Mənə baxır yenə.Yoxdu məndə validol.

Narahat Adam. Buranı lap qaranlıq basdı ki. Adamın ürəyi sıxılar da. Tab gətirmək asandı bu boyda həngaməyə bəyəm? Şam da söndü. Yenə zəif də olsa işığı gəlirdi. Məndə də yoxdu...

Qorxacaq Qadın. İşıqları yandırın. Getdi daha. Qurtardı hər şey. Hər şey qurtardı.

Kimsəsiz. Pəncərəni açın. Qoy təmiz hava gəlsin.

Ağciyər. Kömək edin. Bu, deyəsən...

Qorxacaq Qadın. Yox, pəncərəni açmayaq. Soyuqdu. Donub ölərik. Bir dənə validol tapılmadı?

Narahat Adam. Noldu buna?

Şübhəli Məxluq. Bizi qorxudur, yəqin. Bayaq elə plastiçnı qıvrılırdı ki. Oyun oynayır.

Qorxacaq Qadın. Mən də elə bildim...

Kimsəsiz. Bəs ürəyini tuturdu axı. Yazıq.

Qorxacaq Qadın. Necə gözəl yıxıldı... Yaxşı, bura qaranlıqdı heç nə görünmür? Hara yox oldu bu?!

Ağciyər. Kömək edin, adamsız siz... Aman Allah, öldü.

Şübhəli Məxluq. Öldü?

Narahat Adam. Doğrudan öldü? Ola bilməz.

Kimsəsiz. Ürəyini tuturdu. Onun nə günahı vardı ki?

Qorxacaq Qadın. Gəlin işıqları yandıraq. Qaranlıqda heç nə görmürəm. Mən niyə görmürəm? Aman allah, ərim məni öldürəcək. Mən qaranlıqdan qorxuram...

Ağciyər. Öldü. Bu da öldü.

Kimsəsiz. Bilirsiz, mən lap yoruldum. Hamınız, siz hamınız, bəli, bəli, hamınız yordunuz məni.

Qorxacaq Qadın. Saat neçə oldu? Bəs biz niyə çıxıb getmirik? Yox olmuruq? O... yox oldu. Hara?

Ağciyər. Hara?

Qorxacaq Qadın. Bu nə sözdü? Necə yəni "hara"? Evimizə-eşiyimizə.

Narahat Adam. Heç yana gedə bilməzsiniz. Ortalıqda iki ölü var. Noldu elə bunlar ikisi də bir gündə... sözləşiblər? Olmaz. Olmaz belə.

Şübhəli Məxluq. Ölsəydi, burda olardı bu, yoxdu. Hara getdi belə?

Qorxacaq Qadın. Doğrudan, yoxdu ki bu. Nə vaxt istəyir gəlir, nə vaxt istəyir gedir. Salamsız, sağ

olsuz... Elə həmişə belədi, niyə sən beləsən? Heç bir qırıq da dəyişməmisən...

Kimsəsiz. Yəni, siz bir şey anlayırsınız? Siz yorulmadınız ölüləri... öldürməkdən?

Qorxacaq Qadın. Dayan. Dayan. Bu nə səsdi gəlir? Eşidirsiz?

Yenə həmin səslər eşidilməyə başlayır, musiqinin yavaş səsinə qarışır hər şey.

I səs. Bənövşə.
II səs. Bəndə düşə...
I səs. Bizdən sizə kim düşə?
III səs. Adı gözəl, özü gözəl...

Qorxacaq Qadın. Eşidirsiz? Mən eşidirəm. Hardan gəlir bu səslər?

Ağciyər. Bilmirəm. Amma mən də eşitdim. Biz demədik bu dəfə bu sözləri. Eşitdiniz?

Qorxacaq Qadın. Hə, bu sözləri biz demədik. Amma kimsə onları dedi. Mən də onları eşitdim. Mən onları həm də gördüm. Ağappaq, dümağ idilər, işıq üstündə gəlib göründülər bizə. Biz onları gördük, elə deyilmi? Bu hara itdi yenə? Yoxdu, deməli, bizimlə oyun oynayır. Həmişə lazım olanda yox olur. Hardasan çıx gəl, səhər açıldı, getmək

vaxtıdı. Hara girdin gizləndin, hara yox oldun? Burdasan? Cavab ver. Sən burdasan?

Sükut.

Tərki Dünya *(Bu, bir ruh səsidir).* Mən burdayam.

I səs. Bənövşə...
II səs. Bəndə düşə...
I səs. Bizdən sizə kim düşə?

Və səssizlik. Əvvəlcə qaranlıq əriməyə başlayır. Hər tərəf yavaş-yavaş ağarır. Hamı donuq. Qaranlığın içində hamı göz görə-görə əriyib yoxa çıxarkən.

SON

ŞAH İSMAYIL
YAXUD
"HAMI SƏNİ SEVƏNLƏR BURDADI..."

(1 proloqdan, 1 epiloqdan,
17 vaqeədən ibarət 2 hissəli xəyali oyun)*

İŞTİRAK EDİRLƏR:

Professor – *eyni zamanda Hüseyn bəy Lələ (Şahın Lələsi)*
Qız – *Professorun qızı. Eyni zamanda Taclı xanım (Şahın arvadı)*
Səda – *eyni zamanda Bəhruzə xanım (Şahın arvadı)*
Həkim – *eyni zamanda Vəzir ağa*
1-ci aspirant – *eyni zamanda Şah*
2-ci aspirant – *eyni zamanda Xızr (Şahın bənzəri)*
Qonşu – *eyni zamanda Qorçubaşı, eyni zamanda 1-ci Qorçu*
Usta – *eyni zamanda Rəhim yüzbaşı, eyni zamanda Fərraşbaşı Səfiyar*
Qorçular, əsgərlər, yeniçərilər, səfirlər, fərraşlar, dərvişlər...

* *Yenidən işlənmiş variant*

PROLOQ

Baş verənlər, əslində, bir oyundur. Professor qocaman elm fədaisidir, aspirantlar və Qız onu öz mürşidləri sayır. Həkim gənclik dostu, ailə həkimidir. Usta, Professorun evinə elektrik xətlərini düzəltməyə gəlmiş və özündən xəbərsiz bu oyuna daxil olmuşdur, bəlkə də, edilmişdur. Qonşu, ola bilər ki, səs-küyə gəlib çıxmışdır. Sədanın isə kimliyini müəyyənləşdirmək çətindir. Hər birimizin qəlbində səslənən öz sədası var. Qorçulara, əsgərlərə, səfirlərə və s. gəldikdə... Onlarsız bu oyun, əlbəttə ki, öz "duzunu" itirərdi. Nə isə... Bu qədər. Belə. Artıq oyuna başlamaq, deyəsən, olar.

Səhnə yarıqaranlıq. Səhnənin qabaq və arxa tərəfləri həm bir-birindən ayrıdır, həm də məqam var ki, vaqeələr bir-birini əvəz etdikcə iştirakçılar bunların birindən digərinə keçə bilirlər. Səhnənin önündə baş verənlər sanki çəkisizlik şəraitində baş verir. Dərində isə bunun əksi, hərəkətlərin son dərəcə tezləşdirilmiş bir yaşamı hökm sürür. Səhnənin önündə Professor, Qız, Səda, Həkim, 1-ci aspirant, 2-ci aspirant, Qonşu və Usta. İşıq bu adamların hər birinin üzərinə düşdükcə sanki onların gözü qamaşır və onlar, elə bil, yuxudan ayılırlar – kimi yavaş-yavaş, kimi tez, kimi isə hələ də yuxudadı... Adamı mürgüyə çağıran yağış səsi, tənha bir yağış səsi...

Professor *(elə bil, yağışa danışır).* Mənim bu gün deyəcəklərim çox adi bir həqiqətdir. Həmişə dilimin ucunda olub. Həmişə də onu unutmuşam. Bu həqiqət səslərdən, sözlərdən ibarətdir. Ümumi mənası budur: hər şey təkrar olur. Hər şey əvvəldən, nə zamansa mövcud imiş və gələcəkdə də təkrar ola-ola mövcudluğunu sürməkdə davam edəcək. Məna budur. Bu ümumi mənanın sözləri isə, təsəvvür edirsinizmi, yadımdan çıxıb. Nə zamansa mən o sözləri yenidən eşidəcəyəm – buna böyük ümidim var. Məna isə... Çətin məsələdi. Bu gün... Baxın, bəziniz hələ bunu bilmirsiz, bu gün bu şəhərə, bu küçəyə yağış yağır, dünən isə ola bilər, yağış yağmayıb, amma nə zamansa, eradan əvvəlin özündə də yağış yağıb, özü də bu günkü kimi yağıb – yuxarıdan aşağı. Aşağıdan yuxarı yağış yağmayıb. İndi də o cürdür. Təkrar sonsuz dəfə sınaqdan çıxıbdır.

Qız *(O da yağışı dinləyir).* Hə, elədi, bu gün yağış yenə yağır.

Professor. Bax, "yenə" dedin. Deməli, bugünkü yağış özündən əvvəlkilərin təkrarıdı. "Yenə yağır". Sirdi. Təkrar böyük sirdi.

Qız. Yenə sirr?? Sirr axı gərək açılmasın. Sirr ki, açıldı, sirlikdən çıxır...

Professor. Səhvin var. Sirr açılmasa, sirr deyil. Hər bir sirr ya doğulduğu zaman, ya da nə zamansa açılır. Açılmasa... olmaz. Bunu mən demirəm...

Qız. Kim deyir?

Professor. Bunu XVII əsrin hələ bizdə geniş tanınmamış tarixçi alimi Hacı Mir Həsən ağa Səyyah deyir. Özünün məşhur "Sirlərin sərgüzəşti" əsərində Hacı Mir Həsən ağa sirr içindən sirr çıxarır, üzdə baş verənlərin, zahirin canına, ruhuna girməyə can atır, bütövkük də elə bu zaman yaranır. Bu əsərin ən maraqlı yeri Şah İsmayılla bağlıdır. Şah – taxtda *(səhnənin dibində taxt işıqlanır),* rəsmi təsvirlərdə... Və Şah – öz görünməyən tərəfində. Görünən tərəf, görünməyən tərəf, görünən tərəf, görünməyən tərəf...

İşıq zəifləyir və tam sönən kimi yağışın səsinə qarışıb həzin bir musiqi eşidilir və yavaş-yavaş bizə nə isə deməyə çalışır.Yağış buna mane olmaq üçün canlanır.

BİRİNCİ HİSSƏ

I VAQEƏ

Proloq ahəngdar şəkildə 1-ci vaqeəyə keçir. Yenə yağış səsi.Yenə işıq səhnə önündəki bu adamların üzərində. Professor və Qız üzbəüz oturub. Səda, 1-ci aspirant, 2-ci aspirant, Qonşu, Həkim və Usta gəzişirlər, hərdən bir-birilə toqquşurlar və bu zaman...

Qız. Yadıma düşdü, ata, uşaqlıqda sən mənə bir kitab vardı – "Sirlərin... sərgüzəşti", hə, "Sirlərin sərgüzəşti"ni mənə nağıl kimi danışardın. O gecələri mən həsrətlə gözləyərdim. Biri vardı, biri yoxdu, bir cavan, yaraşıqlı, şücaətli Şah vardı... Bu Şahın bir Lələsi vardı... Lələsi Şahı çox sevirdi. Bu səbəbdən də Şahı hər türlü bəladan qorumaq üçün axtarıb-axtarıb uzaq kəndlərin birindən onun bir bənzərini tapıb saraya gətirmişdi...

1-ci aspirant *(dayanır, hamı dayanır).* Siz bayaq görünən və görünməyən tərəflərdən danışdınız. Bu, çox qəribədi.

Qız. Bəli, qəribə idi o gecələr...

Professor. "Sirlərin sərgüzəşti" özü də çox qəribə bir şeirlə başlayır. Sözlərini unutmuşam, an-

caq mənası yadımdadı. Sözlər heç cür yadıma düşmür.

2-ci aspirant. Bu deyil? *(Əda ilə Sədaya işarə edir.)*

Səda *(şövqlə).* Mən öz üfüqümə çatdım bu səhər...

Professor *(kədərlə).* Budur...

1-ci aspirant. Burda yada salası nə var ki?! O şeirin sonrası belədir *(yenə Sədaya işarə edir).*

Səda *(şuxluqla).* Ufüq məndən qaçmadı...

Qız *(sanki yuxudadı).* Məndən uzaqlaşmadı...

Professor. Elədi...

Səda *(şuxluqla).* "Üfüq məndən qaçmadı. Məndən uzaqlaşmadı".

Professor. Sirri-xuda deyilmi?!

Səda *(son dərəcə qəmli).* Üfüq mənə başladı... Dərdini danışmağa...

Professor *(adi danışıq tərzi ilə).* Üzüm üzünə dəydi. Gözüm... *(pauza)* yox, dizim dizinə dəydi. Mənim dərdim nə idi – onun dərdi yanında.

Şeiri tam şəkildə arxa tərəfdə artıq taxtın yanında görünən Səda muğam üstündə təkrar edir.

Səda *(onun səsi müxtəlif tərəflərdən eşidilir).*

Mən öz üfüqümə çatdım bu səhər.
Üfüq məndən qaçmadı.
Məndən uzaqlaşmadı.
Üfüq mənə başladı
dərdini danışmağa...
Üzüm üzünə dəydi,
Dizim dizinə dəydi,
Mənim dərdim nəydi –
Onun dərdi yanında.

Professor. "Sirlərin sərgüzəşti" kitabı bu qəribə şeirlə başlayır.

Usta. Xətdə kəsiklik, deyirdim var, demirdim?! İşıq hər an sönə bilər. Əsas məsələ odur ki, qırıqlıq, kəsiklik olmasın.

Professor. Düzdü. Xətdə kəsiklik var. "Sirlərin sərgüzəşti" də batinlə zahir arasındakı elə bu kəsikliyi aradan götürməyə çalışır.

1-ci aspirant. Mənə çatmır. Hacı Mir Həsən ağa Səyyah bu boyda batini necə görə bildi bəs?! Əsl sirr bu deyilmi?!

2-ci aspirant. Mənim də şübhəm var. Batini görmək mümkün deyil.

Professor. Guya ki eləyir. "Sirlərin xəzinəsi" isə belə deyir... Batini gizlətmək mümkün deyil.

1-ci aspirant. “Sirlərin sərgüzəşti”...

Professor. Hə... “sərgüzəşti”.

Qız. Sən də elə hey bunu deyirsən, deyirsən, deməkdən yorulmursan.

Professor. İstəyirsiz, mən indi sizə batini olduğu kimi açım göstərim?! *(Qıza)* İstəyirsən? Siz də istəyirsiz bunu? Amma sonra peşiman olmayasız.

Həkim *(təşvişə düşən kimi).* Yox. Ehtiyac yoxdur. Ruhları narahat eləməzlər. Bir də ki, bununla nəyi sübut etmək olar? Hər zahirin bir batini var?! Əlbəttə, var. Bəlli bir həqiqət...

Professor. Bilmək başqa, duymaq başqa, göstərmək bir başqa. Göstərə bilsək, o öz sirriçindəliyindən azad olar, mübhəmliyindən çıxar. Əzəməti azalmayacaq. Qətiyyən. Əksinə. Bizim üçün o ruhlar daha əziz olacaq. Nə deyirsiz, batini görmək istəyirsiz?..

Qız. Mən qorxuram.

Səda *(səsi səhnənin hər yerindən gəlir).* Niyə? Nə üçün? Bundan da qorxarlar?

Professor. Düz deyir, qorxma. Gəl. Mən səninləyəm, gəl.

Yağışın səsi, nəhayət, kəsir. Səhnənin dibindəki qaranlığı isə yavaş-yavaş işıq əridir. Üzlər seçilməyə, boylar-buxunlar sezilməyə başlayırlar. Arxa tərəfə keçən Həkim, məlum olur ki, artıq Həkim deyil, libasını dəyişmiş Vəzirdi, Qonşu, əslində, Qorçubaşıdır, Usta da Fərraşbaşı Səfiyardır.

II VAQEƏ

Səhnənin önündəkilər qaranlıqda əridilər. İşıq səhnənin arxa tərəfində. Divanxanada Vəzir və Qorçubaşı.

Vəzir. Şahimiz bu gün nədisə yuxudan erkən oyanıb. Çox yaxşı oldu bu. Elçilərimiz yorğunluqlarını, əlbəttə, aldılar. Bu gün, inşallah, görüş baş tutar.

Qorçubaşı. Üç gündür, cənab elçilərin qulluğunda durmuşuq. Qu deyiblər, mey vermişik, qa deyiblər – kəklik kababı. Nə istəyiblər!.. Hamısı, hamısı!.. Əlbəttə, yorğunluqları keçər. Mahi-cəbzdən sonra yorğunluq qalar?! Səfər isə həqqən ağır səfər olubmuş.

Vəzir. Aha... Mahi-cəbzmi bunların rahatını etdi? Dəstəsiyləmi? Huri-mələk, vallahi, huri-mələk... Amma dogru buyurursan, ağa Qorçubaşı, bunlar həqqən ağır səfərdən gəliblər. Necə gəlib yetişiblər, onu bir Allah bilir. Arada dənizlər, çaylar, quldur-qaçaqları, ilanları mələyən dağlar, daşlar... Yollar uzun, yollar qorxulu.

Qorçubaşı. Gəl sən Qibleyi-aləmi belə tezinə narahat etmə. Qoy istirahətinə ürəyicən buyursun. Bunlar qaçmır ki...

Vəzir. Məndən ola... Amma Lələ belə buyurmuşdu. Görüş bu gün olmalıdı. Yoxsa ki...

Qorçubaşı *(tələsik).* Lələ nə təhərinə buyurubsa, o zaman eləcə də elə. Daha mənə nə deyib durursan, Vəzir ağa?!

Vəzir. Allahü-əkbər, mən ki, bir söz demirəm. Yenə qeyzləndin sən...

Fərraşbaşı Səfiyar içəri otaqdan gəlir.

Səfiyar *(Vəzirə yavaşdan).* Vəzir ağa, sabahın xeyir olsun. Qurban olduğum soruşur: elçilər gəldi saraya, ya hələ gəlmədi?!

Vəzir. Söylə, hələ gəlmədi. Qorçubaşının evindədirlər. Nə zaman əmr etsə, o zaman burda olacaqdırlar.

Səfiyar *(yavaşdan).* Hələ burda deyillərsə, o zaman Şah səni hüzuruna istir. Özün söylərsən.

Vəzir Fərraşbaşı Səfiyar gələn tərəfdən keçib çıxır.

Qorçubaşı. Niyə getdi, oğlan, Vəzir ağa? Sən yavaşcadan nə dedin ona? Səfiyar *(başı ilə Şah olan otaq tərəfə işarə edir, xəlvətcə).* Səfirləri soruşurdu. Buyurdu ki, Vəzir ağa gözlətsin onları. Məşğul etsin. Qibleyi-aləm hələ ləngiyəcək.

Qorçubaşı. Məni soruşmadı sadağa olduğum?!

Səfiyar. Soruşdu, soruşdu. Burdadı, dedim. Əmrə müntəzirdi.

Qorçubaşı. Sağ ol. Sadağa olduğumun əhvalı necədi?.. Dünən, elə bil, pəjmürdə-hal idi. Ya mənə elə görükdü? Yaxşıdı, inşallah?

Səfiyar. Niyə, yaxşıdı. Dünən divanxanaya gələn o dinsiz dərvişlərə halı elə qaralmışdı, indi, maşallah olsun, yaxşıdı. Yaxşıdı.

Hüseyn bəy Lələ gəlir. Fərraşbaşı Səfiyar onu görcək dalı-dalı çıxıb gəldiyi yerə qayıdır. Qorçubaşı əmrə müntəzir. Lələ keçib otağın ortasındakı mizin bir tərəfin də mütəkkəyə dirsəklənib yerdən oturur. Qorçubaşı gəlib pəncərənin qabağını kəsir və onun qarşısında dayanır.

Qorçubaşı. Lələ, xoş gəldin. Olmasın azar, nə müddətdi yoxsan?!

Lələ *(yorğun).* Şahi-Mərdan xətrinə, işığın qabağın kəsmə. Otur, otur.

Qorçubaşı Lələ ilə üzbəüz, o da bardaş qurub oturur

Qorçubaşı. Vəzir indi keçdi içəri...

Lələ. Nə deyirdi Səfiyar? Qibleyi-aləm durub ayağa, ya durmayıb? Vəzir, elə bil, tələsik getdi...

Qorçubaşı. Özü çağırdı Vəzir ağanı. Niyəsini bilmədim. Halı, deyir, Şahın yaxşıdı. Allaha şükür olsun.

Lələ. Şükür, şükür. Elçilər sizdə düşüblər, bilirəm. Divanxanaya hələ ki gəlmədilər. Nə deyirlər bunlar, nə danışırlar?!

Qorçubaşı. Yaxşıdılar, ağa, yaxşıdılar. Üç nəfərdilər. Biri bizim dilimizi bilir. Başçıları bir saqqallısı var – odu. Necə ki, fərmayişin idi, elə də qulluqlarında durdum. Çox razıdılar. Şahi-Mərdan xətrinə, ağa, mənim məsələmi aç bu gün Şaha özün əyan elə. Söz vermişdin...

Lələ. Saqqallıdı başçıları?.. Belə...

Qorçubaşı. Lələ, bunu uşaq da bilir ki, qurban olduğum ancaq sənin sözünə qulaq verir.

Lələ. Yaxşı. Yaxşı. Səbrin olsun sənin. Yoxdu sənin səbrin. Demişəm, edəcəyəm. Elçiləri onların məmləkətinə aparan dəstə sənin dəstən olacaq. Xətircəm ol.

Qorçubaşı. Şahi-Mərdan səni qorusun!

Səfiyar *(dörd tərəfə nəzər yetirərək).* Qibleyialəm təşrif buyurur. *(Bir kənara çəkilib dərin bir təzimdə əyilib durur.)*

Lələ, Qorçubaşı oturduqları yerdən tələsik dik qalxırlar və Şah gələn tərəfə baş əyib donurlar. Şah, arxasınca Vəzir gəlirlər. Şah içəri girəndə Qorçubaşı üzüqoyulu yerə sərilir. Lələ böyük məhəbbətlə gəlir Şaha yaxınlaşır və diz çökür.

Şah (*eyni məhəbbətlə*). Lələ, gəlmisən?! Nə zaman gəldin?! (*Qorçubaşıya*) Dur, qalx, çəkil hələ bir kənara.

Lələ. Elə bu səhər yetişdim, qurban olduğum.

Qorçubaşı. Allah səni qorusun, mürşidi-kamilim, Allah səni qorusun...

Qorçubaşı qalxıb çəkilir bir tərəfə.

Vəzir. Şahim, elçilər əmrə müntəzirdilər. Nə zaman desən qulluğundadılar.

Şah. Dur bir hələ. tələsmə. (*Lələyə*) Lələ, qalx ayağa. (*Lələ qalxır.)* Nə təhər getdin sən, nə təhər gəldin? Amma yox, heç nə demə. Qoy mən səfirləri bir yola verim. Söhbətimiz, Lələ, qalsın sonraya. Söhbətimiz sənlə... ciddidi. Buralarda ol. Amma... Söylə hələ, necə qayıtmısan – oğlansan, qızsan?

Lələ. Oğlanam, qurban olduğum, oğlanam.

Şah. Bax, bu oldu – yaxşı! *(Ətrafındakılara əli ilə işarə edir. Hamı kənara çəkilir.)* Mən istəyən kimi oldu? Ürəyim hövr eləyir.

Lələ. Yüzdə yüz sən istədiyin kimi oldu. Yüzdə yüz. Doğma anası belə baxıb ayıra bilməz.

Şah. Əla. Nur əla. Lələ! *(Lələ qalxır)* Buralarda ol. Ya da – keç içəri bağçaya, orda gözlə. Səfirləri

yola verim, mən də gəlirəm. *(Yavaşdan)* O özü burdadı?! "Özümnən gətirmədim" deməyəsən.

Lələ. Yox, qurban olduğum. Arxayın ol. Burdadı. Əmrə müntəzirdi.

Şah. Yaxşı. Dediyim kimi elərsən. Get. İçəri bağçada gözləyin. *(Yenə dözmür*) Həqiqətən əməlli-başlı, təhər-tövrünü deyirəm, oxşayışı var?

Lələ. Əməlli-başlı. Oxşayış yüzə yüzdü, qurban olduğum. Hələ rubənd taxdımı, heç kim seçəmməz.

Şah. Çox yaxşı. İçəri bağçada. Bə sən səfirlərin görüşünə gəlmirsən?

Lələ. Nə bilim? Mənə ki deyən olmayıb.

Şah *(ciddi).* Vəzir!

Vəzir. Bəli, mürşidi-kamilim...

Şah *(nə isə xatırlayaraq).* Yox, heç. Lələ, sən hələ keç içəri bağçaya. Səfirlərlə söhbəti axşam bahəm yemək yeyəndə mən özüm sənə danışaram, bahəm götür-qoy edərik. Belə... *(Vəzirə)* Səfirləri gətirin gəlin yaşıl otağa.

Lələ baş əyib geri çəkilir. Şah divanxanadan çıxır. Vəzir, Qorçubaşı, Fərraşbaşı Səfiyar onun arxasınca çıxırlar. Divanxanada qalır təkcə Lələ.

Lələ. Burdasan? Bilirəm, burdasan.Yaxın gəl. Qorxma, gəl bura.

Qaranlıqdan Xızrın, yəni, səhnə önündə görünən
2-ci aspirantın silueti seçilməyə başlayır.
Xızr ürkək-ürkək, ora-bura boylana-boylana, səhnə arxasına,
Lələyə yaxınlaşır.

Xızr *(ətrafa baxa-baxa).* Ağa, bura haradı? Bu... bu qədəmi mübarək şəxs Şah idi?! Yəni, mən ölmədim, sükür olsun, ölmədim, sadağa olduğumu gördüm?!

Lələ. Gəl, gəl hələ yaxına. İşığa bir ləhzə dur. *(Diqqətlə onun üzünə baxır. İşıq Xızrın üzərində.)* Qüdrətinə şükür, Xudaya.

Xızr. Nədi, niyə belə diqqətlə baxırsan sən mənə?

Lələ. Heç. Şükür, Xudaya. Qüdrətinə şükür.

İşıq sönür.

III VAQEƏ

Professor yenə səhnənin önündə. Ətrafındakılar – Qız, Həkim, 1-ci aspirant, 2-ci aspirant, Səda.

Professor *(Qıza).* Sənin nağılın, bax, belə başlayırdı.

Qız. Hə, belə başlardı. Şah doğrudan da cavanmış... yaraşıqlıymış...

Səda. Çox, çox yaraşıqlıydı...

Professor. Gördün bənzəri ona necə oxşadı? Yüzdə yüz.

Qız. Gördüm.

Həkim. Heç yaxşı iş deyil sirləri bu cürənə açıb faş eləmək, heç yaxşı iş deyil. Deməli, belə çıxır ki, heç kimin sirri ola bilməz, heç kim özü-özü ilə təklik pərdəsinin arxasına keçə bilməz. Bu... ədalətsizlikdi. Ən azından ədalətsizlikdi.

1-ci aspirant. Deməklə deyil ki. Bir-birinə o qədər də oxşamadılar. Yüzdə yüz deyirdiniz, elə olmadı.

Səda. Ona heç kim oxşamaz...

2-ci aspirant. Hə, yüzdə yüzü bir az şişirtdiniz, Professor.

Professor. Necə şişirtdim? Özünüz görmədiz?! Yüzdə yüz dedimsə, yüzdə yüzdü. *(Qıza)* Sən nə deyirsən?

Qız. Nə deyim, vallah...

Professor. Belə, *(1-ci aspiranta).* O zaman gəl. Gəl. Bir də bax. Diqqətlə baxın. Siz də təzədən seyr edin o məqamı.

Professor 1-ci aspirantı çəkib dal tərəfə aparır. İşıq ön tərəfdə sönür, dal tərəfdə yanır. 1-ci aspirant tez-tələsik Şaha, Profesor Lələyə çevriliriər. Şah Lələyə ba yaq dediyi son sözlərini təkrar edir. İşıq onun üstündə.

Şah. ...Arxa bağçada görüşərik. Səfirləri yola verim, sonra. Mən özüm Vəzirə tapşırmış idim, səfirlərlə ilk görüşdə sən olmayasan. Görək, hələ bunların çinədanında nələr var, nələr yoxdu... Axşam yeməyi zamanı isə səfirlərlə söhbəti sənlə bahəm götür-qoy edərik.

Şah çıxır.

Lələ *(qaranlığa).* Gəl. Yavuqlaş. Bilirəm burdasan, gəl. Çıx işığa. (Ona yaxınlaşan Xızrı diqqətlə süzür) Yüzdə yüzdü ki, var. Kim deyə bilər ki, bu bir sirri-xuda deyil?! İnanmayan gəlib görsün. Bir də, bir də baxsın. Bu, bir sirri-xudadı.

Xızr. Ağa, ağa... *(Diz çökür.)*

Lələ. Qüdrətinə şükür, Xudaya, qüdrətinə şükür. Allah, sən özün qurban olduğumu bədnəzərdən qoru, Allah, sən özün Şahımızı hifz elə...

IV VAQEƏ

Şahın divanxanasında başqa bir otaq. Divardan asılıb yaşıl xalı. Şah əyləşib ortada qoyulmuş taxtda, fikri bir başqa yerdədir. Taxtın sağ tərəfi boş, sol tərəfində Vəzir bardaş qurub oturub. Vəzirin yanından əyləşib 1-ci saqqallı səfir, üzbəüzündə əyləşib 2-ci səfir, ikinci səfirin arxasından əyləşib 3-cü səfir-tərcüməçi. Səfirlər yerdən çox qəribə şəkildə əyləşiblər. Bardaş qurmaq istəyiblər, tam alınmayıb. Qorçubaşı ayaq üstdə sol küncdə. 1-ci və 2-ci səfir italyanca danışırlar. 3-cü səfir tərcüməçilik edir – bacardığı qədər.

Şah *(təəccüb içində).* Yaratdığına şükür, Xudaya. Vəzir, eşidirsən? Bunların şəhəri, yəni, doğrudan dənizin içindədi?

Vəzir. Elə dedilər, qurban olduğum.

Şah. Belə... Əcayib-əcayib işlər varmış dünyada.

Vəzir. Şahim, qurban olduğum, bu səfir soruşdu ki...

Şah. Eşitdim, eşitdim nə soruşdu, nə üçün soruşdu. Cavab ver ki, bu təkcə mənim və onların istəyindən asılı deyil. Bu məsələnin başa gəlməsi üçün mənə gərəkdir xüsusi diqqət ola. Bunların Ağqoyunlulara verdikləri diqqətdən də xüsusi diqqət. Mənim yadımdan heç nə çıxmayıb.

Vəzir. Əlbəttə, qurban olduğum, sən necə ki deyirsən elədi.

3-cü səfir *(şahın dediklərini italyancaya çevirir).*

1-ci səfir *(başı ilə təsdiq edə-edə).* Əlbəttə. Doğrudur. Çox... doğru.

3-cü səfir *(səfirlər üçün tərcümə edir).* Şah buyurdu ki... *(Yavaşdan tərcümə edir).*

2-ci səfir. Şah doğru buyurdu.

3-cü səfir. Şah bir də onu buyurdu ki... *(Yenə yavaşdan onlar üçün tərcümə edir).*

2-ci səfir. Aha... xüsusi diqqət!..

3-cü səfir. Bəli, xüsusi diqqət istəyir.

Vəzir. Şahim, Osmanlıda top var, topxana var. Qılınc çəkib vuruşmaq zamanı keçir yavaş-yavaş.

Şah *(vəzirə qulaq asmır).* Vəzir, qoy bu soruşsun, onlarda qoşunlar ki, üzbəüz dayanır, hər iki tərəf öz igidini savaşa qoşub bu iki nəfərdən biri qalib gəlirsə, o biri tərəf, bütün qoşun özünü məğlub sayır, ya yox? Bunlarda bu adət var?

3-cü səfir *(tərcümə edir).* Şah soruşur, bizdə dava edənlər ortaya iki cəngavər çıxarıb məsələni birdəfəlik həll edirlərmi?

1-ci səfir *(italyanca).* Keçmişdə bizdə bu var idi. Cəngavərlərimiz var idi. Qibleyi-aləm. Elə indi də. Atlara minib təkbətək... döyüşürlər. Döyüşərdilər.

3-cü səfir. *... (tərcümə edir).* Var idi, indi yoxdur.

1-ci səfir. ... Əvvəllər, bəli, döyüşərdilər.

2-ci səfir *(italyanca).*Təkbətək!..

3-cü səfir *(tərcümə edir).* Təkbətək! Bu, əvvəllər belə idi.

Şah. Vəzir, bu "təkbətək" sözünü elə dedi ki, elə bil, xoruz yumurta gətirdi...

Vəzir. Qurban olduğumun məzəsi olsun.

Şah *(vəzirə).* Bir qəribə məxluqdular bunlar. Məəttəl qalasıdı. Din deyirsən – dinsiz, dil deyirsən – qarğa-quzğun dili...

Vəzir *(şaha).* Şahim, topu de. Topu de.

1-ci səfir *(italyanca).* Qibleyi-aləm də bizim şəhərimizə elçi göndərmək... istərdimi?

3-cü səfir *(tərcümə edir).* Qibleyi-aləm də biz tərəfə elçi göndərəcəkmi?

1-ci səfir *(italyanca).* Belə bir niyyəti varmı?!

2-ci səfir *(italyanca).* Bəli, niyyət, niyyət...

3-cü səfir *(tərcümə edir).* Bu cürə niyyət varmı?

Vəzir. Şahim, qurban olduğum, soruşurlar ki, bizlərdən də onların məmləkətinə elçi göndərmək niyyəti varmıdır qədəmi-mübarəkin?

Şah. Eşitdim. Niyə, pis fikir deyil...

Vəzir. Şahim... Top...

Şah *(səbrsiz).* Vəzir! Bəsdi. İndi mən durum bunlardan Əlvənd Mirzə kimi biqeyrətlilik təvəqqe

edim ki, gəlin, gətirin toplarınızı, bizim vuran əlimiz quruyubdu?! Nə oldu Ağqoyunlu Əlvənd Mirzənin axırı Şərur düzündə? Bunlara arxalanırdı, səndən soruşuram, nə oldu axırı? Top deyib durmusan. Bizim hədiyyələr hardadı? Cəld olun!

Vəzir və Fərraşbaşı Səfiyar çıxırlar.

3-cü səfir *(tərcümə etmək istəyir).*

Şah. Bunları demə. De ki, bəli, inşallah, belə bir niyyətimiz vardır. Biz hər bir əmələ başlamazdan əvvəl bir "inşallah" deyərik. Tərcümə elə.

3-cü səfir *(italyanca tərcümə edir).*

Səfirlər. İnşalla, inşalla...

Şah. Belə...

2-ci səfir *(italyanca).* Yol çox ağırdır. Topxana istəsəniz gərəkdir gəlib ordan... siz özünüz, siz özünuz dəniz yolu ilə, ancaq dəniz yolu... aparasınız.

3-cü səfir *(tərcümə edir).* Topları ancaq gərəkdir, özünüz gəlib aparasınız.

1-ci səfir *(italyanca).* Bəli...

Şah. Heç ehtiyac yoxdu. Ağa səfir, onu bil ki, top bir şeytan əməlidi. Söylə ona. Osmanlı şeytana öz qucağını açıbdır. Biz bunu etmənik. Bizə top-zad gərək deyil.

3-cü səfir *(italyancaya tərcümə edir).*

Vəzir Fərraşbaşı Səfiyarla girirlər. Fərraşbaşı Səfiyar üç xalça gətirir. Açıb səfirlərə göstərir. Səfirlərin ağzı açıq qalır.

Səfirlər *(italyanca).* Bəh, bəh, yaraşıq. Yaraşıq. Qibleyi-aləm çox lütfkardır. Çox mərhəmətlidir. Təşəkkürlər, təşəkkürlər...

3-cü səfir *(tərcümə edir).* Çox xoşumuza gəldi. Qibleyi-aləm çox lütfkardır. Təşəkkürlərimizi lütf eləyin, qəbul edin.

Şah. Gör bir necə dil-dil ötürlər. Gözləri işıldadı... Vəzir, sən bunlarla bahəm xəritəni bir də öyrən. Deyirlər, Osmanlı bizimlə bunların düz ortasındadı. Aramızda gözdən uzaq elə bir gediş-gəliş yolu tapın ki, Osmanlının xəbəri heç olmasın. Bu, çox vacibdi.

Vəzir. Şahim...

Şah. Yox dedim. Belə! *(Səfirlərə)* Şadam ki, hədiyyələri bəyəndiniz. Ağa səfirlər nə qədər istərsələr məmləkətimizdə qala bilərlər. Nə zaman istəsəniz, sizə mühafizəçilər veriləcək, bir dəstə... Qorçubaşı, sən özün həll elərsən, ötürərsən qonaqları düz şəhərlərinə qədər. Şəhərləri dəniz içindədi. Dənizə düşüb eləməyəsən. *(Qalxır. Hamı qalxır,başlar əyilib)* Belə. Osmanlı ilə savaşı başlayacağam.

Vəzir *(guya dodaqaltı).* Şahim...

Şah. Şahi-Mərdan xətrinə, sus. Qızılbaşlar o günə qalmadılar ki, şeytan əməlinə köks açsınlar. *(Səfirlərə)* Amma mənim də şərtim olacaq. Savaşa başlayacağam. Bu, Sultan Səlimlə mənim bir başqa söhbətimdi. Amma... *(Susur.)*

3-cü səfir ... *(yavaş səslə bu birilərə tərcümə edir).*

Səfirlər (*italyanca*). Amma... amma yəni...

Şah. Bəli, amma mənim də şərtim olacaq...

İşıq sönür.

V VAQEƏ

Evin qabağında bir bağça. Ortada kiçik hovuz. Ətraf gül-çiçək. Quşların səsi. Bəhruzə xanım (Səda) və Taclı xanım (Qız) bir-birinə su ata-ata ucadan gülüşür və hovuz ətrafında qaçışırlar. Səslər: "Yox, mən. Yox mən. Mən onu daha çox istirəm. Yox mən..." Hovuzun bir kənarında miz. Ətrafında kətil və yerdən xalı üstdə mütəkkələr. Lələ və Xızr gəlirlər. Xanımlar gülüşə-gülüşə çıxırlar.

Lələ *(qaçıb gedən xanımlara yüngül təzim edərək, Xızra).* Bura bir bax *(evi göstərir).*Burada yaşayacaqsan. İnnən belə bura sənin həm evin olacaq, həm vətənin.

Xızr *(gözü qaçıb gedən xanımlarda).* Bura ki cənnətdi.

Lələ. Cənnətdi. Amma cənnətdə qalmağın öz şərtləri var. Əməl etməlisən. Əməl etməsən...

Xızr. Öl desən, öləcəyəm, ağa.

Lələ. Sən gəl belə elə. Sən mənə bundan sonra Lələ de. Alışdır özünü.

Xızr. Ölləm, demənəm.

Lələ. Gədə, bəsdi daha söz güləşdirmə mənimlə. Yoxsa, and olsun qurban olduğuma...

Xızr. Lələ. Lələ. Sən mənim Lələmsən. Nə istərsən deyim. Təki sən... incik olma.

Lələ. Gədə. Bax, dinlə məni. İndi bura bilirsənmi kim gələcək?

Xızr. Kim gələcək, Lələ? Yox, bilmirəm.

Lələ. İndi bura Şah qədəmi mübarək gələcək.

Xızr. Sadağa olduğumu bir də görəcəyəm?! Allah, sənə şükür olsun.

Lələ. Gədə Xızr. Sən bu gündən olacaqsan Şahın kölgəsi. Harda o, orda sən. Amma sənin üzünü bir kəs görməyəcək. Heç kimsə sənin Şaha bənzəyişini sezməyəcək. *(Xızrın üzünə diqqətlə baxır)* Şükür sənə xudaya... Üzünü tutacaqsan. Rubəndin olacaq. Hər yerdə mənim işarətimi gözləyəcəkcən. Lazım gəldiyi an...

Xızr. Bəli, Lələ, lazım gəldiyi an...

Şah daxil olub bunların söhbətinə qulaq asa-asa heyrətlə Xızrı süzməkdədir.

Lələ. Lazım gəldiyi an üzündən rubəndi götürüb qurban olduğumun əvəzinə ortaya çıxacaqsan.

Xızr. Baş üstə, Lələ. *(Birdən, elə bil, ayılır)* Hə dedin sən? Mən? Onun əvəzinə? De ki, əstəğfurulla. De ki, əstəğfurulla.

Lələ. Gədə, məni halımdan çıxarma.

Şah *(özünü biruzə verir).* Heç halından çıxma, Lələ *(keçib mizin dalında kətilə oturur).* Təzədi.

Hələ nə bilsin ki, sən ondan nə istirsən? Adın nədi sənin? Yaxına gəl.

Xızr *(yerə sərilir, donuq).* Lələ, Lələ...

Şah. Adı nədi bunun, Lələ?

Lələ *(təzim edərək).* Qibleyi-aləm, adı Xızrdı.

Şah. Xızr... Əhsənül-əhsən. Nə bacarırsan sən, Xızr? Qalx ayağa! Nə bacarır bu, Lələ?

Xızr zor ilə dikəlir.

Lələ. Mən onu tapana qədər kəndin malını otarırdı. Evinə kömək edirdi. İndi isə...

Şah. İndi isə...

Lələ. Qibleyi-aləm, artıq şətrənc oynaya bilir...

Şah. Eləmi? Bərəkallah.

Lələ. Mən öyrətməyimi gördüm. İndi məni udur.

Şah. Belə...

Lələ. Bir də...

Xızr *(yavaşdan).* Onu demə, nolar, onu demə. Məni xəcil etmə.

Şah. Bir də nə?

Lələ. Şeir yazmağı var bunun, qurban olduğum.

Şah. Necə? Yəni, əməlli-başlı şeir yazır? Bu ha?

Lələ. Bəli, sadağa olduğum, bu, bu. Şeir yazır.

Şah. Allah, Allah... *(Söhbəti dəyişir)* Lələ, sənin səfirlərdən xəbərin oldu? Bunlar deyir, bizim şəhərimiz tamamən suyun içindədi... İnanmalı deyil. Şeirmi dedin?! Maşallah, maşallah...

İşıq azalır. Ön planda Professor, Qız, 1-ci aspirant, 2-ci aspirant, Həkim, Usta, Qonşu, Səda.

Professor. Diqqətli olun. Məsələnin canı bax, burdadı. Bizim təsəvvürümüzdəki Şah İsmayıl... budur ki var!

Həkim. Bu – Şah İsmayıl? Şah İsmayıl Səfəvi?

Professor. Bəs sən elə bilirdin, gördüyün bu Şah nağıldan, əfsanədən gəlib? Şah İsmayıldı, həqiqətən, Şah İsmayıl Səfəvidi...

Usta *(bərkdən).* Mən deyəndə, xətt qırılıb, mənə qulaq asmırsız. Görürsüz, qırıq yeri tapmaq necə müşkül işdir?!

Qız. Siz Allahınız, yavaş!.. Səsinizdən qulaq batır. Mən heç nə anlamıram.

Səda. Mənə isə hər şey aydındır. Bu o idi...

Professor. Bəli, mətləblər tamamilə ağlasığmaz mətləblərdir. Amma bu ancaq ilk baxışda belədir. Dərindən baxanda isə, yəni, yenə də mən deyənə, daha doğrusu, Hacı Mir Həsən ağa Səyyah deyənə gəlsək və batinə nəzər sala bilsək hər şey

aydınlaşar. Hətta Hacı Mir Həsən ağa özü tariximizin bu kəsiyini elə bir şəkildə nəql edir ki, elə bil tarix yox, bədii rəvayət danışır.

1-ci aspirant *(irəli çıxır, o hələ də bir az Şahdır).* Belə... Sirlərin əsl sərgüzəşti...

2-ci aspirant *(hələ də bir az Xızrdı).* Ürəyimə damıb. Görün bir hələ nələr olacaq. Hələ nələr olacaq... Ürəyimə damıb. Çox şeylər olacaq!

Professor. Olacaq. Olacaq. (*1-ci aspiranta*) Bunun şeir yazmağını sən bilirdin?

1-ci aspirant. Yox. (*2-ci aspiranta*) Sənin şeir yazmağın da var?

2-ci aspirant. Bura qaranlıqdı. Ürəyim lap sıxıldı.

1-ci aspirant. Tələsmə. Hər şey aydınlaşacaq. Elə bilirsən, mən özüm hər şeyi başa düşürəm?!

Səda. Mən isə hər şeyi başa düşürəm. O yerlər, o doğma baxça, o hovuz... o güllük...

Qız. Sizi and verirəm... yavaş, bir azcana yavaş olun. Bəlkə də orda *(səhnənin dal tərəfinə işarətlə)* bizi eşidirlər... yavaş...

Professor. Nə isə... Davam edək. Bir qədər əvvəl Şah, gərək ki, belə dedi... Dedi ki...

Ön planda işıq azalır. Səhnənin arxa tərəfi isə işığa bürünür.

VI VAQEƏ

Hadisələr qırıldığı yerdən bir az əvvələ qayıdır və ordan başlayaraq azca fərqlə bir daha təkrar edilir. Yenə həmən bağça. Yenə Şah, Lələ və Xızr. Lələ və Xızr diz çöküblər. Bəhruzə xanımla Taclı xanım bir az kənarda güllərin arxasında gizlənibləг.

Şah. Hələ bir de görüm, Lələ, nə bacarır, nə bacarmır bu?

Lələ. ...Şətrənci bacarır.

Şah. Dəxi nə bacarır?

Xızr *(yavaşdan).* Onu demə. Onu demə.

Lələ. Şeir yazır.

Şah. Necə, necə?! Şeir yazır?! Bu?

Lələ. Bəli, qurban olduğum. Bu! Şeir yazır.

Şah *(diqqətlə Xızrı süzür. Bu zaman qızları görür, guya ki, hirsli, amma şux bir əda ilə).* Əstəğfurulla, siz hələ orda nə edirsiz? Gedin, Şahi-Mərdan xətrinə, gedin burdan, tez, tez... *(qızlar qaçıb gedirlər, Xızra)* Gəl bir işığa dur. Döndər üzünü yana. İndi bu biri yana. *(Xızrın üzünə diqqətlə baxa-baxa)* Lələ. Vallah, sənə min dəfə əhsən düşür... Bunu sən hardan tapıb gətirmisən? İndi isə bu biri tərəfə bax. Əhsənül-əhsən. Əhsənül-əhsən. Xaliqinə əhsən olsun!

Lələ. Qibleyi aləm, mürşidi-kamilim. Sənin tapşırığını alınca mən bəndeyi-fəqir o saat anladım ki, sən öz işıqlı zəkanla çox ciddi bir dövlət işini mənə tapşırırsan. Maşallah ki, müdrikliyinə söz yoxdur. Şəhərbəşəhər, kəndbəkənd məmləkəti özüm gəzməyə başladım. Bir aya yaxın müddət keçdi. Atdan ancaq bir hövr gözümün acısın almaq üçün endim. Heç kimə bir kəlmə deyə bilməzdim, bir adamdan soruşa bilməzdim – sirr faş olardı. Ona görə də, sadağa olduğum, qədəm-qədəm, kənd-kənd ancaq özüm gəzdim. Bir neçə oxşar var idi, amma! Burnu oxşayanda çənəsi düz gəlmirdi, çənəsi düz gələndə qulağı oxşamırdı. Səni, mürşidi-kamilim, zahirdə də xaliq öz xoş saatında yaratdığından mən "zəhmətim boşa gedir, Şahıma taymı tapacağam?!" düşündüm, az qala peşman olub, sənin yanına üzüqara qayıdacağdım. Uzaq bir dağ kəndi var, Əshabi-Kəf tərəfdə, o kəndin yanından elə-beləcə pərişan-pərişan keçdiyim yerdə...

Xızr. Mən mal-qaranı çaya aparırdım. Araza...

Şah. Belə...

Lələ *(Xızra gözünü ağardır, pıçıltı ilə).* Sən... sus.

Şah. Eyb etməz, Lələ. Fikir vermə...

Lələ. Bəli, qurban olduğum, düz buyurursan, təzədi. Yetişəcək, inşallah. Qərəz... budu ki, durub

sənin qarşında. Bundan daha bənzərlisini tapa bilmədim. Əgər sən bunu bəyəndinsə...

Şah. Bəyəndim, Lələ, çox bəyəndim.

Xızr *(başını yerə toxundurur).* Qurban olduğum, mürşidi-kamilim...

Şah. Adı nədi, hələ bunun?

Lələ. Adı Xızrdı *(cavab vermək istəyən Xızra yenə pıçıltıyla).* Sus, gədə!

Şah. Xızr... Belə... Məsələdən agah etmisənmi özünü?

Lələ. Bir balaca, qurban olduğum. Həmi də sənin ki fikrini bilmirdim, indi biləndən sonra...

Şah. Tamamən agah elə. Mən bəyəndim bunu.

Lələ. Baş üstə, qurban olduğum. *(Xızra)* Əyil, yıxıl qibleyi-aləmin ayağının altına, öp torpağı, mərhəmətinə dua elə.

Xızr sürünə-sürünə Şaha yaxınlaşır. Onun birnəfəsə dediyi təşəkkür və minnətdarlıq sözlərini ayrı-ayrılıqda anlamaq olmur. "Sağ ol, var ol, qurban olduğum, sadağa olduğum...."

Şah. Belə...

Lələ. Hər bir əmrinə müntəzirdi.

Şah. Elə biriminci işi qoy bu olsun. İki gün sonra mən bazara çıxmaq istirdim. Amma... yox. Niyə ki?! Yaxında qoy sənin lə sübh namazına elə

bu dursun. Mən də təğyiri-libas olub, uzaqdan rubəndimi tutub seyr edim sizi. Nə deyirsən?!

Lələ. Baş üstə, Şahim, bəs şəhər seyri, bazar dedin...

Şah. Bazara Vəzirlə gedərəm. Amma bax, Lələ, onun özünə belə bu barədə – bir kəlmə də! Elə hamıya da! Şərtimiz şərtdi!

Lələ. Bilməzmiyəm, sadağa olduğum, bilməzmiyəm?! Sən bilirsən, mən bilirəm... bir də bunun özü...

Şah *(Lələyə).* Yavaşdan deyəcəm, yavuqlaş *(Lələ yaxınlaşır. Şah yavaş səslə Lələyə).* Əsas məqsudimiz odu ki, mənim eyni zamanda iki başqa-başqa yerdə olmağıma hamı camaat inansın. Dərvişlər, saray əhli, müridlər, qorçular – uşaqdan böyüyə hamı. Biz səninlə bu cürənə qərarlaşdıq. Heç kim də xəbər tutmasın bu sirdən. Belə. Di, hazırla, Lələ, bunu. Yaxşı, yaxşı yerişimi, ədalarımı öyrənsin. Səsimi təqlid etsin. Amma! Elə görürəm, rubəndsiz bir az tezdi. Sən necə bilirsən? *(Xızra)* Qalx. Qalx ayağa.

Xızr qalxır.

Şah *(yenə diqqətlə Xızrın o tərəf, bu tərəfinə keçir).* Belə. Şükür olsun dərgahına, Xudaya. Şahi-

Mərdan eşqinə, Lələ sən bunu hələ necə tapdın?! Əhsən, vallah əhsən!..

Lələ. Sağ ol, çox sağ ol, Şahım. Düz buyurursan, qurban olduğum, rubəndsiz hələ tez olar.

Şah. Belə... Yaxşı... Bə bu harda yatıb-duracaq?! Bəlkə elə bu bağçadakı evdə yaşasın?! Gözdən uzaqdı. *(Lələyə)* Sən nə deyirsən? Qoy belə də olsun! Elə bura yaxşıdı. Görüşəndə də burda görüşərik. Deyirsən, şətrənci bilir?

Lələ. Bilir, qurban olduğum, öyrətmişəm.

Şah. Belə. *(Xızra)* Söylə, görüm. Üzümə bax. Sən ki, şeir yazırsan, bəs gərəkdir sənin bir təxəllüsün ola. Nizami var, Firdovsi var, Hafiz var, Sədi... Səninki nədi? Var sənin təxəllüsün?

Xızr *(üzünü kənara tutaraq).* Qurban olduğum, sadağa olduğum. Mən günahkar bəndəni mərhəmətinə bağışla, lütfünə qurban elə. Mən xətalı bəndənin...

Şah. Nədi sənin təxəllüsün, gədə?

Lələ. Cavab ver, qorxma, Şah istir, sən özün ona cavab verəsən.

Xızr *(Şaha baxır).* Bəli, qurban olduğum, var mənim təxəllüsüm... var. Təxəllüsüm Xətaidir.

Şah. Xətai? Elə niyə, oğlan? Çoxmu xətan olub həyatda? Ha-ha-ha... *(gülür)* Xətai... Əlbəttə,

qul günahsız olmaz, amma nə deyim... Sonra mənə şeirlərini oxuyarsan. Xətai... Əcəbdi. Lələ, ötür məni. *(Gedə-gedə)* Niyə Xətai? Nə üçün?.. Səfirlər çox qərib şeylər söylirlər, deyirlər, bizim şəhərimiz tamamən suyun içindədi, hər tərəfdən dənizdi, Lələ, sən buna inanırsan?..

Şah çıxır, Lələ də arxasınca. Xızr tək. Musiqi səsləri onu yavaş-yavaş yerə oturdur. Lələ qayıdır. Gedib Xızrın qənşərində o da yerdən bardaş qurub oturur. Bir müddət ikisi də susur. İşıq yavaş-yavaş azalır.

VII VAQEƏ

Aradan bir müddət keçib. Yenə həmən bağça, gül-çiçəyin arasında miz, üstündə şahmat və fiqurlar. Mizin ətrafında kətil və mütəkkələr. Lələ və Xızr səbrsiz gəzişirlər.

Lələ. Bax, unutmayasan. Vaxtı çatanda mən sənə işarət verəcəyəm. Vəzirini qurban elə. Amma duyuq düşməsin.

Xızr. Unutmamışam. Unudarammı heç?! Sən qətiyyən rahatsız olma. Bəs harda qaldı görən qurban olduğum?

Lələ. Bu gün qorçuların nizamına baxmağa gedibmiş. Yağış ki, yağdı, yollar-izlər oldu tamam palçıq... Görmürsən ki, günəş indi-indi buludların arxasından boylanır. Üfüqə baxırsan hələ, qıpqırmızıdı... Qövsi-qüzehi görürsən?..

Xızr. Hə, çox gözəldi. Ruhu dincəldir. Allahın yaratdığı hər şey beləcə gözəldi. Mənim ürəyimə pis bir şey damıb. Savaşı deyirəm, Lələ. Heç olmaz ki, bu savaş olmasın?

Lələ. Olmaz.

Xızr. Niyə olmaz?!

Şah daxil olur. Xızrın son sözlərini və sualını eşidir.

Şah *(kətilə oturur).* Olmaz! Ona görə olmaz ki, oxu kamandan gərəkdir buraxmayasan. Buraxdın, daha geri qaytarmaq müşkildi. Mümkün deyil.

Lələ *(diz çökür).* Qurban olduğum...

Xızr *(diz çökür, torpağı öpür).* Qurban olduğum, mürşidi-kamilim...

Şah *(kətilə oturur).* Qalxın. Mən bu gün qorçuların düşərgəsinə getmişdim. Lələ, sən bu qorçuların hələ üst-başlarını görmüş idin? Hansı hardan nə tapıbdı, onu da geyibdi. Fərmayiş verdim. Mənim qorçularım, Allahın iznilə, gərəkdir qıs-qıvraq olsunlar. Xəzinədən bir miqdar vəsait götür, nə lazım gələcəksə, onu özün elərsən.

Lələ *(qalxır).* Baş üstə, qurban olduğum. Anladım səni. Başqa bir əmrin varmı?

Şah *(Lələyə).* Mustafa Ağa Qorçubaşı italyan elçilərlə getdi, harda batdı, harda qaldı, bilinmir – xəbər yox, ətər yox. Bəlkə oranın dənizinə düşdü? Lələ, səni bu gün həmi də Qorçubaşı etdim. Qalx, qalx, hələ *(diz çökmək istəyən Lələni çiyinlərindən tutub qaldırır, ciddi tərzdə)*. Əfşarlarla, ustaclılarla, zülqədərlərlə, elə şahsevənlərin özü ilə də təzədən dil tapmaq gərəkir. Bu gün ancaq qacarlara, bir də türkmən tayfasına tamamən arxayın ola billəm. Gərəkdir, qızılbaşlar yavaş-yavaş hərəkətə gəlsin-

lər. Osmanlıya ordan-burdan həmlələr etməmiz lazım. Gizli-gizli bunun içinə girməkdə lüzum var. Yoxlayaq, görək hələ bunların cavabı nə olacaq. Nəhayət ki, bu gün son çarəyə əl atdım.

Lələ. Nədi o, qurban olduğum?

Şah. Daha bu Səlimi mən nə təhər edib cəng meydanına çəkəcəkdim?! Sən ki bilirsən, nə tövr etdimsə, sözümü saya almadı. Bu gün elçiləri yola saldım. Ona arvad yaylığı göndərdim.

Lələ. Arvad yaylığı? Kimə? Sultan Səlimə?

Şah *(qeyzli).* Sultan Səlimə yox, Lələ, Səlimə! Atası Bəyazidi bihörmət edib taxtdan uzaqlaşdıran Səlimə. Bircə nəfəsi gələydi atam Şeyx Heydərin. Quruca nəfəsi gələydi. Şahi-Mərdana and olsun, yalın ayaqla xidmətində durmaq ən böyük səadətim olardı.

Lələ. O indi elə Şahi-Mərdanın yanındadı, qurban olduğum. O indi özü səadət içində sənə oradan baxıb fəxarət edir.

Şah. Təskinliyimiz də elə budu, Lələ. *(Xızra)* Düz şətrəncin daşlarını.

Xızr. Baş üstə, sadağa olduğum.

Xızr mizin üstündə şahmat fiqurlarını düzür.
Şah və Lələ bir müddət onu izləyirlər.

Şah. Get-gedə hərəkətləri və ədası daha çox oxşamağa başladı, sən nə deyirsən?! Rübəndsiz imtahandan bacardı, çıxdı. Sən bunu yavaş-yavaş Şah etdin... Lələ.

Lələ. Əstəğfurullah, qibleyi-aləm. Əstəğfurullah.

Şah *(mizin arxasına keçib kətildə oturur, Xızra).* Otur, otur, gədə. Bu dəfə görüm, mənim həmlələrimə necə cavab verəcəksən?!

Şah kətildə və Xızr yerdən oturub şahmat oynayırlar. Lələ oyuna baxır. İşıq eyni zamanda səhnənin qabaq tərəfinə düşür. Orada Qız və Həkim görünür. Miz ətrafında oturublar. Səda yenə gah ordan, gah burdan görünməyində və gəlməyindədi. Əslində, Sədanın çıxardığı səslər bir bütöv musiqinin yerləri dəyişik düşmüş ayrı-ayrı parçalarıdır.

Qız. Mən atamın danışıqlarına çox inanıram. Bəziləri inanmır, elə sizin özünüz... Mən isə inanıram. Baxın bu işıq da əbəs yerə sönmədi. Bura yenə qaranlığa qərq oldu. *(Sədaya)* Çox gözəlsən, çox qəşəngsən...

Həkim. Hə, gözəldi. Mən də atanıza inanmaq istəyirəm. Necə deyir?.. Sultan Səlimlə Çaldıran savaşından sonra Şah həyatında ilk dəfə məğlubiyyətin acı şərbətini daddı. Ruhən sındı. Şahi-Mərdanı-

nın himayəsində olduğunu zənn edərkən, yanıldığı ortaya çıxdı. Acılar çəkdi. Tərki-dünyaya çevrildi. Şeirlər yazdı. Kitabxanasını qaydasına saldı. Şah-şair! Ya Şah olur adam, yada şair. İkisi bir yerdə necə ola bilər?! Ya zalımsan, ya məzlum, ya zənginsən, ya fəqir.

Qız. Baxın, əgər biz zahirlə batinin birgəliyini qəbul edə biliriksə, o zaman "ya zahirdəsən, ya batində" ayrılığını da anlamalıyıq. Anlamaya bilmərik. Amma o biri tərəfdən batin zahirin içində deyilmi və zahir batinin görüntüsü deyilmi? "Ya zahir, ya batin" ola bilmir. "Həm batin, həm zahir" olur. Şah da, şair də birdilər. Kağızın iki üzü kimi birdilər. *(Səda üçün)* Necə gözəl oxuyur...

İşıq səhnənin arxasına keçir.
Yenə əvvəlki kimi Şah və Xızr şahmat oynayırlar.
Şahın arxasında Lələ Xızra işarə verməyə çalışır.

Şah. Gədə, sən bu qədərinə piyadasanmış?! Bu nə gedişdi, hələ edirsən? Şahın sənin iflic oldu ki. İşlərin xarabdı.

Xızr *(süni tərzdə).* Aman, aman, qurban olduğum. Bir xətadı, etdim. Vəzir əldən getdi. Eyvah.

Şah. Bəli, vəzir əldən getdi. Daha bəsdi *(qalxır).* Lələ! Sabah gedib qorçubaşılığı təhvil alarsan. Sonra görüşərik. Qoy sabah Xızr...

Lələ. Bəli, qurban olduğum...

Şah. Qoy sabah Xızr bu yaxındakı kəndlərə baş çəksin. Camaata göstərsin özünü. Gədə, üzündə bir məğrurluq tut. Ay maşallah, bax belə. Əsl Şahsan ki, durmusan. Hələ bir onu söylə görüm, bu necə olur ki, sən hər gün təzə şeir yaza bilirsən? Bunun bir sirri vardır, əlbəttə.

Tikənliyə ilişib qalmış quşcuğazın aramsız cikkilti səsi gəlir.

Şah *(boylanır).* Zavallı. Lələ, o quşcuğazı görürsən? Get, azad elə onu, yazıqdı, uçsun getsin. *(Lələnin arxasınca)* Şahi-Mərdan xətrinə, dedim azad elə, demədim ki, zülm elə. Zülm eləmə ona. Yavaşca. Yavaşca. Çıxar onu, belə, burax, burax, qoy uçsun, getsin.

Lələ əlində quş gəlir. Əlini göyə açır.
Gözəgörünməz quşcuğaz uçub gedir.

Xızr. Xoşbəxt...

Şah. Zavallı...

Xızr. Şahi-Mərdan bizim ömrümüzdən kəsib sənininkinə calasın. Qurban olduğumun ürəyi yuxa kimidi.

Şah *(Xızra məmnun-məmnun).* Belə. Amma demədin, sən axı bu şeirləri nə təhər yazırsan? O

gün birini yazmışdın, bu günkü tamam başqa cür oldu. O gün söylədiyin, düzdü, yadımda qalmayıbdı, amma çox xoşuma gəlmişdi.

Xızr. Sadağa olduğum, sənin mərhəmətinin ilhamıdı, gəlib girir könlümə.

Şah *(məmnun).* Bax hələ. Bunun cavabına bax hələ. Sən də bəyəndinmi cavabını, Lələ?

Lələ. Bəyəndim, həm də çox bəyəndim, sadağa olduğum...

Şah *(hələ də məmnun).* Rubəndimi!

Lələ mizin altından rubəndi çıxarıb Şaha uzadır.
Şah rubəndi taxır.

Şah *(Xızra şux bir təntənə ilə).* Səni bu gecəlik bu bağçada Şah yerinə qoyuram *(gedir).*

İşıqlar yanır, sönür, musiqi və təntənə səsləri.
"Çox yaşa, çox yaşa, Şahim". Bilinmir bu səslər Şaha aiddir, yoxsa onu çıxışa qədər ötürən Xızra.

VIII VAQEƏ

Başqa bir zaman. Yenə həmən bağça. Ortada miz. Üzbəüz mütəkkələrə söykənib yerdən oturublar Lələ və Xızr.

Lələ. Vəzir, biləsən, çoxbilmiş birisidi. Amma... ağıllıdı, özü də böyük bir tayfadandır. Atası bunun Uzun Həsənə mirzəlik edib. Sonra qəzəbə gəlib, nə isə... Dev Sultan Rumlulardandı.

Xızr. O, əlbəttə, istəməz ki, mənim Lələm sarayda bu qədərinə hörmət və izzət sahibi olsun.

Lələ. Ay bərəkallah! İstəməz. Amma bu, onluq deyil. Qurban olduğum özü hər insanın ayrılıqda qədrini bilir və mükafatını da özü verir. Bizim sirrimiz ki, bizimlə bir yerdə qəbrə gedəcək, sirr sahibi olmaq adamları birləşdirir. Sənin də mükafatın olacaq...

Xızr *(özündən qeyri-asılı).* Bir sualım var. Sirrə sahib olmaq adamları ayırmırmı, Lələ?

Lələ. O niyə heylə olur ki?

Xızr *(birdən özünə gəlir).* Şahi-Mərdana and olsun, özüm də bilmədim, bu sözlər necə oldu ağzımdan çıxdı.

Lələ. Dinlə. Xaricilər istirlər, Şahı Osmanlıya qarşı qoysunlar. Osmanlı ilə dilimiz bir, adətimiz bir... Amma savaş olacaqdır. Şah qərar verdi,

inşallah, Osmanlı ordusu qızılbaşların zərbi-dəstini görəcək. Amma...

Xızr. Lələ, sən mənə söz vermişdin, yadında?! Atam, bacılarım...

Lələ. Hə, yadımdadı. Söylə, görüm, hələ mən öyrəndim, sənin atan Şahın Dağıstan səfəri zamanı qızılbaşlara qoşulmuşdu, eləmi?! Qoşulmuşdu. Səfərdən sonra isə onlardan ayrıldı. Niyə görəsən? Amma qəm eləmə. Hələ bu savaş bitsin. Sonra, inşallah, sonra səninkilərlə aramsız məşğul olarıq. Darıxmayasan.

Xızr. İnşallah. Bəs bu savaşın qarşısını almaq heç cürə olmaz?

Lələ. Olmaz.

Xızr *(kədərli).* Heç ip ucu yoxdu? Vaxtımız az qaldı...

Lələ. Vaxtımız çox azdı, bəli. İp ucu isə yoxdu. Sən yaxşı şəyirdsən. Vaxt olur, mən özüm bilmirəm, sən Xızrsan, yoxsa...

Xızr *(Şahı təqlid edir).* Xamuş! Belə...

Lələ. Maşallah... ...yainki Xızr deyilsən?! Bax, bax hələ. Qurban olduğumdu ki, oturubdu qənşərimdə.

Xızr. Lələ, bir şey sormaq istirəm, hərgah izn verəsən...

Lələ. Sor.

Xızr. Lələ, mənə elə gəlir, elə gəlir, sən Şahımızı özün qədər sevirsən. Düzmü düşünürəm?

Lələ *(sərt).* Yox, düz düşünmürsən.

Xızr. Allah, Allah...

Lələ. Mən qurban olduğumu canımdan daha artıq sevirəm, gədə. Bir də mənə belə suallar verməyəsən. Davam edək. Qorçubaşı Mustafa ağa Ustaclu... Zülqədərlərdən...

İşıq sönür.

IX VAQEƏ

Səhnənin ön tərəfi işıqlanır. Professor, Qız, Həkim, 1-ci aspirant, 2-ci aspirant və Qonşu qaranlığı tərk edib bir-bir görükməyə başlayırlar. Səda yenə öz musiqi parçasını səhnənin müxtəlif nöqtələrində zümzümə etməkdədir.

Professor. Lələ Xızrı gözdən kənar bir yerdə yerləşdirdi. Hər gün ona sarayı, əyan-əşrəfi anladırdı. Şahın əndəruna aparan qapısı qarşısında bir kiçik bağça vardı, bağçanın bir küncündəki hasar dibində isə bu balaca ev. Şah hərdən hamıdan uzaqlaşıb dincəlmək istəyəndə bu bağçaya, bu evə çəkilər, bu zaman xidməti ona ancaq Lələ edərdi. Xızrı Lələ bu evə yerləşdirdi.

Həkim. Əlbəttə, Xızr ola bilməzdi ki, batini ilə də hökmdarın eyni olaydı. Xızr yumşaq, həlim birisi idi. Yəqin, bu kiçik və gözəl bağçanı *(səhnənin arxasında bağça işıqlanır, quş səsləri...)* bəli, bəli, bu balaca cənnət məkanı tək-tənha gəzib saatlarla güllərlə-çiçəklərlə, torpaq üstə yuvasına tələsən qarışqalarla, çiçəkdən-çiçəyə qonan arılarla söhbət edib. Gözəldi. Bu bağçada bitən qızılgüllər daha dünyanın heç bir yerində bu cür ürəklə ətrafa ətir saçmayıb.

1-ci aspirant. Özünüz gördünüz, Hüseyn bəy Lələ kimi Şah da Xızra isinib. Onun şeirlərini dinlə-

yəndən sonra “Xətai, Xətai” deyərək “nə xətaların olub sənin, gədə?” şuxluqla soruşanda Xızr belə cavab verərdi: “Hər şeirim elə bir xəta deyilmi, mürşidi-kamilim?” Bu cavab Şahın çox xoşuna gəlirdi.

Professor. Şah, Xızrdan fərqli, təbiətən çılğın, kəskin, böyük qüvvət və cəsarət sahibi, həm də yetərincə sərt idi. XVII əsrin müsəlman elminin Plutarxı Elbəyinin “Sərvətnamə”sində deyilir ki, Şah İsmayıl öz düşməni Şeybani xanın başından kuzə düzəltdirib, ordu qarşısında bu kuzəyə şərab töküb içmişdi. Düşməninə çox amansız idi. Heç kimin günahından keçməzdi, din yolunda, Şahi-Mərdan yolunda ölümə belə göz qırpmazdı.

Qız. Sevimli iki arvadı vardı: Taclı xanım və Bəhruzə xanım. Arvadlarını çox istərdi, onlar da öz sevgili mürşidlərinin yolunda canlarından keçməyə hazır idilər. Heyif, heyif!... Nələr edə bilərdi məmləkətin rifahı üçün...

Səda *(az qala oxuyur).* Nələr də etdi... Amma... amma... amma...

Professor. Ömür vəfa etmədi. Bilirsinizmi, Şahın tarixçəsinin bir batin qatı daha var. Bu batinin açar adı... Hüseyn bəy Lələdir. Hacı Mir Həsən ağa Səyyah bunu aşkar yazır. “Sirlərin sərgüzəşti”, səhifə 424: “Hüseyn bəy Lələ Şahın ta ki uşaqlığın-

dan tərbiyəçisi idi və Şahı canından artıq sevirdi. Şahın da ona etimadı böyük idi. Bu şəxs Şahın əmri ilə qorçubaşılığa qədər yüksəldi. XVII əsrdə məndən qabaq və məndən qat-qat böyük fəzilət sahibi olan Elbəyi özünün "Sərvətnamə" əsərində yazır: "Görənlər deyir ki, Hüseyn bəy Lələ Çaldıran döyüşündə "Şahi-Mərdan eşqinə!" sözlərini cuş ilə çığıra-çığıra özünü hərbin ən ağır yerinə vurub həlak olur. Onun cəsədini osmanlı nizələri tamamən tikə-tikə edirlər, üzü-gözü də tanınmır. Bu qeyrətli şəxsin həyatı Şah İsmayıl tarixinin acı olduğu qədər də ləyaqətli və ibrətamiz səhifəsini təşkil edir". Bunu Elbəyi yazırmış. Hacı Mir Həsən ağa Səyyah isə "Sirlərin sərgüzəşti"ndə buna etiraz edir. Hacı Mir Həsən ağa Səyyah belə yazır: "Hüseyn bəy Lələ Şahın etibarlı adamlarından idi. Qızılbaşların birləşməsində böyük xidmətləri olmuşdu. Əfşarları, qacarları, şahsevənləri, türkmənləri, zülqədərləri yaxşı tanıyırdı. Şaha sədaqətindən idi ki, Çaldıran döyüşündə savaşın əldən getməsini görüb özünü ən amansız nöqtələrə atsa belə, ona bir zərər dəymədi. Hüseyn bəyi osmanlı yeniçərləri əhatəyə alıb əsir etdilər. Onu öldürmədilər və cəngdən sonra Hüseyn bəy Ləlәni Trabzonlu Abdulla bəy Mömin Əfəndi əsirlər sırasından seçib Sultanın mərhəmətli

icazəsi ilə Trabzona öz evinə apardı. Hüseyn bəy Lələ ta ki, Çaldıırandan sonra on ilə yaxın bir müddət bu şəxsin evində yaşadı".

Qız. O cür adam – əsirlikdə?! Necə olub, ürəyi partlamayıb?! Necə olub qəlbi parça-parça olmayıb?!

Həkim. Əsirlik öz həyatı ilə türmə arasında elə böyük fərq duymayanlar üçün *(alnını göstərir)* bura yazılıb. Fərq böyük olanda bax, o zaman adamın bağrı həqiqətən çatlaya bilər.

Professor. Yox**,** onun bağrı çatlamadı. Hüseyn bəy Lələ on il səbrlə əsirlik həyatını sürdü. Abdulla bəy Mömin Əfəndi kitab oxumuş, elmdən hali biri idi. Onun kitabxanasını qaydaya saldı, nizama gətirdi. Beləliklə, ay ay dalınca, il il dalınca bu şəxsin dərin hörmətini qazandı. Onlar zaman-zaman uzun qış gecələrində Şah İsmayıl və Sultan Səlim arasındakı nifaqı götür-qoy etdilər. Nə qədər fikirləri ayrı olsa da, nə qədər hər biri öz şahını yüksək tutsa da, bir məsələdə ikisi də birləşərdi: Çaldıran gərək olmayaydı. Nəhayət, Mömin Əfəndi vaxtı çatanda ölən zaman vəsiyyəti çıxdı, oxuyub gördülər ki, Hüseyn bəy Lələyə bu adam... azadlıq verib. Lələnin bir qədər pulu-parası yığılmışdı, yol tədarükünü görüb məmləkətinə geri döndü.

1-ci aspirant. Məni bir məsələ narahat edir. Şah İsmayıl Lələni geriyə qəbul edə bilərdimi?! İstəsəydi də etməzdi. Çünki Şah onu ölmüş bilirdi. Lələnin sağlığı Şah nəzərində satqınlığa bərabər olmalıydı. "Sirlərin sərgüzəşti"ndə buna aşkar işarət var.

2-ci aspirant. Yox! Şah Lələni sevincək qəbul edəcəkdi. Sədaqətli, etibarlı bir adamı yanına qayıdırdı. Həm sevincdən nəfəsi kəsilirdi, gah da səbrsizlikdən ürəyi partlayırdı az qala Hüseyn bəyin. Sinəsi atlana-atlana doğma məmləkətinə geri dönürdü. Uşaqlıqdan əlləri üstə böyütdüyü əziz Şahına qovuşmaq, onun önündə tir-tap torpağa sərilmək ən böyük arzusu idi. Saatlar illərə, günlər qərinələrə dönmüşdü.

Professor. Amma Şahın sirri vardı. Hüseyn bəy isə bu sirri bilmirdi. Bizim hamımızın bir məqama xüsusi diqqət yetirməmiz vacibdir. Çaldıran döyüşündən sonra Şah İsmayıl adı altında tanıdığımız Şah bir daha heç bir hərbi səfərə çıxmır. Ruhən sınmışdı. Hərbi səfərlər olurdusa da, onlar isə olurdu, Şahsız olurdu. Düşkün idi. Çünki heç unuda bilmədiyi bir məsələ vardı. Taxtı-tacı, xəzinəsi və bir də sevimli arvadları Taclı xanım və Bəhruzə xanım düşmən tərəfindən əsir edilib aparılmışdılar.

Həkim. Sən özün deyirdin ki, Taclı xanım hiylə işlədib əsirlikdən qaça bilir, Bəhruzə xanımı isə...

Professor. Elədi. Bəhruzə xanımdan isə uzun müddət xəbər-ətər olmur.

1-ci aspirant. Bu iki qadının bir-birinə əsl münasibəti onların könüldən sevdikləri Şahlarına münasibətdən doğurdu.

Səda. Bəhruzə xanım Taclı xanımı məhəbbətlə "bacılı-bacılı" deyib çağırardı.

Qız. Taclı xanım isə onu ancaq adıyla çağırardı. Bəhruzə xanım zərif, incə, yumşaq biriydi.

Səda. Taclı xanım şücaətliydi, qılınc çalıb ox atardı.

Professor. İkisi də hərbdə iştirak edir və elə hərb meydanında da əsir alınır...

İşıq ön tərəfdə öləziyir. Öləzidikcə Qız arxa tərəfə keçib Taclı xanıma, Səda isə Bəhruzə xanıma çevrilirlər. İşıq arxa tərəfdə bir küncdə yerə sərilib əsir saxlanan bu xanımların üzərində. Taclı xanım son dərəcə düşkün. Bəhruzə xanım birdən dirçəlir, ətrafa boylanır.

Bəhruzə xanım. Bacılı-bacılı. Bax, ağlıma bir fikr gəldi. Bizim birimiz aradan çıxa billik.

Taclı xanım. Necə edə billik bunu, qız Bəhruzə?!

Bəhruzə xanım. Bizim birimiz qışqıra-qışqıra bu tərəfə qaça bilərik. Keşikçilər onun dalınca düşən zaman...

Taclı xanım. O birimiz... yavaşca sivişib aradan çıxar.

Bəhruzə xanım. Bəli, elədi. Bacılı-bacılı, sən mürşidi-kamilimə daha çox gərəksən. Mən bir ləhzə özümə gəlim. Çığıra-çığıra *(sol tərəfi göstərir)* – o arx tərəfə qaçım. Sən də bu biri tərəfə, arabalara tərəf get. Saçını yığ. Bir papaq qoy başına. Noldu sənin papağın? *(Kişi papağını yerdən götürüb Taclı xanımın başına qoyur)* Belə. Səni tanımazlar. Şahi-Mərdanın iradəsi olsa özünü çatdırarsan qurban olduğuma, inşallah.

Taclı xanım. Bə sən? Osmanlı əsirliyi cəhənnəmin isti yerindən də o tərəfdədi, bilirsən?!

Bəhruzə xanım. Bilirəm. Mən olmasam, qurban olduğum gecələr gözünə yuxu getməz... Yuxusu ərşə çəkilər... bilirəm.

Taclı xanım. Əlbəttə, gecəsi-gündüzü olmaz...

Bəhruzə xanım. Bacılı-bacılı, sən olmasan, qurban olduğum... ölər. Hazır ol!

Taclı xanım *(şəfqətlə).* Bacılı... Səni həlak edəllər.

Bəhruzə xanım. Qorxma, bir şey olmaz. Di mən getdim, onu bərk-bərk qoru, bacılı-bacılı, məni də ki, unutmayasız...

Saçın dağıdıb Bəhruzə xanım yenə Sədaya dönür "ehey, ehey, ay aman", deyə qışqırıb öz mahnısını bərkdən oxuya-oxuya sol tərəfə qaçır. Taclı xanım yavaş-yavaş, gizlənə-gizlənə sağ tərəfə çəkilir, gözdən itir. Səs-küy. "Dur, qaçma! Aman..." Az keçir, Bəhruzəni (Sədanı) saçlayıb zor ilə osmanlı əsgərlər geri gətirir.

Bəhruzə xanım. Yavaş. Yavaş dedim. Ah... *(Uca səslə oxumağa çalışır.)*

1-ci əsgər. Kəs! Sus! Sus!! *(Boylanır.)* Hanı, o biri hanı? Qaçdımı?

2-ci əsgər. Yoxdu. Qaçdı, Allahın bəlası...

Bəhruzə xanım *(öz-özünə).* Şahi-Mərdana şükr olsun, Şahi-Mərdana şükr olsun. *(Mahnı kimi oxuyur)* Məni unutmayasız, məni unutmayasız...

İşıq arxada sönür. Ön tərəfdə gəzib-gəzib düşür Professorla Həkimin üzərinə. Qız da yavaş-yavaş, töyşüyə-töyşüyə arxasına baxa-baxa, taqətsiz gəlib onlara qoşulur. Səda onların arasında yoxdur.

Professor. Bəhruzə xanımın əsirliyi doğrudan da Şahı çox üzür, çox usandırır.

Qız. Eh... Heyif, heyif... Bu sarsıntıdan sonra, əlbəttə, yaşamaq olmaz.

Professor. Mən də onu deyirəm. İndi başa düşdünüz? Olmaz!!! Əlbəttə, olmaz! Yaşamadı da.

Şah İsmayıl Səfəvi ibn Heydər, ibn Cüneyd, ibn Şeyx Səfiəddin İranın və Azərbaycanın qüdrətli, aslanürəkli hökmdarı, dinin dayağı, Allahın və Şahi-Mərdanın sadiq bəndəsi Çaldıran döyüşündə artıq ölmüşdü. Ölməyə bilməzdi. Bəhruzə xanımı xatırlayan və unutmayan bir kimsə artıq qalmamışdı.

Həkim. Onun yerində isə... Doğrudanmı Şah və şair eyni adam deyillər?!

Professor. Bəli, bu belədi. Şahın taxtında Əshabi-Kəf yaxınlığındakı kənddən Lələnin götürüb saraya gətirdiyi şair Xətayi oturmuşdu. Bəhruzəni unudan Şah deyildi, bu şair idi.

Qız *(ora-bura baxaraq, kədərli).* Bacılı-bacılı...

Ön tərəfdə işıq sönür. Arxa tərəfdə işıq yanır və Şah taxtını nura qərq edir.

X VAQEƏ

Yenə səhnə önündə yalnız Professorun üzərində işıq.
O təkdir.

Professor *(elə bil, beynində nəsə yazır).* Çaldıran adlı kəndin yaxınlığında baş verən bu möhtəşəm və qanlı savaşın əsas məqsədi ...savaşın əsas məqsədi Osmanlı imperiyasının diqqətini qərb istiqamətindən çəkindirib... Şərqə yönəltmək... oldu. Şərqə yönəltmək oldu. İtalyan səfirləri nahaqdan o uzun... və təhlükəli yolu keçib Səfəvilərin paytaxtına ... Səfəvilərin paytaxtına gəlməmişdilər.

Savaş səhər günəş şüaları öz işığını Çaldıran kəndinin üzərinə... Çaldırana göndərəndən az sonra, çox az sonra hər iki tərəfdən zurnaların damarda qan coşduran zurultusu, davulların ürək döyüntüsünü birə min artıran guppultusu və bir də hər iki tərəfdən "Allah, Allah" sədalarının asimana büləndolması ilə başladı. Yer də, göy də lərzəyə gəlmişdi. Yer də... göy də... lərzəyə gəlmişdi. Qızılbaşlar hücum edir, osmanlı geri oturdur, osmanlı hücum edir, qızılbaş geri oturdur...

Ön planda işıq sönür. Zurna, davul səsləri qulaq deşir. Yavaş-yavaş bu səslərə "Allah, Allah" sədaları, əskər qışqırtıları və yaralı zarıltıları qarışmağa başlayır.

Səslər gah güclənir, gah zəifləyir. Hərdən adam səslərinə at kişnərtisi, fii nərəsi, top gurultusu da qarışır. Səhnənin arxa və ön tərəfi sərhədsiz... bir-birinə qarışıb... Bütün səhnə boyu Çaldıran döyüşündən ayrı-ayrı məqamlar canlanır. Həm ön, həm arxa planda çılğın musiqi səsləri altında əsl döyüş səhnələri.

Bu musiqiyə hərdən müxtəlif səslər girir.

Səslər: Pirim, mürşidi kamilim, sadağa olduğum... Şahi-Mərdan eşqinə, qızılbaşlar, irəli!.. Sağ cinah, sağ cinaha tez göndərin Dev Sultan Rumlunu, Şahın fərmayişidi. Dev Sultan, Dev Sultan, sağ cinaha! Sağ cinaha! Sağ cinah sınır. Qızılbaşlar sağa. Sağa! Bayraqdar, hardadı bayraqdar?! Qurbanəli onbaşı, Qurbanəli onbaşı cəld, sağ cinaha. Aman, aman, köksümdən, köksümdən vurdu. Aman ayağım... Ax... vay... Ya Allah, ya Allah!!

1-ci əsgər. Qaldır, qaldır ucaya əziz bayrağımızı. Qurbanəli, Qurbanəli! Aman, bunu oxladılar. Oğlan, qalx ayağa, bu nədi, bu da yaradı? Öldü.

2-ci əsgər *(Bayrağı Qurbanəli onbaşının əlindən almaq istəyir).* Burax, burax bunu. Buraxmır. *(1-ci əsgərə)* Arxamı gözlə. Burax, oğlan, bayrağı!

Bayrağı zorla artıq ölmüş Qurbanəli onbaşının əlindən qoparıb var gücüylə yenidən ucaya qaldırır, hər iki əsgər qaçıb sağ cinaha gedirlər. 1-ci Qorçu geriyə baxa-baxa gəlir.

1-ci Qorçu *(səhnə arxasına).* Çapın o tərəfə. Şah ordadı. Vurdu özünü savaşa. Qurban olduğum tərəfə! O tərəfə! Cəld! Cəld olun!

Bir Qorçu yüzbaşı, elə bil, göydən tullanır səhnənin düz ortasına düşür, əlində qılınc.

Qorçu yüzbaşı. Hanı Şah? Hanı qurban olduğum? *(Baxıb uzaqda Şahı görür)* Ah, daraşdılar quzğunlar Şaha. Ehey!! Bura gəlin, bura gəlin! Şah mənəm, o deyil, Şah mənəm!!! Bura! Ha-ha-ha.

Bu Qorçu yüzbaşının dalınca yeniçərilər düşüb onu qovurlar. 1-ci aspirant peyda olur və elə göz qabağındaca Şaha çevrilir, səndələyə-səndələyə səhnənin arxa tərəfində görünür. Lələ təngnəfəs özünü Şaha çatdırır.

Şah *(həyəcanla Lələyə).* Əfşar. Sultanəli bəy Əfşarı... gördün? "Şah mənəm!" deyib apardı arxasınca bu dinsizləri.

Lələ. Gördüm. Şahim, geri çəkilək. Çadıra. Çadıra. Sultan Rumlu sağ cinaha cumdu. Osmanlı topları işə salıb. Çəkilək çadıra, Şahim.

Səslər. Şah hardadı? Sağ cinah! Sağ cinah sındı! Qurban olduğum! Bə hardasan sən???

Şah *(halsız).* Lələ, durma, get. Sağ cinah çox vacibdi. Get. Qoyma sağ cinah sınsın. Məhv ol, saxla sağ cinahı!

Lələ Şaha son dəfə məhəbbətlə baxıb tələsik çıxır.

Lələ (*səhnəyə daxil olan Qorçuya).* Şahı çadıra götür. Zornan olsa da götür.

Şah *(qılıncı çəkib bağırır).* Malbaşoğlu, Malbaşoğlu, hardasan sən? Çıx, çıx irəli!!

Nəhəng bir kölgə Şaha tərəf gəlir. Şah kölgənin qarşısında. Kiçik döyüş. Kölgənin başı bədənindən ayrılır və Şahın ayaqları altına Malbaşoğlunun kəlləsi diyirlənib düşür.

Səslər. Var ol!! Yaşa!! Əhsən! Əhsən, qurban olduğum! Əhsən, piri-mürşidim! İrəli!! İrəli, Qızılbaşlar! Hünər! Hünər! Şahim çadıra, çadıra çəkilək, Şahim! Qurbanın olum, gəl.

1-ci Qorçu Şahı az qala zorla dartıb səhnədən çıxarır.

Səslər. Şah, Şah hardadı? Sağ cinah! Sındı sağ cinah! Lələ, Lələ həlak oldu. Şeypurçular! Şeypurçular! Çalın nə durmusuz, di çalın! Şahi-Mərdan eşqinə, bu nədi, oğlan? Bu ki, vəhşi fildi. Eyvah!.. Fillər gəldi, fillər gəldi. Qaç, qurtul, a gədə, yox, dayan! Geri! Geriyə. Səf-səf. Səfi pozma, oğlan, bərk dur. Belə. Al, al! Hara, hara? Qayıt səfə, məlun!..

Qılınc səsləri altında işıq yavaş-yavaş öləziyir.

XI VAQEƏ

Döyüş yerində bir yüksəklikdə qurulmuş çadırın içi.
Xızr həyəcan içində sürətlə var-gəl edir.
Şahı 1-ci Qorçu zorla içəri salır. Şah heysiz, amma qərarlı.

Xızr *(Qorçunu görüb rubəndini taxır).* Şahim, Şahim, sən ki yaralanmısan!.. Mürşidi-kamilim...

Şah *(oturur).* Yox, çəkil. *(1-ci Qorçuya)* Sən get.

1-ci Qorçu çıxır. Xızr rubəndini açır.

Xızr. Şahim, Lələ...

Şah. Lələ yoxdu, vurdu özünü savaşın isti yerinə. Yox oldu Lələ. Ah, ah... Lələ, Lələ...

Xızr. Şahi-Mərdan köməyimiz olsun!

Şah. Toplar, toplar səfi pozdular. Toplar və fillər. Səlim, Səlim... Bu döyüşmüdü? Bu döyüş deyil, Səlim, deyil. Hanı sənin şücaətin? Varsa şücaətin, bir göstər özünü...

Xızr. Şahim!

Şah. Nədi?

Xızr *(həyəcanla).* Şahim, bir mənə də izn ver. İzn ver, mən də çıxım döyüşə. Çadırdan baxmaq elə mənə qaldı? Ürəyim coşub, ürəyim partlayır, Şahim.

1-ci Qorçu gəlir. Xızr üzünü ondan gizlədir, yenə rubəndini taxır.

1-ci Qorçu. Şahim, sol cinah da pozuldu. Qoşun sındı. Fillər, fillər hücuma keçdilər. Toplar adamları on-on tələf edir.

Şah. Zülqədəri... Zülqədəri göndərin sol cinaha dəstəsiylə. Tez getsin.

1-ci Qorçu. Şahim...

Şah. Nədi? Yoxsa? Ola bilməz!

1-ci Qorçu. Şahim, Zülqədər xain çıxdı, Zülqədər qaçdı, Şahim.

Şah *(pıçıltı ilə).* Məlun! Xain! Farsi yamağ. Ah, Lələ, Lələ... *(Taqətsiz, 1-ci Qorçuya)* Daha durma. Şeypurçuları yığ. Geri çəkilmək işarətini versinlər. Geri. Qoşunu geri çəkin. Bitdi. Hər şey bitdi. Şahi-Mərdan, Şahi-Mərdan, niyə məni tərk elədin, niyə?

1-ci Qorçu çıxır.

Səslər *(çadırın arxa tərəfində top səsləri adam səslərinə qarışır).* Aman, aman. Geri! Qaçın, qurtulun! Şah! Şah hardadı? Gədə, dur. Səfi pozma. Bayraq! Bayrağı qaldırın asimana!

Şeypurlar öz dillərində geri çəkilmək əmrini çalırlar.

Şah *(Xızra).* Yaxın gəl. Diqqətlə dinlə məni. Kəsmə, kəsmə sözümü. Bax, sənin zamanın indi yetişdi. Aç bu rubəndi artıq üzündən, bir yana at. *(Xızr rubəndini açır.)* Çıx ortaya daha. Artıq nə mən varam, nə Hüseyn bəy Lələ var. Heç kimin, heç kimin bizim sirrimizdən xəbəri yox. Lələ həlak oldu. Mən də indi özümü vuracağam döyüşün isti yerinə. Bəlkə bəxtim üzümə güldü, tapdım Səlimi. Ver hələ o rubəndi mənə *(Xızrın ona uzatdığı rubəndi alır).* İndi artıq sən qalırsan, təkcə sən.

Xızr. Biz kimi aldadırıq, Şahim?!

Şah. Heç kimi. Bu da şətrənc kimi bir şeydi. Sən mənə yalandan vəzirini qurban verərdin, yadında? Mən isə sənə şahlığı qurban verirəm – doğrudan. Mən gedirəm. Sən olursan – Şah! Şah İsmayıl... Xətai!.. Necədi?

Xızr. Mən qorxuram.

Şah. Nədən?

Xızr. Lələ, Şahim.

Şah. Qorxma. Lələ daha yoxdu, tələf oldu Lələ. Yox oldu. Sən, təkcə sən!

Xızr. Yox, Şahim, yox, qurban olduğum, yox, mürşidi-kamilim. Sən olmasan...

Şah. Qorxma, dedim. Bir kimsə heç bir dövrdə və zəmanədə bilməyəcək Şah kim idi, kim deyildi, şair kim idi, nə oldu, nə olmadı...

Xızr. Allah, öldür məni. Öldür məni, Allah...

Top səsləri gəlir. Bu səsə təntənəli zurna, davul səsləri qarışır. Osmanlılar hücuma keçirlər.

Şah *(qulaq verir).* Osmanlı keçdi son həmləyə. Artıq sən azadsan, şair. Eşidirsən, bu səslər sənin azadlığının səsidi. Amma çalış şətrənc zamanı sənə söylədiyim bir sözü heç unutma. Rəqibinin cəzasını ver, özü də on dəfə artıq, dostunun da mükafatını ver...

Xızr. O da on dəfə artıq. Yadımdadı.

Şah. Sultanəli Əfşar atdı özünü ortaya o zaman ki, mənim dörd tərəfimi düşmən sarmışdı. "Şah mənəm! Şah mənəm!" qışqırdı, hamı düşmən daraşdı canına. Sağ qalsa, böyük ənam ver.

Xızr. Şahim...

Şah. Zülqədərin də cəzasını özün verərsən, inşallah. Unutma.

Xızr. Sadağa olduğum...

Şah. Unutma dedim.

Xızr. Unutmaram.

Şah *(səhnənin önünə qədər gəlir, diqqətlə bu tərəfə baxır).* Bura belə qaranlıqdı, ya mənə belə görükür?!

İşıqla qaranlıq kiçik və tələsik bir "rəqs" edib yerlərini dəyişirlər. İndi işıq artıq səhnə önündə durmuş Professor və Sədanın üzərində.

Profesor. Hacı Mir Həsən ağa Səyyah. "Sirlərin sərgüzəşti: "Mən öz üfüqümə çatdım bu səhər...

Səda *(kədərli davam edir).* Mən öz üfüqümə çatdım bu səhər.

Üfüq məndən qaçmadı,
Məndən uzaqlaşmadı,
Üfüq mənə başladı
Dərdini danışmağa.
Üzüm üzünə dəydi,
Dizim dizinə dəydi
Mənim dərdim nəydi
Onun dərdi yanında...

İşıq ön tərəfdə sönür, arxa tərəfdə yarıqaranlıqda Xızr və Şah. Onlar da Sədaya qulaq asan kimidirlər. Səda susunca.

Şah. Dinlə diqqətlə məni.

Xızr. Şahim, pirim, getmə!

Şah. Yox, sözümü kəsmə, gədə! *(yumşaq)* sözümü kəsmə... Şahim. Mən bu boyda məmləkəti bəladan saxlaya bilmədim. Bu bir Allaha namü-

nasib və Şahi-Mərdana xoş getməyən savaş oldu. Aldandım. Onun üçün də... Cəzam var. Aradan çıxıram. Bilirsən, bir az əvvəl göydən bir səs gəldi yetişdi qulağıma. “Sənin nə işin qaldı oralarda, gədə?” – soruşdu o səs. “Sən ki öz işini görüb qurtarmısan, sən ki öz üfüqünə gəlib yetişmişən”. Şahi-Mərdanın səsiydi.

Xızr. Allah, Allah...

Şah *(davam edir).* “Gəl, gəl bura, səni axı burda gözlirlər. Hamı səni sevənlər burdadı.” Əziz pirim, mürşidim! “Gəl!.. Gəl” deyən səsinə qurbanam. Gəlmərəmmi? Əlbəttə, gələrəm.

1-ci Qorçu girir. Bu dəfə Şah götürüb rubəndi taxır üzünə. Xızr rubəndsiz və özünü itirmiş. 1-ci Qorçu çaşqın. Nəhayət, o, Xızra yanaşır.

1-ci Qorçu. Şahim, aradan çıxmaq vaxtıdı. Qoşun sındı. Gəl. Gəl mənimlə. Ləngimə.

Xızr *(elə bil, özünə gəlir).* Get, gözlə bir ləhzə çadırın ağzında. Gəlirəm. Çıx daha, Şahi-Mərdan xətrinə, çıx.

1-ci Qorçu tərəddüd içində çıxarkən gedib Şahın önündə diz çökmək istəyir. Şah arxasını ona çöndərir.

Şah *(1-ci Qorçuya).* Çıx gədə, gözlə, eşitmədinmi nə dedi qurban olduğum, indi gəlir. Çıx daha.

1-ci Qorçu dalı-dalı və səndələyə-səndələyə çıxır.

Xızr. Mürşidi-kamilim!

Şah. Məni bir daha soraq eləməyəsən. Allah izn versin, vurum özümü döyüşün elə bir yerinə ki, izim-tozum da qalmasın. Niyə qalsın ki?.. Necə qalsın ki?.. Baş bir yana, leş bir yana. Cəsədimi belə tanıyan olmayacaq. Sən... sən isə yaşamalısan. Məmləkət üçün yaşamalısan. Yaşa. Yaşasın Şah!!

1-ci Qorçunun həyəcanlı səsi gəlir.

1-ci Qorçunun səsi. Şahim, tez ol. Yetişdilər az qala çadıra. Gəl, Şahi-Mərdan xətrinə, tez ol.

Şah *(Xızra).* Get daha. Yox! Gəl bir sonuncu dəfə sənə bir də baxım. Əhsən. Mənəm ki, varsan. Həm də deyilsən. Di get. Amma dur. Bir son söz dəxi sənə varımdır. Sən bunu bilməlisən, haqqındı. Eşit. "Mənim adım fəqət Şah İsmayıldır. Mənim özüm Şah İsmayıl deyiləm".

Xızr. Necə, necə?..

Şah. Bir zaman var idi, mən də sənin kimi bu cür çaşqın donub qalmış idim.

Xızr. Mən dəxi heç nə anlamıram.

Şah. Get, daha, ləngimə. Çıx. Dediklərimi isə, haşa, unutma!..

Şah qılıncını çəkir və gedib çadırın bir arxa yerindən bir hissəni qılıncla deşir, o deşikdən çıxır və gözdən itir. 1-ci Qorçu özünü salır içəri. Xızr yenə özünü itirib tez rubəndini taxır üzünə.

1-ci Qorçu *(ətrafa və Şahın itdiyi yerə baxır, sonra Xızra).* Şahim, gəl daha. Qoşun sındı. Özünü göz görə həlak etmə. Sən məmləkətə gərəksən. Qorçular bu tərəfdədi, hamı səni gözlir, gəl...

Xızr. Xudavəndi-aləm, sən özün... kömək ol. *(Qorçuya)* Gedək. Hələ bunlarla mənimki qalsın sonraya, inşallah. Amma dayan. Hardadılar Abdulla xan Ustaclı? Dev Sultan Rumlu? Təkəli Məhəmmədəli? Hardadılar mənim sadiq müridlərim?

1-ci Qorçu. Şahim...

Şah. Xamuş! Aydın oldu. Belə. Di, o zaman deginən, şeypurları çalsınlar. Geri çəkilirik. Hamı geri çəkilsin. Hamı.

Xızr əvvəl-əvvəl çadırdan çıxmağa tərəddüd edən kimidir. Bu zaman hardansa yuxarıdan Şahın səsi gəlir qulağına. Ayaq saxlayır. Şahın səsini ancaq Xızr eşidir. Həzin şeypur səsi Şahın səsini müşayiət edir.

Şahın səsi *(mülayim).* Noldu sənə? Gözlərin niyə doldu? Allah, Allah... Şahi-Mərdan xətrinə, gəl özünə. Aç rubəndini, at getsin. Sən azadsan, azad. Sabah yenə günəş çıxacaq, sabah yenə yağış yağacaq. Sən yenə şeir yazacaqsan. Göstər cəsarətini! Uç... Uç... Sən ki azadsan.

Xızr qətiyyətlə rubəndi açıb atır. 1-ci Qorçu və Xızr çıxırlar. Şahın səsi yuxarıdan gələn zaman yavaşdan başlayan o həzin şeypur səsi artıq ətrafı titrətməkdədir.

BİRİNCİ HİSSƏNİN SONU

İKİNCİ HİSSƏ

XII VAQEƏ

10 il sonra. Divanxananın bir guşəsi. Solda qapı ilə üzbəüz həyətə çıxan böyük pəncərə, ortada miz. Mizin bir tərəfində büzüşüb oturub Lələyə çevrilən Professor və Rəhim yüzbaşıya çevrilən Usta isə pəncərənin yanında pəncərəyə söykənib. Həyətdən həzin bir musiqi səsi gəlir. Bu, kamançanın səsidir.

Rəhim yüzbaşı. Amma nə çalır?! Adamın az qala ruhunu çəkib canından çıxarır.

Lələ. Gözəl çalır, həqiqətən. *(Düşüncəli, özözünə)* Adı Əhəddi. Çaldıranda yaralandı. İki gözündən oldu.

Qorçu. Bu bir kor kamança çalandı. əvvəli qorçu olub. Qəribədi, sən hər dəfə gələndə o belə-cənə yanıqlı-yanıqlı çalır.

Lələ *(özünə gəlir).* Hələ bir de görüm, Rəhim yüzbaşı. Bu gün də mənə izin olmayacaq?

Rəhim yüzbaşı. Mən nəkarəyəm?!

Lələ. Vəzir nə söylədi bəs?

Rəhim yüzbaşı. Mən Vəzir ağaya sənin barəndə xəbər verdim. Bir şey söyləmədi. Gözləsin dedi. İşlər yoğundu, bilirsən.

Lələ. Rəhim yüzbaşı. Sən mənə gəl düzünü söylə. Vəzir ağa, əlbəttə, istəmir ki, mən Şah ilə görüşüm?!

Rəhim yüzbaşı *(süni şəkildə).* Yox, canım, sən nə fikr edirsən?! Bax, bax, ağlına hələ gör nələr gəlir?! Vəzir ağa çox istir səni Şah ilə görüşdürsün. Amma... Şah ki, yoxdu, seyrangahdan hələ dönmədi. Həqqən mümkün deyil. Bir də ki...

Lələ. Bir də ki, nəmənə?

Rəhim yüzbaşı. Heç. Adını ki, sən necə söylədin, mən də Vəzir ağaya o cür ərz elədim. Dedim, hər gün gəlir, gedir, Şahla görüş istəyir. Soruşdu ki, bə bunun mənsəbi nədi?! Mən heç zad deyə bilmədim. Kimliyini söyləməmisən axı, Hüseyn bəy. Tanımaza-bilməzə səni Şaha təqdim eləmək, düşünürəm, bu bir asan iş olmayacaq. Sən nə cür bilirsən?

Lələ *(fikrə gedir).* Axı Vəzir niyə deyə bilmir Şaha ki, bir fəqir, biçarə, binəvadı, üzünü görmək, ayağının altını öpmək istir. Çaldıran əsgəridi. İkicə kəlmə sözdü. İstəsə deyər.

Rəhim yüzbaşı. Mən ki, bilmənəm, deyər, ya deməz. Mənlik ki, bir iş yoxdu. Deyər də, deməz də.

Lələ. Yaxşı, qoy söyləsin, osmanlı əsirliyindən qaçıb. Çaldıranda əsir düşüb. On il əsirlikdə qalıb...

Rəhim yüzbaşı. Nə bilim vallah?! *(Aşağıdan yuxarı onu süzür)* Hüseyn bəy, sən, yəni, doğrudan da Çaldıranda... döyüşmüsən?

Lələ. Vuruşmuşam da, döyüşmüşəm də. Nədi, oxşamıram? Sən o vədə uşaq olardın.

Rəhim yüzbaşı. Düz deyirsən, mən o vədə uşaq idim. *(Fəxrlə)* Ağam isə, atamı deyirəm, ağam qorçu olub. Bayraqdar. Çaldıranda həlak ediblər. Allah-taala rəhmət eləsin.

Lələ. Allah-taala cəmi Çaldıranda həlak olanlara rəhmət eləsin.

Rəhim yüzbaşı. Amma Çaldıran da Çaldıran idi... Bir danış mənə, sən Allahın. Şahi-Mərdan xətrinə danış. Çoxundan soruşuram, hərə bir cür nəql eləyir. Doğrudan deyirlər ki, Osmanlı filləri çəkib döyüşə gətirmişdi?! Allah-Allah... Şah ki, gecəylə onları hücum edib yer-yeksan edə bilərdi...

Lələ. Bəli, edə bilərdi, amma etmədi. Mən karvan basan quldur deyiləm, dedi. Fillərsə əsl döyüş filləri idi.

Rəhim yüzbaşı. Hələ bunların topxanası... Sən kimin dəstəsində döyüşmüsən?

Lələ *(acı-acı gülümsəyir).* Sənə Vəzir ağa tapşırıb, məni danışdırasan?!

Rəhim. Yox, vallahi yox, billahi yox. Mürşidi kamilimin dini-imanı üçün yox. Özüm istədim, maraq etdim. Bilirsən, ağamı xatırlaya bilmirəm. Sifəti artıq yadıma gəlmir. Amma səsi... səsi hələ də qulağımdadı *(doluxsunur).*

Lələ. Toxda. Toxda hələ. Bax, Çaldıran deyirsən. Haman gün Şahi-Mərdanın nəzəri bizdən çönmüşdü. Sən heç fil görmüsən?

Rəhim yüzbaşı. Yox, görməmişəm.

Lələ. Mən də. Eşitmiş idim, fəqət görməmişdim. İlk dəfə onları on il bundan əqdəm Çaldıranda gördüm. Nəhəng, bədheybət, xortumları göydə oynayırdı, uzun-uzun... Topları zəncir ilə osmanlılar bağlamışdı fillərin ayağına, özlərini də səf-səf düzmüşdülər qarşımızda. Əvvəlcənə gülməyimiz gəldi onları görəndə. Heç qorxmadıq. Amma... Nə illah elədik, səflərini poza bilmədik. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu... Sən soruşursan, mən kimin dəstəsində idim? Bunun cavabını sənə indi deməyəcəyəm. Sonra, bir az döz, qoy bir Şahla görüşüm, sonra özün bunu biləcəksən. Hələ bir mənə de görüm, ağanın adı nə idi?

Rəhim yüzbaşı. Qurbanəli onbaşı idi.

Lələ *(düşünür).* Qurbanəli onbaşı... Əsliniz sizin Muğandandı, elə?

Rəhim yüzbaşı *(dirçəlir, təəccüblə).* Elədi, ağa, elədi. Sən ağamı tanırdın?

Lələ. Sənin ağanın həlakını mən öz gözlərimlə gördüm. Bəli, atan bayraqdar idi. Sağ qorçu cinahının bayraqdarı. Atından yıxıldı. Kürəyindən oxla vurmuşdular. Kim nə desə, inanma. Nəfəsi kəsiləndən sonra da bayrağı onun barmaqlarından çıxardıb xilas edə bilmədilər, elə sıxılmışdı, açılmırdı barmaqları, yapışmışdı barmaqları bayrağa. Bayraq eləcənə dimdik qalmışdı əlində.

Rəhim yüzbaşı *(dərin fikirdən sonra kədərli-kədərli).* Şücaətli imiş...

Lələ. Hamı o gün şücaətli idi. Xüsusən, qurban olduğum.

Rəhim yüzbaşı. Deyirlər, Şah Malbaşoğlu adlı bir tənumənd pəhləvanı bir qılıncla ikiyə bölübmüş?!

Lələ. Elədir. Bölüb. Bölüb qurban olduğum.

Rəhim yüzbaşı. Sən gözünlə gördün bunu?? Sən... yaxındaydın?

Lələ. Soruşursan, mən kimin dəstəsində idim?! Əslində, mən özüm Çaldıranda ölmüşəm, biləsən. Səninlə danışan mən deyiləm, bədbəxt ruhumdu. Bircə arzum var. Şah mənə deməsin ki, "Lələ, bə sən niyə Çaldıranda ölmədin? Mən ki səni sağ cinaha ölməyə göndərdim. Lələ, sən niyə ölmə-

din?" Mən gərək Çaldıranda öləydim, gədə *(öz sözlərindən özü də diksinir).*

Rəhim yüzbaşı *(yanaşır Lələyə, heysiz).* Lələ?! Hüseyn bəy?.. Hüseyn bəy Lələ?!. Sən ki... *(pıçıltıyla)* Səni axı ölmüş bilirlər, Lələ!.. Lələ... Keç, keç mənim günahımdan. Səni mən tanımamışam. *(Lələnі diqqətlə süzür, bərkdən)* Əlbəttə, sənsən ki, varsan. Ta özünü, sən Allahın, gizlətmə. Sappasağsan, şükür!.. Lələ, Lələ... Bu sənsən?!

Lələ. Mənəm sappasağ?? Mən ki özüm özümü çoxdan ölmüş bilirəm, Rəhim yüzbaşı. Sən isə mənə sual edirsən: sən kimin dəstəsində idin?! Mən Şahın dəstəsində idim, yüzbaşı, Şahın dəstəsində.

Rəhim yüzbaşı. Qələt elədim, Lələ, qələt elədim.

Lələ. Otur aşağı.

Rəhim yüzbaşı ehtiyat və səliqə ilə bardaş qurub Lələ ilə üzbəüz oturur.

Rəhim yüzbaşı. Lələ. Bir söylə, sən Qorçubaşı idin, elə?!

Lələ. İdim, idim. Sənin Vəzir ağan vaxt vardı, mən divanxanaya oradan, arxa bağçadakı əyri qapıdan *(əli ilə göstərir)* keçib girəndə dik atılardı yerindən.

Rəhim yüzbaşı. Elədi, Lələ, elədi.

Lələ. İndi qulaq ver mənə, Rəhim yüzbaşı. Deyirəm, buralarda ki, məni unutdular, sənlə bir məsləhət edim. Vaxta ki, sən məni tanıdın, söylə, söylə, mən Şahla görüşməm üçün nə etməliyəm? Açıq danış.

Rəhim yüzbaşı. Lələ, Lələ... Ancaq Vəzir ağa gərəkdir izn verə. O da ki... sən ki onu tanırsan.

Lələ. Tanıram. Elə ki mən onu tanıram...

Rəhim. Lələ, mənə rüsxət ver, mən bir buna sənin kimliyini də açım. Bəs görək bu səfərinə nə deyəcəkdir?!

Lələ. Bir başqa çıxış yolu yoxumdur?

Rəhim yüzbaşı. Bir başqa çıxış yolu yoxdur. Çün Şah sabah seyrangahdan dönər-dönməz ta mən özüm buralarda az-az olacağam. Sarayın gecə keşiyinə keçirəm. Şah da ki, burda olan zaman, inan mənə, divanxana həyətinə sən bir məhəllə o tərəfdən də yavuq düşə bilməzsən. İndi bir az məsələlər başqa cürədi.

Lələ. Görürəm, görürəm. Doğru deyirsən, indi artıq çox şey başqa cürədi. Həm başqa cürədi və həm də başqa cürə deyil. Bu fərmayişi elə o zamanlar mən özüm vermiş idim. Şah olmayan müddətdə divanxana həyətinin gözətçiləri Şah gələn kimi

dəyişsinlər. Kim bilir, bu müddətdə kiminlə görüşürlər, kiminlə danışırlar... Ehtiyatlı olmaq gərəkdir.

Rəhim. Elədi, Lələ, elədi.

Lələ *(öz-özünə ürəkdən).* Bəs mən başıma haranın daşını töküm?

Rəhim yüzbaşı. Əgər izn verirsən, mən gedim Vəzir ağaya sən deyənləri danışım, həqiqəti açım. Vallah, bu işin bir başqa çarəsi yoxdur.

Lələ. Belə. Yaxşı. Çox yaxşı. Söylə o zaman ona həqiqəti. Söylə, düz altı aydır yol gəlib yetişmişəm mən bura. On il Osmanlı əsirliyində olmuşam. Ancaq Şahın qəlbimdəki sevgisi mənə güc verib, sağ qalmışam. Şahi-Mərdandan tək bir arzum var – başımı sadağa olduğumun, mürşidi-kamilimin ayaqları altına qoyub ölmək. De ki, onsuz da Lələ bir yol tapıb Şahla görüşəcək...

Rəhim yüzbaşı *(ehtiyatla).* Lələ, elə bilər, təhdid edirsən...

Lələ. Hə, elədi. O zaman gəl belə de. De ki, mən Bəhruzə xanımdan xəbər gətirmişəm.

Rəhim yüzbaşı. Elə-belə də deyim?

Lələ. Elə belə də de. Başqa çıxış yolumuz ki yoxdur.

Rəhim yüzbaşı. Yoxdur. Arxayın ol, Lələ. Elə belə də deyərəm.

İşıq sönür. Yananda artıq Rəhim yüzbaşı, yəni, Usta təkdir. Qəfildən Həkim arxada peyda olub Vəzirin libasını əyninə geymək istəyir. Rəhim yüzbaşı ona yanaşır.

Vəzir *(geyinə-geyinə).* Noldu, nə istirsən sən? Əcələn nədi?

Rəhim yüzbaşı *(Vəzirə yaxınlaşır).* Mənlik bir iş yoxdu. Həmən adamı deyirəm, yenə bu gün gəlibdir.

Vəzir. Gəlib, gəlib. Nolsun?..

Rəhim yüzbaşı. Vəzir ağa, bu deyir, qurban olduğumu görməsəm, bir yana gedən deyiləm.

Vəzir. Hm. Bu cürə də deyir?

Rəhim yüzbaşı. Vəzir ağa, bu, elə-belə şəxs deyil.

Vəzir. Elə-belə şəxs deyil, bə kimdi?

Rəhim yüzbaşı. Deyir... Deyir, mən Hüseyn bəy Lələyəm...

Vəzir. Kim, kim?

Rəhim yüzbaşı. Hüseyn bəy Lələ.

Vəzir *(bir qədər donuq qalandan sonra gülür).* Ha-ha-ha. Oğlan, sən məgər bilmirsən, Şahımızın Lələsi Hüseyn bəy, Allah ona qəni-qəni rəhmət eləsin, Çaldıran döyüşündə şücaət göstərib şəhid olub?! Hüseyn bəy Lələ... Lələyə bir bax... Yəqin çaşmısan?!

Rəhim yüzbaşı. Əvvəl-əvvəl mən dəxi etiraz etdim. Sonra özü təsdiq elədi.

Vəzir. Hüseyn bəy Lələ ha?!

Rəhim yüzbaşı. Bəli, Hüseyn bəy Lələ.

Vəzir *(fikrə gedir).* Təsdiq elədi, deyirsən?! Allahın möcüzələri çox olur, amma bu cürəsi... Gözü ilə görənlər olub axı Lələnin həlakını. *(Həyətdən kamança səsi gəlir.)* Şaha da söylədilər... nə susub durmusan? Elə bu cür də dedi?

Rəhim yüzbaşı. Elə bu cür də dedi.

Vəzir. Nə gözəl çalır... Belə... Daha nə dedi bu ağılsız bədbəxt? Başqa bir şey demədimi?

Rəhim yüzbaşı. Dedi. Dedi, Vəzir ağaya de ki, Bəhruzə xanımdan xəbər gətirmişəm.

Vəzir *(diksinir).* Bu kamançanın səsi məni lap haldan çıxartdı. Söylə, o kişini bir daha divanxana həyətinə buraxmasınlar.

Rəhim. Hansı kişini, Vəzir ağa?

Vəzir. Hansı kişini, hansı kişini... Əlbəttə, kamança çalanı. O özünə Lələ deyəni isə gətir gəl sabah yanıma.

Rəhim yüzbaşı. Baş üstə, Vəzir ağa, baş üstə. Baş üstə *(getmək istəyir).*

Vəzir. Tələsmə. Dediyimi necə deyirəm, o cürə də deyərsən. Ona deyərsən ki, Vəzir ağa mə-

nim sözümə inanmadı. Hələ o Bəhruzə söhbətinə bir balaca qeyzləndi də. Him-cim ilə bildir ki, bu söhbəti bir daha açmasa yaxşı olar. İşarət ver ki, Şah bu qadını xatırlasa ruhu inciyər. Lələdisə bir də o söhbəti açmaz. Bir də onu de ki, Vəzir ağa əvvəlcə özü sənlə görüşmək istir. Xatiri cəng Çaldıran. Sabah divanxanada onu mənim yanıma gətirərsən.

Rəhim yüzbaşı. Necə dedin, elə də elərəm. Arxayın ol. Məndən arxayın ol.

Vəzir. Arxayınam. Arxayın olmamış nolacaqdı ki? İndi isə məni diqqətlə dinlə. Əgər bu söhbəti**,** bir adam duyarsa, yainki Lələnin gəlişini, sağ qalmasını bir kimsə bilərsə...

Rəhim. Elə şey ömründə olmaz.

Vəzir. ... O zaman qanın halal olacaq. Bu bir dövləti sirrdir, agah ol. Elə onun özünü də bu barədə qandır. Amma ehtiyatla. Eyhamla. Him-cimlə... Bir başqasına hələ ki, bu sirr açılmasın**.** Hökm qurban olduğumun, mürşidi-kamilimindi. Allah onu hər bəladan qorusun Şahi-Mərdan xətrinə... Xudaya, özün kömək ol bizə... Allah, öz böyüklüyünü biz fəqir bəndələrindən əsirgəmə, inşallah... Oğulu ataya, atanı oğula həsrət qoyma. Bizi mərdliyimiz və ağıl sahibliyimizlə imtahana çəkmə. Verdiyin bir parça ruzini çox görmə və məmləkəti nura qərq et. Öz böyüklüyün naminə... birliyin naminə...

Vəzirin dedikləri yavaş-yavaş səssiz virdə çevrilir. O, arxasını Yüzbaşı Rəhimə çevirir, əllərini qaldırıb-salır və Yüzbaşı Rəhimin otaqda olmasını artıq unudub sidq-ürəklə dualarına davam edir. Vəzir danışdıqca Yüzbaşı Rəhim yavaşcadan qalxıb otağı tərk edir. İşıq Vəzirin və səhnənin önünə çıxıb onu izləyən Professorun üzərində.

Vəzir *(yarıqaranlıqda ucadan).* Xudaya, dərgahına şükür. İnşallah, möcüzə yaratmazsan. İnşallah, Lələ Çaldıranda ölmüş olar, inşallah... inşallah.

XIII VAQEƏ

Hadisələr arxa tərəfdə cərəyan edir. Divanxananın bir otağında Vəzir oturub uca bir kətildə. Qarşısındakı mizin üstündə şamdan var və şamı yanır. Vəzir barmaq basıb bu şamı söndürür.

Vəzir *(başı aşağı).* İnşallah ki, Lələ deyildir. İnşallah ki, fırıldağın təki olar. Bəs ürəyim niyə belə guppuldayır?! Lələ olanda nə olacaqmış ki?! Əstəğfurulla, inşallah, olmaz! Olmaz! Lələ olmaz...

Lələ və Rəhim gəlirlər. Vəzir gözaltı onları süzür, başını qaldırmır.

Vəzir *(öz-özünə).* Lələdi. *(Rəhimə)* Sən çıx. Bayırda gözlərsən. Heç kimi də içəri buraxmayarsan. Mən çağıranda gəl.

Rəhim yüzbaşı. Baş üstə, Vəzir ağa.

Yüzbaşı Rəhim çıxır. Vəzir bir az daha saymazyana oturmağına davam edir. Lələ hərəkətsiz, sükut içində.

Vəzir *(guya ki, saymazyana).* Yavuğa gəl, kişi. Özünü Hüseyn bəy Lələ adlandıran şəxs sənsənmi?

Lələ *(yaxınlaşır).* Bəli, mənəm...

Vəzir *(guya ki, zənlə ona baxır).* Biz Hüseyn bəyi şəhid bilirik. Hüseyn bəy Lələ... Allah ona rəhmət eləsin. Şahimizin lələsi idi, qorçubaşı idi, məmləkətin sütunlarından idi. Sən kimsən, kimlərdənsən, məramın nədir, kişi? Hüseyn bəyə... oxşayışın da yox deyil. Kimsən sən?

Lələ. Mən sənə özümün kim olduğumu deməyəcəyəm. İstərsənsə, mən sənə sənin kim olduğunu deyərəm.

Vəzir. Nəmənə?.. Buyur. Qulağım ki səndədi.

Lələ. Sən sonralar addım-addım Şahın diqqəti və rəğbəti ilə irəli gəldin. Məni indi tanımaz olursan. Ol. O zaman isə sən bir gənc oğlan idin. Sadağa olduğumun Şirvan səfəri vardı. Sənin ağan gəldi mənim yanıma. Ağan Uzun Həsənin mirzələrindən olmuşdu. Cəzası vardı. Mənə dedi: "Atanla haqq-salamımız olub. Mənim cəzamı verəcəklər, oğlum sənə əmanət". Sən bax, divanxana həyətinin o başındakı qaranlıq otaqda mənim qabağımda durub tir-tir əsirdin. Ərdəbilin Qırxlar məhəlləsindəki atanın gizli evində...

Vəzir *(daha dözməyərək qalxır, Lələnin yanına gəlir).* Lələ, Lələ, sənsən. Əlbəttə, sənsən ki, varsan. Ürəyimə necə də dammışdı. Dammışdı ki, sən sağsan, ölməmisən. Mən səni tanımaz olurmu-

yam? Gəl bura. Gəl. Allah-taalaya min-min şükürlər olsun. Şahi-Mərdan ola ki, dualarımızı eşitdi, əyləş, gəl, gəl burdan əyləş.

Vəzir Mizin ətrafında yerdən əvvəl Ləlәni oturdur, sonra özü onunla üzbəüz oturur. Yüksək kətil qalır boş.

Vəzir. Lələ... Lələ... *(Eşiyə çığırır.)* A gədə, yüzbaşı!

Rəhim yüzbaşı anındaca özünü hövlnak içəri salır.

Vəzir. Yüzbaşı. Tez ol, deginən bizə mer-meyvə, şərbət, çay versinlər. Tez. Cəld ol.

Rəhim yüzbaşı *(sevincək).* Bəli, ağa Vəzir. Bu saat, bu saat...

Rəhim yüzbaşı dalı-dalı çıxır eşiyə.

Vəzir. Allah xətrinə, Lələ. Şahi-Mərdana and olsun, sən məni necə sevindirdinsə, hər şeyi unut-dum. Danış. Nə oldu, nə baş verdi sənlə?! Haralarda idin bu vaxta qədər?! Biz ki, həqqən səni ölmüş bilirdik. Bə necə oldu bu?

Lələ. Uzun bir qəziyyədir mənim qəziyyəm. Necə oldu belə oldu – heç özüm də baş açа bilmi-

rəm. Niyə? Nə üçün? Mən biçarə, mən ... mən bədbəxt necə oldu ki, savaşdan sağ çıxdım?! Bilmirəm. Ayağımdan yara aldım, o da sağaldı zamanıyla.

Vəzir. Maşalla, maşalla...

Lələ. Bir də göz yumub açdım ki, əsirlərin arasındayam.

Vəzir. Bəhruzə xanımı da bu zaman gördün, eləmi? Onun şeir deyən səsi hələ də Şahımızın qulağından getmir.

Həzin musiqi səslənir.

Səda *(bilinmir hardan gəlir. Vəzir və Lələ donuq).* Mən öz üfüqümə çatdım bu səhər. Üfüq məndən qaçmadı. Məndən uzaqlaşmadı. Üfüq mənə başladı. Dərdini danışmağa. Üzüm üzünə dəydi. Dizim dizinə dəydi. Mənim dərdim...

Musiqi qəfildən kəsilir.

Vəzir *(elə bil yuxudan ayılır).* Nə isə...

Lələ. Bəhruzəni mən nə o zaman, nə də sonralar gördüm. Sultan Təbrizdə əsirləri yerbəyer edəndə məni Trabzonlu Abdulla bəy Mömin Əfəndi adlı birisinə verdi. Əsirlərin baxışı idi. Mənə çatanda dedi: bu, çox dik baxır. Bunu burda qoymayaq.

Vəzir. Allah-Allah...

Lələ. Abdulla bəy bir insan adam idi. Əvvəl-əvvəl əziyyətim var idi, yaralarıma baxan yoxdu, qərəz... Sonra, Mömin Əfəndi kimliyimi biləndən sonra işlər yoluna düşdü, məni o birilərindən ayırdılar, yatacağım, duracağım... Yaramla həkimlər məşğul oldu. Amma nəzarətdən də buraxmadılar. Abdulla bəy Möminin yazı-pozu işlərinə baxırdım. Kitabxanasını səliqəyə saldım. Bir il var, əfəndi öldü, vəsiyyətnaməsini övladları açanda gördülər ki, mənə azadlıq verib. Haqqımızı bir-birimizə halal edib ayrıldıq.

Vəzir. Allaha çox-çox şükürlər olsun. Gör bir nə qədər iztirab çəkibsən sən...

Lələ. Mənim iztirabım əsirlik iztirabı deyil, Vəzir ağa.

Vəzir. Bə nədi?

Lələ. Məni gecələr düz on ildi yatmağa qoymayan, qəlbimi əzən, könlümə ağırlıq gətirən bir məsələ varımdır.

Vəzir. Nədi o məsələ?

Lələ. Mən gərək Çaldıranda öləydim. Mən Çaldıranda ölmədim.

Vəzir. Allah, Allah, Allah...

Rəhim yüzbaşı əlində məcməyi içində meyvə, şərbət girir, məcməyini mizin üzərinə qoyur.

Rəhim. Başqa bir əmriniz varmı?

Vəzir. Yox. Yoxdu. Get.

Rəhim yüzbaşı çaşqın durmağında davam edir.

Lələ. Sağ ol, yüzbaşı.

Rəhim yüzbaşı çıxır.

Vəzir *(süni şəkildə).* Maşallah, maşallah... Belə. Buyur, Lələ. Məşqulat elə. Hara uçdu xəyalın?

Lələ. Heç. Bilirsən, nədi ən böyük xəyalım, ən böyük istəyim?! Bir o sadağa olduğumun hüzuruna yetişəm. Başımı qoyam ayaqlarının altına... Deyəm ki...

Vəzir. Nə? Nəyi?

Lələ. Deyəm ki, mənə əfv yoxdu, Şahim. Keçmə, keçmə mənim günahımdan.

Vəzir *(təəccüblə).* Sənin ki bir günahın yoxdu, Lələ.

Lələ. Hər gecə, hər saat qulağımda onun səsidi: Sən niyə Çaldıranda ölmədin, Lələ? Sən niyə Çaldıranda ölmədin? Sən niyə sağ qaldın? Vəzir ağa, mənim bu suala cavabım yoxdur!..

Vəzir *(sərt).* Mən qibleyi-aləmə yalvara-yalvara qaldım: topxana istə, topxana gətirt səfirlər

vasitəsiylə. Mən dedim, mən eşitdim. Sən də mənə dəstək vermədin. Yadındadı? Nəticə – məlum.

Lələ. Yadımdadı. Sən o zaman doğru söylirdin, Vəzir ağa. Amma Çaldıran savaşı əvvəlindən axırınacan Allah-taalaya xoş getməyən bir savaş oldu. Mənim cavabım budu.

Vəzir. Nə isə... Keçənə güzəşt deyərlər. Keçdi, getdi...

Lələ. Elədi, həqqən elədi. İndi sən mənə nə tövr kömək edəcəksən?! Qurban olduğum, inan ki, qanımı töksə, məndən xoşbəxt bir adam olmaz hər iki dünyada.

Vəzir. Lələ, Lələ... Sən nə dediyindi, sən nə danışdığındı? Qanını niyə töksün ki? Zülqədər idi, xain çıxdı. Yəqin eşitmisən, cəzasını da aldı. Sən ki, xain çıxmadın. Sənin şücaətin aləmə məlumdur. Bir bilsən, Şahımız nə xiffət çəkdi səndən sonra?! Bir bilsən Çaldıranın acısı onun canını necə üzdü?! Ruhunu necə incitdi?! Hələ ilk vaxtlar Bəhruzə xanımın hicranı... Çox əlləşdik, Osmanlıya çox xəbər göndərdik, çifaidə?! Yüzbaşı deyəndə ki, sən Bəhruzədən xəbər gətirmisən *(zənlə Lələyə baxır),* bir tərəfdən sevindim. Amma... illər də öz işini gördü, Lələ. Şah Bəhruzəni unutdu daha. Elə bil heç olmamışdı. Səsini isə... Səsini unutmadı.

Yenə Səda öz mahnısını oxuyur, sanki canlanır.

Vəzir *(boylanıb Sədanı axtaran kimidir, heç nə tapmır, öz-özünə peşiman-peşiman).* Nə isə... Ağır günlər, zor illər yaşadıq... Nə isə...

Lələ. Vəzir ağa, noldu sənə?

Vəzir *(özündə deyil).* Heç...

Lələ. Şah seyrangahdan nə zaman dönəcək?

Vəzir *(özünə gəlir).* Şahmı?! Sabah, birisi gün. Daha qalmaz. Firəngistandan yenə elçilərimiz vardır.

Lələ. O zaman...

Vəzir. Bəli, Lələ, bəli. Sən get-gəl divanxanaya. Mən sadağa olduğuma dərhal sənin xəbərini yetişdirrəm. Görək nə deyəcəkdir... Əlbəttə, çox sevinəcək.

Lələ. Qəzəb edəcək.

Vəzir. Lələ... Elə demə. Tapşıracağam, xidmətində durallar.

Lələ. Sağ ol, Vəzir ağa. Allah atanın ruhunu şad eləsin.

Vəzir. Sənin kinin də, Lələ, sənin kinin də. Yüzbaşı!

Rəhim yüzbaşı tələsik girir.

Vəzir. Yüzbaşı qonağımızı ötür, sonra qayıt gəl bura. Bax, özü də nə zaman divanxanaya gəldi,

tapşırıq ver, xidmətində dursunlar. Lələ, di get Allah amanında. Heç əndişə eləmə. *(Rəhim yüzbaşıya)* Sən özün isə qayıt bura.

Lələ. Sağ ol. Xudahafiz.

Rəhim yüzbaşı. Baş üstə.

Lələ və Rəhim yüzbaşı səhnənin ön tərəfinə gəlirlər. Burada işıq düşür bunların üzərinə və Lələ Professora, Yüzbaşı Ustaya çevrilir. Vəzir arxa tərəfdə qaranlıqda şamdandakı şamı yandırır, var-gəl edir, uzun gölgəsi də düşüb onun dalına – hara getdi, kölgə də ora gedir.

Usta *(sevinclə).* Sən dediyin kimi oldu, Lələ. Gözəl oldu. Sabah gələcəksən?

Professor *(sirli birhalətdə Vəzir tərəfə baxır və gülümsəyir).* Gələcəyəm. Söhbətimiz yarımçıq qaldı, əlbəttə, gələcəyəm.

Vəzir *(o tərəfdən qapıya).* Gəl içəri, Rəhim yüzbaşı. Qapını da bərk-bərk bağla. Keç, otur.

Rəhim yüzbaşı, əslində, Usta səhnənin önündə, hərəkətsiz.

XIV VAQEƏ

Səhnənin arxa tərəfində Şahın əndərunu. Musiqi səsləri. Şah və Taclı xanım bağçada. Ortada hovuz, ətrafında miz. Güllər, çiçəklər... Musiqi səsi yavaş-yavaş özü ilə gətirdiyi artıq səslərdən təmizlənib ancaq quşların səsinə çevrilir. Şah oturub mizin arxasında. Yarıyuxuludu. Mizin üstündə şətrənc. Artıq Taclı xanıma çevrilmiş Qız gəlir.

Taclı xanım *(şuxluqla).* Şahim, yenəmi mürgü tutdu səni?! Çox yorğunsan bu səhər. Fikirlisən. Dünən axşam neylədi, Vəzir ağa elədi. Ondan sonra sən sən olmadın...

Şah *(yarıyuxulu).* Neylədi Vəzir ağa?

Taclı. Bilmirəm ki, nə dedi, nə demədi?! Dur, dur bir, qalx yerindən, bax, hər tərəfdə gül gülü çağırır, bülbül bülbülü. Bir dinləsənə.

Quş səslərinə bir ara ikisi də valeh olub qalır.

Şah. Bu gözəlliyi bəxş edən xaliqə şükürlər olsun.

Taclı. Şahi-Mərdan xətrinə söylə mənə, piri-mürşidim. Söylə, nədi səni belə məhzun edən? Bir dərdinmi var, sevgili yarım?!

Şah. Yoxdu bir dərdim mənim.

Taclı. Bəs niyə, niyə o zaman sən heç dinib danışmırsan?! Elə fikir aləmindəsən. Hər sabah deyərdin, gülərdin... Yeməyin də, yeməmisən, qalıbdı. Deyim, bura gətirsinlərmi sübhanəni?

Şah. Yox, demə, ürəyim istəmir.

Taclı. Niyə?

Şah. "Niyə?, Niyə?" Sən sözlü adama bənzərsən bu sabah, Taclı xanım, xeyirdi? Nolub sənə?

Taclı. Heç...

Şah. Yenə olsun. Söylə hələ görüm.

Taclı. Dünən mənə oxuduğun şeiri oxuyarsan bir də? Oxuyarsansa, mən də sözümü deyərəm.

Şah. Oxuyaram, oxuyaram. Xoşuna yəni, bu qədər gəldi?

Taclı. Elə gəldi... O qədər gəldi... Heyran oldum.

Şah. Di, uzatma. Bax gediş səndə qaldı.

Taclı *(bir qədər düşünür).* Şahım, qurban olduğum, mən bu gecə bir pis yuxu görmüşəm, bir pis yuxu görmüşəm...

Şah. Aha. Danış görüm, nə yuxudu gördüyün? Qulağım səndədi.

Taclı *(şıltaq-şıltaq).* Görmüşəm ki... gördüm ki, sən məni atmısan. Çıxıb getmisən uzaqlara, məni də təkcənə buraxmısan. Göylərin yeddinci qatından gəlir səsin. Məni çağırırsan. "Taclı, Taclı!" deyirsən. "Neynirsən, sevgilim, sən orda, niyə qal-

mısan bə sən tək? Gəl, gəl bura. Bilsən buralar nə qədərinə gözəldir. Hamı səni sevənlər burdadı". Bunları sən deyirsən. Mən ağlamaqdan boğula-boğula soruşuram: "yarım, sevgilim, mürşidi-kamilim, niyə bə sən məni atıb oralara mənsiz getmisən?" Sən cavab verirsən: "Şahi-Mərdan xətrinə, burax artıq sözləri, nə görmüsən sən oralarda, bizim yerimiz burada, Şahi-mərdanın yanındadı. Daha ləngimə, qorxma, gəl..." – deyirsən. Hövlnak yuxudan ayıldım. Sən elə bərk yatırdın... Bu gün getmə heç yana, nolur?! Qal burda, elə ikimiz qalaq burda. Sən və mən. Şeir oxuyaq, şətrənc oynayaq. İzin ver, özüm sənin xidmətində durum.

Şah *(fikirli-fikirli təkrar edir).* Hamı səni sevənlər burdadı... O da belə demişdi...

Taclı. Kim? Kimdən danışırsan sən?

Şah. Daha nə gördün?

Taclı *(ciddi).* Bir də bunu gördüm ki, sən elə hey məndən qaçırsan. Heç kim səni saxlaya bilmir. Elə hey məndən qaçırsan. Az qala qanad açmısan. Sənə çatmaq olmur. Ürəyim tövşüməkdən az qala yerindən çıxacaqdı. İndi də gör necə vurur?!

Taclı xanım diz çöküb kətildə oturan Şahın əlini alıb sinəsinə tutur. Sonra Şah əlini çəkib Taclı xanımın başını sığallayır. Bu zaman Səda da gəlib o biri tərəfdən diz çöküb Şahın önündə oturur.

Səda (y*avaşca, özü-özünə).* Qulaq as ona, qurban olduğum, qulaq as, nə deyirsə düz deyir. Sənin üfüqünə çox var hələ. İrəlidədi sənin istiqbalın. Haşa, haşa, unutma məni... Məni unutmayasan, haşa... Mən, mən öz üfüqümə çatmışam... *(Son sözləri pıçıltı içində deyir).*

Şah (*yuxulu kimi o biri əli ilə başlayır özü üçün gözəgörünməz olan Sədanın başını sığallayır).* Mənim huri-mələyim... Mənim təşneyi-zəmzəmim... Əlbəttə, hər birimiz bir gün gələcəkdir, Şahi-Mərdanın hüzuruna, Allahın dərgahına yollanacağıq, öz üfüqümüzə yetişəcəyik...

Səda. Qulaq as ona, qulaq as...

Taclı. Allah, iraq elə. Allah, iraq elə. Getmə, nolar, bu gün getmə divanxanaya. İş ki, qaçmır. Hamı ordadı. Məmləkət dağılmadı ki. Bu gün mənimlə qal. Bu gün mənə şeir oxumayacaqdın?! Bir az ki əvvəl özün söz verdin. Gəl bu gün şeir məclisi quraq *(ağlayır).*

Səda yox olur. Şah özünə qayıdır.

Şah *(elə bil, yuxudan ayılır, Taclı xanıma).* Bah, bah, gözlərdən axan büllur şəlaləyə bax. Bulaq gözü təkin təmiz abi-zəmzəmə bax. *(Sərt)* Şeir günü

deyil bu gün. Vacib işlər çıxdı ortaya. Firəng elçiləri var... Əlbəttə, getməliyəm *(qalxır).*

Taclı. Şahim, gözümün işığı. Ürəyimə qara-qura fikirlər girir. Sənin başında bir iş vardır. Rəngi-rufuna hələ bir bax... Çox ov-ov dedin, bu da ov. Bu ov, bu seyrangah düşmədi sənə.

Şah. Elə demə. Nə olub ki?

Taclı *(şahın dizlərini qucaqlayır).* Heç hara buraxmanam.

Şah. Burax, qız.

Taclı *(hıçqırıqla).* Getmə heç hara. Gəl bu gün heç hara getmə, nolar?! Bu gün ancaq mənim ol. Axı... dinin, axı məmləkətin dirəyisən. Mürşidi-kamilim... qurban olduğum... sadağa olduğum...

Şah. Burax artıq. Bəsdi.

Taclı. Yaxşı, yuxumda bir də bunu gördüm. Qoy bunu da danışım sənə. Gördüm ki, qara-qara buludlar ayın qabağını tutur. Qarğa-quzğunlar bir şahini göydə təqib edir, hərəsi bir yandan dimdikləyir. Bu yuxu bir pis yuxudu, bir pis yuxudu. Bu gün heç hara getmə, qal evdə. Getmə...

Şah *(səbrsiz).* Çəkil daha. Əlbəttə, gərəkdir gedəm. *(Yumşaq)* Axşam görüşərik, elə burda inşallah. Axşam üfüq qızaranda qayıdıb sənə yeni yazdı-

ğım şeiri oxuyacağam. Üfüq qızaran vaxt bilirsən nə zamandı?..

Taclı . Bilmirəm. İndi oxu, nolar?! Getməmiş oxu.

Şah. Yox. Axşamı gözlə. Qayıdım sonra. Üfüq qızaranda mən də qayıdaram. Qoy bir qayıdım.

Taclı (*ağlamağını kəcir).* Qoymanam. Öldür, məni, qoymanam.

Şah. Çəkil, qız! Hamı məni sevənlər ordadı. Əlbəttə, gərəkdir gedəm.

Sərt şəkildə Taclını itələyir, çıxır. Taclı üzüqoylu yerdə. Professor ön tərəfdən peyda olur. Gəlir Taclını yerdən qaldırır səhnənin önünə aparır.

Professor. Gəl, gəl artıq, sən bacardığını etdin. Sənlik bir iş daha yoxdu.

Qız hıçqıra-hıçqıra Professora qısılır.

XV VAQEƏ

Səhnənin arxa tərəfi. Divanxana.
Şah Divanxanaya hələ yetişməyib. Ancaq ətrafdakı səslər yüksəldikcə anlaşılır ki, o, artıq yaxındadır.

Səslər. Pirim, mürşidi-kamilim, sadağa olduğum, qurban olduğum! Çox yaşa! Çox var ol!

Əvvəlcə divanxanaya qətiyyətsiz şəkildə Şah girir, keçib taxta oturur. Ardınca Vəzir gəlib bir kənarda əmrə müntəzir durur.

Şah *(halı düşkündür).* Gördüm onu. Həyətdəydi. Görən kimi tanıdım. Sən düz demirdin ki, Lələ dəyişib – heç dəyişməyib.

Vəzir. O sənin fikrində on il əvvəlki kimi qalıb. Onun barəsindəki xəyalındı dəyişməyən, o deyil.

Şah. Ağacın altında həmişəki kimi boynun burub durmuşdu. Yadında, bunun bir boyun bükməsi vardı... Belə. İndi bə biz nə edəcəyik?!

Vəzir. Nə deyirsən onu. Vacibi odu ki, sən özünü ələ al.

Şah. Gətir gəlsin. Şahi-Mərdan xətrinə uzatmayaq bu işi. Qoy gəlsin.

Vəzir. Gəlsin deyirsən, gəlsin. *(Çıxmaq istəyir)* Bəlkə niqabını taxasan??

Şah. Yox, taxmayacağam. Belə daha yaxşıdı. De, çağırsınlar. Sən məni anlamış və inanmış idin. Görək hələ bu nə deyəcək?!

Vəzir baş əyib çıxır. Şah fikir içində. Nəhayət, taxtın arxasından niqabını götürüb, ora-burasına xeyli baxır, sonra üzünə taxır. İşıq səhnə önündə Həkim və Ustanın üzərində.

Həkim *(səhnə önündə Ustaya).* Burdadı o?

Usta. Burdadı, gözlir.

Həkim. Get, onu səssiz-səmirsiz gətir. Bir adam görməsin. Artıq söz-söhbət istəmirəm, bilə-sən. Özün də qapı ağzında durarsan.

Usta. Baş üstə *(çıxır).*

İşıq Həkimin üzərində onunla birgə keçir Şahın yanına və yenə Həkim Vəzirə dönərək əvvəiki kimi əmrə müntəzir və donuq.

Vəzir *(elə bil kənara, dodaqaltı).* Yaxşı elədin ki, niqabını taxdın.

Şah. Noldu?

Vəzir. Gəlir. İndi gəlir.

Hər ikisi həyəcanla Lələni gözləməyə başlayırlar. İşıq azalır.

Professor *(işıq səhnə önündə Professorun üzərində. Professor danışdıqca arxa tərəfə keçə-*

keçə Lələyə çevrilir). Qəribə işlər olur dünyada. Demişdim. Hər şey təkrara bağlıdı. Elə Xızrın özü də Şahın təkrarıdı. Şah özü də Xızra vida zamanı havayıdan deməmişdi: "Mənim adım fəqət Şah İsmayıldı. Mənim özüm Şah İsmayıl deyiləm". Adı Şah İsmayıl olmayan özü Şah İsmayıl olanın təkrarıdı. *(Artıq Lələdir)* Əlbəttə, gördü. Gördü, məni, gördü. Tanıdı. Amma vurdu özünü tanımaza. Bəlkə hələ Vəzir də alova bir-iki çör-çöp atmışdır... Gözlərini qaçıranda ürəyim az qala param-parça olub ağzıma gələcəkdi. Bu niyə belə elədi?! Nə üçün üz çevirdi? Sakit, sakit... Bu qədər adamın yanında bə nə eləməliydi?! Bağrına ki basmayacaqdı. Nə edir, etsin, nə edir, etsin, bircə bunu soruşmasın: "Sən niyə Çaldıranda ölmədin, mən ki, səni ölməyə göndərdim sağ cinaha, niyə sağ qaldın, Lələ?" Ayaq üstə canımı tapşırram. Vallah, ölləm. Şahi-Mərdan xətrinə, Xudavəndi-aləm, sən özün mənə kömək ol...

Rəhim yüzbaşı *(tələsik gəlir, sevincək).* Lələ, Lələ! Burdasan?!

Lələ. Nədi? Nə oldu?

Rəhim yüzbaşı. Gedək, Lələ. İşlərimiz düzəldi. Şah səni hüzuruna istir. Burdan gəl.

Lələ (ürəkdən). Şükür... çox şükür...

Yüzbaşı gətirib Lələyə Şahın otağına gedən qapını göstərir, əllərini sinəsində daraqlayıb təzim edir.

Rəhim yüzbaşı. Buyur, Lələ. Arzumuz yerinə yetdi.

Lələ. İnşallah. İnşallah... Dayan hələ bir ləhzə *(özünə gəlir).*

Lələ dərindən bir nəfəs alıb təmkinlə, başı aşağı daxil olur içəri, Şah taxtda oturub bir başqa tərəfə baxır. Vəzir Lələyə əli ilə işarə edib yer göstərir. Lələ diz üstə çökür.

Vəzir *(Şaha yavaşdan).* Sadağa olduğum, sənə demişdim. Hüseyn bəydi, əsirlikdən... qayıdıb gəlib qədəmlərinə düşməyə.

Sükut.

Vəzir *(bir qədər bərkdən).* Mürşidi-kamilim. Hüseyn bəy Lələ hüzurundadı...

Şah *(handan-hana).* Gəl yaxına. Gəl, Lələ.

Lələ taqətsiz.

Vəzir. Buyur, Lələ.

Lələ *(dizin-dizin Şaha yaxınlaşır).* Allah-Allah... Pirim, mürşidi-kamilim, sadağa olduğum... Pirim, mürşidim, qurban olduğum...

Şah. Qalx, qalx hələ ayağa, Lələ.

Lələ başını yerə döyür və ayağa qalxmır. Şah özü taxtdan enir. Gəlib Lələnin titrəyən çiyinlərindən tutub qaldırır. Şah və qəddi bükük Lələ üzbəüz.

Şah. Gözünü yerə dikmə, Lələ. Bax belə. Bax mənə. Dik bax. Allah, Allah... Sən nə cürə yaxşı oldu ki, savaşdan sağ çıxa bildin. Qurban olduğumuz Şahi-Mərdan dualarımızı, əlbəttə, eşitdi. Allaha həmd olsun.

Vəzir *(mehriban və birazda yaltaq bir tövrlə).* Allaha həmd olsun. Həmd olsun Yaradana.

Lələnin vücudu artıq titrəmir və Lələ yavaş-yavaş qəddini dikəldib bir qədər də başını geri tutub Şahı diqqətlə süzməyə başlayır.

Şah *(mülayim).* Bir bilsən, indi məni nə qədərinə sevindirdin?! Necə yaxşı oldu ki, ölmədin, Lələ, sağ qaldın. Bir gəl, otur, otur bura, danış...

Şah taxta əyləşir.

Yaxın gəlsənə. Haralara apardı səni ruzgar, haralarda itib-batdın, haralardan gəlirsən, əsirlik ki,

ağır bir həyatdır, danış, susma. Şahi-Mərdan xətrinə, susma.

Lələ *(hələ də donuqdur).* Mən nə cürə yaxşı oldu ki, sağ qaldım?! Nə cürə yaxşı oldu ki, ölmədim?! Həmənə??? *(Şaha yaxınlaşır)* Sən... Ah... Sən ki Şah deyilsən. Sən Şah deyilsən, gədə!!

Şah *(pıçıltı ilə).* Sus!.. *(Vəzirə)* Vəzir! Durma, çıx, çıx çölə.

Vəzir. Şahim! Şahim!..

Şah. Çıx eşiyə! Şahi-Mərdan xətrinə, çıx, dedim. Mənim Hüseyn bəylə öz söhbətim var.

Vəzir dalı-dalı çıxır.

Şah *(boğuq səslə).* Sənə nə oldu, Lələ?!. Biz ki, yaman bir iş tutmadıq. Biz ki, sənə "xoş gəldin" dedik. Özündəmisən sən? Hələ bir otur...

Lələ *(oturmur).* Sən Şah deyilsən. Əlbəttə, sən Şah deyilsən.

Şah *(məlul-məlul).* Lələ, gəl sən bu işi görmə...

Lələ *(birdən hönkürür).* Noldu mürşidi-kamilim mənim? Sadağa olduğum noldu? Sən Şaha nə etdin? Sən... kimsən? Aha... Mən səni tanıdım. Tanımaz olurammı?

Şah *(üzündən niqabını çıxarıb atır bir kənara).* Tanıdım deyirsən? İndi necə? Niqabsız daha yaxşı

tanırsan *(üzünü Lələ üçün o tərəf-bu tərəfə çevirir).* Yadında olsun gərək, üzümdəki hər cizgiyə diqqətlə baxdığın vaxtlar?

Lələ. Mən səni niqablı da tanıyardım. Bəli, əlbəttə, sənsən ki, varsan, məlun şair. Elə təkcə səsindən tanırdım. Məni heç vədə aldada bilməzsən sən.

Şah *(yalançı qeyzlə taxtdan durub gəlir Lələnin qarşısına).* Sus daha! Həddini bil! Getdi o günlər, uçdu, yox oldu! İndi mənəm Şah! Bircə fərmayişim, bircə barmaq işarətim... anla, nəhayət, bircə baxışım yetər... *(diz çökür)* Lələ, Lələ...

Lələ *(özü-özünə).* Sən... sən... Əlbəttə, sən Şah deyilsən. Deyilsən sən Şah... Şah. Lələ, Lələ, vallah və billah, o bir olan Allahımız haqqı, and olsun Şahi-Mərdanın müqəddəs ruhuna ki, Lələ, mənim bir günahım bu işdə yoxumdu... O özü məni məcbur elədi.

Lələ *(onun sözlərinə qulaq asmır).* Şaha nə etdiniz, lənətulla? Söylə! Söylə mənə düzünü!

Şah. Şah nə etdi, özü özünə etdi, sən görmədinmi?

Lələ. Boşuna vəz eləmə, gədə. Şaha nə oldu? Sağdı, yoxsa... Düzünü, düzünü söyləyəcəksən mənə, eşidirsən, zalim, düzünü!

Şah dikəlir. Lələyə baxmadan gedib taxtın ayaq tərəfində oturur.

Şah *(boşluğa).* Çaldıran yadındamı, Lələ?

Lələ. Niyə sordun? Çaldıran unudulurmu?

Şah. Sən cəngdən əvvəl, sabah hələ açılmamışdı, üfüqün qıpqırmızı vaxtı idi, mənə nə dedin?! Mənə Şahın döyüş paltarını sən əmr etdin: "geyin!" dedin. Demədinmi?

Lələ. Nolsun?

Şah. Mən də geyindim. İndi dinlə məni. Bunu, söyləməyə sən məni məcbur etdin. Sən məni söylətdin, özün də lütf elə, qulaq as. Yadındamı, sən həmləyə qalxdın?! Şah səni sağ cinaha göndərdi. Özü mənimlə çadırda idi, amma bir yerdə qərar tuta bilmirdi. "Mən quldur-qaçaq deyiləm, karvan qarətçisi deyiləm. Gecəylə qəfildən həmlə etsəydim, Səlim indi hüzurumda zəncirli durmuşdu" – elə hey bunu deyirdi. Dözmürdü, çadırdan çıxıb vururdu özünü döyüşün isti yerinə, təşnəsini söndürürdü, yenə dönürdü çadıra.

Lələ. Aman... aman... Mürşidi-kamilim, pirim...

Şah. Bir də vuranda özünü düşmən səddinə, Malbaşoğlu kimi nəhəng pəhləvanı iki yerə necə böldü?! Bir qılınc çaldı, iti bir ülgüc yağ parçasına

girdi elə bil. Bütün qoşun "əhsən!" dedi. İndi qulaq ver mənə. Sən həmlədəydin. Mən çadırın gizli yerində bir deşik açmışdım, ora gözümü dikib döyüşü seyr edirdim, ürəyim qan ağlayırdı. Sən ki, mənə bərk-bərk tapşırmış idin, burnunun ucunu da bayıra çıxarma, qaxıl otur çadırda. Mən də itaət edirdim. Şah bu dəfə çadıra geri dönəndə gördüm ki, zirehinin altından yerə qan damlasıdı, damcılayır. Yaralanmışdı qurban olduğum. Özü isti-isti hiss etmirdi. Sənə indi deyəcəyimi bir kəs bilmir. Di özün istədin, tay mənlik deyil. Qulaq as, Lələ, qulağın məndə olsun.

Səhnədə arxa tərəfə düşən işıq ön tərəfə gəlir.
Ön tərəfdə Şah (1-ci aspirant) axsaya-axsaya döyüşdən gəlir.
Xızr özünü onun üstünə atır.
Lələ arxa tərəfdən onları seyr edir.

Xızr *(tələşlə).* Şahim, qanın axır. Bir yüngül yara, olsun ki, almısan.

Şah *(yorğun).* Heç hiss etmirəm, hanı? (*Əlini döyüş paltarının içindən böyrünə sürtür, çıxarır. Əlində qan izi.)* Boş şeydi.

Xızr. Qoy zirehini açaq. Əlac-dava qoyaq. Keç hələ bu tərəfə, otur.

Şah. Yox, əl çək. Olmaz. Sonra. Heç nə olmaz.

Xızr *(qəfil cəsarətlə).* Şahim, sadağa olduğum, nolar mənə də izn ver, burax, burax bir məni, mən də sənin cəngdə kölgən olum, bir vuruşum yolunda sənin, bir vuruşum... Çadır deşiyindən döyüşə baxmaq elə mənə qaldı?

Şah. Olmaz. Bu şeir yazmaq deyil. Sən burdan eşiyə çıxma. Lələ axı sənə söz buyurdu. O nə səsdi? Nədi, noldu?

Ön tərəfdən kənarda səs-küy.
1-ci qorçu təlaş içində ön tərəfə gəlir.
Xızr bir küncə çəkilir, üzünə rubənd tutur.

1-ci Qorçu. Şahim, qurban olduğum, sol cinah əyildi.

Şah *(qeyzlə).* Necə? Tez Xəlil Sultan Zülqədəri tap, versin özünü sol cinaha!

1-ci Qorçu. Pirim, mürşidi-kamilim!..

Şah. Nədi, gədə, tez ol. Nolub?

1-ci Qorçu. Şahim, Zülqədər xain çıxdı. Zülqədər qaçdı, Şahim.

Şah. Qaçdı?! Xain! Atası da xain idi, özü də xain çıxdı. Belə. Sən durma. Ustaclu Abdulla xan! Ona xəbər göndər! Sol cinaha oxçularla özü getsin! Çaparaq get! Sol cinaha! Tez!

2-ci Qorçu *(özünü içəri atır).* Şahim. Şahim, sağ cinah! Sağ cinaha fillər həmlə etdi. Cinah pozuldu.

Şah. Ax, Səlim, Səlim... Sənmi döyüşürsən, fillərmi döyüşür?.. Nə qədər qorçu varsa, toplayın! Lələ!! Yoxdu. Eyvah...

1-ci Qorçu. Şahim, bə biz nə edək?!

2-ci Qorçu. Şahim, qorçular çadırın önündə toplu durublar. Biləsən, ölərlər, bura bir adam qoymazlar...

Şah *(çarəsiz).* Sağ cinah, sağ cinah, əsas sağ cinah idi. *(Yavaş-yavaş canlanır)* Di durmayın, hamı qorçularla bir yerdə. Həmləyə. Mən indi gəlirəm... Amma əvvəl bir çapar yollayın Abdulla xana, təpənin arxasına. Deyin ki, vaxt yetişdi. Vaxt yetişdi, deyin. Özü başa düşəcək.

Qorçular çıxırlar. Qısa bir sakitlik hökm sürür bayırda. Xızr gəlir Şahın önünə. Toplar yenə guruldayır.

Şah *(pəjmürdə və fikirli var-gəl edir).* Yavuqlaş. Sənə mühüm sözüm var. Məni yaxşı dinlə və dediklərimi, haşa, unutma.

Xızr. Baş üstünə...

Şah. Sözümü kəsmə. Sən ancaq dinlə...

Şah *(ciddi).* Bayaq həmlədən geri dönəndə göydən qulağıma bir səs gəldi: “Hamı səni sevənlər burdadı”, – dedi. Şahi-Mərdanın səsiydi.

Xızr *(yavaşdan).* Onun səsinə qurban olum...

Lələ *(yavaşdan).* Qurban olum onun səsinə...

Şah. ...Mən ondan soruşdum: "bə sən mənə burda niyə kömək eləmədin? Üzünü məndən niyə çevirdin?" Səs dübarə belə dedi: "Gədə, sən nə görmüsən oralarda? Sən ki, öz işini görüb qurtarmısan... Gəl, gəl bura. Səni axı burda gözlirlər. Hamı səni sevənlər burdadı..."

Xızr. Allah, Allah...

Şah. Bu sözlərdən sonra tay mən burada qala bilmənəm. Məni bir daha soraq etməyəsən. Allah izin versə, indi özümü vururam savaşın isti yerinə, izim-tozum da qalmasın. Leş bir yana, baş bir yana. Sən isə... heç ehtiyat eləmə, mənim cəsədimi bələ tanıyan olmayacaq...

Xızr Lələyə tərəf gedir.

Xızr *(Lələyə).* Lələ, eşidirsən bunları? Qurban olduğum özü dedi bu sözləri. Mən nəkarəyəm, Lələ?!

Şah *(Xızra).* Gəl, orda sən nə axtarırsan? Yaxın gəl! Unutma! Bayaqkı həmlə zamanı at hürküb məni altına aldı. Düşmən daraşdı canıma dörd bir tərəfdən. Sultanəli Mirzə Əfşarı tanırsan. Əlində tək qılınc atından atıldı yerə, soxdu özünü bunların arasına, "Şah mənəm! Şah mənəm!" çığıra-çığıra

apardı bunları arxasınca, ta ki, mən nəfəs aldım və ayağa durdum, yoxsa... Əgər düşmən əlindən qurtulsa, ona layiqli ənam ver. Səni... xilas etdi. Zülqədərin də ki indi eşitdin, cəzasını özün verərsən, inşallah.

Xızr (Lələyə *yaxın gedir).* Eşit. Eşit. Mən ona dedim: "Necə yəni, səni xilas etdi, necə yəni Zülqədərin cəzasını özün verərsən? Mən heç zad anlamıram".

Lələ. Qurban olduğum, mürşidi-kamilim... Mən, mən niyə ölmədim? Niyə? Niyə?..

Xızr *(Şaha tərəf dönür).* Pirim, mürşidim, necə yəni "səni xilas etdi?", necə yəni "Zülqədərin cəzasını özün verərsən?.." Mən ki heç bir şey anlamıram. Allah-taalaya həmd olsun, bu əməllərin hamısını savaşdan sonra sən özün yerinə yetirəcəksən, inşallah...

Şah. Sözümü kəsmə! Dediklərimi sırğa elə qalsın qulağında. Bu savaş ki var, artıq bitmişdir. Şahi-Mərdan üzünü çöndərdi məndən, indi də məni yanına istir. Cavab istəyəcək, cavab. Mən ona nə deyəcəyəm?! Bir böyük günahım olmuşdur, əlbəttə. Zamanımız azdı, çıxar üstəki libasını!

Xızr üstəki libasını bir anda xələt kimi soyunur,
onun altdakı geyimi eynən Şahın döyüş geyimindəndi.

Şah. Belə *(diqqətlə Xızrı süzür).* Əsl mənəm ki durmusan. Sabah məmləkət olacaq səninki. Yox, danışma, sus!.. Dedim axı, kəsmə sözümü, gədə! (*Yumşaq.*) Kəsmə sözümü, Şahim...

Xızr *(qaçır Lələnin yanına).* Mən ona dedim, "biz kimi aldadırıq, qurban olduğum?" *(Təzədən qaçır gəlir Şahın yanına)* Biz kimi aldadırıq, Şahim?!

Şah *(Xızra).* Biz bir kimsəni aldatmırıq ki...

Xızr (*Lələyə).* Buyur, qulaq ver, diqqətlə dinlə.

Şah. ... Batinin bir mənası yoxmuş, əsl məsələ zahirdə imiş. Saxla bunu da huşunda.

Xızr *(Şaha yaxın gəlir).* Mən qorxuram. Eşidirsən, mən qorxuram!

Şah (*məyus).* Qorxma. Heç qorxma. Əsl qorxmaq məqamı gələndə qorxmağa macal tapılmaz. Bu isə o məqam deyil.

Eşikdən səslər bərkiyir. 1-ci Qorçu elə qapı ağzından.

Qorçu *(tələsik).* Şahim, qurban olduğum, gəl, qoşun sındı, biz səni gözlirik, aradan çıxmaq vaxtıdı *(yox olur).*

Şah (*qışqırır).* Gəlirəm, gədə. Allah xətrinə, dözün bir ləhzə! *(Xızra)* Görürsən, mən bu boyda məmləkəti fəlakətdən saxlaya bilmədim. Vaxt yetişdi. Mən aradan çıxıram.

Xızr. Lələ, bəs o... o *(əli ilə Lələnі göstərir)* necə olsun?

Lələ. Allah öldür, məni, Allah, ver mənim cəzamı...

Şah (*Lələyə yaxınlaşır, diqqətlə ona baxır, görmür).* Lələ... Lələ... Lələ etibarını sonadək saxladı. Yoxdu Lələ. Həlak oldu. Yeri behiştdi, inşallah *(yenə səhnə önünə qayıdır).*

Lələ. Yox, sadağa olduğum. Yox, qurban olduğum. Pirim, mürşidim, yox!!!

Şahın ardınca Şaha tərəf gəlmək istəyir, amma gözəgörünməz bir divarı keçə bilmir, hıçqırıqla.

...əlim-ünüm sənə yetişmir, canım-gözüm, bircə Şahim, təkcə Şahım, igid Şahım... Allah, Allah, birliyin xatirinə... öldür... məni...

Şah *(Xızra).* Daha durma. Çıx qoşuna. De ki, geri çəkilmə təbillərini vursunlar. Bir kimsə səni tanımayacaq. Lələ öldü. Elə mən də... Get, get daha.

Şah cəld əyilib çadırın gözəgörünməz deşiyindən çıxır. Xızr heysiz gəlir yerdən sərilərək hələ də hıçqırtılar içində boğulan Lələnin yanına.

Xızr. Gördün, Lələ? Hər şey belə bitdi. Amma... yox, bir şeyi unutdum.

Xızrın unutduğu məqam bərpa edilir.

1-ci Qorçu *(içəri soxulur).* Şahim, Şahim, hardasan? Gəl.Gəl.

1-ci Oorçu Lələyə fikir vermədən zorla Xızrı aparmaq istəyir.

Xızr *(yenə dirçəlir, əvvəlki heysizlikdən əsər yoxdur).* Yox, dayan, dur. Hardadı Abdulla xan Ustaclı? Dev Sultan Rumlu hardadı? Abdulla xana xəbər yetişdimi? Şeypurçuları çağır, yığ, yığ bir yerə, bir yerə hamını. Həmləyə! Həmləyə! Son həmləyə!!

1-ci Qorçu. Şahim... Şahim. Beş-on nəfər bir biz qalmışıq. Hamı geri çəkildi. Sonra gec olacaq... Gəl bə...

1-ci Qorçu Xızrı zor ilə aparır. Xızr 1-ci Qorçu ilə çıxır və yenə də arxa tərəfdən daxil olub artıq bardaş qurub əyləşmiş Lələyə yanaşır.

Xızr *(üzünün tərini silə-silə).* Bax belə oldu, hər şey beləcənə bitdi. Lələ, vallah və billah, mürşidi-kamilimin ruhuna and olsun ki, həqiqət budu və indi artıq hər şey sənə əyan oldu. Özün ki gördün məni zor ilə apardılar çadırdan. Mənim zərrə qədərinə günahım bu işdə yoxumdu, biləsən. Mürşidimin ruhuna and olsun ki... Lələ!.. Eşidirsən məni? Bax, sənə deyirəm...

Lələ *(birdən ayağa qalxır. Şahla üzbəüz. Şah geri çəkilmək istəyir, səndələyir).* Mürşidinin ruhu sənə qənim olsun, gədə! On ildi, düz on ildi qurban olduğum dünyasını dəyişibdi, mənim xəbərim yox. Bütün bu illər idi ki, onun həsrəti məni qoruyub saxladı. On ildi, sən... şahsan, taxta çıxıbsan... Allah kaş ki, məni öldürəydi səni o xarabə kəndindən alıb saraya gətirdiyim yolda. İlan, sən bir ilanmışsan, gədə. Şaha bir bax. Sən ki, çoxdan ölməli idin... Al!

Son sözlərini deyə-deyə Lələ kəmərinin arasında gizlətdiyi qəməni çıxarıb Xızrın düz ürəyinə sancır.

Lələ. Al, məlun! Günahım yoxdu, deyirsən. Mənəm sənin günahın, mən.

Xızr *(yıxıla-yıxıla son sözlərini pıçıldayır).* Ah, Lələ, ah... Taclı xanım düz deyirmiş, yuxusu çin oldu... *(ölür).*

Lələ bir müddət Xızrın cəsədini süzür ayağı ilə cəsədi itələyib diqqətlə otağın ora-burasına göz gəzdirməyə başlayır. İnamla gedib yan tərəfdən asılmış yaşıl xəlini sərt hərəkətlə dartıb yerə salır. Divarda əlləyib bir nöqtə tapır, o nöqtəyə güc edib basır. Divar əvvəl Lələnin üstünə gəlir, sonra yana çəkilir və oradan gizlinə bir yol açılır. Lələ son dəfə divanxanaya nəzər salıb o yol ilə tələsik keçib yox olur. Divar yenidən öz yerini alır. Səhnədə işıq ancaq Xızrın cəsədi üzərində.

XVI VAQEƏ

Sakitlik qulaq deşir. İşıq ön planda dayanmış Həkimin üzərində.

Həkim. Bu nə qəribə sakitlikdi?! Nə oldu bunlara görən?! Səs-yox, səmir-yox.

Həkim keçir arxa tərəfə və artıq Vəzir kimi ehtiyatla qapını açıb əyilə-əyilə Şahın olduğu otağa daxil olur. Otaq işıqlanır. Vəzir əvvəlcə heç kimi görmür. Birdən gözü Şahın nəşinə sataşır, çaşıb qalır.

Vəzir *(özünü nəşin üstünə atır).* Şahim, Şahim noldu, kim qıydı sənə, ah... Kim? Kim?

Vəzir hövlnak otağı nəzərdən keçirir: Yerdəki yaşıl xalçaya, boş qalmış divara diqqətlə baxır, əlini divara sürtmək istəyir, amma sürtmür, qapını açır, yüzbaşını səsləyir. Yüzbaşı Rəhim daxil olur. Meyiti görüb diz üstə düşür.

Vəzir *(ucadan).* Yüzbaşı, yüzbaşı, gəl, gəl bura, bir bax, nə oldu?! Şah əldən getdi. Bismillahi-rəhmani-rəhim, bismillahi-rəhmani-rəhim...

Vəzir otaqda var-gəl etməyə başlayır. Rəhim yüzbaşı cəsədin yanında dizi üstə donuq. Vəzir qəfildən onun önündə dayanır.

Vəzir. Yüzbaşı! Başqa bir şəxs girmiş idi bu otağa?! Sənə demişdim axı, bir kənar şəxs içəri girməsin, Şah rahatsızdı. Kim olub burda?

Rəhim yüzbaşı. Burda? Heç bir başqa şəxs ki içəri girmədi... Amma...

Vəzir. Nə əmma?

Rəhim yüzbaşı. Şah tək deyildi axı...

Vəzir *(ucadan).* Bismillahi-rəhmani rəhim... Bismillahi-rəhmani-rəhim... *(Var-gəl edir.)*

Rəhim yüzbaşı. Şahın yanında bir şəxs olmalı idi... Bir şəxs var idi. Hüseyn bəy Lələ. Əlbəttə ki, Hüseyn bəy Lələ. O idi Şahın yanında. Bə bu hara yox oldu?..

Vəzir *(dayanır).* Nəmənə? Sənin əqlinmi çaşdı, gədə?! Burda bizdən savayı adammı var?! Qapı – bir, pəncərə – bir, dəmir çərçivəli... Hüseyn bəy Lələ hələ kimdi? Bəli, bəli, keçmişdə bir beləsi var idi. Vaxtilə Şahımızın Lələsi olmuşdu. Hörmətli zat idi. Çaldıran eşitmisən yəqin. O Lələ Çaldıranda şəhid oldu. Qorçubaşılıq da etmişdi bir müddət. Nüfuzu, hünəri... Hüseyn bəy Lələ hələ hardan gəldi girdi sənin əqlinə?! Gözümə birtəhər dəyirsən?!

Rəhim yüzbaşı *(nəhayət, özünə gəlir).* Vallah və billah, mən ki bir şey anlamıram. O bir olan Allaha and olsun ki, inan mənə, Vəzir ağa, doğru

sözümdü, mən dəxi heç bir şey anlamıram. Bu otaqda nəsə baş verirdi, nəsə səslər gəlirdi, çatırdı qulağıma, hay-küy var idi... Qəribə səslər idi, bir səsi atamın səsinə oxşatdım. "Şahim! Şahim, sağ cinah!" atam tələş içində qışqırırdı. Əlbəttə ki, atamın səsi idi. Amma atam ki mənim, Çaldıranda həlak olubdur, özü də bayraqdar idi. Onun cinahda nə işi vardı?! Anlamıram.

Vəzir *(hövsələsiz və düşkün).* Yaxşı bəsdi daha, sən çıx burdan, meyit olan yerdə çox durmazlar. Yığ camaatı. Hamını çağır, gəlsinlər divanxana həyətinə. Bu pəncərəni aç görək hələ.

Rəhim yüzbaşı pəncərəni açır. Çərçivəni çıxara bilmir.

Rəhim yüzbaşı. Çərçivə çıxmır ki.

Vəzir. Çıxmır, sındır! Şahi-Mərdan xətrinə, cəld ol! Belə.

Rəhim yüzbaşı çərçivəni zor-güc çıxarıb bir tərəfə atır. Çöldən içəri uğultu gəlir.

Vəzir. Duyuq düşüblər... Tələs, get hamını yığ pəncərənin altına. Yox, dayan! Hələ bir bura dur.

Vəzir yüzbaşı ilə bahəm cəsədə yaxınlaşır. Vəzir əlini cəsədin köksünə atıb qəməni birdəfəyə çıxarır, qanını yerdəki xəliyə sürtür, sonra qəməni yüzbaşıya verir.

Rəhim yüzbaşı. Bu hələ nədi? Niyə sən mənə verirsən bu qəməni?

Vəzir (*müdhiş bir pıçıltıyla).* Gizlət bunu itir! Gərəkdir hamı Şahın xəstəlikdən öldüyünü bilsin. Heç bir vədə Şaha əl qaldırmaq, Şahı qətlə yetirmək olmaz. Günahdır. Allaha xoş getməz. Olmaz. Xəstə idi, ruhunu tapşırdı. Burda da heç kim, eşidirsən, yüzbaşı, heç kim olmayıb. Anladın, gədə?! Heç kim. Heç vədə. Burda kimsə oldu?

Rəhim yüzbaşı. Heç kim Vəzir ağa. Heç kim olmadı! Heç vədə.

Vəzir. Di get, camaatı yığ pəncərənin altına. Hamı, hamı gəlsin. Şeyxlər, müridlər, qorçular, dərvişlər, seyidlər, hamı... Durma daha, çıx.

Rəhim yüzbaşı *(qəfildən hönkürür).* Şahim, pirim, mürşidim... qurban olduğum...

Vəzir onu qucaqlayıb bayıra ötürür. Sonra qayıdıb cəsədin önündə durur.

Vəzir *(cəsədin önündə).* Bismillahi-rəhmani rəhim... Əlhəmdülillah-rəbbül-aləmin... *(tez yekunlaşır)* Allah rəhmət eləsin.

Vəzir pəncərəyə yanaşır. Aşağıdan gələn uğultu yavaş-yavaş iniltiyə, zarıltıya, ağlaşmya dönür.

Səslər. Pirim, mürşidim!.. Sadağa olduğum, vay... qurban olduğum, vay... Noldu? Noldu sənə gözəl Şahım, igid Şahım?!.

Vəzir *(bir qədər dinlədikdən sonra).* Ya Allahın adı! *(Başını çıxarıb pəncərədən həyətə qışgırır)* Camaaat!! *(həyətdə sakitlik)* Camaat! Evimiz yıxıldı. Nəsibimiz ahü-zar oldu, tifaqımız dağıldı... *(rəsmi səslə)* Eşidin! Matəm tutulsun. Məmləkət yasa batsın. Salın aşağı bayraqları! Pirimiz, mürşidi-kamilimiz, sadağa olduğumuz qüdrətli hökmdar Şah İsmayıl ibn Heydər, ibn Cüneyd, ibn Şeyx Səfiəddin bu gün hicri 930-cu ilin rəcəb ayının 27-də birdən və qəflətən bizləri və fani dünyanı tərk edib Şahi-Mərdanın himayəsi altında öz mübarək qədəmləri ilə cənnət-məkana daxil oldular. Dərdimiz sonsuzdur. Əməlləri əbədi yaşayacaq. Özünə o bir olan Allah-taala qəni-qəni rəhmət etsin...

"Ah, aman" səsləri asimana ucalır, fəryad zarıltıya, o da at kişnərtisinə qarışır. "Əziz Şahımız, yox, bizi yetim qoyma. Qayıt, qayıt geri. Haralara uçub getdin, mürşidi-kamilim? Qurban olduğum..." səsləri.

Vəzir *(birdən hönkürtü vurub pəncərə önündən çəkilir, Şahın cəsədi önündə taqətsiz diz çökür).* Niyə, niyə axı, nə üçün, Lələ, nə üçün?

XVII VAQEƏ

Səhnənin önündə Professor və Qız.
Son dərəcə sakitdirlər. İşıq ancaq onların üstündə,
arxada qatı qaranlıq.

Professor. Şah və şair! İsmayıl və Xızr. Batinlə zahirin qovuşması həqiqətdə bax bu cürə baş verdi. Hər işimizi, deyirik və təskinlik tapırıq ki, Allah-taala idarə edir, taleyimiz əvvəlcədən alnımıza yazılıb. Bəs nə üçün o zaman yer üzündə ədalətli əməllərlə bahəm ədalətsizliklər də baş verir, nə üçün? Allah niyə bu əksliklәri bir harmoniyada birləşdirmir? Cavab sadədən sadədir. "Sirlərin sərgüzəşti"ndən sonra mənə agah oldu ki, Allah üçün dünyamızda baş verənlərin yaxşı ya pis, yaxşı əməl, ya pis əməl olmasının heç bir fərqi yoxdur. Yoxdur. O bunların sadəcə fərqinə varmır. Əslində, belə yaxşıdı. Belə daha düzdü.

Qız. O zaman bizim yaxşı və ya pis olmağımızın bir mənası varmı?

Professor. Var. Vardır, əlbət. Bizim özümüz üçün mənası vardır. Mən də, sən də hər şeydən əvvəl özümüz üçün yaranmışıq, yaşayırıq. Belə. Daha qorxmursan, eləmi? Qorxma. Biz sənlə həqiqət nədir – artıq bilirik. Hacı Mir Həsən ağa Səy-

yah, budur, belə yazır. “Sirlərin sərgüzəşti”, səhifə 950. Aşağıdan üçüncü sətir: “Bir gün Şah ova çıxdı. Ovda halı qəflətən xarablaşdı. Harasının, hansı əzasının ona zərər verdiyini heç kimə anlatmaq istəmədi. Ovu yarımçıq qoyub qayıtdı saraya. Divanxanaya getmək vaxtı Taclı xanımı yanına istədi. Taclı xanım gəldi. Şahla ikisi bir ara tək qaldılar. Taclı xanım Şaha gecə pis yuxu gördüyünü söyləyib təvəqqe etdi ki, bu gün yataqdan durmasın. Nə illah elədi, olmadı. Şah yataqdan bir təhər qalxıb divanxanaya gəldi və çox keçməmiş orada ruhunu tapşırdı. Saray qorçularından biri deyirmiş ki, ölümündən az əvvəl özünü Hüseyn bəy adlandıran bir şəxs Şahın hüzuruna gəlibmiş. Sonra bu şəxsi bir daha heç kim görməyib. Hüseyn bəy ilim-ilim itib. Şah öləndən bir ay sonra Taclı xanım dərddən dözməyib o da öldü”. Vəssalam. Qızım, sənə soyuq deyil ki? Bəlkə gedək?! Elə bil, titrəyirsən...

Səda peyda olur və öz musiqili ifasında yenə həmişəki sözlərini deyir: “Mən öz üfüqümə çatdım bu səhər...” Bu artıq adamı yavaş-yavaş əsəbiləşdirməyə başlayır.

Qız. Elədi, daha qorxmuram, amma üşüyürəm *(boylanır).* Yaxşı, bəs bunlar hara itdilər? Elə

bil, heç yox imişlər?! Mən heç kimi daha görmürəm. Sən görürsən?

Professor. Mən də heç kimi görmürəm. Görmək də istəmirəm. Bəlkə bəsdi, burdan gedək?! Gəl çıxıb gedək! Amma... dur hələ...

EPİLOQ

Professor və Qız getməyə hazırlaşan yerdə arxa tərəfdə zəif işıq yanır. Şah, Xızr, Lələ xəyal kimidilər. Bağçada quş cikkiltisi. Şah və Xızr şahmat oynayırlar.
Şah başını qaldırıb diqqətlə harasa baxır. O baxdığı yerdə Səda görünür. Səda da tikənliyin içindədi.

Şah. Lələ, gör bir hələ, o quşcuğazı görürsən, yenə tikənliyə ilişdi. Get, get onu tikənlikdən çıxar, azad elə, uçub getsin, zavallı zülm çəkməsin...

Lələ. Baş üstə, qurban olduğum.

Lələ gedir və tez də qayıdır, ovcunda guya quş tutub. Əlini açıb quşu guya göyə buraxır. Səda da quşun dalıyca guya uçan kimidir.

Lələ. Uç... Uç, Allahın yaratdığı. Azad oldun. Uç...

Sevincli bir cikkiltiylə quş uçub gedir.

Xızr *(qalxır, quşun dalıyca baxa-baxa).* Mərhəmətinə şükür, Şahim. Gör necə şövqlə pərvaz edir. Sən onu xoşbəxt etdin.

Şah *(qalxır, başını qaldırıb göydə quşu axtarır).* Zavallı, zavallı...

Xızr *(gülərək göyə baxır).* Xoşbəxt...

Şah *(kədərlə göyə baxır).* Zavallı...

Xızr. Xoşbəxt...

Şah. Zavallı...

İldırım çaxır və yağış yağmağa başlayır. Şah və Xızr hər ikisi yağışın altında boyunlarını büküb fırlana-fırlana guya göydə uçan quşun arxasınca baxırlar. Səda ki quşun dalıyca uça bilmədi, indi sakitcə bir küncdə əyləşib pərişan bir halda dizlərini qucaqlayıb.

Lələ. Dərgahına şükür, Xudaya. Sən özün, Şahi-Mərdan xətrinə, sən özün qoru bizləri bədnəzərdən...

İşıq Şahın üstündə. Arxa tərəfdə işıq zəifləyir. Səslər artıq güclə eşidilir. Amma ildırım ikinci dəfə çaxır. Hər yer yenə qəfil nura bürünür. Elə buradaca hər şeyi bitirmək də olardı. Və bəlkə heç bu son sözlərə ehtiyac da yoxdur. İşıq səhnə önündə Professorun və Qızın üzərində. Yağış artıq bura da yağır.

Qız *(səhnənin arxa tərəfinə baxa-baxa).* Mən elə bilirdim, hamı çıxıb gedib. Amma... Bunlara hələ bax. Elə bil, balaca uşaqdılar. Bu cür yağışın altında... gör bir necə ürəkdən, elə bil, rəqs edirlər.

Professor. Elədi, bunlar, həqiqətən, balaca uşaq kimidirlər *(O da Qız baxan tərəfə baxır, baxır).* Gedək, qızım, islanacağıq. Allah özü bədnəzərdən qorusun. Amin!.. *(getməyə başlayırlar).*

İşıq tamam sönür. Yağış səsləri. Yağış hər şeyi yuyub aparır. Sözləri də, hərəkətləri də, yüz illər əvvəli də, bu günü də. Bütün səhnə qaranlığa bürünür. Arxada bir-birində əriyən, zəifləyən və yox olan səslər zor-güc də olsa bizə çatır: "Hamı... Hamı... Səni sevənlər... sevənlər... burdadı... burdadı..."

SON

Sirr nə vaxtsa açılacaq sirdisə,
Heç əvvəldən yaranmayıb sirr kimi
“Sərvətnamə”



(yarı mistik, yarı real oyun)

İŞTİRAK EDİRLƏR:

Dədə Qorqud
Qazan Xan
Burla Xatun
Boğazca Fatma
Beyrək
Aruz Qoca
Şirşəmsəddin
Bəkil

I ŞƏKİL

Salur Qazanın evi. Bayırdan səslər gəlir: Tez olun, tez olun... Bəylər gəldi. İndi Qazan evdən çıxacaq. Tez olun. Yavaş, ora yox, bu zəhrimar qara çadırı bura tik. Cəld ol. Tələs... Gəldilər... Ağ çadırı ora, ora. Qazan var-gəl edir. Şirşəmsəddin girir.

Şirşəmsəddin. Xanım, bir azdan bəylər hamısı cəm olacaqlar. Hamısı deyəndə ki, İç Oğuz, necə ki, əvvəldən şərtləşmişdik. Ağ çadır hazır, qara çadır, andıra qalsın – hazır...

Qazan. Dış Oğuzdan nə xəbər? Duyuq düşüblər, ya necə?

Şirşəmsəddin. Sakitlikdi. Bir xəbər yoxdu hələ ki. Bunun zırıltısı sonra çıxacaq, xanım.

Qazan. Çıxacaq, əlbəttə çıxacaq. Əvvəl-axır biz bunları oturtmalıyıq yerlərinə. Nə olur olsun. Necə demişdi?! Olacağa çarə yoxdu. Olacağa çarə yoxdu. Sözdə gözəlliyə bax. Altun kimi deyib.

Şirşəmsəddin. Dədə bu gün bir söz daha dedi...

Qazan. Bir söz daha?

Şirşəmsəddin. Bəli, xanım. Özü də necə söz...

Qazan. Nə idi o söz? Mən niyə bilmirəm bunu?

Şirşəmsəddin. İstidən istidi, xanım, əcəldən dedi, fani dünyadan dedi nəydi, qoy görüm... Əcəl aldı... Təzədi, unutmuşam.

Qazan. Əcəl aldı?

Şirşəmsəddin. Əcəl aldı, bəli, əcəl aldı, yer gizlədi...

Qazan. Əcəl aldı, yer gizlədi?..

Şirşəmsəddin. Əcəl aldı, yer gizlədi, fani dünya... qoy görüm, fani dünya nə oldu – yenə... qaldı. Bəli. Uff. Əcəl aldı yer gizlədi, fani dünya yenə qaldı.

Qazan. Pah, pah, bir də pah. Hardan tapır çıxardır bu sözləri? Tanrısına şükürlər olsun. Necə deyib? Əcəl aldı yer... neylədi yer?

Şirşəmsəddin. Gizlədi.

Qazan. Fani dünya yenə qaldı. Tanrısına şükürlər. Dış Oğuza yayın bu sözləri. İbrət dərsi götürsünlər özləri üçün. Hamımızı alacaq bu əcəl, hamımızı. Amma Oğuz qalacaq.

Şirşəmsəddin. Bəli, xanım, elədi.

Qazan. Bir bax gör, tamam cəm oldu İç Oğuz, ya yox...

Şirşəmsəddin. Bir Beyrək qalmışdı. Gəlib çıxar o da yəqin... bir baxım *(çıxır)*.

Qazan. Hər şey əbəsdi. Əbəsdi. Nə etdin, etmədin hamısı – əfsanə. Son ucu bir ölümün üstün-

dədi. Qalan fani dünyadı, qalır. Əcəl aldı, yer gizlədi. Fani dünya yenə qaldı. Nə qədər dərin... Nə qədər gözəl...

Şirşəmsəddin *(O gəlir).* Xanım Qazan. Hamı cəm olub. Beyrək də gəlib çıxdı. Amma deyir, mən yağmadan əvvəl Qazan Xanla təkbətək görüşməliyəm. Vacib sözü varmış.

Qazan. Dış Oğuzdan bir xəbər yoxdu?

Şirşəmsəddin. Yoxdu, ağam, sakitlikdi.

Qazan. Nəyi sakitlikdi bunun? Belə. Yaxşı. Beyrək də gəldi – deyirsən. Nə istəyir? Təklikdə nə işi varmış mənimlə?

Şirşəmsəddin. Mənə demədi. Amma əhvalı dalğındı.

Qazan. Belə. Yaxşı. Get de, gəlsin. Yox, dayan. Deyirsən, əhvalı necədi?

Şirşəmsəddin. Bir balaca... Nəsə... belə birtəhərdi.

Qazan. Gəlsin. Amma tez. Çağır. Gün təpədən aşdı daha. Bəylərin dilində söz olmayaq. İldə bir dəfə yağma elə, o da belə.

Şirşəmsəddin çıxır. Beyrək gəlir.

Qazan. Xoş gəldin, Beyrək. Səni gördüm, sevindim.

Beyrək. *(diz çökmək istəyir)* Xoş bulduq, ağam Qazan. Uca-uca dağların...

Qazan. *(onu diz çökməyə qoymur)* Onları saxla. Nə var, nə yox? Haralardasan, qoçağım? Deyirlər, İç Oğuzdan vurursan, Dış Oğuzdan çıxırsan. Belə çıxır – sən həm oranınsan, həm də buranın? Aha, gözünü qaçırdı. Gözünü qaçırma, sən bilirəm, bizdənsən. Amma o biri tərəfin də belə də... lax çıxıb. Arvad tərəfini deyirəm. Arvad tərəfində nə var, nə yox?

Beyrək. Dış Oğuzdan xəbərim yoxdu.

Qazan. Xəbərin yoxdu? Dış Oğuzu bu dəfə yağmaya çağırmadım.

Beyrək. Münasibətsizlik olmasın, ağam Qazan.

Qazan. Xeyr, elə deyil. Deyirəm, hələ bir bunları sınayaq, görək. İçlərini açıb qoysunlar ortalığa, deyirəm. Sən necə bilirsən?! Sınayaq bunları?

Beyrək. Sınaq məqamına mərd gərək. Aruz Qocanı, ağam Qazan, nə sınamaq, nə sınamamaq. Həmən at ağızlı qocadı...

Qazan. Doğrudu, doğrudu. Elədi. Necə dedin – sınaq məqamına mərd gərək? Dədənin sözüdü?

Beyrək. Yox, xanım, öz sözümdü, elə-belə indicə dedim.

Qazan. Dədəlik edirsən? Niyyət var?

Beyrək. Yox, niyə ki. Mən hara, niyyət hara?! Amma Aruz sənin dayındı, hamıdan yaxşı sən tanıyırsan onu. Mərdliyi də, namərdliyi də öncə sənə bəllidi. Çox sirriçində adamdı, çox, biləsən.

Qazan. Sən yox idin, Bayburd həbsindəydin. Ova çıxırdıq. Uzun, ağır səfər idi. Hamının yanında qırmızı-qırmızı mənə "Ordun üstünə kimi qoyub gedirsən?" sordu və diqqətlə gözümün içinə baxdı. Qardaşım Qaragünəni dedim. Baxışını çöndərdi. Amma mən də duyuq düşdüm. Çöndü Aruz. O zamandan İç Oğuzdan çöndü. Dış Oğuz bəyləri də ki aydındı, onun sözünü tutacaqlar. Belə-belə işlər. Sözün varmış mənə. De görüm nə deyirsən, qocağım Beyrək. Səni eşidirəm. Amma, sən allahın, tez elə...

Beyrək. Xanım Qazan. Oğuzda casus var.

Qazan. Necə? Necə? Oğuzda casus var???

Beyrək. Bəli, Oğuzda casus var.

Qazan. Şayiədi. Sən bir Şirşəmsəddinə de. Amma bilirsənmi, indi sənin gözünə hər yerdə casus görünər.

Beyrək. Ağam Qazan. Bu sirri mənə hələ Bayburd hasarında açıb dedilər. Əvvəl-əvvəl inanmadım. Düşmən sözüdü, dedim. Sonra gördüm yox, həqiqətdi bu söz.

Qazan. Həqiqətdisə, acıdı bu həqiqət. Dedilərmi, kimdi casus? Bəlkə, səni boşuna başdan eləyiblər?! Əşi, şayiədi, deyirəm sənə, özü də yekəsindən. Oğuzda casus...

Beyrək. Ağam Qazan, sən səfərə çıxdın. Düşmən bildi. Yurdunu, yuvanı tarmar elədi. Elədieləmədi? Arvadını, oğlunu, ananı, evini-eşiyini...

Qazan. Şirşəmsəddin!

Şirşəmsəddin gəlir.

Beyrək. Dayan. Ağam Qazan...

Qazan. Şirşəmsəddin, bəylərə de, yağmanı başlasınlar. De ki, kim nə istəyir, bu evdən alıb gedə bilər. Mənim malım, dövlətim, altunum, axçam Oğuzundu, mənim deyil. Ana südü kimi hər şeyim halaldı Oğuza. Mən ləngiyirəm.

Şirşəmsəddin. Baş üstünə. Xanım Beyrək?

Beyrək. Mənə Qazanın malı-mülkü lazım deyil. Bir canım var, o da ona qurbandı. O daş qoyan yerə mən baş qoyaram. Ölümə göndərsə, getməsəm... Mən bunu hər yerdə demişəm, deyirəm, deyəcəyəm.

Qazan. Beyrək, Beyrək, yavaş, hövsələ olsun. Şirşəmsəddin, sən get. Beyrəklə mənim söhbətim

var. Bəylərə de ki, yemək-içməyə biz də sonra qoşulacağıq.

Şirşəmsəddin. Ağam, vallah, mənə də heç nə lazım deyil. Biləsən ki...

Qazan. Şirşəmsəddin. Sən də bu biri yandan öldürmə məni. Get, bəylərə de, yağmanı başlayın. Eşitdin?

Şirşəmsəddin. Bəli ağam, bəli eşitdim *(çıxır).*

Qazan. Belə-belə işlər. Ov səfəri deyirsən. Bu, bir. Sənin toyun – iki. Oğlum Uruzun səfəri – üç. Yeynək – dörd...

Beyrək. Bəkilin atdan yıxılması, ayağının sınması...

Qazan. Bəkilin başına gələnlər... Oğuzda casus var, Beyrək. Bilirmisən? Bütün bunları düşmənə xəbər verən var.

Beyrək. Doğru buyurursan, ağam Qazan, çox doğru buyurursan. Sənin uzaqgörənliyin bir məndə olaydı.

Qazan. Ax, məlun oğlu məlun. Ax binamus. Of şərəfsiz. Alçaq. Kimdi o? Kimdi o, Beyrək, de mənə, söylə. Kimdi casus? Nə dedilər sənə Bayburdda? Kimdi bizi düşmənə satan, yurdumuzu-yuvamızı altuna dəyişən o tanrı qəzəbinə gəlmiş kimdi, kim? Oğuzda casus var. Oğuzda casus var...

Kimin ağlına gələrdi? Amma mən özüm də son zamanlar şübhələnirdim.

Beyrək. Nə deyim, vallah...

Qazan. Aydındı. Sən də Aruzdanmı şübhəlisən? Doğrusunu söylə. Hansı əməlini gördün, şübhələndin? Söylə.

Beyrək. Belə özünü birtəhər aparır. Qazan kimdi deyir. Bizim alplığımız ondan geri qalmır deyir.

Qazan. Bilirəm, bilirəm. Deyir, deyir... Bu tövr sözlərlə o biri bəylərin də beynini doldurub. Elə onunçün də bu gün yağmada Dış Oğuz yoxdur. Anladın? Bəlli bil elə bilirsən, mənə xəbər vermirlər bunları?

Beyrək. Bəli, ağam, sənin bilmədiyin nə qaldı ki?!

Qazan. Bəli, elədi, heç şübhən olmasın. Amma, Beyrək. Aruz nə zibil olsa da, nə olmasa da... Aruz casusluq eləməz. Casus təkcə İç Oğuzu casuslamadı. Casus Dış Oğuzu da yer-yer casusladı. Elə deyilmi?

Beyrək. Bəli, elədi. Allah, sən bunun əqlinə bax.

Qazan. Necə? Eləmi? Hə. Aruzun günahı başqadı, Beyrək. Aruz asidi, amma Aruz casus deyil. Gəl, belə edək. Deyirəm, Dədəyə adam göndərək.

O gəlsin, desin, kimdi casus, kim deyil, ondan yaxşı bunu bilməz heç kim. Məsələ də bitsin. Nə deyirsən? Bir-iki... bizimki.

Beyrək. Bəli, xanım. Ondan yaxşı heç kim bilməz. Nə ağıllı qərardı. Bir-iki – vəssəlam. Ağam qazan, sən bir başqa aləmsən.

Qazan. Beyrək! Vallah, yoruldum Oğuzun müşkülünü çözməkdən. Ad da çıxır Dədəyə. Mənim bəxtim belədir. Yaxşı. Bunlar sonra. Gedək, gedək görək, indi bizim bu fani dünyada nəyimiz qaldı, nəyimiz getdi. Biz gedəriyik. Torpağınkıyıq. Əcəl aldı, yer gizlədi. Fani dünya yenə qaldı. Sən mən bayaq deyəni ürəyinə salma. Əlbəttə ki, ən böyük mükafat Dədənin mükafatıdı. Görürsən, necə gözəl deyib. Əcəl aldı deyib, yer gizlədi deyib. Fani dünya yenə qaldı. Gözəldi? Gözəldi. Gedək, Beyrək, gedək. Əcəl aldı, yer gizlədi... Deyirsən, casus var?! Casus... Nolar, qoy olsun. Biz də varıq. Biz göstərərik zərb-dəstimizi Oğuzun düşmənlərinə. Amma öncə içimizdən olan düşmənlərlə çürüdək haqq-hesabı deyirəm, hə? Düşmən öz içimizdəymiş bizim. Casus!.. Baltanı bizə özümüzünkü vurur. Casus var imiş... Yox bir... Olsun, olsun.

Gedirlər.

II ŞƏKİL

Qazan və Şirşəmsəddin.

Qazan. Getdilər?

Şirşəmsəddin. Getdilər, bəyim.

Qazan. Razımı getdilər? Gözləri doydu heç olmasa?

Şirşəmsəddin. Razı getdilər, bəyim, çox razı getdilər. Niyə də razı getməsinlər? İnanmıram, gözləri doya… amma… Nəyə gücləri çatdı, apardılar. O bir olan Allah səndən də razı qalsın. Mən, ağam – heç zad, heç nə... Biləsən.

Qazan. Beyrəyi çağır. Özün də gəl. Səni tanımıram?!

Şirşəmsəddin. Sağ ol, ağam. Baş üstünə ağam *(çıxır).*

Qazan. Bu casus məsələsi hər nədisə boşuna söz deyil. Əlbəttə bir əncamı gərəkdir. Belə. Deməli, Oğuzda casus var. Hər şey gözlərdim bu Oğuzdan, bircə bunu... Mənim elədiklərimin mükafatı buymuş. Çatar cəzasına, çatar, Allahıma qurban olum.

Şirşəmsəddin və Beyrək gəlirlər.

Qazan. Gəlin. İkiniz də keçin əyləşin. *(Beyrək və Şirşəmsəddin keçib otururlar)* Söhbətimiz uzun çəkəcək. Şirşəmsəddin.

Şirşəmsəddin. Bəli, ağam *(qalxır).*

Qazan. Otur, otur. Bilirsənmi, Beyrək mənə nələr dedi?

Şirşəmsəddin. Bilmirəm, ağam. Mənə demədi.

Qazan. Sənə də mən deyirəm. Oğuzda casus var.

Şirşəmsəddin. Necə, necə?

Beyrək. Bəli, bəli, elədi.

Qazan. Oğuzda casus var, Şirşəmsəddin. Bəs sənin gözlərin hara baxır? Sən nə işin sahibisən?

Şirşəmsəddin. Casus? Bizim aramızda? Oğuzda casus? Mat-məəttəl qalası işdi, vallah. Tay nə deyim?!

Beyrək. Bəli, bəli, elədi.

Qazan. Tay nə deyəcəksən? Sən nə işin sahibisən? Sən mənə gəlib bu xəbəri verməkdən Beyrək verir. Mənim çörəyimi yeyirsən. Mənim qulluğumdasan. Bu da sənin gördüyün iş.

Şirşəmsəddin. Ağam Qazan. Vallah, billah, and olsun Tanrının birliyinə, and olsun Bayandır xanın o əziz canına, and olsun sənin qara başına, and olsun Dədə Qorqudun müqəddəs sözünə... xəbə-

rim olmayıb. Bəlkə şayiədi? Düşmən yayır?.. Təxribat üçün deyirəm.

Qazan. Şayiə-filan deyil. Dürüst sözdü. Beyrək, danış.

Beyrək. Ağam Qazan. Bayburdda olduğum zaman bu casus məsələsini ilk dəfə orda eşitdim. Bayburd bəyinin bir məhbub qızı vardı, ayıb olmasın... yüngülvari... belə də... o mənə danışırdı, bəs bir gün Uruz bəy yoldaşları ilə kefə gedib, sərxoş olub yatıblar, bəs o biri gün Bəkil atdan düşüb ayağını sındırıb, bəs sonra Salur Qazan uzun səfərə çıxıb, yurd-yuvası başsız qalıb...

Qazan. Eşidirsənmi? Hər dəfəsində də atlı hücumlar, hər dəfəsində də çapıb-talamalar, yurdu daraq kimi daradılar məlunlar.

Şirşəmsəddin. Xəbər aparan kim imiş?

Beyrək. Bunu nə illah elədim, öyrənəmmədim. Ağlım yüz yerə getdi. Əvvəl-əvvəl fikir vermədim. Amma indi də Dış Oğuzun təhər-tövründən barmağımı dişlədim. Bu da casus işi olmasın dedim. Xanıma üz tutdum. Şübhələndimi, qoy özü yozsun.

Qazan. Mən yozdum. Bir. Şirşəmsəddin sənə deyirəm. Bir dəxi belə xəbəri mənə bir başqası gətirsə – özündən küsəcəksən.

Şirşəmsəddin. Baş üstünə, ağam Qazan. Baş üstünə.

Qazan. İki. Oğuzda casus var – kimdi – nə sən bilirsən, nə də... Beyrək. Kim bilə bilər? Bəlkə deyirəm... Dədə? Ehtiyac var onu çağıraq?! Gəlsin desin. Müəmma açandı deyirsiniz, nə deyirsiniz ona? Bu da müəmma. Gəlsin – açsın. Tap Dədəni.

Şirşəmsəddin. Dədəni? Onun yerini kim bilir, hardadı. Özü lazım biləndə gəlir, deyir dediyini, yenə qayıdıb çıxıb gedir, qeyb olur.

Beyrək. Bəli, bir az müşkül oldu bu iş...

Qazan. Siz mənsiz nə edərdiniz?! Şirşəmsəddin. Mənim tük qabımı yataq otağından gətir bura.

Şirşəmsəddin çıxır.

Beyrək. Bu nə tük qabıdı, ağam Qazan?

Qazan. Bu o tük qabıdı ki, mən əsirlikdən qurtulub geri dönəndən sonra dədəm Qorqud verdi mənə, dünyadı dedi, lazım olanda yandır, gəlim yanına dedi. İlk dəfədi yandıracağam onun tükünü. Yoxlayaq, görək gələcək bu?

Şirşəmsəddin gəlir.

Qazan. Ver bura. Belə, bu odu, bəri elə görüm. Uzun, ağ tükdü, indi yanacaq, görək bunun kəraməti nədi. Yaxına tut odu. Ya Allahın adı...

Şirşəmsəddin bir çubuq yandırır. Qazan əlindəki tükü oda verir. Ətrafı zülmət bürüyür. Yenə ətraf işıqlananda Dədə Qorqud onların yanında oturmuş.

Qazan. Dədə... yəni, sən həqqən gəldin?

Dədə Qorqud. Çağırdın, gəldim. İnanmırdın?

Beyrək. Mən... mən çox möcüzə görmüşdüm. Beləsində görməmişdim.

Şirşəmsəddin. Mən... Mən... Mən...

Qazan. Dədə, xoş gəldin, həmişə sən gələsən... *(gedib əlini öpür).* Bilirsənmi, Dədə, sənə *(pıçıltıyla)* ehtiyacım var. Olmasaydı, çağırmazdım. Xoş gəldin.

Dədə Qorqud. Əyləş, Qazan Xan.

Şirşəmsəddin. Xanım, mən çıxım?

Beyrək. Bəlkə biz bayırda gözləyək, ağam Qazan?!

Qazan. Dədə?

Dədə Qorqud. Yox, niyə? Qoy onlar da yaxına gəlsin. Oturun. Sən Beyrək deyilsənmi? *(Beyrək baş əyib Dədənin əlin öpür)* Beyrəksən sən. Bey-

rək... Sən Qanturalı, yox, Basat, yox, Şirşəmsəddin, sənsən? Lap qocalıb getmişəm.

Şirşəmsəddin. Mənəm dədə, mənəm. Allahına qurban olum *(çöməlib Dədənin əlini öpür)*. Sən niyə qocalırsan, lap cavansan, cavandan cavansan.

Qazan. Yaxşı, qoyun görək nə deyib nə qoyuruq. Səni niyə rahatsız edib çağırdım, bilirsənmi, Dədə?!

Dədə Qorqud. Bilirəm, Qazan xan. Bilirəm. Oğuzda casus var.

Qazan. Hardan bildin? Hamı bilirmiş ki bunu, bir mən bilmirdim deməli. Necə acı xəbərdi bu, Dədə? İndi biz nə edək? Kimdən şübhələnək? Kimi tutaq? Biz bilmirik. Sən söylə. Sənin könlünə Həqtəala ilham edir. Sən qaibdən xəbərlər gətirirsən. Sən olacaqdan, olmayacaqdan danışırsan. Sən sözləri altın kimi yan-yana düzüb bizim könlümüzü xoş edirsən. Sən... sən... yaxşı mən bunu ilk dəfədi deyirəm: sən bizim pənahımızsan, Dədə. Acı xəbərdi bu xəbər.

Dədə Qorqud. Bəli, elədi, acı xəbərdi. Oğuza yaraşan xəbər deyil. Onun təmizliyinə ləkədi. Doğru sözə nə deyəsən, xəbər acıdı...

Qazan. Dədə, kimdi casus? Bunu səndən başqa heç kəs deyə bilməz.

Dədə Qorqud. Sən soruşursan kimdi casus?

Beyrək. Bəli, dədə. Ağam Qazan çox doğru qoyur məsələni. Kimdi casus?

Şirşəmsəddin. Kimdi casus? Vəziyyət ciddidi, Dədə.

Dədə Qorqud. Kimdi casus deyirsiz... Qorxuram, kimliyini biləndən sonra rahatlığınızı elə itirəsiz, kaş əvvəldən bilməyəydik deyəsiz.

Qazan. Yox, Dədə, elə söhbət yoxdu. Bax, deyirəm, biz bunu indi bilməliyik. Bir daha Oğuzun başına bəlalar gəlməsin. Oğuzun gələcəyi... Özün bilirsən də... Söylə bizə, Dədə, sən söylə...

Dədə Qorqud. Lap divara dirədin məni, Qazan. Nolar, qoy sən deyən olsun. Dinlə o zaman. Oğuzda Boğazca Fatma deyilən bir arvad var. Siz onu bilirsiniz. Özünüzü xam göstərməyin. Hamınız yaxşı tanıyırsınız. Gəncliyində gözəldimi, gözəl deyildi. Ayaması vardı – onu da bilirsiz. Bilirsiz, bilirsiz. Sizlərə görəydi bu ayama. Qırx oynaşlı Boğazca Fatma. Yadınıza düşdü? Kim çaşıb yanından keçdisə, boğaza qaldı. Amma çifayda, ömründə bircə oğul övladı oldu Fatmanın. Bütün mehrini, məhəbbətini də bu oğlana bağladı. Babası kimdi, heç kim bilmir. Sirr sizindi indi, Qazan. Boğazca Fatmanın oğludu kafirin casusu, biləsən.

Qazan. Boğazca Fatmanın oğludu casus? Ax nadürüst!.. Şirşəmsəddin!

Şirşəmsəddin. Bəli, ağam.

Qazan. Bu saat, Beyrəklə ikiniz gedin, o məlunu hardadısa boğazlayın gətirin, qatın dama. Bunun divanını özüm edəcəyəm. Amma heç kim hələ duyuq düşməsin. Düzmü deyirəm, Dədə?!

Dədə Qorqud. Mən işimi gördüm. Sən özün gəlib çıxmısan verdiyin suala. Cavabını da özün verərsən, inşallah. Amma gərək soruşmayaydın bunu məndən.

Qazan. Gedin, siz gedin. Niyə, Dədə? Niyə soruşmayaydım gərək?

Şirşəmsəddin və Beyrək çıxırlar.

Dədə Qorqud. Qazan.

Qazan. Bəli, Dədə.

Dədə Qorqud. Nə cəza gözləyir bu bədbəxti?

Qazan. Bədbəxt niyə, Dədə?! O məlun neçə-neçə igidin qanının baisidi. Az qala bircə oğlumdan qoyacaqdı məni... Bilirsən, Uruz əsir gedərkən casusluğunu da o edib. Beyrək dedi.

Dədə Qorqud. Bunlar mənə aydındı. Amma yenə də bədbəxtdi bu.

Qazan. Bədbəxtdi bu, deyirsən? Nədi cəzası deyirsən? Bilmirəm, amma bu bədbəxt dediyin elə bir cəza almalıdır ki, bir daha heç bir kimsə Oğuzda bu cür casusluq xəyalına düşməsin. Düşmənimiz içimizdəymiş.

Dədə Qorqud. Qorxuram sözlərin, havada qala.

Qazan. Heç vədə, heç zaman. Sən məni tanıyırsan, Dədə.

Dədə Qorqud. Mən səni tanıyıram, Qazan.

Qazan. Ona cəzanı hamılıqla verəcəyik. Ona cəzanı Şirşəmsəddin verəcək. Beyrək verəcək, Uruz, Bəkil, lap elə Aruz verəcək. Ona cəzanı mən verəcəyəm, Dədə. Arxayın ol.

Dədə Qorqud. Çalışında vuran qolun qurumasın, Qazan. Mən gedirəm. Amma gərək sən məni çağırmayaydın.

Qazan. Oğuz casus görməyəcək bir daha, Dədə. Arxayın ola bilərsən. Oğuzun gələcəyi...

Dədə Qorqud. Mən gedirəm. Sonra tutduğuna peşman olmayasan.

Qorqud yox olur.

Qazan. Aman. Yox oldu yenə. Heç zaman. Heç zaman peşman olmanam. Heç bir iş üçün olmanam. İllah da ki, bu məsələdə. Bunlar getdilər,

ya harda qaldılar? Boğazca Fatmanın yeganə oğlu. Sən keçəcəksən əlimə. Sən verəcəksən cavab öz çirkin əməllərinə. Sən gəbərəcəksən Oğuzun bütün düşmənləri kimi. Xudaya, şükür sənin birliyinə. Oğuzun gələcəyini sən özün qoru. Amma mənimlə birgə, ulu Tanrım, mənimlə birgə.

III ŞƏKİL

Boğazca Fatmanın evi. Evdə Fatma tək.

Fatma. Bu gün nəsə ürəyim çox, çox nara-hatdı. Bu gədə gəlib çıxmadı. Elə bil dünyanın axırıdı-nədi. Heç ürəyim belə döyünməzdi. Tək oğul beləcənə bir dərddi. Hara getdi, harda qaldı? Yenə ilim-ilim itdi. Mən qoca qarı hara gedim, bunu hardan axtarım, hardan tapım, ax-ax, ox-ox...

Qapı döyülür.

Gecə də düşdü, kimdi bu bivaxt qonaq? Allah, Allah, ürəyimə nə belə qara-qura fikirlər girir?! Bəlkə açmayım qapını?

Qapı döyülür.
Kimsən? *(Qapıya tərəf gedir).* Kimsən ay qapı döyən?
Dədə Qorqud elə otağın içindəcə peyda olur.

Dədə Qorqud. Dayan. Tələsmə. Açmağa deyirəm qapını tələsmə.

Fatma. Sən... sən hələ kimsən? Aman, Dədə, sənsənmi bu?

Dədə Qorqud. Mənəm. Qorxma. Çəkil qapıdan...

Fatma. Döyürlər. İndi sındıracaqlar. Kimdi bu gələn, sən bilərsən? Qamən axan görklü... suyun... qurumasın.

Dədə Qorqud. Fatma, Fatma. Uzun danışma. Gəl bura, əyləş. Dinlə. Gördün, onlar üçün zaman uzandı artıq.

Qapıdan gələn səslər yavaşıyıb yox olur.

Onlar donub qaldılar, indi durub bizi gözləyəcəklər. Eşit məni, qoca qarı. Mən bura boşuna gəlmədim. Yeganə övladının başında bəla var.

Fatma. Övladın dedin?! Niyə bəs övladın?! Aman, Dədə. Ürəyimə dammışdı. Yenə ilim-ilim itib. Nə olub ona? Hardadı? Söylə, Dədə, danış mənə. Qara başım qurban olsun, Dədə, sənə... Qamən axan...

Dədə Qorqud. Fatma, Fatma. Bil və agah ol. Oğul dediyin o təkcə balan Oğuzun düşmənidi bu gün. Bu gələnlər də onun başı üçün gəlmişlər.

Fatma. Dədə, qurbanın olum, nə etdi ki mənim təkcə balam? Hansı suçun qurbanı oldu? Şər atdılar gül balama, Dədə, mən bilirəm. Şər yiyəsi oldu biçarə balam. Bala... bala... vay bala... Öldü,

ağlayanı yox, qaldı saxlayanı yox. Balam vay. Mən özümü öldürərəm, Dədə.

Dədə Qorqud. Şər atdılar deyirsən. Amma şər deyil bu, Qazana agah oldu: sənin oğlun Oğuzda yağı casusuymuş – bəlli bil. Qazan artıq bilirdi bunu. Əvvəl-axır biləcəkdi. Mənlik deyil bu iş, onu da bil.

Fatma. Bu gələnlər onunçün gəldilər... Tutmağa, ağ əllərini qara iplə bağlamağa, ağ başına qara torba keçirməyə gəldilər?! Dədə, sən ki, sən ki, Dədə, oğlum deyib oxşardın balamı – unutdunmu, Dədə? Sən ki derdin...

Dədə Qorqud. Dayan görüm. Dayan. Sözümü dinlə, Fatma. Tədbirli ol. Tədbirli ol. Tədbirli olmasan, işlər yaman olacaq. Sənin... sənin oğlunu tutub basacaqlar dama. Oğuza görk olsun, cəzasını vermək istəyəcəklər...

Fatma. Dədə, Dədə, ağır-ağır sözlər danışırsan sən – dilək ilə güclə bulduğum oğulumu deyirsən? Dədə, dədə, adım çıxınca canım çıxaydı, canım çıxınca Oğuzun başını bir Təpəgöz də gəlib kəsəydi, Təpəgöz gəlincə bu oğulu qadir Allah mənə verməyəydi. Güclə buldum bir oğulu, Dədə. Sən ki bunu bilirsən. Sən buldun onu mənə, Dədə. İndi mən ağzımı açım, qarnımın içində iyirmi beş il

gəzdirdiyim sirrimi Oğuza faş edimmi? Sən ki bilirsən, Dədə, oğul kimin oğludur.

Dədə Qorqud. Oğul kimdən olduğun ana bilər.

Fatma. Dədə... Dədə... hamı da bilsinmi, Dədə?

Dədə Qorqud. Sus. Dinlə məni, Fatma qadın. Yaxşı dinlə. Mən bura gəldim sənə doğru yolun haracan getdiyini göstərməyə. Dinlə məni. Nə cür deyirəmsə, o cür də elə. Sus. Qorxma. Hər şey yaxşı olacaq. Sirri faş eləməzlər. Faş eləsələr...

Fatma. Nə desən edərəm, Dədə. Nə yolla desən gedərəm. Sən deyəndi, sən deyəndi. Mənim balamdı o, mənim, ancaq mənim. Təki bircə balama qıymasınlar. Mənim balam günahsızdır, Dədə, sən ki bunu bilirsən, mənim balam casus deyil.

Dədə Qorqud. Sənin ... sənin balan casusdur, Fatma. Amma məni dinlə. Onu o cəzadan qurtarmağın indi artıq bir yeganə yolu var. Düşünürsənmi?

Fatma. Nə yoldu o yol, Dədə? Söylə mənə, qara başım qurban olsun sənə.

Dədə Qorqud. Fatma, oğlanı tutacaqlar. Qara dama salacaqlar. Sən Qazanın yanına var, sən Şirşəmsəddinin, Aruzun, Bəkilin yanına var. Hər

birinə ayrı-ayrılıqda söylə. Yaxşı dinlə dediyimi. Bu bəylərin bir-bir yanına vararsan və söylərsən onlara və söylərsən ki...

İşıq zəifladikcə qapıdan gələn səslər yenə də, elə bil, hərəkətə gəlirlər və səslər çoxaldıqca işıq altında təkcə Fatma qalır.

IV ŞƏKİL

Qazanın evi. Qazan və Burla Xatun.

Burla Xatun. Casus Aruzdandı.

Qazan. Yox. Boğazca Fatmanın oğludu.

Burla Xatun. Aruzun işidi bu.

Qazan. Boğazcanın işidi. Ana-bala birləşiblər, bu işi görüblər.

Burla Xatun. Bəri baxgil, gözüm baxtı, könlüm taxtı, nə çox Boğazca, Boğazca salmısan?! Dilinlə bir Fatma deyirsən, on Fatma da gözündən tökülür... Nədi, cavanlığın yadına düşüb yoxsa?!

Qazan. Kimin, mənim?

Burla Xatun. Elə bilirsən, unutmuşam Fatma, Fatma sayıqladığın gecələri?!

Qazan. Nə danışdığındı sənin? Bu da ömürgün yoldaşı. Adam neçə dəfə qurtarar bir məsələni, qurtardıq da bu söhbəti, xanım. Çoxdan qurtarmadıqmı? Gör neçə illərdi keçib gedib. İndi mən ona göstərim zərb-dəstimi, sən də bax. Arzun bu deyildimi, canım xatunum?!

Burla Xatun. Danış, danış özün üçün. Nə qədər bilirsən, danış. Yox, arzum bu deyildi. Sənə

deyim: casus bunun oğlu deyil. Casus Aruzdu. Sənin dayın Aruzdu. Aruzdu.

Qazan. Pah, pah, yenə də pah. Pah atonnan. Elə səhərdən eyni saz, eyni söz...

Burla Xatun. Nədi, gəlmədi xoşuna?

Qazan. Ömrüm, günüm, indi mən yerimdən durayınmı? Qara qamçını əlimə alayınmı? Can necə dadlı olur sənə göstərəyinmi? Mindirmə məni cin atına. Of. Dədə Qorqud dedi, eşit, bil. Dədə Qorqud dedi. Mən demədim, rahat ol. Gəldi, yox gəlmədi, peyda oldu, dedi ki, budu, bunun oğludu.

Burla Xatun. Nə zaman gəldi Dədə? Mən görmədim.

Qazan. Mənə inanmırsan, odu Şirşəmsəddindən soruş.

Burla Xatun. Eləmi?! Qazan, ay Qazan, deyirəm, axı yazıqdı bu arvad. Yəni, Fatma. Anadı. Ana haqqı dedi Dədə. Amma haqqımızı verən olmadı bizim. Olmadı mənim haqqımı verən.

Qazan. Yenə hərzə-hərzə başlama, Xatun. Sənin haqqına nə oldu? Kim haqqını əlindən aldı? Bu dəfəki yağmaya heç dayım Aruzu çağırmağa qoymadın məni...

Burla Xatun. Mən qoymadım? Yenə mən oldum günahkar?! İndi mən deyim, sən eşit. Belə

dayın Aruz sənin ala taxtına göz tikdi. Dayın Aruz sənin orduna göz tikdi. Dayın Aruz evini də hələ bir yağmalamalıydı?! Sən bilmirsən, mən bilirəm – dayın Aruz xan babamın yanına varıb, səndən o ki var deyib. Təpəgözdən kim qurtardı Oğuzu – mənim oğlum Basat deyib. Bəs belə isə ver Bayandır xan, mənim mükafatımı deyib. Basatı Oğuza baş sərkərdə istəyib.

Qazan. Baban nə deyib?

Burla Xatun. Nə deyəcək babam? Qocalıb heydən düşüb mənim xan babam. Baxarıq deyib. Nə istəyirsən sən mənim babamdan?!

Qazan. Mən? Mən yazıq? Heç nə istəmirəm, istəmənəm də. Amma baxarıq... Nolar, mən də bilərəm, neynirəm. Mən Aruza göstərərəm. Məndən şikayət? Nolar?

Burla Xatun. İndi də işi-gücü Dış Oğuz bəylərini sənə qarşı qaldırmaqdı. Bəyim, bu işdən hərb qoxusu gəlir, hərb qoxusu...

Qazan. Nolar, gəlsin. Biz də Qazan Xanıq. Salur quşu bizim könlümüzə yardı. Hərbdisə, qoy hərb olsun. Oğuz dışı akınlardan əvvəl Oğuz içinin təmizlənməsi lazım. Əsl düşmən elə öz içimizdənmiş. Oğuzun gələcəyi...

Şirşəmsəddin gəlir.

Şirşəmsəddin. Ağam, Boğazca Fatma gəlib deyir, Qazan xanla təklikdə görüşməliyəm, vacib sözüm var.

Qazan. Nə vacib sözü varmış mənə? Özü də təklikdə. Mənim heç kimdən sirrim yoxdu. Yalvarmağa, sısqamaya gəlib. Vacib sözü varmış. Sonra, sonra...

Burla Xatun. Mən burada bircə an da qalmaram. Nə sözünüz var danışın təklikdə. Salın yada sevişdiyiniz günləri. Bəlkə ağ günə çıxasız. Heç eyb etməz. Vararam mən xan babamın yanına. Açaram dərdimi mən xan babama. Sən... Sən isə... Verginən qara yellərə aramızda olanları. Satginən məni bir keçiyə, Qazan *(Gedir).*

Qazan. İlan vursun bu Fatmanı. İşə düşmədik oturduğumuz yerdə?! Səndə ağıl nə zaman olacaq Şirşəmsəddin? Heç yeri idi: "Boğazı gəlib..." Nə donub durmusan?! Çağır gəlsin kafir qızı kafiri.

Burla Xatun *(başını salır içəri).* Deməli belə oldu?! Çağır gəlsin, eləmi?! Nolar. Sən Qazan ol, mən də Bayandır xanın qızı. Görərsən *(yox olur).*

Qazan. Sən yenə donub qalmısan? Dayan. Tanrıya şükürlər. Axır qova-qova mərdi namərd edəcəksən, Xatun. Get. Get. Qoy Oğuzun işlərilə

məşğul olaq, canım. Bunun oğlu damda özünü necə aparır? Nə deyir, nə danışır?

Şirşəmsəddin. Heç nə demir, ağam, heç nə də danışmır. Üzüqoylu düşüb torpağa. Nə su içir, nə yemək yeyir. Lal-dinməz, ancaq nəfəsidi ağır-ağır gedir, gəlir...

Qazan. Yaxşı, bəs bu qarı nə istəyir bizdən? Bilmir ki, casusa, xainə aman yoxdu, ola bilməz? Sözü varmış. Neynirəm mən sözü? Sözlə yara sağalar?! Nə deyəcəkmiş, bilmirsən?

Şirşəmsəddin. Nə bilim, ağam?! Qovum getsin.

Qazan. Yox, qovma, gətir içəri. Qoy gəlsin, görək nəymiş sözü.

Şirşəmsəddin çıxır. Fatma gəlir.

Fatma. Ağam Qazan. Ağam Qazan. Rəhminə sığınmağa gəlmişəm. Gen ətəyinə bürünməyə gəlmişəm. Ayağının altında ölməyə gəlmişəm. Ağam Qazan, mədəd eylə.

Qazan. Qalx, ey qadın. Məqamın sirri var. Məqam rəhm məqamı deyil. Söylə, sən övladının bu gününü irəlidən görmədinmi? Niyə ona tərbiyə vermədin? Oğuzun başına bəlalar gətirdi...

Fatma. Görmədim, ağam. Bilmədim, ağam. Tərbiyə verənim olmadı, bəyim. Amma, Qazan xan. Ümid yerim sənsən. Deyil mənim oğlum casus. Mədəd eylə.

Qazan. Bu, artıq sübut olunmuş bir məsələdir. Oğlun Oğuza xain çıxdı. Cəzasını alacaq. Bütün Oğuz bunu məndən tələb edir. Mən kiməm? Mən Oğuzun iradəsiylə oturub dururam.

Fatma. Sən də babasan, Qazan.

Qazan. Bəli, mən da babayam. O bircə oğlum Uruz az qalmışdı sənin oğlunun əməlinin cəzasını çəksin. Hələ özümün əsirliyimi demirəm. O dünyanı gördüm, gəldim. Oğlun idi sənin bizim hər hərəkətimizi Oğuzdan o yana – Bayburda, Trabzona xəbər verən. Qazan ova getdi, gəlin, məqamdı deyən. Oğlundu sənin.

Fatma. Qazan, sənin oğlundu...

Qazan. Hələ Bəkilin, hələ Şirşəmsəddinin, hələ Qanturalının, Beyrəyin... Nə dedin sən? Necə? Beyrəyin başına gələnlər...

Fatma. Qazan, məni unutdunmu? Mən bir gözəl-göyçək qız idim.

Qazan. Sus, yavaş.

Fatma. Mən indi belə qocaldım. Qazan, evimizin ardındakı dərəcəyi unutdunmu? Qazan, hə-

yətimizdəki iti unutdunmu? Bəraqcuq idi o itin adı. Sən onu belə çağırardın. O da sənə yalmanardı, bircə sənə hürməzdi. Unutdunmu?

Qazan. Yavaş. Tanrı eşqinə yavaş. Nədir sənin sözün? Unutdum, unutmadım. Vacib olan o deyil. Unutmadım elə – nə olacaqmış ki?! Sənin oğlun casusdu axı...

Fatma. Sənin oğlun, xanım Qazan.

Qazan. Sənin oğlun casusdu, cəzasını da alacaq. Sən nə danışırsan hərzə-hərzə, qoca qarı?

Fatma. Qazan. Bunu sənə uzun illər demədim. Bu sirri qarnımda saxladım, Qazan. Dədə demiş: oğul kimdən olduğun ana bilər. Oğul səndəndi, Qazan. İndi özün bilərsən, istərsən as, istərsən kəs, istərsən...

Qazan. Bu nə danışır? Bu nə deyir? Pah, pah... bir də pah. Sənin adın qırx oynaşlı Boğazca Fatma deyilmiydi? Nədən oğul məndən olsun?! Söylərmisən?

Fatma. Dedim sənə: oğul kimdən olduğun ana bilər. Səndəndi mənim yeganə oğlum. Bizim qara başımız qurban olsun sənə, xanım Qazan.

Qazan. Yavaş ol. Yavaş. Sən... sən qayət sayıqlayırsan. Bəlkə səhv edirsən? Ola bilər… Bəs niyə bu çağacan demədin mənə?

Fatma. Bir mənası varmıydı – dedim, ya demədim? Vurub yıxan, şücaətli bir oğul deyildi ki, yanına salıb döyüşlərə aparasan. Sakit, fağır, dinməz-danışmaz bir oğul idi mənim oğlum. Səndən mənə əmanət idi o. Bax ona diqqətlə, Qazan xan. Oğlun Uruza da bax, ona da bax. Oğlun Uruzu görəcəksən onun gözündə, üzündə.

Qazan. Yavaş ol. Sən nə danışdığındı? Sən bilirsən nə danışırsan, Fatma? Sən mənim ürəyimə xəncər saplayırsan. Sən mənim...

Fatma. Qazan xan. Mən sənə bunları demək istədim. Unutma o aylı gecələri, unutma.

Qazan. Yenə başladı. Mən heç nə unutmamışam. Nə salmısan unutma, unutma. Unutmağa bir şey yox. Lap elə unutmağa kimsə yox! Sən başqa bir kimsəyə dedinmi mənə dediklərini?

Fatma. Yox, heç kimsə bilməz bunu. Bu, bir sirri-əzəm.

Qazan. Ya bəs Burla Xatun?

Fatma. Bilməz, xanım. Bilməz, bəyim. Mədəd eylə, Qazan, doğmaca oğluna qıyma.

Qazan. Dur. Sus. Sus deyirəm sənə. Bir insana danışmayacaqsan bunu. Qadir Tanrı. Mənim günahım nəydi, qadir Tanrı?! Nəydi mənim günahım, ulu Tanrı?! İndi get. Get. Sabah, sabah gələr-

sən. Sabah gəl. Sabah. Amma bax. Bir adam bilsə... Heç kim.

Fatma. Göydə Allah, yerdə sən, Qazan. Qıyma ona.

Fatma gedir.

Qazan. Qadir Tanrı. Mən indi neyləyim? Elə bil, ürəyimə dammışdı ki, bunun bir zibili çıxacaq. Mənim oğlum imiş... Mən indi neyləyim, qadir Tanrı. Sən söylə, söylə də...

V ŞƏKİL

Gecə. Qazanın evinin önü. Bir tərəfdə həbs quyusu. Şirşəmsəddin var-gəl edir.

Şirşəmsəddin. Qazana nə dedi, nə demədi – xan birtəhər oldu. Ay səni, Boğazca. Nə vaxtı vardı bunun. Amma qocalıb heydən düşüb, bir yandan da oğul dərdi. Casus anası olmaq asan məsələ deyil yəqin ki *(Quyuya yaxınlaşır).* Bundan səs-səmir çıxmır. Sakitdən sakit, laldan lal. Bura kim saldıq böyür-böyür böyürdü, ökür-ökür hönkürdü. Bu – lal məzardı. Ürəyimə nəsə damıb. Bu sükutun zırıltısı bərk çıxmasa yey.

Fatma gəlir.

Kimsən? Fatma, sənsən? Gecənin bu vaxtı buralarda nə gəzirsən, ay arvad?! Xan indi uyumuş olar. Sabah gəl. Nə edirsən? Ora olmaz. Yıxılmaq istəyirsən?

Fatma (*quyuya yanaşır*). Bala, bala, ay bala. Doqquz ay dar qarnımda gəzdirdiyim balam mənim. Tale səni nə pis yerdə yaxaladı.

Şirşəmsəddin. Kəndinə gəl, Fatma qarı, kəndinə gəl. Ora olmaz. Get evinə, toxda, sabah gələr-

sən. Xan ürəyi yumşaq olar, hələ baxdın sənə oğlunla görüşməyə izn də verər...

Fatma. Şirşəmsəddin, igid bəyim mənim. Sən səni bilərsən, sənin məndən xəbərin yox. Amma dayan, dayan, igid Şirşəmsəddin, sən heç səni də bilməzsən...

Şirşəmsəddin. Nə dediyindi sənin?..

Fatma. Yadındamı, şümal kimi igid idin. Qarğı kimi boyun vardı. Daş kimi, qaya kimi qolların vardı. Qara-qara gecələrə bənzər qaynar gözlərin vardı. Zərif-zərif barmaqların, qıs-qıvraq vücudun vardı. Sən gənc idin, Şirşəmsəddin. O aylı gecə yadındamı?

Şirşəmsəddin. Əlbəttə, yadımdadı. İtinizin adı Bəraqcuq deyildimi? O aylı gecə evinizin ardındakı dərəni keçib həyətinizə girən yerdə bir hürmək başladı ki. Sən gözəl idin, Fatma...

Fatma. Səni istədiyindən hürdü. Ancaq sənə elə hürərdi. Getdi o günlər. Amma... Mənə imdad səndən, ancaq səndən gələr. Ancaq sən...

Şirşəmsəddin. Nə imdad, qarı arvad? Sən nə danışırsan?

Fatma. Getdi o günlər. Nişanəsi qaldı. Məni o gecə yüklü qoydun sən. Əmanətin qaldı. Sənə heç vaxt bu sirri açmadım, bəyim.

Şirşəmsəddin. Hansı sirdən danışırsan? Bunun ağlı çaşıb, deyəsən...

Fatma. Yox. Ağlım-zadım çaşmayıb. O sirdən danışıram ki, bax indi, burda dustaq olan mənim oğlum...

Şirşəmsəddin. Mənim... sənin oğlun... Sənin, sənin oğlun…

Fatma. Şirşəmsəddin, Şirşəmsəddin, dil çaşar, doğrusunu söylər, o həm də sənin oğlundur. Bu oğul həmən o aylı gecənin yadigarı, əmanətidi. Balam, balam mənim... sən balamıza qıymazsan, igid. Sən atasan.

Şirşəmsəddin. Nə təhər, nə təhər? Dur bir dayan. Gen dünyanı başıma dar elədin. Mənim oğlum – casus??? Bu dünyada sən məni xar elədin. Mənim oğlum casus? Alca qanın qılıncımla yerə töküm deyərdim. İndi mənim oğlumdu bu? Sinəsindən ürəyini çəkim, söküm deyərdim. İndi mənim oğlumdu bu. Fatma, Fatma. Bu xəbəri verməyəydin mənə gərək. Fatma, Fatma. Ürəyimə qara dağlar vurmayaydın mənə gərək. Qadir Tanrı sən özün mənə yol göstər, qadir Tanrı. Fatma, Fatma, dur, dur ayağa, burda qalma belə. Get, evinə get. Burda durma. Get, mənə aman ver. Düşünüm, daşınım.

Fatma. Qıyma ona, qıyma əti-ətindən, qanı-qanından övladına, Şirşəmsəddinim mənim. İgidim, aslanım. Mənə imdad. Balamıza qıyma. Qıyma.

Fatma gedir.

Şirşəmsəddin. Gördüm axı. Qollarını arxasından bağlayanda mənə belə birtəhər baxdı. Bahar vaxtı ağ qarlar yağmışdı çöhrəsinə, elə bil. Küskün idi baxışları. Oğlum. Övladım. Mən indi neyləyim, qadir Tanrı? Mən indi neyləyim, neyləyim? Sən söylə. Sən. Söylə də...

VI ŞƏKİL

Fatma evində.

Fatma. Mən demədim, Dədəm dedi: oğul kimdən olduğun ana bilər. Qaldı Bəkil, qaldı Aruz. Məndə taqət qalmadı Aruza varam. Mən neyləyim indi?

Dədə Qorqud peyda olur.

Dədə, sənsən? Mənim vaxtıma nə qaldı, Dədə?!

Dədə Qorqud. Vaxt yavaş-yavaş uzanmaqdadı. Vaxt indi sənindi. Amma fürsəti də qaçırma isti-isti. Qalx. Bəkilin yanına varman lazım.

Fatma. Necə, ağam?! Bəkil dünyanın o başında – Gürcüstan ağzında oturur. Necə varım mən oraya? Quş deyiləm uçam, varam...

Dədə Qorqud. Sən artıq Bəkilin evinin qarşısındasan. Gir evə. Söylə söyləyəcəyini.

Fatma. Aman, Tanrım.

Hər şey dəyişir. Bəkilin evi. Qorqud yox olur.

Fatma. İgid Bəkil! Evdəmisən, igid Bəkil? Səni deyib gəlmişəm. Sənə sözüm var. Bəyim Bəkil. Qapıya çıx.

Bəkilin evindən bir qaraltı çıxır.

Fatma. İgid Bəkil, sənmisən? Bəli, sənsən. Bilirsənmi, nələr oldu? Qazan xandan buyruq oldu. Mən biçarənin yeganə oğlunu tutub dustaq elədilər. Ala candan ayırmaq istərlər balamı, Bəkil. Mənim balam casus deyil. Mənim balam fağır, kimsəsiz, ata olan yerdə yetim baladı. Duyursanmı məni, Bəkil? Xatırladınmı məni? Evimizin ardı dərəcik idi. İtimizin adı Bəraqcuq idi. O aylı gecələri, sənlə baş-başa verdiyimiz o gecələri yada salırsanmı? Bəli, mənəm, sənin, sənin Fatmanam, Bəkil. Sənin məndə o zamandan əmanətin qalmışdı. Bu mənim sirrim idi. İndi sənə açıram onu. Balamın atasına.

Qaraltı yerə çökür.

Noldu sənə, Bəkil?! Duydunmu məni, igidim Bəkil? Qoyma oğluna qıyalar. Get, söylə Qazana, get söylə Bayandır xana, yalvarırsan yalvar, igidliyinə bağışlasın atalıq eləmədiyin yetim qoyduğun övladını. Qoyma balamıza qıyalar, yeganə ümidim mənim, qoyma, qoyma igidim Bəkil, bəyim Bəkil...

Dədə Qorqud peyda olur. Yenə hər şey dəyişir.
Bu dəfə Aruzun evinin önü.

Dədə Qorqud. Fatma, bu da Aruz Qocanın evi. Di get, di get, indi də balana ondan imdad dilə.

Fatma. Aruz bəyim. İgid bəyim. Eşit mənim səsimi, dinlə mənim ünümü. Sənə pənah gətirmişəm. Gen ətəyinə sığınmağa gəlmişəm. Fatmayam mən. Başıbəlalı, bədbəxt Boğazca. Bir zamanlar gözəlim deyə oxşadığın, ağ üzümdən dişləyib dönə-dönə öpüb doymadığın Boğazca. Bilirmisən, nələr oldu? Qazan xandan buyruq oldu. Tək balamı dustaq edib ağ əllərin gerisindən bağladılar. Adını casus qoydular. Bilirmisən, nələr oldu? Qazan evini yağmaladı. İç Oğuz bəylərini çağırdı. Sən Aruzu çağırmadı. Qazan səndən hayıf almaq istəyir. Bilirmisən, nə hayıfdı o hayıf, Aruz bəyim? Sənin oğlundu mənim oğlum. O aylı gecələrimizin əmanətidi.

Aruzun evindən qaraltı çıxır.

Aruz Qoca, sənmisən, bəyim? Bəli, sənsən. Əmanətin uzun-uzun illərin sirri idi. Əmanətini səndən də gizləmişdim, bağışla məni. Əmanətini qoruya bilmədim. Barı sən qoru əmanətini. Mənim oğlum, sənin oğlun casus deyil, Aruz. Qoyma oğlumuza qıyalar. Qoyma Qazan oğlumuza cəza versin. İgid Aruz. Alp Aruz.

Dədə Qorqud peyda olub Fatmanı çəkib aparır. Aruzun qaraltısı, Bəkilin qaraltısı hələ xeyli sükut içində, üzərlərində zəif işıq. Fatmanın evi. Fatma və Dədə Qorqud.

Dədə Qorqud. Fatma, sağmısan, əsənmisən? Səsin gəlsin. Noldu buna, bayıldınmı?

Fatma. Dədə, mən hardayam?

Dədə Qorqud. Öz evindəsən, Fatma.

Fatma. Dədə, mən uyquyamı getmişdim?

Dədə Qorqud. Yox, Fatma. Sən uyquya getməmişdin. Sən Gürcüstan ağzına, Dış Oğuza getmişdin. Getdin, gəldin. Oğluna zaval var.

Fatma. Ağzın üçün ölüm, Dədə. Dilin üçün ölüm, Dədə. Bir də söylə.

Dədə Qorqud. Oğluna qıymayacaqlar. Bəylər bir araya gələcək. Amma heç biri ölüm hökmünü dilinə gətirməyəcək.

Dədə Qorqud danışdıqca Qazan xan, Şirşəmsəddin, Aruz, Bəkil bir araya gəlirlər.

Dədə Qorqud. Bir-birinin üzünə də baxa bilməyəcəklər. Sən öz işini gördün, Fatma. Bax. Casus, casus deyib bar-bar bağıran Qazana bax...

Qazan. İndi iş belədi, bəylər. Bu casus deyilən oğlan bir cavandı. Oğuza da ki cavanlar lazım. Oğuzun gələcəyi naminə...

Aruz. Bir dəqiqə. Bir dəqiqə. Casusluğun kim dedi bunun, biz də bilək.

Şirşəmsəddin. Beyrək dedi. Beyrək də ki on altı ilin Bayburd əsirliyindən sonra... Məlumdu da...

Aruz. On altı il əsirlikdə qalasan, sağ-salamat çıxıb gələsən, hələ bir başqa birisinə də cəza istəyəsən... Bərəkallah.

Bəkil. Beyrək igid ərdi. Amma o da dediklərini sübut eləməlidi. Biz düşünülməmiş addımlar ata bilmənik, bəylər. Bunu bizə bağışlamazlar.

Aruz. Beyrəyin igidliyini nədə gördün, bəy? Əsir getməyində gördün, əsirlikdə xoş keçən günündə gördün, Oğuza verdiyi xeyirdə gördün onun igidliyini? Təpəgöz Oğuzun qapısını kəsəndə hardaydı Beyrək? Bayburd bəyinin qızının incə ağuşunda?

Qazan. Aruz Qoca. Söhbət Basatdan, Beyrəkdən getmir. Aydındı, bilirik. Başımıza qaxınc oldu bu Təpəgöz. Söhbət bu... bu cavandan gedir. Sən də yenə başlamısan Təpəgöz, belə gəldi, Təpəgöz belə getdi...

Aruz. Taxsırı sübutsuzdur.

Bəkil. Taxsırı sübutsuzdur.

Şirşəmsəddin. Sübutsuzdur.

Qazan. Belə dediniz. Nolar, mən bəylərbəyi olsam da, madam ki, siz hamınız belə deyirsiniz,

mənə də o qalır ki, qoşulum sizə. Olsun. Mənə görə də taxsırı sübutsuzdur.

Bəylər yox olurlar.

Dədə Qorqud. Gördünmü, Fatma, gördünmü? Qadir Tanrı tək balanı sənə çox görmədi.

Fatma. Şükürlər olsun, ilahi. Şükür sənin birliyinə, qadir Allah. Dədə, bəs indi mənim balam ömrü boyu həbsdə çürüyəcək? Dədə, bu işi ki başladın, yarımçıq qoyma.

Dədə Qorqud. Qorxma. Bax, diqqətlə bax. Görürsənmi, şövkətli Oğuz bəylərini?

Qazan və Şirşəmsəddin.

Qazan. Şirşəmsəddin. Bu gecə uzun bir gecədi. Sən də yorğunsan, igidim. Get evinə. Bir az dinlən.

Şirşəmsəddin. Aman, ağam. Heç olarmı? Dustaqda gözüm olması lazım. Yox, ağam, sən get dinlən, mən uyumaram.

Qazan. Tərs oğlu tərs. Deyirəm, hava qəribədi, uyqum yox.

Qazan gedir. Aruz gəlir.

Aruz. Şirşəmsəddin, necə varsan?

Şirşəmsəddin. Sağ ol, bəyim. Yaxşıyam. Sən niyə qayıtdın?

Aruz. Ürəyim sıxıldı. Gecənin xeyrindən, sabahın şəri məsləhətdi. Deyilmi?

Şirşəmsəddin. Bəli, bəyim, doğru buyurursan. Amma belə birtəhərsən, yorğun dəyirsən gözümə. Get dinlən.

Aruz. Yox, sən özün yorğun görükürsən. Mən elə buralarda dolaşıram. Sən istərsən get evinə. Uyu bir az.

Şirşəmsəddin. Yox, yox. Mən gedə bilmənəm. Bəs bu dustağı kimə tapşırım gedim. Mən elə burdacana qalacam. Sən dayanma, get, bəyim.

Aruz. Sən qalacaqsan burda? Ay allahın bəndəsi yeri get evinə-eşiyinə. Sənin dustağına nə olasıymış?! Quş quşluğuyla buralardan qaçıb uçub gedə bilməz.

Şirşəmsəddin *(quyunun yanında uzanır).* Yox, qalacağam burda. Sən getsən məsləhətdi, Aruz bəy.

Aruz. Yaxşı, nolar mən gedərəm. *(Yavaşdan)* Qanmaz oğlu qanmaz

Aruz gedir. Bəkil gəlir.

Bəkil. Bu kim ola uzanıb uyquya gedib? Şirşəmsəddin, sənsən?

Şirşəmsəddin. Mənəm. Kim olacaq?!

Bəkil. Gecənin bu vaxtında burda nə edirsən? Evin-eşiyin yoxmu sənin?

Şirşəmsəddin. Var, nə üçün olmasın. Ağam Qazanın dövlətindən hər şeyim var. Sən söylə, niyə döndün?

Bəkil. Nə bilim, gecə yola çıxmaq istəmədim. Dustaq burdadı?

Şirşəmsəddin. Burdadı, burdadı. Get bir yer bul, sən də dinlən. Dədəm Qorqud söyləmiş: gecənin xeyrindən sabahın şəri yaxşıdır.

Bəkil. Amma nə söyləmiş... bəri bax, onsuz da gecə qonağı abırsız olur. Sən gəl, çıx get evinə. Buraların keşiyin mən çəkərəm.

Şirşəmsəddin. Nə danışırsan sən?! Heç elə iş olar?! Qazan xan nə deyər?! Bayaq bərk-bərk tapşırdı ki, burdan heç yana getməyəsən, amandı. Özü də elə bu həndəvərdədi. Get, igidim, get bir yer bul özünə qalmağa. Mən buraları heç kimsəyə əmanət edə bilmənəm. Get. Durma daha. Get.

Bəkil. Sağ ol səni. (*Yavaşdan*) Zalım oğlu zalım.

Bəkil gedir. Qazanın, Aruzun, Bəkilin qaraltıları bir-birindən gizlənə-gizlənə gəlir.

Şirşəmsəddin. Bunlar kim ola, qadir Tanrı? Kafirlərdi, əlbət. Bizim casusa cəza verməyə gəlməsinlər. "Öldürək, sirr faş olmasın". Aha. Kimsiniz siz? Dayan, qaçma. Qaçma dedim, itim kafir. Dayan.

Qaraltılar yox olur. Qazan gəlir.

Qazan. Şirşəmsəddin, bu nə hay-haraydı? Kim var buralarda? Mənəm, mənəm. Dustaq harda, yerindəmi? Səs-səmiri gəlmir bunun, Şirşəmsəddin.

Şirşəmsəddin. Xanım Qazan, sənsən? Qaçdılar, məlunlar. Bəli, ağam. Heç bilmədim kim idilər. Amma gəlib bura hücum edəcəkdilər. Kafir ola bilərdi. Qovdum getdilər. Sən arxayın ol, ağam. Get, get dinlən. Səsi-səmiri gəlmir bunun deyirsən? Bir bədbəxt cavandı, atalı yetim, nə səsi-səmiri gələcək. Get ağam, sən get evə. Buralar soyuqdu. Canını üşütmə alar...

Qazan. Bu nə danışır. Atalı yetim deyir. Bəlkə duyuq düşüb. Duyuq düşsə, arvada deyəcək. Burla Xatun bildi, mən batdım. Aradan çıxmaq vaxtıdı.

Qazan gedir. Dədə Qorqud və Fatmanın üzərinə işıq düşür.

Dədə Qorqud. Görürsənmi, Fatma, nə işlər oldu. İndi sən son addımını atacaqsan. Ehtiyatlı olman gərək.

Fatma. Dədə, göydə qadir Tanrı, Dədə, yerdə sənsən, bəlli bilgil.

Dədə Qorqud. Avazın yaxşı gəlir, avazın. Durursan ayağa, gedirsən Qazan xanın hüzuruna, belə deyirsən. Deyirsən ki...

İşıq sönür. Burla Xatun və Beyrək, elə bil, kimdənsə gizlənə-gizlənə gəlirlər.

Burla Xatun. Bəri gəl. Yavaş. Görən olar, burdan, burdan. Sakit. Yavaş. Keç bura görüm.

Beyrək. Anam mənim Burla Xatun. Burdan deyirsən, gəlirəm. Həşəmətli Burla Xatun, Bayandır xanın qızı. Ağam Qazanın...

Burla Xatun. Yaxşı, yaxşı. Dayan bir görüm. Sus. Yox, cavab ver mənə. Dinlə və cavab ver. Sən mən tərəfdəsən, ya...

Beyrək. Ya...

Burla Xatun. Ya Qazan?!

Beyrək. Aman, Burla Xatun, aman mənə. Qara başım qurban olsun sənə. Mən kiməm ki? Mən... Qazan bilər də…

Burla Xatun. Söylə, Beyrək. Daha sözü oynatmaq, gizlətmək vaxtı deyil. Məqam, bax, indidi. Bildir mənə...

Beyrək. Mən Dədə Qorqud tərəfdənəm. Yox. Bayandır xandanam. Yox. Səndənəm. Xanım, səndənəm. Mən kiməm ki? Səndənəm. Əlbəttə.

Burla Xatun. Bax belə. Belə yaxşıdı. Sən igid Beyrəksən.

Beyrək. Əlbəttə, səndənəm, xatun. Heç şübhən olmasın.

Burla Xatun. Onda dinlə. Bunlar nəsə bir iş qururlar – bəyləri deyirəm – nəsə gizli işləri var. Nədi – bilmirəm. Qazan mənimlə oyun oynayır. Ax bu Qazan. Eybi yoxdu – mən bilərəm, neynərəm. Ordan səs gəldi deyəsən.

Beyrək. Yox, narahat olma. Bir şey deyil. Sən darılma.

Burla Xatun. Mən darılmıram. Mən bu oyuna getmirəm. Mən gedərəm xan babamın yanına.

Beyrək. Qara başım qurban olsun, xanım, sənə. Qara başım qurban olsun... olsun... olsun... *(başını yerə döyür)*.

Burla Xatun. Heç eybi yoxdu. Bir dayan görüm, qulaq ver. Mən bu oyuna getmirəm. Bilirsən... Amma... Nədisə Dədə Qorqud gəlir, Fatma gedir. Fatma gedir, Aruz Qoca gəlir... Aruz da ki...

Beyrək. Aruz Oğuza düşməndi, bəlli bilgil. Oğlu Basat da, xatun, bir sarsağın biridi. Nolsun, nə böyük bir işmiş Təpəgözü basıb kəsib... Yox bir...

Burla Xatun. Beyrək, sən bunları hələ bir izlə. Nə qurğu qururlar – biz bilək. Casus tapıldı – iş görmək vaxtıdı – iş yox. Burda nəsə var. Qərəz bunları izləmək gərək.

Beyrək. İzləmək? Bu da elə casusluq deyilmi, həşəmətli Burla xatun? Deyirəm bəlkə...

Burla Xatun. Bunları izləyirsən...

Beyrək. Baş üstünə!

Burla Xatun. ...Burda nəsə var.

Beyrək. Nə deyim?! Doğru buyuyursan, var. Mən hazır. Nə qədər dərini görürsən sən.

Burla Xatun. Fatma ayaq üstə ölmüşdü. İndi qulaq verirəm, buyur, dirilib. Ümidi, inamı qayıdıb. Niyə? Aruz Qoca yenə aldatdı Qazanı. Bu da ki, avam... Sən nə dersən?

Beyrək. Həşəmətli... Mən nə derəm? Mən nə derəm? Mən də onu derəm. Nə etməliyəm mən? Nə? Söylə. Söylə.

Burla Xatun. Yavaş. Düş Fatmanın arxasınca, kölgəsi ol.

Beyrək. Olum.

Burla Xatun. Dədənin kölgəsi ol.

Beyrək. Olum.

Burla Xatun. Aruzun, Aruzun kölgəsi ol. Niyə, nə üçün sağdır bu casus indiyənədək?!

Beyrək. Bilmirəm. Bəli, biz bunu bilməliyik. Mən – kölgə.

Burla Xatun. Get, igid Beyrək. Umurun açıq olsun. Ordan yox, ordan yox, bura gəl. Yavaş ol. Sus...

Beyrək. Həşəmətli...

Çıxırlar.

VII ŞƏKİL

Qazanın evi. Qazan və Burla Xatun.

Qazan *(öz-özünə).* Bu kafir oğlu kafir Şirşəmsəddin çöküb qaldı quyunun yanında. Açıb buraxacaqdım oğlanı.

Burla Xatun. Şirşəmsəddinə noldu?

Qazan. Heç nə olmadı. Neçə gündür uyumur. Deyirəm, bəlkə bir evinə getsin bu gecə.

Burla Xatun. Nə təhər getsin? Bəs buralara kim baxacaq? Hələ dustaq? Gecə də çox narahat gecəydi. Sən özün neçə dəfə durub dışarı çıxdın. Səs-küy vardı.

Qazan. Heç, elə-belə çıxdım. Bəylər gəlmişdilər, onlarla idim.

Burla Xatun. Eşitdim, Aruz Qoca da gəlmiş imiş. Nə vacib düşüb. Yağmaya gəlmədi deyin şikayət edirdi? Yoxsa yenə Basatın şücaətindən danışırdı?

Qazan. Səninki də Basat olsun. Aruz olsun. Məşvərət oldu. Yox canım, doğru sözümdü, məşvərət oldu. Aruz, Bəkil, Şirşəmsəddin... Bu oğlanla ... casusla ilgili.

Burla Xatun. Məşvərət oldu? Bəs mənə niyə demədin? Nə qərar çıxdı bəylərdən?

Qazan. Heç inanmazsan, Xatun. Hamısı bir səslə dedi, bu casusun casusluğu sübutsuzdur. Mat-məəttəl qaldım.

Burla Xatun. Sübutsuzdur? Necə yəni sübutsuzdur?! Bəs Beyrək dedikləri nə oldu? Bəs Dədəm Qorqud söylədikləri hara uçdu?

Qazan. Mən də elə onu deyirəm. Amma qaldım təklikdə. Sübutsuzmuş.

Burla Xatun. Deməli, Aruz Qoca yenə istədiyi kimi fırlatdı sizi serçə barmağına...

Qazan. Serçə barmağına? Serçə barmağına niyə?

Burla Xatun. Yaxşı, olsun baş barmağına.

Qazan. Xatun, bilirsən nə var? Hərzə-hərzə danışma. Bəylərin sözü sözdü, alqışı alqışdı, qarğışı qarğışdı. Oğuzun gələcəyi...

Burla Xatun. Onu saxla. Şirşəmsəddinə deyərsən. Bəs Beyrəyin sözü söz deyil? Yox, burda nəsə iş var. Casusluğunu Dədəm Qorqud dedi bunun. Cəzasını almalıdı, bəyim.

Qazan. Mən nə edə bilərəm ki?

Burla Xatun. Cazasını almalıdı. Almazsa...

Qazan. Almazsa...

Burla Xatun. Xan babamın yanına mən vararam.

Qazan. Yenə başladı.

Burla Xatun. Sən inanma, görərsən. Xan babamın önündə qara başımı əyərəm, deyərəm: Aruz Qoca casuslara himayədarlıq edir, baba. Oğuzun düşmənləriylə ilişkisi var Aruzun, baba – deyərəm.

Qazan. Canım-gözüm, nə casus, nə ilişki. Sənin də hər künc-bucaqda casus görünür gözünə. Bəsdi də. Qoy yaşayaq da.

Burla Xatun. Bəli, bəyim. Görükür. Çünki qorxubdu mənim gözüm. Çünki bircə balamı itirəcəkdim az qala. Çünki səni qeyb edəcəkdim əbədi. Düşmən düşməndi. Bil bəyim: Aruz da düşməndi. Heç düşməndən əksik deyil.

Qazan. Pah, pah, yenə də pah. Bu nə həyatdı mən yaşayıram, qadir Tanrı. A bəylər, belə də zülm olar?

Şirşəmsəddin gəlir.

Şirşəmsəddin. Ağam, Fatma Xatun yenə gəlib. Səni görmək istəyir. Bəylər də burdadırlar. İstərsənsə...

Qazan. Aydın oldu. Əlbəttə bunlar hamısı söz qoyub: məni öldürmək istəyirlər. Aydın məsələdi. Nə deyirsən sən? Bəylər gözləsin. Fatma gəlsin. Yox dayan, Fatma gözləsin, bəylər gəlsin. Dayan görüm.

(Burla Xatuna) Xatunum mənim. Sən get öz odana. Bu işlərə baş qoşmaq sənin işin deyil. Qanını qaraltma, deyirəm.

Burla Xatun. Belə... Mənim işim deyilmiş. Bəs nədi mənim işim? Elə mənim işimdi bu, qanım-zadım da qaralmır. Şirşəmsəddin, Beyrəyi də çağır gəlsin.

Qazan. Niyə? Beyrəyi neyləyirsən?

Burla Xatun. Gəlsin, mənim ondan soracağım var.

Qazan. Xatunum mənim, get öz işlərinlə məşğul ol, canım. Mənim səbrimi sınama. Yaxşı, çağır Beyrək də gəlsin.

Burla Xatun. Şirşəmsəddin. Eşitdin? Hələ Beyrəkdən əvvəl Boğazca Fatmanı gətir bura. Mənim yanımda danış onunla, bəyim. Qoy o da sənin zərb-dəstini görsün, bilsin, Oğuzun qanun-qadağasının gücünü duysun.

Şirşəmsəddin. Ağam Qazan...

Qazan. Yaxşı da, məndən daha heç nə sorma. Mən kiməm ki, çağır gəlsin Fatma, çağır.

Şirşəmsəddin gəlir.

Qazan. Xanım, bəlkə sən... Aydındı. Nolar, qal. Əlbət, bir zaman gələr, mənim zərb-dəstimi görərsən.

Fatma gəlir.

Fatma. Ağam Qazan, səni deyib gəlmişəm. Burla Xatun?! Qara başım qurban olsun sənə, xatun, səni də deyib gəlmişəm. Qazan, mədəd.

Qazan. Bilirsənmi...

Burla Xatun. Bilirsənmi, boğazca Fatma, sənin oğlun Oğuzun casusluğun elədi. Günahı ağırdan ağır, cəzası müdhişdən müdhiş. Sənin dərdin böyük dərddi. Aruz Qoca nə dedi sənə, Fatma? Bilirəm, görüşmüsən onunla.

Fatma. Aruz Qoca heç bir şey demədi mənə. Anam mənim, qız qardaşım, bacım mənim, boyu uzun Burla Xatun, mənim oğlum... mənim oğlum casus deyil, Burla Xatun. Xain deyil mənim oğlum. Mənim oğlum fağırdan fağır, yazıqdan yazığın biridi. Burax onu, Qazan, burax getsin buralardan. Buralar ona vətən olmadı. Burax onu, burax getsin qürbətə – bu dağlardan salqum-salqum əsən yellər ona sərinlik vermədi. Xanım Qazan, mədəd, Qazan.

Burla Xatun. Necə olur bu?! Sənin oğlun günah işləmiş. Bəylər nə deyərlər? Oğuz nə deyər bu işə? Xan babam nə söylər? Dədəm Qorqud necə baxar? Qazan, sən söylə.

Fatma. Qazan, bəyim... Sən söylə. Söylə...

Qazan. Məsələ belədi də...

Fatma. Qazan, xanım...

Burla Xatun. Söylə, Fatma, söylə nə demək istəyirsən?! Sözlüsən sən.

Qazan. Qoyarsınız adamı söz deməyə? Belədi məsələ. Bəylər oğlunun günahını sübutsuz saydılar sənin. İş – bu, məsələ belədi. Oğlun azad olacaq.

Burla Xatun. Qazan! Nə danışdığındı? Huşun-başın özündəmi?

Qazan. Burla Xatun! Keç odana. Sən də get, Fatma. Get. O biri məsələlər sonra, sonra... Get daha.

Fatma. Ağzın üçün ölüm xanım, dilin üçün ölüm, bəyim. Sən sağ ol, əsən ol. Oğuzun iqbalı səni qorusun. Amin.

Fatma gedir.

Burla Xatun. Qazan! Mən anlamadım: bu arvadla sənin aranda yenə nəsə var.

Qazan. Bununla? Ha... ha... ha... Allah səni güldürsün. Get xanım, get öz odana, erkək işlərinə qarışma. Şirşəmsəddin!

Şirşəmsəddin gəlir.

Bəyləri çağır gəlsinlər. Xanım, bəsdi daha, Dədəm Qorquda and olsun, bəsdi daha. Bəsdi!

Mən də insanam. Dəmir deyiləm, daş deyiləm. Sən məndən nə istəyirsən?! Gedirsən get var xan babana. Pah, pah, yenə də pah. Xan qızı al, axırı da bu. Allah, mən nə günah eləmişəm? Bu nəydi, qadir Tanrı? Sən özün mənə kömək ol. Dədə, Dədə, hardasan, Dədə?

Fatmanın evi. Fatma huşa gedib. Dədə Qorqud bardaş qurub oturmuş. Beyrək gizlənə-gizlənə qalıb.

Dədə Qorqud. Yaxşı, daha bəsdi. Çıx, çıx ordan görüm.

Beyrək suyu süzülə-süzülə çıxır.

Gəl. Gəl yaxına. Eyiblicə iş tutmaq başa qaxınc olur, Beyrək dediyim. Nə girmisən siçan yuvasına, nə ararsan orda sən?! Danış. Cavab ver. Noldu sənə?!

Beyrək. Dədə... *(Susur.)*

Dədə Qorqud. Nə Dədə? Nə Dədə? Nə üçün gəldin? Mənimmi izimə düşdün? Ya Fatmanın?

Beyrək. Dədə... Məndən olmadı. Günah məndən keçdi. Mən kiməm ki? Sən olan yerdə kiməm mən? Buna nolub? Ölübmü, Dədə?! *(Fatmanı göstərir).*

Dədə Qorqud. Yox. Ölməyib. O indi kiçicik uyquya gedib. Nə dilərsən, söyləsənə.

Beyrək. Bilmirmisən, Dədə?! Bilirsən.

Dədə Qorqud. Sən Fatmanı tanımazmısan, Beyrək dediyim?!

Beyrək. Necə tanımazam. Yaxşı tanıram. Evlərinin ardı dərəcik deyildimi? İtlərinin adı Bəraq-cuq deyildimi? Mənim toyumda, Dədə, yadındamı qalxdı, əl götürdü oynadı. Aldatmaq istədilər xatunlar məni. Banuçiçək, ayıb olmasın, budur dedilər. Aldanmadım. Sən idin mənim gözümə işıq, qəlbimə hiss verən, Dədə, sən idin.

Dədə Qorqud. Sən Fatmanı tanırmısan? O söhbətlərin yeri deyil. Tanırmısan?

Beyrək. Tanıram, Dədə. Onu kim tanımadı?! Adı... qırx oynaşlı Boğazca Fatma deyildimi?

Dədə Qorqud. Sən onu məhv eləməkmi dilərsən, Beyrək dediyim?!

Beyrək. Onu yox, Dədə. Onu yox, oğlunu. Oğlu casusdu – sən dedin. Qazana dedin, Dədə, unutdunmu?

Dədə Qorqud. Mən dedim. Amma mən dərdi göstərdim Qazana, dərmanı ona *(Fatmanı göstərir)* verdim.

Beyrək. İndi mən nə edim?

Dədə Qorqud. İstərsən danış onunla *(Fatmaya işarə edir)*.

Fatma *(Huş içində durur ayağa).* Oğul kimdən olduğun ana bilir. Oğul kimdən olduğun ana bilir. Söyləyimmi kimdəndi oğul, Qazan?! Söyləyimmi Aruz Qoca?! Söyləyimmi Şirşəmsəddinim mənim, Bəkilim mənim...

Dədə Qorqud. Danışmaq istərmisən, Beyrək, Fatma ilə?

Beyrək. Ulu Qorqud. Mən...mən... hər şeyi anladım. Allah, Allah deməyincə işlər önməz. Yağı düşmən dost olmaz. Əski pambıq bez olmaz. Yapa-yapa qarlar yağsa...

Fatma *(Huş içində gəzir).* Oğul kimdən olduğunu ana bilir. Ana bilir.

Beyrək *(qorxmuş).* Dədə, mən gedim, nolar qoy mən gedim, Dədə.

Dədə Qorqud. Get gedə bildiyin qədər. Uç uça bildiyin qədər.

Beyrək. Ulu Dədə. Mən yoxam *(yox olur).*

Dədə Qorqud. Gəl, gəl. Uzan, sakin ol, sakin. Heç kim yoxdu artıq. Sənsən, mənəm. Mənəm, sənsən. Hamı, hamı getdi. Təkcənəsən. Tək, tək, tək... Heç kim yoxdu...

Fatmanı sakitləşdirib uzandırır əvvəlki yerinə.

VIII ŞƏKİL

Qaranlıq. Qazanın evinin qabağı. Qazan çıxır quyuya doğru gedir. Şirşəmsəddin arxasınca.

Qazan. Aha, deyəsən heç kim yoxdu. Açım qapını, buraxım getsin bu zavallı, ilim-ilim itsin Oğuzdan. Bəlkə qisməti irəlidədi?!

Şirşəmsəddin. Ağam Qazan. Nə axtarırsan? Bir əmrinmi var?

Qazan. Sənsən?! Yenə sənsən. Sən yorulmursan, Şirşəmsəddin? Heç. Elə-belə. Hava alıram. Necə gözəl axşamdı...

Şirşəmsəddin. Gözəldi. Bir azdan ay da çıxacaq.

Qazan. Hə... Nə var, nə yox?

Şirşəmsəddin. Heç. Elə bir şey yoxdu. Amma, ağam, bu dustağın başını dumanlar alır...

Qazan. Nədi ki... Niyə?

Şirşəmsəddin. Dün gecəki hadisə heç başımdan çıxmır. Deyirəm, bəlkə bu binəvanı öldürmək istəyirlər?! Kafirlər bundan bəlkə hayıf alırlar?!

Qazan. Eləmi? Onu qorumaq lazımdı. Bilə-sən. Günahı sübutsuz olana qıymaq özü günahdı. Beyrək gəldi? Bizimkiylə görüşdü?

Şirşəmsəddin. Ağam, Beyrək gəldi getdi.

Qazan. Nə danışdılar, bilmədin?

Şirşəmsəddin. Yox, bilmədim. Amma deyəsən bunu (*quyuya işarə edir)* Aruz Qocayla, dayınla bağlayırlar.

Qazan. Aruz... Aruz... Bitmədi, qurtarmadı bu Aruz söhbəti.

Şirşəmsəddin. Aruz özü də, elə bil, birtəhərdi.

Qazan. Mən də duydum. Çaşqındı, elə bil. Bəkil necə?

Şirşəmsəddin. Bəkil də çaşqındı.

Qazan. Elədi. Nəsə burda bir iş var... Dədədən xəbər yoxdu?

Şirşəmsəddin. Yoxdu.

Qazan. Bir mənim tük qabımı gətir bura görüm.

Dədə Qorqud peyda olur.

Dədə Qorqud. Tük qabına ehtiyac yoxdu, Qazan. Sən hər dəfə tükümü yandıranda başımdan az qalır od-alov çıxır. Nə deyirsən indi? Mən sənə söyləmədimmi bu casus məsələsinə çox da baş qoşma. Peşman olacaqsan...

Qazan. Dədə, elə peşman oldum, elə peşman oldum, amma ondan keçdi. İndi mənə bir şeyi agah elə. Şirşəmsəddin, sən çəkil bir qırağa.

Şirşəmsəddin çıxır.

Dədə Qorqud. Nədi bilmək istədiyin, Qazan xan?

Qazan. Dədə, söylə mənə, bu oğlan, bu... casus... amma bildin günahını sübutsuz saydılar bəylər, bu oğlanı indi nə təhər eləyək?.. Mən bilmirəm, bir yol tapa bilmirəm, Dədə... Fatma gəlmişdi yanıma. Səndən gizli mənim bir sirrim yoxdu, biləsən.

Dədə Qorqud. Qazan xan. Artıq sözə gərək yox. Məni dinlə. Gecə yarısı oğlanı aç burax, çıxıb getsin. Fatmaya da tapşır, bərk-bərk tapşır, bir daha oğlan buralarda görünməsin. Məsləhət belədi.

Qazan. Bəs Burla Xatun? Deyir, Aruzun işləridi bu. Xan babama deyir, varacağam. Beyrəklə dil tapıblar. Bayındır xana xəbər çatsa...

Dədə Qorqud. Dediyimi elə. Ağciyər olma. Bayındır xan mənim boynuma.

Qazan. Uf, Dədə, sağ olasan səni. Amma bir məsələ də var. Dədə, gecələr, elə bil, burda kölgələr peyda olur. Bu quyunun qırağında gəzişirlər. Neçə dəfə durub özüm görmüşəm. Mən ağciyər deyiləm. Amma bu kölgələr ... bu dustağın başında iş var, Dədə.

Dədə Qorqud. Gecə yarısı. Aç buranın qapısını. Heç kim olmayacaq. Heç kim də görməyəcək.

Burax onu getsin. O burda heç kimə lazım deyil. Kölgələrlə də işin olmasın. Oğlanı mələklər qoruyur.

Qazan. Elədi. Mələklərə də oxşadı. Nə deyirəm ki?! Getsə məsləhətdi. Doğru qərardı sənin qərarın. Mən gedim, bu arvadın başındakı görüm nədir? Dədə...

Dədə Qorqud. Get. Amma unutma. Gecə yarı.

Qazan çıxır. Aruz gəlir.

Aruz. Dədə, sənin qüdrətinə salam olsun. Sənin kəramətinə, Dədə, şübhə yox. Sağmısan, əsənmisən? Oğuzdan əskik olmayasan, Dədə, səni.

Dədə Qorqud. Sən sağ ol, Aruz Qoca. Basat sağ olsun. Qadir Tanrı sizləri qorusun. Bu gün qorunmağa ehtiyacın var.

Aruz. Tanrının birliyinə yoxdu güman. Mən nə etdim, Dış Oğuz nə suçda bulundu, Dədə? Qazan biləsən, mənə şər atır.

Dədə Qorqud. Təkəbbürlük eyləyəni Tanrı sevməz, Aruz Qoca.

Aruz. Təkəbbürlüyü mənmi eylədim, Dədə, yoxsa... Qazan eylədi?!

Dədə Qorqud. Qazan sənə yad deyil. Asi olma.

Aruz. Haqqımı itirdi, sayımı itirdi. Evin yağmaladı, məni, mən heç, Dış Oğuzdan heç bir kəsi çağırmadı. Mənmi asiyəm?

Dədə Qorqud. Bunun üçün adam adama düşmən kəsilməz. Sonu yoxdu bunun.

Aruz. Oğlancığımı gözü götürməz. Basat olmasaydı, Oğuz Təpəgözün əlində zəbun olmayacaqdımı? Səfərə çıxar, ordusunu mənə qoymaz. Bu tərəfdən də bu məsələ...

Dədə Qorqud. Nə söylədiyindi, Aruz?

Aruz. Giley çoxdu, Dədə. Umu-küsü çoxdu. Bu zavallını deyirəm... *(Quyuya işarə edir)* Tutub nahaqdan damlayıb, bir taxsırı yox ki bunun.

Dədə Qorqud. Elə də deyil.

Aruz. Bir Beyrək deməklə deyil axı, Dədə. Kim gördü bunun casusluğunu?! Anası yazıq...

Dədə Qorqud. Sən bu oğlana köməkmi dilərsən, Aruz?

Aruz. Dilərəm, Dədə. Sən söylə, mən nə gərəkdi yaparam.

Dədə Qorqud. Yox, Aruz. İndi yox. Gecə yarı gələrsən. Səni burada gözləyəcəyəm. İndisə get. Sən istədiyini gecə yarı...

Aruz. Gedirəm, Dədə. Gecə yarı dedin. Sözmü?

Dədə Qorqud. Gecə yarı... gecə yarı. Söz.

Aruz çıxır. Bəkil gəlir.

Bəkil. Dədəm, ulu Qorqud. Sənsən? İlahi, birliyinə şükür, Dədə səni gördüm, ölmərəm daha. Dədə, mənə mədəd. Səndən mədəd diləyirəm, böyük Qorqud.

Dədə Qorqud. Bəkil. Bilirəm istədiyini...

Bəkil. Dədə, bu zavallının vallah bir günahı...

Dədə Qorqud. Bilirəm, Bəkil. Get, arxayın ol. Get, amma gecə yarısı gələrsən bura. İstədiyini alacaqsan.

Bəkil. Dədə, sənin qaibdən dürlü xəbər verən dilin üçün ölüm, Dədə... Uca-uca dağların...

Dədə Qorqud. Bəkil, aydındı. Get.

Bəkil. Gecə yarı mən burda. Sağ ol, Dədə. Sağ ol, əsən ol. Qadir Tanrı səni Oğuza çox görməsin. Dədə, dalını da deyimmi? Deyirəm, Dədə, deyirəm, Dədə, qadir Tanrı verməsəydi, sən Oğuzdan çıxmasaydın, düşünürəm, düşünürəm, Dədə, nə olardı o zaman ki, oğul ata sözünü iki eləməzdi, eləsəydi, Dədə, düşünürəm, sən neylərdin oğulsuz, Dədə, sən olsaydın, Oğuz əgər olmasaydı, olmasaydı? Yox Dədə sən olmasaydın, Oğuz olsaydı, yox, düşünürəm, düşünürəm, bir şey çıxmır, Dədə, hər şey başımda, başımın içində qarışdı bir-birinə, Dədə. Deyirəm, Dədə, çaşdırdım hər şeyi. Mən ölmərəm, Dədə, səni gördüm, səni…

IX ŞƏKİL

Səhnədə heç kim yox. Burla Xatunun səsi eşidilir.

Burla Xatunun səsi. Hələ bir bura gəl. Gəl bura. Qaçınma. Tanıdım mən səni. Fatma, qorxma, gəl bir bura.

Fatma və Burla Xatun gəlirlər.

Burla Xatun. Gizləmə üzünü. Heç gizləmə. Mənə baxsana, Boğazca Fatma.

Fatma ***(****Burla Xatunun ayağına düşür).* Anam mənim Burla Xatun. Qız qardaşım, bacım mənim Burla Xatun.

Burla Xatun. Qalx ayağa hələ bir. Qalx ayağa. Ay qız, bu, sənsən? Nə günə düşmüsən sən? Nə boyda olmusan sən? Arıq-tırıq bir şey idin. Nə görmüşdü bu Oğuz səndə, bilmədim. Hər qonağa göstərdilər, hər qonağın yatağına saldılar. Ay qız, bəlkə oğlun da elə o vaxtdan yadelli əlində, yadelli dizində böyüdü, böyüdü, axırda casus oldu?

Fatma. Aman, Burla Xatun, aman. Aman istərəm səndən. Yaddaşının ağzına qara-qara daşlar düzüm. Xatırlatma o günləri mənə, yada salmaq istəmirəm. Sənin incə dilinə bal süzüm. Qoyma

ağrı-əzab dəyə mənə. Ağrılanmaq istəmirəm mədəd istərəm, anam mənim, səndən, səndən aman istərəm. Mədəd mənə. Aman mənə.

Burla Xatun. Hələ bir işığa dur. Gəl bura – dur, mənə bax, ay Allah, Dədəyə şükür, bunda nə varmış, ay Allah, ürəyim gəldi yerinə. Ay qız... gülmək də məni tutur... Tanrım, sən özün kömək ol. Tanrım, sən özün...

Fatma və Burla Xatun üz-üzə.

Fatma. Mən gedim, Xatun. Getsəm məsləhətdi.

Burla Xatun. Get. Yox, dayan. Eşit! Səni bir də görməyim burda.

Fatma. Mədəd mənə, Burla Xatun.

Burla Xatun. Sən elə əvvəlki Boğazcasan. Görməyim səni burda. Görməyim. Yox, dayan. Qadir Tanrı, görməyim. Fatma, Fatma. Get, səni qadir Tanrıya and verirəm. Get. O oğlun, o da sən. O oğlun, o da sən. Yox, dayan.

Fatma. Anam mənim Burla Xatun. Noldu sənə? Aman, Dədə, aman. Noldu sənə, Xatun?

Burla Xatun. Qara-qara vaqiələr gördüm indi. Yada düşdü ötən günlər. Gəncliyimi gördüm indi. Yada düşdü qərib illər. Əsirliyim yada düşdü. Şöklü Məlik yada düşdü. Qıpçaq eli yada düşdü. Cavan

Qazan yada düşdü. Aman, aman Fatma, aman. Yaxına gəl. Gəl yaxına. Gir qoluma *(oturur yerə).*

Fatma. Buna nə oldu, ay Allah. Dur, dur ayağa. Ay Allah, ay Dədə, buna noldu? Mən nə edim indi? Nə edim mən bununla? Bilmirdin, mən necə olub Oğuzu özümə məftun eləmişəm? İndi bil, Xatun. İndi bil. Dədə, Dədə mən nə edim? İndi bil. Nolar xan qızı, xan arvadı deyiləm, nolar? İndi bil. Nolar, dərdim var – eybi yox, çəkərəm. İndi bil. Mən də belə Fatmayam. Mənim də oğlum belə oğuldu. İndi bil. Mən nə edim, qadir Tanrı? Mən nə edim?

Səhnəyə qaranlıq çökür. Sonra işıq peyda olur Qorqudun üzərində.

Dədə Qorqud. Bəli, bu da belə. Artıq bu işi bitirmək olar. Yavaş-yavaş qaranlıq alır buraları. Gecə düşür. Vaxtdı. Gecə yarısı, əlbəttə, gecənin bir yarısı. Bəylər bir-birini görməyə-görməyə gəlsinlər, keçib bu dustağa dünya işığını çox görən bu quyunun ağzını açsınlar. Fatma, Fatma, hardasan, sən də hazır ol, zavallı ana. Bu biçarə dustaq qoy çıxıb bu quyudan yapışsın anasının əlindən, duman kimi qarışsın, itsin bu gen aləmdə. Hələ bu harasıdır, hələ nələr gözləyir sizi. İndilik yeyin, için, xoş

keçin. Ağır günlər öndədi, apar Oğuzun dadını, iyini illərdən, qərinələrdən o taya, zühur elə uzaqların uzaqlığında, yaşa. Yaşasın deyirəm, bəlkə onun xain qəlbi özünün bir kölgəli yerində Oğuzun uzaq xatirəsini də, əlbəttə və əlbəttə, qaranlıqların içindən keçirəcək həmən Oğuz xatirəsini bu zavallı, bu biçarə xainin uşaqları, övladları heç nədən xəbərsiz ömür sürə-sürə gəlib yetişəcəklər budaqları yerə dəyən, yarpaqları yerə tökülən uca, qoca bir qarağacın altında oturanda bir səs yavaşdan onlara deyəcək: son, bu da son, axır. Eh, gəlimli, gedimli, dünya, son ucu ölümlü dünya. Hanı dediyim bəy ərənlər? Dünya mənim deyənlər? Ağır günlər öndədi. Əcəl aldı yer gizlədi. Fani dünya yenə qaldı, qaldı. Yum verəlim. Bəsdi daha. Bitirəlim. Yolun açıq olsun. Get, get, xain övlad. Get, əziz övlad. Get. Bu acı rəvayət qoy elə burdaca bitsin, boğazca Fatmanın xain, casus, əziz oğlunun sirri qoy elə burdaca gömülsün torpağa. Yum verəlim xanım, son verəlim, son. Bəsdi yetər. Mən dəxi yoruldum. Hər şeydən, hər şeydən yoruldum, usandım...

Qorqud danışdıqca gecə düşür. Qazan, Şirşəmsəddin, Bəkil, Aruz bir-birini görməyə-görməyə, amma bir yerdə gəlib dustaq quyusunun qapısını açırlar.

Fatma gəlib girir dustaq quyusuna, sonra qoluna girdiyi bir qaraltı ilə oradan çıxır. Qorquda baxır, baxır, sonra ikisi də yavaş-yavaş uzaqlaşırlar. Bəylər donmuş, sükut içində. Qorqud yox olur. Və bəylər bir-birini görüb tanımağa başlarkən... Amma sondan əvvəl gənc bir qız (bu Boğazca Fatmadır) səhnədən hamının arasında kimisə axtara-axtara qaçıb keçir.

Gənc Fatma. Bəraqcuq, Bəraqcuq! Hardasan, Bəraqcuq?!

SON

BEYAZ

(musiqili oyun-tamaşa)

İŞTİRAKÇILAR:

Dədə Qorqud
Beyrək
Banuçiçək
Qazan xan
Baybura bəy
Baybecan bəy
Dəli Qarcar
Basat
Bayburd bəyi
Bayburd bəyinin qızı – Kafir qızı
Burla xatun
Boğazca Fatma
Şirşəmsəddin
Aruz Qoca
Dəli Dondar
Yalanşı
Casus
Ozan
Bəylər
Naiblər
Qadınlar
Kafir əskərləri
Xor

1-ci hissə

Səhnədə xor. Musiqi səslənir.

Xor:
Allah-Allah deməyincə işlər önməz.
Ər igidlər öz yolundan geri dönməz.
Ölən adam dirilərmi?
Çıxan can geri gələrmi?
Yox, yox, yox, yox...

Təkəbbürlük eyləyəni tanrı sevməz
Biz də onu sevməriz.
Könlün uca tutan ərdə dövlət olmaz.
Bilsin hər kəs.
Əski pambıq bez olarmı?
Qarı düşmən dost olarmı?
Yox, yox, yox, yox...
Yapa-yapa qarlar yağsa yaza qalmaz.
Ulaşıban sular daşsa dəniz dolmaz.

Əzəldən yazılmasa qul başına qəza gələr?
Əcəl vədə verməyincə kimsə ölər?
Yox, yox, yox, yox...
Ər igidlər öz yolundan geri dönməz,
Allah, allah deməyincə işlər önməz...

Səhnəyə hirslə Baybura və Baybecan çıxır. Arxalarınca Qazan, Şirşəmsəddin, Aruz və bəylər gəlir.

Qazan. *(hər kəsi sakitliyə dəvət edir)* Durun, bəylər. Yapmayın, bəylər. İnciməyin yeri deyil. Həpimizə aiddir bu. Bir durun. Ayaq saxlayın. Sözümü dinləyin.

Şirşəmsəddin. Qazan xan doğru söylər. Baxın, mənim dəxi oğlum-qızım yox. Mən dəxi qara otağa salındım. Bir kəlmə danışdımmı?! Danışmadım.

Baybura. Mənim hansı əskikliyimi gördü Bayındır xan?! Qılıncımdanmı gördü, süfrəmdənmi gördü?! Məni ha, qara otağa ha. Oyləmi?! Əsla olmaz. Qalamam.

Baybecan. Mən dəxi bir an belə burada qalamam. Oğlum-qızım yox imiş... Oğlu-qızı olanları çox gördük, bəyim.

Aruz. Bəylər, bu, bir adətdir. Sizin ki bundan xəbəriniz var. Əvvəllər də belə olardı. Xan şölənində oğlu olanın yeri ağ otaq, qızı olanın yeri qızıl otaq, oğlu-qızı olmayanın yeri qara otaqdır. Qara keçə bu adamın altına döşənəsidir. Qara qoyun yəxnisi bu adamın yeməyi olasıdır.

Baybura. Mən qara çadıra girməm. Mən bu adəti qəbul etməm. Etmirəm, bəylər. Mən istəməzmiyəm mənim dəxi bir oğlum ola. Xan Bayandura

xidmət edə. Mən də baxam, sevinəm. Oğlum yox-dursa, niyə bu mənim başıma qaxınc olsun?!

Baybecan. Mən dəxi qəbul etmirəm. Mən dəxi istərəm bir qızım ola. Amma olmur ki, olmur...

Qazan. Bir durun ya. Dinləyin. Siz çoxmu istərsiniz oğlunuz, qızınız döğsun?!

Baybura. Çox istərik.

Baybecan. İstəməzmiyik?!

Baybura. Mənim oğlum yox.

Baybecan. Mənim də qızım yox.

Qazan. *(naiblərə)* Gedin, çağırın dədə gəlsin. *(Bəylərə)* Siz də tanıq olun, o da tanıq olsun. Gəlin, gəlin tanrıya dualar edək. Bəlkə Allah-taala Baybecan bəyə bir qız övlad, Baybura bəyə də bir oğlan övlad verə. Bunlar dəxi muradlarına yetişsinlər.

Bəylərdən bir-ikisi səhnədən çıxır. Digər bəylər rəqs edə-edə dua edirlər. Bəylərlə bir yerdə səhnəyə Dədə Qorqud gəlir. Hər kəs onu ehtiramla qarşılayır. Musiqi susur, rəqs bitir.

Qorqud. Xeyirdimi, bəylər?! Məni niyə çağırdınız?!

Qazan. Dədə, bizə yardım et. Biz dua edirik ki, Allah-Taala bu iki bəyimizə övlad bəxş etsin. Baybura bəyə oğlan, Baybecan bəyə qız övladı versin.

Qorqud. Nədi, yoxsa çadırlarını bəyənmədilər?!

Şirşəmsəddin. Bəyənmədilər, Dədə. Sən bunu haradan bildin?

Qorqud. Bilməzmiyəm?!

Aruz Qoca. Bəli, Dədə. Bəyənmədilər.

Qorqud. Baybecana qızmı istərsiniz?!.. O zaman qızların yolu əvvəldir. Biriminci söz onunkudur.

Baybecan. Dədə, mən nə deyə bilərəm ki?! Əgər bəylərin və sənin duanla mənim bir qızım, Baybura bəyin bir oğlu doğularsa, sizlər tanıq olun. Onları bir-birinə beşikgərtmə yavuqlu edəlim. Baybura bəy, sən nə dersən?!

Baybura. Mən nə derəm?! Sən nə dersən, mən dəxi onu derəm.

Qorqud. Belə isə...

Musiqi. İşıq sönür. İşıq yanır. Dədə Qorqud və bəylər əllərini qaldırıb Allaha dualar edirlər.

Xor:

Uca Tanrı! Uca Tanrı.
Səni göydə ararlar,
Səni yerdə sorarlar.
Amma sən, amma sən
Xud möminlər könlündəsən,
Uca Tanrı.
Duamızı qəbul eylə.

Dostumuza mədət qılgil,
Yağıları zəbun eylə.
Bayburaya bir oğul,
Baybecana bir qız vergil.
Bu oğlanı cəsur eylə,
Qoy bu qız da gözəl olsun.
Sevgiləri dastan kimi,
Dildən dilə əzbər olsun.

1-ci hissənin sonu

2-ci hissə

Səhnənin bir tərəfində Baybura bəyin evi, o biri tərəfində Baybecan bəyin evi. Bir-birinin ardınca hər iki evdən körpə ağlaşması eşidilir. Baybura bəy və Baybecan bəy evlərinin qabağına çıxırlar və əllərini qaldırıb Allaha dualar edirlər. İşıq sönür. Musiqi. On beş il sonra. İşıq yanır və Baybura bəyin evini işıqlandırır. Baybura bəy, qarşısında bir cavan oğlan. Bu, Beyrəkdir. İşıq Baybecan bəyin də evini işıqlandırır. Baybecan bəyin qarşısında bir gənc qız durub. Bu da Banuçiçəkdir.

Baybura *(Beyrəyə).* Oğul. Sən biləsən, sənin bir nişanlın vardır. Baybura bəyin qızı Banuçiçək deyərlər adına. Sən doğmazdan əvvəl atası onu sənə beşikgərtmə yavuqlu etdi. Dədəm Qorqud tanıq oldu, bəylər həp tanıq oldular. Onu alacaqsan.

Beyrək. Baba, mən bir qız istərəm ki, mən yerimdən durmamış, o durmuş, mənə düşmən başı gətirmiş olsun. Böylə bir qız al ver mənə, baba. Odur, Qanturalı babasından belə bir qız istəmişdi.

Baybura. Sonrası nooldu?! Qanturalı Trabzona qədər gedib çıxmadımı?! Az qala vəhşi canavərlər əlində zəbun olacaqdı.

Beyrək. Baba, mən də gedərəm. Hələ Trabzondan da o tərəfə keçərəm. Təki qız mən istəyən ola. Bu Banuçiçəyi heç görmədim, sınamadım. Barı...

Baybura. Dur hələ. Banuçiçək eşitdiyimə görə çox comərd bir qızdır. Onun atını bir atın keçdiyi yox. Oxunu kimsənin yardığı yox. Özü dəxi çox gözəlmiş. Bəzirganlar mal veriblər, mal alıblar. Onlar dedi.

Beyrək. Oyləmidir?! Bilmirəm, baba. Mən onunla görüşərəm, baxaram, görərəm... Həqqən sən deyən kimidirsə, o zaman sözüm yox...

İşıq zəifləyir. Səhnənin Baybecan bəy tərəfi işıq içində. Baybecan bəy və Banuçiçək üzbəüz.

Baybecan *(Banuçiçəyə).* Qızım, mən səni, biləsən, Bayburanın oğlu boz ayğırlı Beyrəyə vermişəm. Oğuzda dörd kişi niqabla gəzər. Onlardan biri Beyrəkdir. Sən doğmadan əvvəl o sənin yavuqlun oldu.

Banuçiçək. Baba, mən sən dediyin o Beyrəyi heç görmədim. Nə də o məni görməyə gəldi. Gələrsə, izninlə mən onu öncə bir sınaram. Mərd yigitdirmi, deyilmi, sədaqəti varmı, yoxmu, bəlli olar.

Baybecan. Qızım, Beyrəyin comərdliyi Oğuzda az qala dastana döndü. Sən duymadınmı?! Atasının karvanı qara Dərbənd ağzında talanıb getmiş idi. Beyrək o malları qarətçilərdən savaşıb aldı. Qılınc çaldı, baş kəsdi. Adını gəlib Dədə Qorqudun

özü qoydu. Gözəl bir yigiddir. Niqabla da onun üçün gəzir ki, göz dəyməsin.

Banuçiçək. Baba, dedim ya... Sınamam gərəkir. Niqablamı gəzir?! Niqabın arxasında nə vardır, nə yoxdur, baxacağıq, görəcəyik.

İşıq bu tərəfdə zəifləyir, Baybura bəy tərəfdə güclənir.

Baybura (Beyrəyə). O qızı tap. Onunla danış. Səni evləndirim, oğul. Qanlı bir düyün yapaq.

İşıq hər iki tərəfdə gur yanır.

Baybecan (Banuçiçəyə). Beyrək səni arayıb tapacaqdır. Onu sınarsan, sonra könlünü, istərsənsə, ona açа bilərsən. İstəməz isən yenə də sən səni bilirsən. Sənə xoş olan bizə də xoş olur.

Xor:
Qadınlar dörd türlüdür.
Birisi solduran soydur,
Birisi dolduran toydur,
Birisi evin dayağıdır,
Birisi necə söylərsən, bayağıdır.
İgid Beyrək, bunu bil.
Banuçiçək bir evin dayağıdır.

Cəsur ol, igid ol,
Onu ara, onu bul.
Banuçiçək, Banuçiçək!
Dinlə bizi, biz söyləyək.
Beyrək sənin alın yazın,
Beyrək sənin taleyin.
Beyrək sənin gələcəyin,
Beyrək sənin hər şeyin...
Onu görcək bir könüldən
min könülə
vurulacaqsan ona.
Ürəyini açacaqsan yana-yana.
Ona de ki, sən onu yatar ikən
uyğudaca görmüsən.
De ki, niyə gec qaldın,
gəlməz oldun, bəyim, sən?!
Beyrək sənin alın yazın,
Beyrək sənin taleyin...
Beyrək sənin gələcəyin
Unutma, unutma, unutma...

2-ci hissənin sonu

3-cü hissə

Səhnə gözəl bir çəmənlik kimidir. Bir tərəfdə qırmızı bir çadır qurulmuşdur. Çadırın içində Banuçiçək və dayəsi oturmuşlar. Səhnənin bu biri tərəfində üzü niqablı Beyrək və naibləri əllərində kaman-yay nə isə axtara-axtara gəlirlər. Bütün bunlar rəqs şəklində davam edir.

1-ci naib. Bəyim, keyik yaralanmış, bu tərəfə qaçdı. *(baxır, baxır).* Odur, mən gördüm. Heyvancığaz yerə sərilib.

Beyrək. Get al, gətir.

1-ci naib səhnədən çıxır və çiynində bir oxlanmış keyik səhnəyə qayıdır. Keyiki bir tərəfdə yerə qoyur.

Beyrək. *(Banuçiçəyin çadırına tərəf baxır)* O çadır hələ kimindir? Onlara da pay verəlimmi?! *(Beyrək keyikin ətrafında qəhrəman kimi dövrə vurur)*

Banuçiçək. *(çadırda, dayəsinə)* Dayəciyim, bu qavatlar bizə ərlikmi göstərmək istərlər?! Sən hələ buna bax, buna. Bir keyik vurmuşdur. Sanki bir ordu basmış kimidir. Az qala əl qaldırıb yallı gedəcək. Sən bir bunlara yaxınlaş, keyikdən pay istə. Görəlim, nə deyəcəklər.

Dayə çadırdan çıxır, Beyrəyə yaxınlaşır.

Dayə. Bəy yigitlər! Nerədən gəlib nerəyə gedirsiniz?! İç Oğuzdanmısınız?! Bizim Dış Oğuzda mən sizə rast gəlmədim.

Beyrək. İç Oğuzdanıq. Bayburanın oğlu Beyrək dedikləri mənəm. Boz ayğırlı, üzü niqablı Beyrək. Heç duydunmu? Siz kimsiniz? Bu çadır kimindir?

Dayə. *(gülümsünür)* Beyrəkmi dedin?! Heç duymadıq. Bu gördüyün çadır mənim xanımıma aiddir. Ovunuzdan bizə pay varmı?

Beyrək. Biz avçı deyilik. Bəy oğlu bəyik. Həpsi sizin. Xanımının adı nədir?

Dayə. Adı Baybura qızı Banuçiçəkdir.

Beyrək *(heyrət içində)* Omu?

Dayə. O. O.

Beyrək. Deməli, görüşümüz bu günə qismət imiş. Mən bir ona salam verim. Olurmu??

Dayə. Öncə mən xanıma söyləyim.

Dayə çadıra qayıdır.

Banuçiçək. Nooldu, dayəciyim? Kimmiş bu avçılar?

Dayə. Xanım, bunlar avçı deyillər. Bəy oğlu bəydirlər. Keyikin həpsi sizin dedilər. O gördüyün üzü niqablı yigit Bayburanın oğlu Beyrək imiş.

Banuçiçək. Üzü niqablı Beyrəkmi? Hankısı?! Omu?

Dayə. O. O.

Banuçiçək. Babam mənə deyərdi ki, səni Bayburanın oğlu üzü niqablı Beyrəyə vermişəm. Görüşməmiz bu günə qismət imiş.

Dayə. Deməli, qismət bu gün imiş. Beyrək gəlib sənə salam vermək istər. Nə dersən?!

Banuçiçək əli ilə işarə edir. Dayə çadırdan çıxıb çadırın ağzında durur və Beyrəyə işarə edir ki, gələ bilərsən. Beyrək çadıra yaxınlaşır. Banuçiçək çadırdan çıxır.

Banuçiçək. *(Beyrəyə).* Xoş gəldin, igid. Beyrək dedikləri sənmisən?

Beyrək. *(niqabını çıxarır)* Mənəm, bəy qızı.

Banuçiçək. Niqabını niyə çıxardın? Göz dəyməzmi?

Beyrək. Səndən dəyməz. Banuçiçək sən deyilmisən?

Banuçiçək. Yoox, mən deyiləm. Mən onun dayəsiyəm. Ol qız elə adam deyildir ki, sənə görükə.

Beyrək. *(yenidən niqabını taxır)* Hayıf, yüz dəfə hayıf. Mənə dedilər, bu çadır Banuçiçəyindir. Bəs o zaman deyilənlər yalan imiş. Elə adam deyilmiş, həmi?!

Banuçiçək. Həmi, həmi. Ona yetişmək asan iş deyil. Bilmənəm ki, sənə nə dedilər, sən nə eşitdin. Bəlkə bir şey dedilər, sən tamam başqa şey eşitdin?! Olmazmı?! Olar. Amma gəl səninlə yarışa çıxaq. At çapaq, güləşək, sonra da ox ataq. Sənin atın mənim atımı keçərsə və əgər sənin oxun mənim oxumu yararsa, və yenə də əgər sən məni güräşdə yenərsənsə, o zaman Banuçiçəyi də görə bilərsən. Mən səni onun yanına aparar, onu sənlə görüşdürrəm. Nə dersən?

Beyrək. Yarışmı dersən?! Oldu, dadı. Nədən başlayaq? *(naiblərə)* Siz tanıq olun.

Banuçiçək. Oxunu at, igid.

Beyrək və Banuçiçək yaylarını çəkirlər. Səmada sanki nəyisə nişana alıb kiçik bir rəqs edə-edə ox atırlar.

Naiblər. Aha, oldu bu iş. Allah, allah, Beyrəyin oxu qızın oxunu yardı. Əhsən Beyrəyə...

Beyrək. *(naiblərə)* Hələ bir mənimlə ox atacaqmış... Mənim yayımı belə çəkə bilməz bu dadı...

Naiblər. Oylə, bəyim, oylə... Çəkərmi, çəkməz.

Banuçiçək. Atına min, igid.

Beyrək *(fışqırıq çalır, gözləyir)* Bu at yenə də fışqırığa gəlmədi.

Beyrək səhnədən çıxır. Banuçiçək çadırın arxasına keçir. At kişnərtisi hər yanı bürüyür.

Naiblər. *(uzaqdakı at yarışını seyr edə-edə bir-birinə).* Aha. Oldu bu iş. Boz ayğır önə keçdi. Beyrək qazandı. Min şükür. Min şükür. İgid Beyrək. Boz ayğırlı Beyrək.

Beyrək və Banuçiçək səhnəyə gəlirlər.

Beyrək. *(qalib ədası ilə).* Sən nə sanırdın? Mənim Boz ayğırımı sənin atınmı keçəcəkdi?!

Banuçiçək. Dur, hələ bitmədi. Gürəşəcəyik.

Beyrək və Banuçiçək güləşirlər. Bu güləşmə bir rəqs kimidir. Sonunda Beyrək qıza qalib gəlir. Naiblərin sevincinin həddi-hüdudu yox. Kimi Beyrəyin paltarının tozunu silir, kimi də çiynini sığallayır.

Naiblər. İgid Beyrək... Boz ayğırlı Beyrək...

Beyrək. *(Banuçiçəyə)* Nooldu, bitdimi?! Amma bax, sənə söyləyirəm, sən də bir comərd qız imişsən. Hayıf. Hayıf ki, Banuçiçək deyilsən.

Banuçiçək. Banuçiçəyəm mən.

Beyrək. Oyləmi?! Dayə deyilmişsən... *(niqabını çıxarır).*

Banuçiçək. Oylə, oylə.

Beyrək. *(küskün halda)* Bəs niyə yalan söylədin?! Bir daha mənə yalan söyləmə, olurmu?!

Banuçiçək. Olur, olur. Bir daha söyləməm.

Beyrək. Sözmü?

Banuçiçək. Söz.

Beyrək. O zaman uzadarmısan əlini?! Bu üzüyü barmağına taxacağam, sevgilim. Və səni öpəcəyəm. *(Cibindən çıxarıb sildiyi üzüyü qızın barmağına taxır. Banuçiçəyi özünə tərəf çəkib üç dəfə öpür. Bu öpmə səhnəsi rəqsə dönür)*

Banuçiçək. Uyğularımın yigid Beyrəyi. Çox gec qaldınsa da, sonunda gəldin. Bəy yigidim, indi irəli durmaq gərək.

Beyrək. Mən hazır.

1-ci naib gəlib Beyrəyin qulağına nəsə deyir.

Beyrək. *(fikrə gedir, gəzişir. Sonra Banuçiçəyə)* Məsələ dəyişdi. Mən nə edə bilərəm ki?! Deyirlər, qardaşın Dəli Qarcar səni istəməyə gələnləri öldürürmüş. Niyə belə edirmiş? Bilirsənmi?

Banuçiçək. Bilməm ki... Bir səbəbi olsun gərək. Sən belə et. Məni istəməyə qoy Dədə Qorqud özü gəlsin. Bəlkə onun sözünü yerə salmaz.

Beyrək. Doğru deyirsən. O zaman mən durumu ləngimədən babama söyləyim. Bəylər ilə məş-

vərət etsin. Dədəni də çağırsınlar. Baxalım, o nə deyəcəkdir. Doğru dersən, onu göndərərik. Sən gözlə, sevdiyim... Sən gözlə...

Banuçiçək. Mən səni nə qədər desən gözlərəm, bəyim. Təki sözünə vəfalı ol. Uyğularımın Beyrəyi...

Xor.

Beyrək, igid Beyrək, Beyrək.
Boz ayğırlı tək Beyrək!
Bilirmisən nə olacaq?
Dədəm Qorqud yol alacaq
Dış Oğuza, sənin üçün.
Dəli Qarcar atın minib,
qılıcını çəkəcəkdir.
Dədə dua edəcəkdir,
Deyəcəkdir:
Vurarsan, əlin qurusun,
Dəlinin əli quruyacaq.
Göydə asılı qalacaq.
Sonra, sonra nə olacaq, bilirmisən?!
Dəli Qarcar Dədəyə yalvarar, nə yalvarar...
Sağalt, mənim bu qurumuş əlimi der.
Sonra mənim istədiyim malları ver,
Qız qardaşımı Beyrəyə o zaman verərəm der.
Bu səfər səni öldürmədim,

Gələn səfər gəlsən, öldürərəm der.
İgid Beyrək!
Bəlkə sən bu sevdadan əl çəkəsən?!
Bir kənara çəkiləsən?!
Bu yolda səni nə gözlər, bilməzsən.
On altı il qürbət eldə həbslərdə çürürsən,
Oğuza geri gəlməzsən.
İgid Beyrək, bəlkə sən
bu sevdadan vaz keçəsən, çəkiləsən?!

Beyrək. *(Banuçiçəyə bir daha diqqətlə baxır, sonra Xorun qarşısına gəlir, Xora)* Yox! Yox!! Bir dəxi yox!!! Vaz keçməm. *(Banuçiçəyə)* Bu üzüyü ki barmağına mən taxdım. Ona baxıb məni xatırlarsan.

Banuçiçək. Mən səni xatırlamayacağam.

Beyrək. Necə, necə??? Buymuş sənin sədaqətin?!

Banuçiçək. Buymuş, buymuş. Mən səni unutmam ki, xatırlayım. Get sözünün ağası ol, bəy igidim. Gözün arxada qalmasın.

Beyrək etkilənmiş halda dalı-dalı səhnədən çıxır.

3-cü hissənin sonu

4-cü hissə

Baybura bəyin evi. Bəylər, Qorqud oturmuşlar, yeyib-içirlər. Beyrək ayaq üstdə bir tərəfdə durub.

Aruz. Necə olmuş qurtulmuşsan Dəlinin əlindən, Dədə?! Səni ha – öldürmək ha... Əqli çaşıbdı, nədi?! Bu, bir möcüzədir.

Qorqud. İsmi əzəm oxudum, Aruz. Tanrım kömək eylədi. Qurtuldum.

Beyrək. Allah, Allah...

Baybura bəy. Sağ olasan, Dədə, səni görüm, əsən olasan. Hələ bir daha söylə görəlim, dəli igid qız qardaşı üçün bizdən nələr istədi? *(Beyrəyə)* Qulaq ver, bütün bunlar sənin üçündür.

Beyrək. *(baş əyir)* Baş üstünə, ağam.

Şirşəmsəddin. Yarımasın, yarşımasın. Oylə malmı olur?! Nerədən bulunacaqmış bu mallar?! Hər birindən də min dənə...

Qorqud. Bulunacaq, bulunmaz olurmu?! Baybura bəy! İndi mən min quyruqsuz, qulaqsız köpəklə min dəxi birə bulsam, sən min ayğırı, min buğra nəri, min qoyunu bularmısan?!

Baybura. Bularam, Dədə. O zaman sən təkrar yola hazırlan, olurmu?!

Qorqud. Mən hazıram. Düyünümüz qanlı olsun.

Beyrək. Dədə, sağ olasan. Dədə, Dədə! Həyatım boyu bu yaxşılığını unutmaram. *(Dədənin əlini öpür).*

Qorqud. Beyrək dediyim. Qızı alıb gələcəyəm.

Beyrək və bəylər. Sağ ol, Dədə. Əsən ol, Dədə. Bir görəlim bu səfər Dəli Qarcarın deməyə sözü nə olacaq?! Bir görəlim...

Beyrək xora tərəf gedir. Xor susur. Beyrək şaşqın.

Xordan bir nəfər. Bizim deməyə sözümüz yoxdur. Hər şey aydından daha aydındır.

Musiqi səslənir. Qoyun mələşməsi, at kişnəməsi, köpək hürüşməsi. Dədə bu malları Banuçiçəyi almaq üçün Dəli Qarcara verməyə aparır.

5-ci hissə

Beyrəyin düyünü. Gərdək qurulmuş, önündə naiblər şənlənir, rəqs edirlər. Beyrək gərdəkdən çıxır. Əlində bir gömlək vardır.

Beyrək. Naiblərim, bir durun. Bu qızıl qaftanı mənə yavuqlum göndərdi. Baxın nə gözəldi, özü tikib.

Naiblər. Sağlığına qismət, bəyim. Sağlıq içində geyin. Bizim yavuqlumuz yox ki... Olsa idi, bizim üçün dəxi tikib belə bir qızıl qaftan göndərərdi. Biz nə edək?!

Beyrək. *(öz-özünə).* Bu heç yaxşı olmadı. *(Naiblərə)* Gəlin, bunu sıravardı geyinək. Sonunda da bizdən olmayan bir kişiyə verək.

Naiblər. Kimə? Kimə verək? Geyilmiş qaftana kim sahib çıxmaq istər ki?!

Beyrək. Mən bilirəm kimə verək. Hələ bir mən geyim, sonra, sonra... Mən bu kömləyi Yalançıya verəcəyəm. O bunu geyinər.

Səhnənin dərinliyində işıq yanır. Burada Bayburd bəyi oturmuş və qarşısında casus.

Bayburd. Nooldu, söylə. Nə əcələ işin varmış, casus bəy?

Casus. Bayburd məliyim. Heç bilmirəm, necə deyim?!

Bayburd. Söylə, baxalım, nə deyəcəksən. Durma, söylə. Mənim səbrimlə oynama.

Casus. Oh, ah... *(təntənəli şəkildə)* Qarşı yatan dağların...

Bayburd. Onları saxla. Onların yeri deyil.

Casus. O zaman mən... Yenə deyə bilmirəm.

Bayburd. İndi mən yerimdən durummu?! Can dadlısın sənə göstərimmi?!

Casus. Olarmı, Bayburd məliyim, sözlə yox, hərəkətlə söyləyim?!

Bayburd. O necə olur?!

Musiqi səslənir. Casus rəqs edir. O rəqs etdikcə...

Xor. Bayburd bəyi, bilirmisən, nələr oldu?!
İç Oğuzda qanlı düyün quruldu.
Beyrək sabah gecə gərdəyə girir

Bayburd. Girsin. Mənə nə?!

Xor. Baybura oğlu Beyrək
sabah gərdəyə girir.
Bir sor kiminlə girir?!
Amma sorma, amma sorma.
Heç sorma sən bunu bizdən.
Casus sənə doğrusunu söylədi.

Nə dedisə, doğru dedi.
Dəli Qarcar ha dirəndi, alınmadı.
Dədəm Qorqud o istəyən malları gətirdi.
Sevgililər həsrətini gedirdi.
Boz ayğırlı Beyrək bəy
sabah gərdəyə girir.
Heç sorma kiminlə girir.
Bayburd. Kiminlə girir???
Xor. Kiminləmi sorursan???
Dünyalar gözəli
Baybecan bəyin qızı
Banuçiçəklə.
Musiqi susur. Casusun rəqsi bitir.

Bayburd. *(şaşqın)* Kiminlə, kiminlə??? Baybecan qızı Banuçiçəkləmi???

Casus. Bəli, bəyim. **Baybecan bəy öncədən sənə verdiyi qızını indi Beyrəyə verir.** *(Musuqi gurlayır və susur).*

Bayburd. Oyləmi? Ah, Baybecan, niyə öldün, niyə getdin?! Haradasan?! Adamlara inam yoxmuş.

Casus. Oylə. Oylə. Bu dünyada inanılası adammı qaldı, bəyim?!

Bayburd. Doğru dersən. Qalmadı. Baybecanın bəs mənə verdiyi söz nə oldu?! O da qalmadı. Bir qızı bunlar neçə dəfə ərə verəcəklər?! Olsun.

Bəs belə isə o zaman biz də işimizi bilək. Beyrəyi elə bu gecə gərdəyindən oğurlayaq. Bayburdda qonaqlayaq. Onun yeri burda həbsdədir. Bir adam belə Beyrəyin harada olduğundan xəbər tutmayacaq. İndi isə... Görəlim, Baybecan bəyin qızının düyünü adaxlısı olmadan necə keçəcək?! *(səhnə arxasına bağırır)* İgidlərim! İgidlərim! Atlanın. Səfər var. Səfərimiz İç Oğuza. Beyrək denilən o uşağın düyün məclisinədir. Haydı...

Bayburd tərəfdə işıq sönür. İşıq gərdəyin üzərində güclənir.

Naiblər və Beyrək rəqs edirlər. Qəflətən kafirlər hücum edib bu rəqsə qoşulur və naibləri əsir alırlar. Beyrək də onlarla bir yerdə əsir edilib aparılır. Əsir edilmə səhnəsi rəqs üzərində qurulur.

Kafirlərdən biri *(gedərkən bağırır).* Bəysiz düyün necə olar, biz sizə göstərərik.

5-ci hissənin sonu

Xor. Yarımasın, yarçımasın, casus xəbər apardı
Beyrək əsir getdi belə.
Həyatından on altı il qopardı,
Yanar ocaq döndü külə.
Banuçiçək xəbər aldı
Baybura bəy xəbər aldı,
Qara geydi Qalın Oğuz.
Hamı qəmgin, hamı məyus...
Qazan durub min bir yerə adam saldı.
Dəli Dondar, Qarabudaq, Qanturalı bunaldı.
Oğuza matəm girdi,
Bilinmədi bu ölüdü, ya diridi.
Banuçiçək ağı dedi,
Səni harda gizlətdi yağı dedi.
Bir də dedi:
“Vay al duvağım yiyəsi,
Vay şah yigidim,
Vay şahbaz yigidim.
Doyunca yüzünə baxmadığım, xanım yigit,
Qanda getdin məni yalqız qoyub, canım yigit?!
Göz açıban gördüyüm,
Könül verib sevdiyim,
Bir yastıqda baş qoyduğum,

Yolunda öldüyüm, qurban olduğum.
Vay Qazan bəyin inağı,
Vay qalın Oğuzun güvənci Beyrək!..”
Banuçiçək ağ çıxarıb qara geydi,
Beyrəyi gözləməkdən usanmadı.
Söylədi, söylədi, dedi, dedi
Sözləməkdən usanmadı.
Baybura bəy ağlamaqdan kor oldu.
İllər keçdi, on altı il...
Oğuz eli Beyrəyi
Gözləməkdən yoruldu.
Bir gün
Dəli Qarcar Qazan xana gəldi görək
nə dedi, nə söylədi?!

Səhnədə Qazan, Dəli Qarcar, bəylər.

Qarcar. Qazan xan! Qalın Oğuzun umudu, dövləti! Qalmış yigid arxası! Ümmət soyunun arslanı! Qaracuğun qaplanı! Qonur atın əyası! Xan Uruzun ağası! Bayındır xanın göygüsü!

Qazan. Sağ ol, sağ ol, Dəli Qarcar. Ehtiyac yoxdu bu sözlərə. Buyur, xoş gəldin, səfa gətirdin. Diləyin nəymiş?

Qarcar. Dövlətli xanın ömrü uzun olsun. Sözüm Beyrək barədədir. Beyrək gedəli on altı il keçdi.

Hələ də ölüsün-dirisin bilmədik. Diri olsa idi, ya xəbəri gəlirdi, ya da özü gəlirdi.

Qazan. Doğru söylərsən. Nə o gəldi, nə bu gəldi. O zaman nə edəlim?

Qarcar. Xanım. Bir yigit varsa, bunun dirisi xəbərin gətirsə, altun axça verərdim, ölüsü xəbərin gətirsə, qız qardaşım Banuçiçəyi ona verərdim. Bu müəmmanı çözəlim, xanım.

Qazan. *(kənarda duran bəylərə).* İgidlərim yaxın gəlin. Dəli yigidi dinlədiniz. Ağıllı danışır. On altı il keçdi Beyrək yox olalı. Nə tez gəldi keçdi illər?! On altı ildə bunun nə dirisi bəlli oldu, nə ölüsü. Amma yenə də, bəlkə... sanki kiçik bir ümid... Kim bu işi boynuna alar?

Yalançı. Mən allam, sultanım. Mən gedərəm. Gedib bunun ölüsü-dirisi xəbərini gətirrəm. *(öz-özünə*) Beyrək mənə bir kömlək vermiş idi. Onu götürməm lazım. *(Qazana)* İzin varmı, mən gedim, xanım??!

Qazan. Sən ki getmək dilərsən, o zaman yolun açıq olsun, sən get.

Xor. Yalançımı yola qondı?!
Bu dünya kimə inandı?!
Yalançıyamı inandı?
İnam sındı, vəfa sındı.

Bəylər, bəylər,

Beyrək buna bir kömləyin nə zamansa bağış etdi.

O kömləyi bu geyməyib saxlamışdı.

İndi onu alıb getdi.

O kömləyi bir-iki quş avladı, onların

Qanına batırdı Yalançı.

Qazan xana gətirdi Yalanşı.

Gəldi, görəlim nə dedi?!

Səhnədə yenə Qazan, Dəli Qarcar, Yalançı və bəylər.

Yalançı. Baxın, bəylər! Bu kömlək Beyrəyin kömləyidir. *(kömləyi bəylərə göstərir)* Qanı dəxi üstündədir, görürmüsünüz?

Qazan. *(kömləyə baxmaq istəmir)* Mənə göstərmə, mən baxa bilməm. *(Yalançıya)* Amma... söylərmisən, nədən sənə inanaq ki, bu Beyrəyin kömləyidir? Ürəyimdə bir səs deyir, bəlkə...

Yalanşı. Beyrəyindir, bəyim. İnan mənə. Mənə nə düşüb yalan danışım?! Mən ömrümdə yalan demədim ki... Beyrəyi Qara Dərvənddə öldürmüşlər. Üstündəki qan da Beyrəyindir. Birdən elə bilərsiniz, qurd-quş qanıdır?! Oylə deyil.

Qazan. Sənin ayaman... *(Dəli Qarcara)* Görürmüsən, qan dəxi Beyrəyin imiş...

Qarcar. Bu kömələk? Bəlkə qız qardaşım bilər, Beyrəyindir, ya deyil. Hər halda o tikmişdir, qayət.

Qazan. Doğru. Mən də onu düşündüm. Köməlyi qız qardaşına göstər. O bilər.

Dəli Qarcar köməlyi alıb çıxır. Səhnə arxasından Banuçiçəyin fəryadı.

Banuçiçək *(səhnə arxaslndan)* Vay, göz açıban gördüyüm! Könül verib sevdiyim! Vay, al duvağım yiyəsi! Vay, alnım-başım umudu, xanım Beyrək! Neçin getdin məni yalqız qoyub canım Beyrək?! *(Fəryad bitir. Sakit səslə)* Kömələk onun köməlkdir. Mən tikmişdim.

6-cı hissənin sonu

7-ci hissə

Xor:
Bəylər, bəylər, bilirmisiz nələr oldu?!
Banuçiçək Yalanşıya gedər oldu.
Baybura bəy son çarəyə əl atdı.
Bəzirganları yanına çağırtdı.
“Gedin, – dedi, – yaxın-uzaq ellərə
Beyrəyimdən mənə xəbər gətirin.
Şad xəbərlə geri dönün, sevinək
Qəm-kədəri el-obadan gedirin”.
Bəzirganlar yola düşdü, nə düşdü
Uzaqlarda gedib gözdən itdilər.
Trabzona, Rum elinə getdilər,
Yaxınlara uzaqlara getdilər,
Qara Dərvənd, Bərdə, Bakı qalmadı
Haralardan haralara getdilər.
Gəlib sonda Bayburd bəyin qalasına yetdilər.
Bəzirganlar durub-durub nəetdilər?!
Saz götürüb Beyrək bəyi andılar.
Oxudular, sısqadılar, ağladılar,
Beyrək bəyin ürəyini dağladılar.
Beyrək Bayburd qalasında həbsdəydi.
Bəzirganlar oxudular, qulağına
doğmaca bir səs dəydi.

O da sazı ələ aldı, nə aldl,
Səsi gedib hər bir yerdə ucaldı.

Beyrək həbs otağında. Bayırdan bəzirganları dinlər. Onların səsi gəlir.

Bəzirganların sazla səsi.
Beyrək, Beyrək, sağmısan, əsənmisən?!
Burdamısan, deyilmisən?
Səsimizə səs verəydin barı sən.
Əgər sağsan, söylə bizə
On altı il sən burada neylirsən?!
Heç sevgilim Banuçiçək nerədədir,
yada salıb darıldınmı?
Babam, anam, qardaşlarım,
Yar-yoldaşım deyübəni
Için-için yarıldınmı?!
Söylə, verək söz sözə.
Beyrək, Beyrək, ünümüzü dinlə, Beyrək,
Səs ver bizə. Səs ver bizə.
Beyrək bəzirganların səsinə səs verir.
Beyrək. Bəzirganlar, xoş gəldiniz.
On altı il həsrət qaldım el-obama,
Amma, amma
Sizlər məni unutdunuz sanırdım.
Alışırdım, qovrulurdum, yanırdım.

Darılırdım Banuçiçək sevgilimə.
Baba-ana həsrətinə darılırdım.
Yar-yoldaşın möhnətinə darılırdım.
Uca qala divarları gecə kimi lal,
Uca imiş bu qala.
Burdan qaçmaq bir xəyal.
Bu həbsdə mənim üçün zaman yox.
On altı il necə keçdi - bilmədim.
Həbsxana həyatında aman yox,
Göz yaşımı bircə gün də silmədim.
Bəzirganlar, deyin mənə.
Banuçiçək sorar olsam, sağmıdır, əsənmidir?
Babam, anam sorar olsam,
Xan Qazanı sorar olsam,
Şirşəmsəddin, Aruz Qoca,
Dədə Qorqud...
Sağmılar-əsənmilər?
Diliniz üçün ölləm,
Sözünüz üçün ölləm.
Qara başım qurban sizə
Məni ölmüş bilməyəsiz
Tanrı inayət eylərsə,
Gələcəyik üz-üzə.
Bəzirganlar. Beyrək, Beyrək! Xanım Beyrək.
Canım Beyrək!

Qazan xanı sorar olsan, sappasağdır.
Dədəm Qorqud əsəndir.
Baban – anan sağmı, sağdır.
Baybura bəy ağlamaqdan sənin üçün kor oldu
Ağlamaqdan yar-yoldaşın yoruldu.
Banuçiçək... *(susurlar)*
Beyrək. Banuçiçək?
Bəzirganlar. *(musiqisiz, sözlə)* Onu sorma.
Yarımasın, yarşımasın, Yalanşı sənin öldüyün xəbərini gətirmiş, qızı ona verəcəkmişlər. Əgər sən özünü bu gün – yarın yetirməsən Oğuza.
Beyrək. Oyləmi??
Bəzirganlar. Oylə. Oylə... *(yenə musiqi ilə)*
Özünü yetir, Beyrək
Həsrəti gedir, Beyrək.
Banuçiçək əldən gedir,
həqqən əldən gedir, Beyrək.
Banuçiçək əldən gedir, gedir, gedir...
Xor. Banuçıçək əldən gedir, əldən gedir, gedir,
Xanım Beyrək,
Canım Beyrək.
Bu həsrəti gedir, Beyrək.
Özünü Oğuza yetir.
Həyat mənə Beyrəksiz heçdir deyir
Banuçiçək.

Bir də deyir:

Beyrək özünü yetirsin,

Bu həsrəti, qəm-kədəri gedirsin.

Son sözləri xor təkrar edir. Yavaş-yavaş səslər eşidilməz olur. Və nəhayət, səslər kəsilir. Beyrək pəjmürdə halda çəkilib bir kənarda oturur. Sükut. Beyrək hərdən yerindən sıçrayıb qalxır, qeyzlə fırlanır, yenə gəlib oturur. Qəflətən şad nidalı musiqi səslənir. Qızlar və kafir qızı oynaya oynaya gəlirlər. Beyrək onları görüb gizlənir.

Kafir qızı. Beyrək, başımın tacı! Hardasan? Sən yoxmu oldun?! Burdasan... *(Beyrəyi gizləndiyi yerdən çıxarıb səhnənin önünə gətirir.)* Sənə noolmuş, bəyim?! Pəjmürdə gördüm səni. Söylərmisən, rahatsızmısan, xəstəmisən? Qızlar, susun. Gedin, qızlar.

Qızlar çıxırlar.

Beyrək. *(cavab vermir, susur)* Heç.

Kafir qızı. Yox, sənin nəyinsə var. Necə yəni, heç... Görməz olurmuyam mən?! Nə isəbaş vermişdir. Söylə mənə. Heç gizlətmə. **Hər gəldiyimdə səni şən görərdim. Deyərdin, gülərdin, şimdi nooldu sənə**?

Bu son sözlər səslənən zaman musiqi gurlayır.
Beyrək də, Kafir qızı da şaşqın. Musuqi susur.

Kafir qızı. Bəli, bəli, hər gəldiyimdə səni şən görərdim. Deyərdin, gülərdin... Şimdi nooldu??? Məni gördün, sevinmədinmi?

Beyrək. Sevindim. Amma... Bəzirganlar Oğuzdan mənə xəbər gətirdilər.

Kafir qızı. Nə xəbərmiş o elə?

Beyrək. Bu xəbər yaman xəbərdir.

Kafir qızı. Söylə mənə, dinləyirəm. Dərdin nədir, Beyrəyim?!

Beyrək. Oğuzda məni ölmüş bilirlər. Yalançı adlı bir kişi var, o mənim qanlı kömləyimi gətirmiş, göstərmiş, Beyrək ölmüşdür demiş. Hər kəs məndən ümidini üzmüş... Bir yavuqlum var idi – Banuçiçək. Onu Yalançıya ərə verəcəkmişlər...

Kafir qızı. Həəə... Bu heç yaxşı xəbər olmadı. Bizdə yalançılara cəza verirlər. Sizdə belə etmirlərmi?! Nə isə... Yaxşı, indi nə edəcəksən?

Beyrək. Bilməm ki. Babamın da gözləri ağlamaqdan tutulmuşdur, yar-yoldaşım ağ şıxarıb qara geymişlər. Nə edəcəyimi bilməm. Bircə Oğuza bir anlıq gedə bilsəydim... Özümü göstərə bilsəydim... Dost-düşməni ayırd edə bilsəydim. Başqa heç nə istəməm.

Kafir qızı. Oyləmi? Bunumu dilərsən? O zaman dinlə məni. Diqqətlə dinlə.

Beyrək. Qulağım səndədir.

Kafir qızı. Mən sənin əzabına dözə bilmənəm. Bir bax, nə deyəcəyəm?! Əgər mən... əgər mən səni orğan ilə qala divarlarından sallandırsam, sən də Oğuza sağ-salim dönə bilsən...

Beyrək. Dilə məndən nə dilərsən. Altın-axçamı dilərsən? Həyatımımı dilərsən?!

Kafir qızı. Altın-axçan özünə qalsın. Həyatını da diləməm. Amma yurduna-yuvana dönəndən sonra gəlib məni burda halallıqla alarmısan? Mən bunu dilərəm. Sən ki bunu bilirsən, Beyrək, mən səni sevdim...

Beyrək. Mənmi? Sənimi? Halallığamı? Niyə də yox?! Mən sənə bir könüldən min könülə ...

Kafir qızı. Onları saxla. Geri dönüb məni halallığa alarmısan – onu söylə.

Beyrək *(ayağa qalxır).* Həqqən mənim buradan qaçmağıma yardım edərmisən? Edərsənsə... *(təntənəli şəkildə)* Əlbəttə və bir daha əlbəttə!!! Oxuma sancılayım, qılıncıma doğranayım, gəlib səni halalığa almaz isəm!..

Musiqi səslənir, göy guruldayır. Beyrəyin sözləri əks-səda kimi uzaqlarda təkrar-təkrar səslənir: Oxuma sancılayım, qılıncıma doğranayım...

Xor.

Ah, Beyrək! Of Beyrək!
Bu sənmisən, igid Beyrək?!

Bu sözləri sənmi dedin?
Deyincə deməyəydin.
Bu yəmini sənmi etdin?
Edincə etməyəydin.
Sözlər düzüldü yan-yana,
Şəlalə tək axdı artıq.
Geri gələn yol – qapandı.
Ox yayından çıxdı artıq.
Odur, odur, Beyrək qala divarından
Yerə endi tərlan kimi.
Boz ayğırın harayladı...
Beyrəyin səhnə arxasından fit səsi eşidilir.
Boz ayğırın kişnərtisi bu fit səsinə qarışır.
Boz ayğırın harayladı, boz ayğır gəldi
Mindi ona aslan kimi.
Uca qala divarları gecə kimi lal
Ondördgünlük ay da ona yol göstərirdi.
Kafir qızı öpdü onu – dodaqları bal,
Banuçiçək uzaqlarda yol gözləyirdi.
İldırım tək çaxdı, getdi, itdi uzaqda
Bir həsrətli yuxu imiş bu Oğuz yolu.
Boz ayğırlı Beyrək oldu nöqtə uzaqda,
Kafir qızı hasar üstə, gözləri dolu...

7-ci hissənin sonu

8-ci hissə

Beyrək Oğuzda. Düyün məkanı. Bəylər, qadınlar, uşaqlar kimi rəqs edir, kimi əlində yeyəcək daşır, kimi də bir-birilə söhbətdədir. Beyrək gizlənə-gizlənə gəlir.

Beyrək. Bu saqqalım olmasaydı, məni tanırdılar. Hələ bir mən bunlardan saxlanım, görüm dostum kim, düşmənim kimdir.

Səhnəyə bir ozan çıxır. Əlində sazı var.

Beyrək. *(Ozana).* Ozan, dur, bu gördüyüm düyün kimin düyünüdür?

Ozan. Bilməzmisən?

Beyrək. Xayır, bilməm.

Ozan. Baybecan bəyin qızı Banuçiçəyin düyünüdür. Yalançı var, ona ərə gedir.

Beyrək. Oyləmi?

Ozan. Oylə, oylə.

Beyrək. Bəs Banuçiçək Beyrəyin nişanlısı deyilmiydi?

Ozan. Bir zamanlar oylə idi. Amma Beyrəyin öldü xəbəri gəldi. Qanlı kömləyini Yalanşı gətirdi. Qız indi Yalançıya varır.

Beyrək. Ozan, sazını mənə verərmisən?

Ozan. Vermənəm.

Beyrək. Sazını verərsən, bax, orada duran atımı *(səhnə arxasında atı göstərir)* sənə verərəm.

Ozan. Həqqənmi?

Beyrək. Həqqən, həqqən.

Ozan *(öz-özünə)* Nəfəsim korşalmadan bir at idi keçdi əlimə. *(Beyrəyə)* O zaman verərəm. Al sazımı, dəli ozan. Qoy sənin adın dəli ozan olsun.

Beyrək (sazı alır). Olsun, olsun. Sən hələ dur. Mən bunlara göstərəcəm dəli ozan kimdir, nəçidir.

Ozan. Di, mən getdim. *(səhnədən çıxır).*

Beyrək. Yolun açıq olsun. *(boğazını arıtlayır).* Mən dəxi düyünə gedim. Dostumu, düşmənimi seçim ayırım. Düyünün qanlı olsun, Yalançı... Sən görəcəksən yalan sözün xətası necə olur. Dədəm Qorqud söylərdi, yalan söz bu dünyada olunca, olmasa yey. *(Xora)* Deməyə sözünüz varmı, yoxmu?

Xordan bir nəfər. Var, əlbəttə, var. Olmazmı, canım Beyrək?!

Beyrək. O zaman söyləyin sözünüzü. Mən getdim. *(gedir).*

Xor.

Yalan söz bu dünyada olunca olmasa yey.
Beyrək düyünə gəldi,
Nələr yapdı, bilirmisiz?!
Ox atdı, oxu ilə

Yalançının oxun dəldi,
Qazan xana söz söylədi,
Varın-dövlətin dolsun.
Qazan xanın şəfqət qanı qeynədi
Buyruq verdi Qazan xan.
Bu günkü bəyliyim
Dəli ozanın olsun.
Yemək verin, yesin, içsin doyunca, yorulsun.
Don verin, çuxa verin,
arzuları yetsin sona.
Nə istərsə verin ona.
Bir də ürəyində dedi:
"Şəfqət qanım qaynadı,
Ürəyimdə sevgilərim oynadı,
Sanki Beyrəyi gördüm,
Sanki dəli ozan deyil,
sanki Beyrək qarşımdadı".
Qazan dedi
Nə istərsən, istə məndən...
İşıq bir tərəfdə yanır.

Qazan xan düyündə oturub. Beyrək qarşısında. Bəylər toplaşıb.

Qazan. Şəfqət qanım qaynadı. Nə istərsən istə məndən.

Beyrək. *(düşünür, düşünür, birdən bağırır).* Qızların yanına getmək istərəm.

Bəylər hərəkətə gəlir. Beyrəyi tutmaq istərlər. Bəylər hiddətlidir.

Bəylər. Allah, allah, nə söylədin sən, dəli ozan?! De ki, bilmədim, ağzımdan çıxdı. De ki, qəlbimdən çıxmadı. Sən düyünə qanmı salmaq istirsən?!

Beyrək. Bəli, bəylər. Qızların yanına getmək istərəm. Mən qopuz çalam, ərə gedən qız qalxa, əl götürə oynaya istərəm. Mənim başqa məqsudim yox, biləsiniz.

Qazan *(Beyrəyi diqqətlə süzür).* Bəylər, qoyun haraya gedirsə getsin. Nə istərsə etsin. Bu günkü bəyliyim bunun olsun. Razı qaldınmı, dəli ozan?! *(öz-özünə)* Şəfqət qanım qaynadı, ürəyimdə nə vardısa oynadı, xatirələr oyandı... Dəli ozan, inağım Beyrəyə oxşadın. *(elə bil, yuxudan oyanır.)* Nə isə... Get, dəli ozan. Bu günkü bəyliyim sənindir.

Beyrək gizli göz yaşını silir, baş endirir.
Sazını sinəsinə sıxıb çıxır.

Bəylər. Oyləmi?

Xor. Oylə, oylə.

8-ci hissənin sonu

9-cu hissə

Qadınların, qızların düyün yeri. Burla xatun, Banuçiçək, Boğazca Fatma, başqa oğuz qadınları yemək məclisindədirlər. Beyrək və Şirşəmsəddin daxil olurlar. Xatunlar bir-birinə qısılır.

Burla xatun. *(ayağa qalxır, hirslə)* Bu hələ kimdir, Şirşəmsəddin? Sizə düşərmi bitəklif buraya gələsiniz?

Şirşəmsəddin. Xanım, bu, bir dəli ozandır. Xanımızın qəlbinə necə girdisə, bugünkü bəyliyim bunun olsun dedi.

Burla xatun. Oyləmi?!

Şirşəmsəddin. Oylə, oylə, Burla xatun. Özü istədi, xatunların arasına gəlsin. Qazan xandan buyruq oldu. Nə istərsə etsin dedi.

Banuçiçək. Bu dəli ozan nə etdi ki, xanımızın qəlbinə girdi?

Beyrək. *(Banuçiçəyin üzünə baxmadan)* Beyrəyin oxun atdım, hədəf vurdum...

Qadınlar şaşqın.

Banuçıçək. *(Beyrəyə)* Beyrəyin oxun atdın? Sənmi?

Şirşəmsəddin. Atdı, xatun. Vurdu, xatun. Bu, bu...

Banuçiçək. O yayı çəkən yox, o oxu atan yox...

Beyrək. *(yenə də kənara)* Haqq-taala inayət etdi, xanım. Mən kiməm ki...

Burla xatun. Bəs bizdən istəyin nədir, ozan?! Bir məqsudin varmı?

Beyrək. Var, xanım.

Banuçiçək. Var imiş... Nədir sənin məqsudin?

Beyrək. Məqsudim odur ki, mən qopuzumu dilləndirim, ərə gedən qız qalxsın, oynasın. Məqsudim budur. Başqa bir şey istəmənəm.

Burla xatun. Elə bu?

Beyrək. Elə bu.

Banuçiçək. *(yavaşdan Burla xatuna)* Mən ömrümdə oynamam.

Burla xatun. Sən dur, qız. *(Boğazca Fatmaya)* qalx, qız, sən oyna. Nə biləcək dəli ozan?! *(Beyrəyə)* Ərə gedən qız budur. Çal çalacağını.

Boğazca əl qaldırıb bir az çalğısız oynayır.

Beyrək. Dur hələ. Evinizin ardı dərəcik deyilmiydi? İtinizin adı Bəraqcuq deyilmiydi? Sənin adın ...

Boğazca Fatma yerə oturur, əli ağzında. Hamı sükut içində.

Beyrək. Sənin adın qırx oynaşlı Boğazca Fatma deyilmiydi? Ərə gedən sən deyilsən. Ərə gedən qız neçin ayağa qalxmır?!

Fatma. Aman, aman... Bu bizdə ayıb qoymadı. *(Banuçiçəyə)* Dur, qız oynarsan oyna, oynamazsan çəhənnəmdə oyna. Bütün paxırlarımızı dəli ozan açdı, tökdü.

Burla xatun. *(Banuçiçəyə)* Nə edə billik?! Beyrəkdən sonra başına gələnləri bilməliydin. Dur, qız, gizlənməkdən keçdi daha.

Banuşişək qalxır, əl qaldırıb durur. Musiqi yox.

Banuçiçək. *(İrəli çıxır)* Çal, ozan. Ərə gedən qız mənəm. Çal, sənincün heç kimə oynamadığımı oynayacağam.

Beyrək. *(diqqətlə Banuçiçəyi nəzərdən keçirir)* Bəli, sənsən, xan qızı. Amma sənin barmağına nə olmuş? Niyə barmağını gizləyirsən? *(ətrafdakılara)* Xan qızının barmağı eyiblimidir gizlər?

Xatunlar. Biz görmədik. Biz bilmədik. Barmağına nə olmuş, qız? Göstərərmisən?

Banuçiçək ovucunu açır. Barmağında Beyrəyin taxdığı altun üzük görünür.

Banuçiçək. Heç bir eybim yox. Bax, baxdığın qədər. *(Beyrək diqqətlə baxır)* Yetərmi? İndi çal, ozan, daha məndə taqət qalmadı. Deməyə hacət

qalmadı. Beyrək getdi, çəkmədiyim dərd qalmadı. Çal, ozan, çal, mən buna da dözərəm.

Beyrək saz çalır, Banuçiçək oynayır.

Beyrək *(çala-çala oxuyur).* Beyrək gedəli qarşı yatan dağ başına çıxdınmı, qız? Qarğı kimi qara saçın yoldunmu heç? Beyrək getdi, nerdə qaldı deyü ağladınmı? Güz alması tək al yanağın yırtdınmı? Gələn ilə gedəndən Beyrək nerdə sordunmu? On altı il nədir ki?! Nə tez oldu sən Beyrəyi unudalı?! Barmağındakı altun üzük sənin deyil, sən ki ərə varırsan, o üzük Beyrəyin üzüyüdür, ver onu mənə.

Banuçiçək. *(oynamağını saxlayır, musiqi susur).* Bəli, Beyrək gedəli hər gün yerdən uca yamaclara çox çıxdım, gedər-gəlməz yollara çox baxdım. Çox ağladım, çox sısqadım. Al yanağımı çox yırtdım. Gələn ilə gedəndən Beyrək nerdə çox sordum. Beyrək gedəli, erkək sinək üzərimə qondurmadım. Bu üzük həqqən Beyrəyin üzüyüdür. Sən kimsən ki?! Onu sənə verəməm.

Beyrək. Mənimkidir o üzük, xan qızı. Beyrək mənəm.

Banuçiçək. *(Beyrəyə yaxınlaşır, diqqətlə ona baxır).* Göz açıban gördüyüm, könül verib sevdiyim Beyrək... sən deyilsən. Üzük sənin deyildir. Amma

əgər sənindir dersən, altun üzüyün çox nişanəsi vardır. Altun üzüyü istərsən, nişanələrini söylə. Nooldu?! Susursan...

Beyrək. *(gülür)* Ha-ha-ha... Xan qızı, mən sənin göy çəməndə tikdiyin çadırın üzərinə keyikləri yığmadımmı? Sənlə görüşmədikmi?! Demədinmi, ol qız elə adam deyildir, sənə görükməz. Demədinmi, gəl yarış edəlim. Mən dəxi sənə edəlim demədimmi? Sənin ilə meydanda at çapmadıqmı?! Boz ayğırım sənin atını keçmədimi?! Ox atanda mənim oxum sənin oxunu yarmadımı?! Güräşdə mən səni basmadımmı?! Sonra...sonra nə oldu, onu da söyləyimmi?!

Beyrək danışdıqca Banuçiçək haldan hala düşür.

Banuçiçək *(halsız).* Yetər, yetər...

Beyrək. Yaxşı, daha söyləməm. Xatırladın qayət.

Xordan bir nəfər. İstərsəniz, yerdə qalanını biz söyləyəlim.

Xor. Xan qızı, xan qızı!
Sonunda Beyrək səni üç öpüb bir dişləmədimi?
Altun üzüyü barmağına keçirmədimi?!
Daha nəyi duymaq istərsən?!
Yenədəmi söyləyəlim?
Sevişdiyin Beyrək budur, bəlli bilgil.

Musiqi guruldayır və Banuçiçək taqətsiz Beyrəyin ayaqlarına yıxılır. Şirşəmsəddin tez çıxır.

Boğazca Fatma. Yəni, dəli ozan Beyrək imiş?!

Burla xatun. Yəni...

Qazan, ardınca Şirşəmsəddin, ardınca bəylər qaçaraq gəlirlər. Yalançı Beyrəyi görüncə səhnədən tələsik çıxır.

Şirşəmsəddin. *(gələ-gələ)* Mən duymuş idim, ağam Qazan. Bunun suyu əvvəldən mənə şirin gəldi. Beyrəyin ki, yayın çəkdi, oxun atdı... O zaman duydum.

Qazan. Mən inanırdım, mən inanırdım ki, o qayıdacaq. Babasına, anasına muştçu getsin. Düyünü yenidən başlayın. Gəl, igidim, gəl aslanım...

Musiqi. Qazan qollarını gen açır. Beyrəyi qucaqlamaq istəyir. Beyrək Banuçiçəyə sarılmış.

9-cu hissənin sonu

10-cu hissə

İşıq səhnənin bir tərəfinə – Qazan xanın evinin üstünə düşüb. Qazan xan və Şirşəmsəddin.

Şirşəmsəddin. Xanım, deyirəm, bəlkə sabahkı yağmaya Dış Oğuzu da çağıraq?! Hələ vaxta var, yetişərlər.

Qazan. Yox, gecdir. Yetişməzlər.

Şırşəmsəddin. Xanım, biləsən, bərk narazılıq olacaq. Dış Oğuzdan üsyan qoxusu gəlir.

Qazan. Eyb etməz. Dostumuzla düşmanımızı yaxşıca tanırıq.

Şirşəmsəddin. Nə deyirəm?! Olsun. Amma... Bəlkə Dədə Qorquda məsləhət edəsən?

Qazan. Yox, igidim. Məsləhət yeri deyil. Sabah tezdən mən Burla xatunun əlindən tutub bu evdən çıxacağam. İç Oğuzda kim varsa, gəlsin, nə istir, bu evdən götürüb aparsın.

Şirşəmsəddin. Amma xanım...

Qazan. Amması yoxdur, aslanım. Aruz Qocanı sınamamız lazım. Bərk ayaqda bizim ona güvəncimiz ola bilir, yoxsa...

Şirşəmsəddin. O da düzdür. Yadındamı, sən Ala dağa ova çıxanda o səndən sordu: "Ordun üstə kimi qorsan?" Özünü istərdi. Sözü-söhbəti də eləcə

oğlu Basatdı ki, Basat. Oğuzu Təpəgözün əlindən kim qurtardı? Basat. O zaman verin Basatın ödəncini. Elə Basat, Basat deyir...

Qazan. Oyləmi?

Şırşəmsəddin. Oylə, xanım, oylə.

Burla xatun gəlir.

Qazan. Xan qızı. Sabah evi yağmaladıram. Hazırmısan?

Burla xatun. Hazıram, Qazan.

Qazan. Gözün arxada qalmayacaq, oyləmi?

Burla xatun. Oylə, oylə.

Qazan. O zaman gedim, mən də hazırlanım.

İşıq sönür. Səhnənin o biri başında Aruz Qocanın evinin üstündə yanır. Aruz Qoca. Dış Oğuz bəylərindən Basat, Dəli Dondar, Dəli Qarcar və başqaları oturublar.

Aruz. Bəylər, biləsiniz. Qazan evini yağmalatdı. İç Oğuz bəylərini yağmaya çağırdı, amma Dış Oğuz bəylərini çağırmadı.

Bəylər. Ola bilməz! Olurmu? Necə belə bir iş tutar? Buna bir cavab verməmiz lazım...

Aruz. Mən Qazana düşmən kəsildim, biləsiniz.

Dəli Qarcar. Sənin dostuna dost, düşməninə düşmənik.

Dəli Dondar. Yığışalım, bəylər, yürüyəlim, ərənlər. Xoşluqla vermədiklərini zor ilə qılıncımızla alalım.

Basat. Yürüyəlim. Həpimiz burdayıq.

Aruz. Yox. Həpimiz deyilik. Beyrək bizdən qız almışdır. O da bizdən sayılır. Ona xəbər göndərmişəm, o da gəlsin.

Basat. Gələrmi?

Dəli Dondar. Gəlsə idi, Qazana ulu heyif edərdik.

Aruz. Gələr, gələr. Bizimlə olar, nə yaxşı. Olmazsa, mən onu tutaram, siz qılıncla vurarsınız.

Dəli Dondar. Beyrək gəlməz.

Beyrək gəlir.

Dəli Dondar. *(təəccüblə)* Beyrək gəldi. Xoş gəldin, Beyrək.

Aruz. Xoş gəldin, igidim.

Beyrək. Xoş bulduq. Aruz, məni çağırmışsan, gəldim. Məqsudin nə, sözün nəymiş?

Aruz. Bilirmisən, nələr oldu?! Beyrək, Beyrək. Qazan evini yağmalatdı. Hər dəfə yağmaya İç Oğuzla Dış Oğuzu bahəm çağırardı. Bu dəfə...

Beyrək. Bu dəfə...

Dəli Qarcar. Bizi çağırmadı.

Dəli Dondar. Olurmu heç?! Bizsiz olmaz.

Aruz. Biz Qazana düşmən olduq. Sən də bizimlə ol. Qoşul bizə.

Beyrək. Necə? Necə dedin?

Aruz. Xoşluqla vermədiyini zorla alaq.

Beyrək. Mən Qazanın əkməyini çox yemişəm. Bilməzsəm, gözümü tutsun. Mən sizinlə deyiləm, biəsiniz *(getmək istəyir).*

Aruz. Dayan, hara?

Dəli Dondar. Getmə, Beyrək.

Dəli Qarcar. Bizimlə ol.

Beyrək. Heç zaman.

Aruz. Bəs belə isə... *(Beyrəyi qucaqlayır)* Vurun bunu. *(Bəylərin vurmağa əlləri qalxmır)*

Basat. Al *(Beyrəyi qılıcla vurub yaralayır).*

Beyrək *(yaralı halda)* Bilsəydim, mənə bunu edəcəyini, Aruz Qoca, mən buraya igidlərimlə gələrdim. Xəyanətlə ər öldürmək necə olur, görəcəksiniz. Mənim qanım yerdə qalmaz. Qazan sizin cəzanızı, əlbəttə ki, verəcəkdir.

İşıq sönür.

10-cu hissənin sonu

11-ci hissə

Xor.

Qazan xana Beyrək xəbərin verdilər.
Səxt oldu, ağladı, yas saxladı.
Bir gün bəylər dedilər
Beyrək ölüm ayağında
Qazan mənim qanım alsın demişdir.
Beyrək ölüm ayağında bir də bunu demişdir:
(birnəfəsə) Qiyamət günü mənim əlim Qazanın yaxasında olsun, əgər mənim intiqamımı almazsa.
Qazan xan qoşunun yığır
Dış Oğuza varıb gəlir.
Axşam düşür ağır-ağır
Dörd tərəfdən "Ya Allahım!"
Nidaları yüksəlir.
Qazan bir zərbə ilə Aruzu atından salır.
Qardaşı Qaragünə başın kəsir Aruzun.
"Allah-allah" nidaları
Asimana ucalır.
Beyrək isə öz evində
Yatağında uzanmış.
Bir azdan son səfərə
Gedəcəkdir.

Başı üstə dayanmış
O qız Banuçiçəkdir.

Səhnənin bir tərəfində Beyrək evində yatağına uzanmış..
Başının bir tərəfində Banuçiçək.

Banuçiçək. Bir az da döz, xanım yigit. Bir az dəxi toparla özünü.

Beyrək. Qazan mənim intiqamım aldı demək. İndi rahat o dünyaya getmək olar.

Banuçiçək. Aldı, aldı Qazan sənin intiqamını. Aruz Qoca başından oldu. Dış Oğuz zəbun oldu. Dış Oğuz bəyləri bir-bir Qazandan üzr dilədilər, qılıncı altından keçdilər.

Beyrək. Oh, Ah...Bəri gəlgil, başım baxtı, evim taxtı. Qadınım, dirəyim, döləyim. Mən gedər oldum, biləsən. Ağlama. Heç bir kimsə bu dünyanı tutub durmaz. Bu, bizim biləsən, son görüşdür. Sağ-salim qal, sevdiyim. Məni xatırla... (ölür).

Banuçiçək. (göz yaşını zorla tutur). Mən səni xatırlamam. Mən səni unutmayacağam ki, xatırlayım. Səni mən unutmaram. Yolun açıq olsun, get. (birdən hönkürür) Vay, al duvağım yiyəsi. Vay alnım, başım umudu. Vay şah igidim. Vay şahbaz igidim...

Həzin musiqi səslənir. Kafir qızı peyda olur, o da Beyrəyin yatağının bu biri başında durur. Kafir qızı və Banuçiçək Beyrəyin əllərindən tutub yataqdan qaldırırlar. Üçünün rəqsini vida rəqsi də adlandırmaq olar.

Dədəm Qorqud gəlir. Əlindəki
qopuzu sinəsinə sıxır.

Qorqud Yum verəyin dəxi, bəylər.
Qadir tanrı namərdə sizi möhtac etməsin.
Çapar ikən atınız büdrəməsin.
Yerli qara dağlarınız yıxılmasın.
Kölgəlicə ağacınız kəsilməsin.
Haqq yandıran çırağınız yana dursun.
Daima odlana-odlana dursun.
Beyrək haqqa vasil oldu.
Ürəklər qan ağladı,
gözlər doldu.
göz yaşları qurumaz,
üzlər gülməz.
Amma bilin, bunu bilin:
əzəldən yazılmasa qul başına qəza gəlməz.
Bəylər, bəylər, a bəylər!
Qanı dediyim bəy ərənlər?
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi,

Fani dünya yenə qaldı.
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya.
Xor. Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya.
Qanı dediyim bəy ərənlər
Dünya mənim deyənlər?!
Əl aqibət, uzun yaşın ucu ölüm,
axırı ayrılıqdır.
Ayrılıqdan qorusun tanrım sizi.
Heç neyləyim deməyəsiz.
Sevəsiz, seviləsiz.
Yenə də, həmişə
sevəsiz, seviləsiz,
Sevəsiz, seviləsiz...

Musiqi sədaları altında Beyrək, Banuçiçək və kafir qızı öz vida rəqslərini davam edərkən.

SON

QUŞLARI YEMLƏMƏK VAXTI

(Tamaşa-monoloq)

Hələ də dəqiq bilmirəm – mən günahkaram, ya deyiləm?! Yəqin ki, məni günahkar sayanların əsas ittahamı sənin dünyanı tərk etməyin olacaq. Amma axı sən bunu özün istədin. Sən hər şeyi, hər kəsi unutmağa başlayanda huşun hərdən öz yerinə qayıdırdı. Bu bir neçə dəqiqə ərzində baş verirdi. Bu dəqiqələr, bu anlar bizim ən sevimli vaxtımız idi. Biz həyatımızın gözəl günlərini, saatlarını birlikdə xatırlayır, onların gözəlliyini, bizim üçün nə qədər sevimli olmalarını bir daha yaşayırdıq. Huşun yerində olan o nadir halların birində sən mənə dedin ki... Təkcə demədin. Mənə and içdirdin ki, mən bunu etməliyəm. Guya ki bu, sən huşun yerində olmayanda mənim bunu etməyim sənin üçün daha ağrısız və daha əzabsız olacaq. Mən qadın idim və mən sənə inanırdım. Niyə inanırdım?! Səni sevirdim – ona görə inanırdım.

Və mən bunu, nə qədər ağır olsa da, nəhayət, etdim. Sənin arzunu həyata keçirdim. Əslində, bunu etməyimlə səni həyatdan ayırdım. Mən sadəlövh idim. Məni bundan sonra nə gözləyəcəyini

hesablaya bilməmişdim. Sən mənə deməmişdin ki, bundan sonra məni hansı sınaqlar gözləyir. Həkimlər, polislər, yaxınlar, uzaqlar, qəzetlər, sosial şəbəkələr, tanıdıqlarım, tanımadıqlarım... Sanki onların hamısının həyatda ən böyük arzusu məni izləmək, məni ittiham etmək idi. Hamı məni məhv eləmək istəyirdi. Mən bilməzdim ki, insanlar bu qədər acımasız ola bilər... Sən mənə bu barədə heç bir söz deməmişdin. Amma mən bütün bunları əvvəlcədən bilsəydim, yenə də BUNU edərdim, səni o biri dünyaya göndərərdim. Nə üçün bunu edərdim?! Sənin ağrıların, əzabların mənim ağrıma, əzabıma çevrilirdi. Mən yavaş-yavaş sən olurdum. Niyə belə olurdu?! Səni sevirdim – ona görə. Sənə aldanıb aldanmamağımın mənim üçün heç bir əhəmiyyəti yox idi. Mən sənə çevrilirdim – dözülməz olan bu idi.

BUNU etmək asan olmadı. Əlbəttə ki, mən tərəddüd içində idim. Nəhayət, günlərin bir günü sən yenə də heç kimi xatırlamayanda mən tərəzinin bir gözünə sənin əzab və ağrı dolu həyatını, o biri gözünə sənin rahatlığını qoydum. Əzab tərəf ağır gəldi, çünki mən də tərəzinin o gözündə bir küncdə gizlənmişdim. Əlbəttə ki, biz tərəf ağır olacaqdı. Sonrası isə artıq asan idi. Mən səssizliyimin,

pərişanlığımın içində gizlənib uyğun bir vaxtı gözləməyə başladım. Gün günü kiçik saat əqrəbi saatın rəqəmləri arasıyla yeriyən kimi – o qədər yavaşca və ağır-ağır əvəz eləməyə başladı

Nəhayət, mənim üşün əsas vaxt gəldi. İstədim ki, huşun özünə qayıdanda ağrıdan bir anlıq da olsa uzaqlaşdığın anı tutum və səninlə vidalaşım. Sən huşunu itirəndən sonra ağrılar içində qıvrılanda vidalaşmanın bir mənası olmayacaqdı. Mənim sənə suallarım var idi. Bu mənim üçün çox vacib idi. Soruşmaq istədiklərim bunlar idi: Sən məni bağışlaya biləcəksənmi?! Mən də sənlə bir yerdə o biri tərəfə keçə bilərəmmi?! Bəlkə hansısa başqa bir dünyada biz sənlə yerimizi dəyişəcəkdik?! Sən də mənim üçün BUNU edə bilərdinmi?! O biri dünyada biz əgər bir-birimizi tanısaq, hər şeyi yenidən başlaya biləcəyikmi?! Bu suallara verilən cavablar mənim üçün çox əhəmiyyətli idi. Niyə?! Çünki mən səni sevirdim.

Sən yenə də məni aldatdın. Soyuqqanlı bir şəkildə, ağrıdan qıvrılsan da yavaşdan pıçıldadın:

“Mən də sənin üçün BUNU edərdim”.

Mənim gözlərim o zaman yaşardı.

“Niyə ağladın?!” – sən soruşdun. Sonra gözlərini yana qaçırıb əllərimi ovcunun içinə aldın və nəvazişlə sığallamağa başladın. Mən sənə cavab vermədim. Qəhər məni boğurdu, bir az da keçsə, hönkürtü vuracaqdım. Niyə ağlayırdım?! Elə bir an gəlmiş olsa, sənin çəkəcəyin əzabı, elə bil, indidən duymağa başlamışdım. Mən ağlayırdım. Səni sevirdim – ona görə.

...Bizim şəhərimizin gözəl bahar günləri olur. Belə günlərin birində mən şəhər bağındakı Böyük gölün kənarında dükandan aldığım çörəyi əlimdə didişdirə-didişdirə göldəki ağ rəngli, uzun boyunlu qu quşlarına atırdım. Quşların gözlədikləri yemək vaxtı gəlmişdi. Onlar böyük həvəs və coşqunluqla bu çörək parçalarını elə göydəcə qapmağa çalışır, ləzzətlə yeyirdilər. Buna yemək də deməz olmazdı. Onlar çörək parçalarını udurdular. Mən də bu quşlar qədər xoşbəxt idim. Ürəyim deyirdi ki, bu gün, nəhayət, çoxdan gözlədiyim o an gələcək. Sənin də ilk sözlərin xoşbəxtliyə aid oldu.

“Onlar xoşbəxtdirlər”. Arxamda səs eşitdim. Bu, sənin səsin idi.

“Sizə qoşulmaq olarmı?!” – Sən soruşdun və məndən cavab gözləmədən əlindəki çörəkdən parçalar qoparıb quşlara atmağa başladın.

Mən sənə diqqətlə baxırdım. Ağzımı açıb heç bir söz deyə bilmədim. Elə bil, nitqimi əlimdən almışdılar. Niyə?! Mən sənə ilk baxışdan məftun olmuşdum. Mən elə bildim ki, biz min ildir, bir-birimizlə tanışıq. Mən səni görən kimi sevdim, ona görə.

Sən mənimlə köhnə tanışın kimi danışmağa başladın:

“Məndən soruşsalar ki, bu an sənin ən böyük arzun nədir, belə deyərdim. Bu göldəki quşlardan birinə çevrilmək...”

Mən zorla da olsa özümü məcbur edib sual etdim. Bu mənim sənə ilk sualım idi:

“Niyə?”

Sən cavab verdin:

“Yox, qətiyyən ona görə yox ki, indi onlar bu çörək parçalarını belə acgözlük dolu bir ləyaqətlə göydə tutub udurlar. Və bu onları xoşbəxt edir”.

Mən soruşdum:

“Acgözlük və ləyaqət bir-birinin yanında necə yanaşı dura bilər?!”

Sən cavab verdin:

“Hansısa başqa bir dünyada, bəli, bu belə ola bilər”.

Sonra yenə əlindəki çörəkdən qoparıb quşlara ata-ata dedin:

“Ona görə quş olmaq istərdim ki, onlar kimi uça bilim. Onlarda qibtə etdiyim bir şey varsa, o da budur. Onlar uça bilirlər”.

İstədim, soruşam ki, uça bilmək sənə nə verəcək?! Niyə uçmaq istəyirsən? Amma heç nə soruşmadım. Çünki belə bir arzu mənim də qəlbimin dərinliyində ta uşaqlığımdan bəri var idi. Mən özüm də bilmirdim ki, günlərin bir günü qanad açıb uça bilsəydim, bu mənə nə verəcəkdi. Mən səni diqqətlə süzdüm. Sən də mənə tərəf döndün və sən də diqqətlə mənə baxdın. Mən gördüm ki, bizim qu quşlarına baxmadan onlara çörək atan əllərimizin hərəkəti həmahəng olub. Əllərimiz eyni dairəni cızır, şörək parçalarının eyni sürətini və eyni məsafəsini tənzim edirdilər. “Bəli, bu, odur!” mən düşündüm. Niyə belə düşündüm?! Çünki mən səni artıq sevirdim.

Sonra biz o hüzur dolu, kimsəsiz bağda gəzişə-gəzişə bir-birimizə qəribə sözlər deməyə başladıq. Bu sözlər həm tanış sözlər idi, həm də yeni

sözlər idi. Sənin mənə dediklərin mənim bizim görüşdən əvvəl düşündüklərimdən, duyduqlarımdan ibarət idi. Sən, elə bil, mənim içimdən çıxıb mənim yanıma gəlmişdin.

Sən deyirdin:

“Elə bir dünyada yaşamaq istərdim ki, iki üstəgəl iki beş etsin”.

Mən sənə ürəyimdəkiləri oxuya bilən adam kimi heyrətlə baxıb belə dedim: “Bunu mən hələ orta məktəbdə oxuyanda arzu edirdim”.

Sən deyirdin:

“Biz bu dünyaya neçə dəfə gəlmişiksə bunu unutmuşuq”.

Mən dedim: “Bir başqa dünyada biz bəlkə də göldəki quşlara deyil, şəhər heyvanxanasına gedib ordakı quşlara yemək üçün çörək atırdıq...”

“Hansısa dünyaların birində biz bir-birimizi tanıyırdıq...” – Sən dedin.

Amma yox, bəlkə də bunu mən dedim. Sonra yenə kimsə, ikimizdən birimiz belə dedik:

“Biz gərək o zaman bir-birimizə açar söz deyib o söz vasitəsilə indi bu dünyada bir-birimizi tanıya biləydik...”

Bu sözlərdən sonra ikimiz də gülüşdük. Əl-ələ verib bir xeyli gülə-gülə o bağda gəzişdik. Mənə elə gəldi ki, biz açar sözü bir-birimizə artıq dedik. Bu

necə oldu – bilmirəm. Niyə belə oldu – onu da bilmirəm. Mən səni sevirdim, yəqin ki, ona görə.

Şəhər bağında quşlara yem atandan sonra hər zaman sənin nə istədiyini sən deməmiş mən artıq bilirdim. Yox, bilmirdim, duyurdum. Məni də eynən sən duyurdun. Bunun özü hərdən maraqsız olurdu. Biz bir-birimizi təəccübləndirə bilmirdik. Təəccüb olmayanda isə aramızdakı yol – sənin-lə məni birləşdirən məsafə rahat və maneəsiz olurdu. Mən sənə çevrilə bildiyim kimi sən də mənə çevrilirdin. Biz bir böyük tama, bir böyük bütövə dönürdük. Niyə belə olurdu?! Bilmirəm. Bəlkə səni sevdiyimə görə belə olurdu?!

Və nəhayət, həmən gün gəlib üzünü bizə göstərdi. O gün təkcə sənin üçün deyil, mənim üçün də amansız gün idi. Mən yastığı sənin üzünə tutanda gözlərin hələ açıq idi və mən sənin gözlərini görürdüm. Onlarda yazılan minnətdarlıq hissini məndən başqa heç kim anlaya bilməz. Bu günə qədər o gözlərində gördüyüm minnətdarlıq, razılıq hissi bu gün də qəlbimdə yaşayır. Nəhayət, hər gözündən bir damla yaş süzüldü və sən gözlərini qapadın. Bu son idimi?! Yox, bu son deyildi, bu, başlanğıc idi.

Göldə quşlara yem verdiyimiz vaxtdan və bir-birimizi tanıdığımız andan bu ana qədər olan hər şey bir başlanğıc idi. Biz yenidən, hər şeyi yenidən yaşamağa başlayırdıq. Bizmi bunu istədik?! Yox, bunu **O** istədi. İndi mən sənə bir etiraf edim. İndi dediklərimi niyə deyirəm – bilmirəm. Nə deyirəm – onu da bilmirəm. Sözləri deyirəm, amma onları tanımıram. Nə isə...

Nə isə... Ürəyimə damıb ki, nəhayət, bu gün qarşıma məni sevən və mənim sevdiyim bir adam çıxacaq. Bunu mən hiss edirəm desəm, mənə inanın. İnanın mənə, mən onu dünyada heç kimin heç kimi sevmədiyi qədər sevəcəyəm. Niyə bu belə olacaq – bilmirəm. Nə isə... Gec qaldım. İndi isə şəhər bağına, gölün sahilinə. Quşlara yem vermək vaxtı gəldi. Geciksəm, olmaz. Bu gün nə isə baş verməlidi. Nə isə olacaq. Olacaq. Olacağın olmağına nə var ki... Mən bu gün bircə dənə olmayacaq istəyirəm. Olmayacaq. Olacağın olmağına nə var ki... Bircə dənə olmayacaq... olmayacaq...

GÜLÇÖHRƏ
VƏ
ƏSGƏR

(Pyes)

İŞTİRAKÇILAR:

Əsgər
Gülçöhrə
Xala
Süleyman
Asya
Məşədi Cabbar
Vəli
Telli
Məhkəmə sədi
Məhkəmə üzvləri (iki nəfər)
Qırmızı zabit
Cavan dustaq
Gombul nəzarətçi
2-ci nəzarətçi
Dustaqlar, qonşular, nəzarətçilər

I HİSSƏ

1-ci şəkil

Musiqi. Qaranlıq səhnə. Musiqinin ahənginə və ritminə uyğun hərəkətdə olan kölgələr. Hərdən qaranlığın içindən son pərdədə Əsgəri Marseldə dəniz qırağında gözləyənlərin, donub qalmış Gülçöhrənin siluyeti görünür, hərdən, Qulu və Tellinin üzərinə işıq düşür, hərdən Süleyman və Asya işığa çıxırlar. Bəzən Xala ilə Məşədi Cabbarı da işıq "yaxalayır". Həbsxanadakı Əsgər də ani olaraq görünür. Musiqinin səsi azalır. Bütün bunları ***SƏS*** *müşaiyət edir:*

"Miladi tarixlə 1919-cu ildir. Bundan altı il əvvəl, nəhayət, iki sevgili xeyli macəradan sonra bir-birinə qovuşdu. Böyük düyün oldu, şadyanalıq hər tərəfi bürüdü. Əsgər ağanın arşın mal satan kimi toydan əvvəl, görüb bəyənəndən sonra özünə yar tapmaq və evlənmək üsulu bütün Bakıda dillərə düşdü. Arşın mal alan oyunu hər məhlədə dildən dilə gəzdi. Bu möhtəşəm toydan düz altı il keçdi..."

İşıq yanır. Musiqi susur. Qulu Süleyman bəyin kontorunda bir otağın qapısı ağzındadır. Otağın pəncərəsindən içəri boylanmaq istəyir. İçəridə kölgələr hərəkətdə. Hiss edilir ki, otaqda çox ciddi müzakirələr keçir. Süleyman bayıra çıxır. Papiros yandırmaq istəyir.

Süleyman *(Qulunu görərək).* Qulu. Sənsən?! Nə var, niyə gəldin?! Xeyirdi, inşallah.

Qulu. Xeyir olmağına xeyirdi. Ağamı görmək istirəm.

Süleyman. Nəsə baş verib? Sözlü adama oxşadın.

Qulu. Həm verib, həm də verməyib... *(pauza)* Məşədi Cabbar gəlib.

Süleyman. Nəhayət. Şükür. Bəs özü niyə bura qədər gəlmədi?!

Qulu. Bilmirəm ki. Dedi, ağanı tap gəlsin. Vaxtım azdı.

Süleyman *(papirosunu çaxmaqla yandırır).* Ağan odu, içəridə. Başını sal qapıdan, səni görsə çıxar.

Vəli gedib başını salır içəri. Əsgər otaqdan çıxır.

Əsgər. Nə var, Qulu?! Xeyirdimi? Niyə gəlmisən?

Qulu. Ağa, xeyir olmağına ... *(uzadır)* belə də...

Süleyman. Bu yenə uzatdı... Məşədi gəlib. Xeyirdi, xeyir. Bu aləmin bir-birinə dəydiyi zaman ki, o, Rusetdən gəlib bura çıxa bilib, deməli, həqqən böyük adamdı. Mən elə bildim, o ilişib qaldı oralarda.

Əsgər. Məşədi gəlib?! Ay xoş gəlib. Sən məni lap qorxutdun, Qulu ağa (Qulunun boynunun dalın-

dan zarafatla vurur). Mən işimi qurtarıb gəlirəm. Get, ona belə söylə.

Qulu. Ağa, bu deyir, təcili işim var. Hacı Nuri ilə görüşəcəm. Ağan evə tez gəlsə, yaxşı olardı.

Əsgər. Hacı Nuri özü də burdadı ki. Söylə Məşədiyə, Hacı Nuri ilə bir yerdə fidailərlə görüşürük. Təcili bir məşvərətdir. Qurtarım, sonra gəlləm. Oturub evdə gözləsin. Yemək hazırlayın, qulluğunda durun...*(Süleymana).* Süleyman, bilmirsən, Hacı Nuri bayaq niyə elə danışdı?!

Süleyman. Bilmədim ki, bəradər. Amma onun dediyində həqiqət var. Biz bütün şəhər əhlini, bütün tüccar tayfamızı bu fidai işinə cəlb eləməliyik. Bazarda bir-iki sizin kimi pul kisəsini geninə açmış adamla kar aşmaz.

Əsgər. Haqlısan. Amma bu işi görə biləcəyikmi?! Çətin məsələdi. Adamların hərəsinin ağzından bir başqa səda gəlir. Rusetdə də aləm qarışıb bir-birinə. Hələ görək, Məşədi nə xəbərlə gəlib.

Süleyman. Düzələr, darıxma. Hər şey yavaş-yavaş düzələcək. Əsgər, bəlkə sən gedəsən evə?! Mən onlarla irtibatı sənin əvəzindən qurram. Məsələ mənə ki, məlumdur. Sənin mövqeyini mən bilirəm...

Əsgər. Deyirsən, inciməzlər?!

Süleyman. Yox, a kişi. Niyə incisinlər?! Sən ki, söhbətdən qaçmırsan. Hamıdan çox elə sən özün maddi dəstək verirsən... Heç inciməzlər. Sən bir xudahafiz elə, get. İstirsən, heç sağollaşma. Deyərəm, evdən gəldilər. Təcili iş çıxıbdır.

Əsgər. Yaxşı, ay Süleyman, sağ ol. Sən allahın, mən əvəzi bir yağlı dil-ağız edərsən. Kişilər o boyda iş görürlər. Canlarını millət yolunda fəda edirlər. Biz nə edirik ki...

Süleyman. Əvvəla bu, onların borcudur. Sonra bu həm də bizim borcumuzdur. Hər kəs əlindən gələni edir. İnşallah, azğın qonşularımızı vətən torpağından əl-ələ verib qovarıq. Heç nədən o qədərinə yer verilib onlara. Nə yoğurdum, nə yapdım... Hə, Qulu ağa!

Qulu. Hazırca kökə tapdım.

Süleyman. Ay sağ ol. Getsinlər yaşasınlar. Bizdən də əllərini çəksinlər.

Əsgər. İnşallah. Fidailər sağ olsun. Sipər oldular, sipər. Gedək, Qulu ağa.

Qulu. İnşallah, ağa, Süleyman bəy deyən olar. Buyur, gedək.

Süleymanla görüşüb Əsgər və Qulu gedirlər.
Süleyman papirosunu söndürüb içəri keçir.

2-ci şəkil

Əsgərin evində qonaq otağı. İşıq Məşədi Cabbarın üstündə.. O, həsrətlə divardan asılmış şəklə - Əsgərin atasının – öz gənclik dostunun rəsminə cürbəcür yöndən tamaşa edir, əlinin dalı ilə göz yaşını silir. İçəridə əlindəki çay stəkanlarını dəyişən Telli maraq içində onun hərəkətlərini izləyir.

Məşədi Cabbar. Bilirsən, Telli, bu nə cürə bir kişi idi?! Sənin Əsgər ağanı vur on beşə.

Telli. Mən Əsgər ağanı çox sevirəm.

Məşədi Cabbar. Mən sənə deyirəm sevmə?! Amma Atası Əsgərin bir başqa aləmdi deyirəm...

Telli. *(ağlamsınır).* **Mən...Əsgər ağamı... çox... lap çox... sevirəm.**

Məşədi Cabbar. Ay Allah, nooldu buna? Ağlama qız, mən də onu çox sevirəm.

Əsgər (az qala Telli ilə toqquşur) qonaq otağına daxil olur. Məşədi Cabbar onu görcək ayağa qalxmaq istəyir. Əsgər buna imkan verməyib tez ona yaxınlaşır, həm qucaqlayır, həm də çiynindən basıb yerinə otuzdurur. Telli qaçaraq özünü otaqdan bayıra atır.

Əsgər. Xoş gəldin, Məşədi, səfalar gətirdin. Otur, otur, sən Allah, heç rahatsız olma. Mən sənninlə üzbəüz elə yerdən oturacağam.

Məşədi Cabbar. Salam, əzizi – mən. Xoş gördük, xoş gördük, ağa Əsgər. Sən keç sandalyada rahat əyləş. Sən ona alışmısan.

Əsgər *(yerdən oturaraq bardaş qura-qura).* Elə şey olarmı, Məşədi? Olmaz! Sən qətiyyən rahatsız olma *(qapı ağzında durmuş Vəli və Telliyə tərəf çönmədən).* Ay uşaq! Çay, meyvə, yemək hazırlayın! Məşədi, könlün nə istir? *(Təbəssümlə)* Görürəm, Rusetdə sən sandalyaya alışmadın...

Məşədi Cabbar. Yox, yox, nuri-didəm. Heç alışmadım. Ağa Əsgər, çay içməyinə içərəm. Amma yeməyə qala bilməyəcəyəm. Hacı Nurinin dükanına gedəcəyəm. Ona Peterburqdan xeyli vacib bir xəbər gətirmişəm. Gecikdirə bilmənəm. Amma nə deyim?! Bəlkə də gecikdirmişəm. Yeməyə məni məzur tut. Qalammanam.

Əsgər. Məşədi, elə indicə Süleyman bəyin kontorundaydım. Fidailərlə görüşümüz vardı. Hacı Nuri də ordaydı. Hələ söhbətləri çox çəkəcək. Sonra bazara gedəcəkdi. Sən onu bazarda axşama yaxın tapacaqsan. Hələ bir çayını iç. Vəli, Telliyə söylə, çayı tez eləsin, gətirsin. Məşədi, öz evindi. Nə təhər İstərsən, elə də elə. İstərsən yeməyə qalarsan, istərsən gedərsən...

Vəli otaqdan çıxır. Qapının arxasında əlində məcməyi Vəlinin arvadı qulluqçu Telli durub. O qaçaraq gedib çay gətirir. Özü içəri girmək istəyir. Vəli qoymur. Vəli Tellinin əlindən çay məcməisini alıb içəri qayıdır. Çayı, mürəbbələri, qəndi Əsgərin və Məşədi Cabbarın önünə düzür. Sonra Məşədi Cabbara məhəbbət dolu bir nəzər salıb sanki deyir: "məni unutma, ağa" və otaqdan çıxır. Əsgər ağa Məşədinin nəlbəkisinə mürəbbə qoya-qoya.

Əsgər. İnanmazsan, Məşədi. elə indicə sənin söhbətini Süleymanla edirdik. Harda qaldı bizim bu Məşədi deyirdik. Budur, gəldin. Əməli-saleh adam sözünün üstünə gələr.

Məşədi. Sağ olasan, ağa Əsgər, sağ olasan...
Onlar çay içə-içə söhbət edirlər.

Əsgər. Hə, Məşədi, sən axı bir ay əvvəl geri dönməli idin... Nə baş verdi ki, gec qaldın?!

Məşədi Cabbar. Ağa Əsgər. İki gün olar ki, qatardan düşmüşəm. Bu iki günü də ancaq evdə yorğan-döşəkdə oldum. Yorğunluğum, qurban olum, canımdan hələ də çıxmır *(çaydan içir).* Bir zülm çəkdim mən, bir zülm çəkdim mən ki, gəlib bura yetişənəcən, Allah Təala bu zülmü heç bir bəndəsinə bir daha göstərməz, inşəallah...

Əsgər. Sən Allah? Niyə bəs belə oldu?

Məşədi Cabbar. Ağa Əsgər. Onu heç sorma. Mən hələ sən demişkən bir ay əvvəl gəlib bura yetişəsiydim. Mən çoooxdan məmləkətdə olmalı idim *(çaydan içir).* İndi orada da bütün işlərim tökülüb qalıbdır. Allaha həmd olsun. Üç-dörd günə Arazı keçərəm, inşəallah. *(Çay içir).*

Əsgər. Yəni, Rüsetdə vəziyyət belə qəliz hala düşübdür?

Məşədi Cabbar. Çox qəliz bir hala düşübdür. Çox qəliz bir hala düşübdür. Qayda yox, qanun yox. Yollar pozulub, dağılıb, parovozlar işləmir...Allah, Allah...

Əsgər. Burada "Azərbaycan" qəzetində bəzi şeylər yazırdılar. Biz də elə bilirdik ki, padşahdan sonra orda işlər düzəlməyə doğru gedir?!

Məşədi Cabbar. Haşa, nuri-didəm, haşa. Əksinə! Əksinə!

Əsgər. Mən vəziyyəti bu qədərinə pis bilmirdim. İşə bax bir...

Məşədi Cabbar. Ağa Əsgər, hökümət – iflic, ətraf tamamən hərc-mərclik... Adamlar bir-birinə – düşmən. Hər birində – silah. Qardaş gedir qardaşın üstünə. Bölünüblər qırmzılara, bir də ağlara.

Xala və Telli daxil olurlar. Məşədi cəld və Əsgər yavaş ayağa qalxırlar. Telli əlindəki stəkanları miz üstünə qoyur.

Telli. (Əsgərə). Ürəyin başqa bir şey istərmi, qurbanın olum?!

Xala. *(Məşədi ilə səmimi görüşür).* Heç rahatsız olmayın. Siz Allahınız, əyləşin. Telli, keç bu tərəfə, qız.Məşədi, eşitdim burdasan, gəldim sənə bir "xoş-gəldin" deyim. Xoş gəlmisən, səfa gətirmisən. Bə niyə bu qədər gec qaldın? Bizi niyaran qoydun...

Əsgər. Çox əziyyət çəkib Məşədi. Ruset çox qarışıbmış.

Məşədi Cabbar. Bəli...bəli...

Xala. Eləmi? Mən də dedim, görən nə oldu, Məşədi bu qədərinə gec qaldı...

Məşədi Cabbar. Yox. Yox. Başqqa bir şey yox. Bu səfər başdan-başa əziyyət oldu. Sən necə deyirsən, Əsgər ağa?! Vəziyyətin v-sı düşüb, qalıb - əziyyət. Sanki Rusetdən buraya qədər pay-piyada gəldim. Məndə, vallah, taqət qalmadı. İşlər də ki, heç biri tutmadı. Ümidlərim puça çıxdı. Bir vaqon pulum getdi, çifaidə?! *(Xalaya).* Sizlər necəsiz, yaxşısız, inşallah?

Xala. Gördüyün kimiyik. Canın təki sağ olsun, fikir eləmə. Mal-dövlət gələr də, gedər də, Məşədi *(üzünü Əsgərə tutur).* Əsgər, axşama yeməklə bağlı bir sözün varmı?

Telli. Ürəyin nə istir, Əsgər ağa?!

Əsgər. Yoxdu, xala. Məşədi yeməyə qalmayacaq. İşləri varmış. Telli, açıl başımdan, ürəyim sənin sağlığını istir. Razı qaldın?

Xala. Eləmi? O zaman mən çıxım, sizə mane olmayım. *(Süfrəyə baxır).* Çay, meyvə qaydasındadı? Bəli. Di, siz söhbətinizi edin. Məşədi, xudahafiz. Həmişə gözlərik, biləsən. *(Telliyə).* Gəl görüm qız, gəl...Düş qabağıma...

Məşədi. Allah sizdən razı olsun. Allah sizləri naümid eləməsin.

Xala. *(Gedə-gedə Telliyə).* Gördün, qız, ağa sənə "sağ ol" dedi.

Telli. Gördüm, anam, gördüm. Min dəfə sağ olsun, Allahıma qurban olum.

Xala və Telli çıxırlar. Məşədi fikirli halda sözünə davam edir. Hə, belə-belə işlər... Harda qaldım mən?

Əsgər. Qırmızılar deyirdin, ağlar deyirdin...

Məşədi. Qırmızılar, ağlar... Kim kimi vurdu, kim kimi kəsdi, heç bir kəsi rahatsız etmir. Fəhlə işləmir, bazar çalışmır, dükanlar qapalı... Ölkə dağılıb durub. Bu yandan da şaxta, qış... Hamı ancaq səhər-axşam dəstə-dəstə toplaşıb ağızlarından bolluca buğ çıxa-çıxa nitq irad eləyir, söz eşidir. Şaxtanın, deyəsən, bunlara heç bir karı, heç bir əsəri

yoxdur. Yollarda talançılıq və qarışıqlıq... Əlqərəz, oteldə danışırdılar, mən belə başa düşdüm, belə anladım ki, rusların başbilənləri deyirlər, almanlar bizi aldadıb sərfəsiz sülh bağlayıblar, biz öz torpaqlarımızı hökmən geri qaytarmalıyıq. Padşah zamanındakı torpaqlarımızı da, o cümlədən, Qafqazları, yəni ... buraları!

Əsgər. Eləmi? Bəs bizimkilər buna nə deyər? Bu barədə bir məsələ, zənnimcə, qalxmayıb hökümətdə. Parlaman da təzədi, hələ ki, susur...

Məşədi Cabbar. Biləsən, Ağa Əsgər. Bunu sənə mən deyirəm. Mən Məşədi Cabbar. Bu bolşeviklər ki var, əvvəl-axır buraları geri alacaqlar, onlar heç nəyə baxan deyillər. Onlar o zaman ki, ağların işini bitirdilər, buralar batdı. Rusetdə bunu hamı danışır. Əvvəlcə, deyirlər, içimizdəki satqınları qovaq, ağları məhv eləyək, sonra da padşahın torpaqlarını geri alaq. Vallah, mən ki, bunları belə gördüm, gələcəklər buralara qədər. Tutacaqlar günahsız adamları, basacaqlar birbaşa Sibiryaya. Atanı, ananı baladan, sevgilini sevgilidən, qardaşı qardaşdan ayıracaqlar. Nakamlar nəsli yaranacaq. Qan ərşə çıxacaq. Dünənki dostlar bir-birinə düşmən kəsiləcəklər. Hökumətinizi məhv edəcəklər. Qırğınların sayı-hesabı olmayacaq. Nə bəlalar, nə dəhşətlər...

Mən onları gördüm. Ağızlarından qan iyi gəlir, qan iyi. Vəba, taun gəlir biz tərəfə, Əsgər ağa. Hələ Allah eləməsin, xudanəkərdə, bu bəla İrana da keçməsin, inşəallah. Amma nə bilmək olar?! Bir də gördün ora da girdilər... Ah, oh... Sən bilən bu qırmızılar keçərlər İrana, ağa Əsgər?

Əsgər. Keçməzlər. İran nə zamandan onlarınkı oldu? Buralara da... nə deyim, vallah, yəni, ağlım heç kəsmir ki, bunlar buraları təzədən gəlib tutmaq istəyələr. Sənin ağlın kəsir? Bizim bu cavan hökümət gün-gündən güclənir. Süleyman deyirdi ki, Avrona ilə yeni-yeni daşdan keçən müqavilələr hazırlayırlar...

Məşədi Cabbar. Nə deyim? Təki sən deyən olsun. Mən bir şey demirəm. Mən, ağa Əsgər, eşitdiyimi söylədim. Odu, bəs buna nə deyirsən, ağların qoşunu gəlib Qafqazın göbəyinə çıxıb – Vladiqafqaza. Ordan da hamını təhdid edirlər. Deyəssən etmirlər?

Əsgər. Doğrudur. Təhdid edirlər. Amma bizim də öz ağlımız var. Öz iradəmiz var. Kimdi onların təhdidinə qulaq asan?

Məşədi Cabbar. Sən, oğlum, deyirsən ağlımız var. Sən başqalarına baxma. Bu saat dörd ətrafımız vələdüznadı. Sən öz işini ağıllı tut. Ağa Əsgər, sənə mənim bir tövsiyyəm var.

Əsgər ağa gülümsünür. Çünki o, Məşədinin nə tövsiyə edəcəyini bilir.

Bilirəm, bilirəm, deyəcəksən ki, bu qoca Məşədi elə hey eyni şeyi deyib durur.

Əsgər. *(gülümsünə-gülümsünə)* Əstəğfurulla, Məşədi, sən – hara, qocalıq – hara? Mən heç elə deyərəmmi?

Məşədi Cabbar. O zaman sözümə qulaq ver. Ağa Əsgər, sən mənim, bax bu rəsmə *(əli ilə Əsgər ağanın atası Səcdəlinin divardakı şəklinə işarət edir),* sən mənim bu aslan qardaşımın oğlusan. Onun ruhuna and olsun, bu işlərin axırı heç yaxşı deyil. Gəl daşı ətəyindən tök, geci-tezi var. Gələcəklər, oğul, bunlar, gəlməyə bilməzlər. Bu torpaqlar onların yaddaşında qalıbdır. Nöyütün iyinə gələcəklər. Buraların axırını pis görürəm. Pis görürəm, dadaş, vur öldür məni, yenə pis görürəm. İranda... İranda isə əmin-amanlıq, sakitlik... *(çaydan içir).*

Əsgər ağa Məşədi Cabbara çaydandan çay süzür.

Sağ ol, əzizi – mən *(stəkanı qaldırıb işığa tutur).* Çay – budur, yoxsa ordakı saman suyu? Nə deyirdim mən?

Əsgər. İranda əmin-amanlıqdır deyirdin...

Məşədi Cabbar. Bəli, bəli, belədi ki, var. İranda hökümət var, şah var. Qanun var, qayda var. Malın-mülkün toxunulmazdı. Hara ilə istərsən, alver et. Düzdü, sizinkilər, təzə hökumətiniz başlayıb şuluğa, biz iranlı tacirlərə əngəl törədirlər, burdan Rusetə yol alan alverimizə yeni-yeni töycülər qoyurlar. Heç yeridi? Amma... olsun. Bu da keçər...

Əsgər. Əlbəttə, keçər. Sən darıxdırma özünü.

Məşədi Cabbar. Görək. Təki sən deyən olsun. *(çaydan bir qurtum alır).* Bax, nə vaxtdı sənə deyirəm. Bir də deyim. Böyük sözünə qulaq as. Gəl köç elə İsfəhana. Mülklərimin birində ürəyin istəyən qədər yaşa. Hansını bəyəndin – sənə peşkəşdi. Ticarətini qur. İstərsən, mənimlə qur, istərsən özün təkcənə qur. Fransa ilə bütün əlaqələrin mənim bax bu boynuma. Amerikaya qədər sözüm yetişir, biləsən. Əsgər ağa, mənim bir övladım yoxdur *(ah çəkir, gözləri dolur).* Allah, sənə, inşallah, bir övlad verər.

Əsgər. İnşallah, Məşədi, inşallah.

Məşədi Cabbar. Sən mənim övladım ol, oğul. Mən ölüb getdikdən sonra malım da, mülklərim də sənin olsun. Bax, rəhmətlik Səcdəlinin özü burda deyil, ruhu ki, burdadı *(divardakı şəklə əli ilə işarə edir, "bu azdır" düşünüb ayağa qalxır, şəklə tərəf baş əyir).* And olsun bizi yaradan Allaha...

Əsgər. Məşədi, Məşədi... bilirəm, bilirəm ki, sən bütün bunları sidq-ürəklə deyirsən, bilməz olurmuyam?! Sən mənə rəhmətlik atamın yadigarısan. Əmisən sən mənə. Allah... Allah... Sənə inamım sonsuzdur. Amma... düşünməm lazım. Həm də ki, belə bir qərarı mən təkbaşına verə bilmənəm. Evdəki ilə də məsləhətə ehtiyac var. Hələ görək xalam nə deyir.

Məşədi Cabbar. Olsun. Elə sən məsləhətini. Mən hələ 4-5 gün burdayam. Gözlərəm. Mənə qərarını söylə ki, mən də gedim oralarda sənin gəlişinə əvvəlcədən tədarükümü görüm. Köç eləmək – asan iş deyil. Nolar, düşün. Mən gözlərəm.

Əsgər. Elədi, köçüb birdəfəlik getmək asan iş deyil.

Məşədi Cabbar *(ilhamla).* Vallah gəl, billah gəl. Buraların axırı yoxdu. Hər nəyin var, alarlar əlindən, qalarsan heç nəsiz, bala, bir yerə də getməyə qoymazlar. Allahları – yox, imanları – yox. Adamın bunlar, xudanəkərdə, canını da heç nədən alarlar əlindən, heç nədən. Allahsızdılar bunlar, allahsız... Ah, oh...

Həzin musiqi sədaları. Bu musiqini "İnternasional"ın əcaibləşdirilmiş melodiyası sanki "udur". Əsgər ağa fikrə qərq olub. Nəhayət, musiqi kakofoniyası susur.
Vəli və Telli gəlib bayırdan içərini dinləyirlər.

Əsgər. *(fikirli halda).* Məşədi, səndən təvəqqem budur. Mənə – üç gün möhlət. Ən geci üç gündən sonra mən sənin yanına gəlib fikrimi bildirərəm. Elə bilirəm, gec olmaz. Üçcə gün! Nə deyirsən?

Məşədi Cabbar. Nə deyəcəm, nuri-didəm?! Əlbəttə, gec olmaz, deyəcəm. Gözləyəcəyəm. Təki sən gəl. Di, mənə icazə. Mən daha müraxxəs olum. Gec oldu. Hacı Nuri məni gözləyəcək, yaxşı çıxmaz. Salamat qal, ağa Əsgər, Allaha əmanət ol *(əlindəki çayı içib qurtarır, stəkanı qaytarıb ədəblə yerinə qoyur).*

Məşədi Cabbar əlini yerə dayaq edib oturduğu yerdən quş kimi ayağa qalxır, qapı tərəfə getmədən əvvəl dostu Səcdəlinin şəkli qarşısına keçib yenə də baş əyir. Sonra Əsgər ağa ilə qucaqlaşır və onlar qonaq otağından qol-boyun olub birgə çıxırlar. Vəli və Telli içəri girib qab-qaşığı yığışdırmağa başlayır.

Telli. Vəli, gözümün işığı, yəni, bu uruslar qayıdacaqlar bir daha?

Vəli. Qulağın yoxdu? Eşitmədin nə dedilər? Gələcəklər. Gələcəklər də sözdü?

Telli. Bəs o zaman biz də ağamgillə İrana gedəcəyik?

Vəli. Bə neyləyəcəyik? Onları tək buraxacağıq?! Sən bunu istirsən?

Telli. Heç zaman. Heç zaman bunu istəmərəm. Heç zaman.

3-cü şəkil

Xalanın otağı. Yerdə və divarlarda xalçalar. Xala mütəkkələrə söykənib yerdən oturub. Vəli gətirir xalanın qabağına çay qoyur. Özü də onunla üzbəüz oturur. Telli daxil olur.

Xala *(fikirli).* Qonaq getdi?

Vəli. Getdi, xala. Söhbətləri nəsə uzun çəkdi.

Xala. Yenə bizi İrana çağırırdı?

Vəli. Hə... Sən nə deyirsən bu işə?

Telli. Ana, bizi də özünüzlə aparın. Bizi burda qoymayın, biz sizsiz nə edərik?!

Xala *(susur).* Mən heç nə demirəm. Bilmirəm. Getsək, əlbəttə sizsiz olmaz ki.

Telli. Ay sağ ol səni. Min yaşa.

Vəli. Sağ olasan. Axşama nə hazırlayaq, xala? Ürəyin nə istir?

Xala. Axşama qonaq – filan yoxdu! Məşədi yeməyə qalmadı.

Vəli. Bəli, qalmadı. Başqa qonaq da olmaz, inşallah.

Telli. Bax, ana, bu yenə inşallah dedi.

Xala *(yalançı qəzəblə).* Sən bunun inşəallahına baxırsan?! Mən sənə indiyənədək öyrədə bilmədim ki, qonaq-qarası olmayan ev – ev deyil?! Elə bir ev durunca, yıxılsa yaxşıdır?!

Vəli *(başını dikir aşağı).* Xala, öyrətmisən. Mən binəva nə dedim ki?! Deyirəm, ağam bir az da istirahət eləsin. Qonaqla olmaq axı özü də bir başqa cür zəhmət çəkməkdir.

Telli. Bunu düz söyləyir, ana.

Xala. Sən bir bunun üzrünə bax... Yaxşı, yaxşı... Telli, get, xanımdan soruş, axşama yeməklə bağlı bir istəyi var, ya ki, yoxdur?! Nə deyərsə, onu hazırlayın, başlarkən mənə deyin. Mən özüm gəlib baxacam. Yox, əgər istəyi yoxdusa, o zaman özümüz bir şeylər fikirləşərik.

Telli. Baş üstə, ana. *(çıxır)*

Vəli. Ağamdan bəs soruşmayaq?!

Xala. A gədə, sənə axı yüz dəfə bu evdə deyilibdir ki, yemək işinə arvad baxar. Ağan sənin üzünə neçə dəfə deyibdir ki, mənlə yemək söhbəti eləməyin?! Deyib, ya deməyib?!

Vəli. Deyib, deyib. Sən Allah, mənə hərslənmə, xala. Qocalıram, deyəsən, huşum qalmayıb. Bilirsən ki, mən səni çox istirəm. İstirsən, sənin üçün oynayım?...

Musiqi. Vəli yerindəcə fırlanıb arxaya doğru mayallaq aşır, sıçrayıb ayağa durur, oynaya-oynaya otaqdan çıxır. Otağın qarşısı ağzında Telli ilə toqquşur. Onlar qucaqlaşıb gedirlər.

Xala *(başını bulaya-bulaya gülümsünür).* Allah, sən bunlara ağıl ver *(ciddi).* Allahım, sən bizi bədnəzərdən qoru. Sən böyüksən, ya Allah... Ya Allahın müqəddəs, əziz adı...

Əllərini qaldırıb dodaqaltı dualar edir.

4-cü şəkil

Əsgər oturubdur evin kitabxanasında. Qabağında dəftər, qələm və içilməmiş bir stəkan çay. Fikirli-fikirli çölə baxır. Hərdən dəftərə nəsə yazır, pozur. Gülçöhrə gəlir.

Gülçöhrə xanım. Məni çağırmısan, mən gəldim *(keçib oturur Əsgər ağa ilə üzbəüz, pəncərədən gələn işığın qabağında).* Əsgər ağa, sənə nolub *(əlindən tutur)* kefin yoxdur, elə bil?! Nədi, yoxsa... Qafiyə yenə ceyran belinə çıxıb?! Zarafat bir yana. İndicə bildim ki, bu gün bütün günü evdə olmusan, çölə çıxmamısan, gözümün işığı, sən Allah, sənə nolub?! Bax, deməzsən əgər...

Əsgər. *(səsinə gümrah bir ifadə verərək).* Qafiyəlik bir dərdim yoxdu, canım. Narahat olma. Məşədi Cabbar gəlmişdi, rəhmətlik atamın dostu... Onunla söhbət etdik *(üzünü qaçırır).*

Gülçöhrə xanım. Yox, sən məndən nəsə gizlətdiyin var... Məni aldatmağa çalışma. Əgər bir şeyin yoxdusa, o zaman halın niyə pəjmürdədi?! Mən vurmadım, sən yıxılmadın... Nə dedi Məşədi Cabbar sənə? Yenə İran söhbəti?

Əsgər. Hə, o söhbət...

Gülçöhrə xanım. Sən nə dedin?

Əsgər. Mən? Heç nə demədim. Dedim ki...

Gülçöhrə xanım Əsgər ağanın üzünə diqqətlə baxmaqdadı. Yəni, "məni aldatmağa çalışma!" demək istəyir. Telli əlində çay məcməəsi daxil olur, çayları düzür.

Telli. Ağa Əsgər, başqa bir şey istirsən?

Əsgər. Yox, sağ ol, Telli. *(Gülçöhrəyə).* Dedim ki, sənin ilə məsləhət edəcəm.Yaxşı, yaxşı, sevgili yarım, anlaşıldı, sənin gözündən heç nə qaçan deyil. Məsələnin canını, kökünü öyrənmədən əl çəkən deyilsən. Bax, mənə diqqətlə qulaq ver. Bu çox ciddi məsələdi. *(Telliyə)* Sən çıxa bilərsən.

Telli. Xanım, sənə nə gətirim?!

Gülçöhrə. İstəməz. Sən çıx. *(Telli çıxır)*

Gülçöhrə xanım *(ciddi).* Buyur, qulağım səndədi. Eşidirəm.

Əsgər. Gülçöhrə, canım mənim, onsuz da axşamı gözləyirdim, tək qalanda bunları sənə onsuz da deyəcəkdim. Bilirsən ki, hansı qəliz, mürəkkəb iş olursa, sənə danışanda, xeyir tapıram. Sən məni həmişə doğru yola yönəldirsən. Gülçöhrə, əzizim, həyatım, ölkədəki vəziyyət gün-gündən pisləşməkdədir. Yox, yox, narahat olma. Hələ uçurumun içində deyilik. Amma artıq astanasındayıq... *(susur).* Lap doğrusu budur ki, Məşədi Cabbarın bu gün söylədiyi kimi Rusetdə vəziyyət xeyli qarışıbdır. Adamlar bir-birini yeyir. Məşədinin dediyinə görə

ruslar qayıdacaq və buraları yenə də işğal edəcəklər. Biz buralarda qalarsaq, gələcək həyatımız sual altına düşər. Bir sözlə, Məşədi bizi sidq-ürəklə İrana çağırır.

Gülçöhrə xanım *(dodaqları qaçır).* Bəli. Həmişəki kimi...

Əsgər. Hə, elədi. Amma bu dəfə, məncə, onun sözlərinə ciddi qulaq vermək gərəkir. Elə bil, daxilimdə bir səs mənə deyir ki, Məşədiyə qulaq ver.

Gülçöhrə xanım. Əsgər ağa, mən sənə bir söz deyimmi?

Əsgər. De, canım-gözüm. Dinləyirəm.

Gülçöhrə xanım. Əsgər ağa, o zaman mənə diqqətlə qulaq as.

Əsgər. Qulağım səndədi.

Gülçöhrə xanım. Gözümün işığı, mənim də daxilimdə bir səs mənə deyir ki, gediriksə də... İrana deyil, birbaşa Fransaya gedək. Oralar indi sakitlikdi. Müharibə qurtarıb...

Əsgər. Bilirəm, Fransa sənin üçün ikinci vətən kimidir...

Gülçöhrə xanım. Bəli, əzizim, elədi. Dillərini bilirik...

Əsgər. *(fransızca).* Je teme.

Gülçöhrə xanım *(onun fransızca xırda səhvini düzəldir).* Je t'em! Əsgər ağa, je t'em... Mən də səni sevirəm. Dünyalar qədər sevirəm. Əsgər, Fransa gözəldi. Fransızlar dünyanın ən mədəni xalqıdır. Həkimi-həkim, müəllimi-müəllim. Başa düşdün də məni. Altı il nahaqdan səbr edib dözmədik. Gözlədiyimiz var.

Əsgər. Əlbəttə, əlbəttə, başa düşdüm səni *(əlini onun qarnına çəkir),* bu işdə dərindən düşünməmiz çox vacibdi.

Gülçöhrə. Əsgər, canım mənim. Biz ətrafımızda gəzən qorxulu söhbətləri çox eşitdik. Onları çox gördük, onları yaşadıq... Adamlar əlinə silah alıb mübarizəyə qalxdılar. Difai dəstələri millətin yolunda şir kimi çarpışdı. Sən özün nə qədər yardım etdin bu milli dəstələrə, bunu heç kəs unuda bilməz.

Əsgər. Tək mən yardım etmədim ki... Başqa tüccarlarımız, bazar əhli... hər kəs əlindən gələn yardımını etdi. Amma bu işi genişləndirməmiz lazımdır.

Gülçöhrə. Əlbəttə, əlbəttə. O qorxulu günlər, inanmıram ki, bir də təkrar geri qayıdalar. Amma yola çıxmağın özü bir zülümdü. Bəlkə məsləhətindisə, hələlik heç hara getməyək. Bu cür rahatlı-

ğımızı niyə verək yellərə? Hər şeyimiz var – evimiz, eşiyimiz... Mə özümə iş də tapmışam, bilirsən?!

Əsgər. Ay səni, maşallah, o nə işdi elə?

Gülçöhrə. Asya ilə çoxdankı arzumuzdu. Yetim uşaqlar üçün kiçik bir məktəb açıb onlara dərs vermək. Hacı Nurinin xanımı da bizə qoşulur.

Əsgər. *(qəhərlənir).* Nə gözəl, nə qəşəng! Allah sizdın razı olsun. Uşaqların təqaüdü məndən. Bəs bunu niyə gizlədirdiz?

Gülçöhrə. Düzüb-qoşandan sonra deyəcəkdik. Bir növ məsələni hazırlayırdıq.

Əsgər. Vallah, çox sevindirdin sən məni. Sizin kimi mərd qızları olan vətənin heç vədə dizi yerə gəlməz.

Gülçöhrə. Canım-gözüm, biz fədakarlığı sizdən öyrəndik, atamızdan, səndən, Süleymandan...

Əsgər. Sağ ol, mənim əzizim, canım-gözüm, Ancaq indiki vaxt bir başqa vaxtdı, biləsən. Amansız dalğalar gəlir üstümüzə. Şər deməsən, xeyir gəlməz. İşimizi ehtiyatlı tutmalıyıq.

Gülçöhrə. Doğrudur, "Şər deməsən xeyir gəlməz". Biz isə gəl nə şər deyək, nə xeyir. Allah nə deyir, onu deyək. Bəlkə sən Süleymanla bir məsləhət edəsən? O, xariciyyə işlərini yaxşı bilir – sən deyirdin.

Əsgər. Edəcəyəm. Hökmən edəcəyəm. Düşündüm, biriminci sənin fikrini alım. Səndən sonra onunla da görüşüb danışacam. Hökmən. Süleymansız olarmı?! Bir bilsən sən ki, Rusetdə nələr baş verir?! Məşədi Cabbar nələr danışdı...

Gülçöhrə. Uşaqlıqda nənəm mənə bir qorxulu nağıl danışardı. O nağılı indi də xatırlayanda qorxudan əsim-əsim əsirəm, qanım damarda donur. Nağılın adı bilirsən nə idi?

Əsgər. Yox, gözümün işığı, bilmirəm.

Gülçöhrə. Amma bax, gülmə. Nağılın adı belə idi: "Adı özündən uzun Gülü qah-qah xanımın nağılı"

Əsgər *(gülümsəyərək).* Necə, necə? Adı özündən uzun imiş xanımın? Özü bəs nə boyda idi?

Gülçöhrə. Bəli, əsl məsələ də bundadı. Bu ad indi sənə belə, öz təbii ölçüsündə görünə bilər. Xanımın özü adından kiçik imiş. Amma bax, nağılın adı "Adından kiçik Gülü qah-qah xanım" deyildi. "Adı özündən uzun Gülü qah-qah xanım" idi. Elə qorxardım, elə qorxardım... Amma yenə nənəmə qısılıb yalvarardım: nənə, ay nənə, mənim nağılımı danışarmısan, deyərdim. Divlər, pəhləvanlar, cadügünlər... İndi mən o uzaq illərin qorxusunu daha yaşamıram. Adı özündən uzun Gülü qah-qah xanım indi mən bilirəm ki... bir taxtabiti imiş... Başqa bir şey deyilmiş...

Əsgər *(gülür).* Sən Allah, taxtabiti ha? Ay səni... Taxtabiti... Bu nədi ki. Mən bilirsənmi, nədən qorxardım?

Gülçöhrə. Nədən?

Əsgər. Keçib, deyəcəyəm. Bunu sənə, bax, ilk dəfədi deyirəm. Mən damdabacadan qorxardım. Mənim də nənəm məni damdabacalarla qorxudardı. İndi baxıram damlara, hərəsində bir, iki baca var. Tüstü buraxırlar. Adicə tüstü, ağ, qara... Damda baca olar da... başqa nə olar ki?.. Dam üstündəki bu bacalar bir-birilə ... elə bil, qafiyə kimidilər.

Gülçöhrə. Bax, görürsən, gözümün işığı, bunlar uzaqdan belə qorxuludurlar. Yaxından baxanda taxtabitidilər, damda bacadırlar. Damdabaca deyillər, sən bu sözləri ayrı-ayrı tələffüz elə: damda ... baca ... Bir-birindən ayrı. Damdabaca yox, damda baca... Həqiqətən, qafiyə kimidilər.

Əsgər. Onu demə. Qafiyəni demə. Yaralı yerimdi.

İkisi də susur. Əsgərin səsi ilə şeir eşidilir.
Musiqi bu şeiri müşaiyət edir. Səs:
Mənə deyən gərək nə olub axı,
Nə çabalıyırsan, söylə, nə xəbər.
Sən çətin tapasan axtardığını,
Sən axtardığını itirmiyiblər.

Nələr arzuladıq, nələr qazandıq,
Hələ nələri də itirəcəyik.
Yollara sarılıb biz də uzandıq,
Hara gəlib çatdıq belə tələsik?

De mənə, varmıydın, ya bəlkə yoxdun?
De mənə, yuxudu bəlkə bu dünya?
Bu bulaq suyunda sənmiydin axdın?
O bulud apardı səni haraya?

Vaxt gəlir, hər şeyin yetişir sonu,
Bu nəydi qurtardı, yox oldu, getdi?
Bu da bir həyatdı, oynadıq onu,
Bu da bir oyundu, yaşadıq, bitdi.

Yollar getdi üzü dağa,
Yoxuşlar enişlərdən çox.
Kimsə yox xatırlamağa,
Unutmağa da kimsə yox.

Musiqi susur.

Gülçöhrə. *(Gözündə yaş damlasını silərək).* Az qala ağlatdın məni, canım-gözüm. Niyə sənin unutmağa kimsən yoxdu? Bəs mən??

Əsgər. Şeirdi, fikir vermə. Qafiyə xətrinə elə yazılıb. Yaxşı, şeiri burax görüm. Hələ bir söylə, indi biz nə edək, nə etməyək? Fikrim lap qarışdı.

Gülçöhrə. Bəlkə sən belə edəsən, əzizim?! Mən öz təklifimi geri çəkirəm. Qoy ürəyin lap rahat olsun. Məşədinin ardınca, özü ilə bir yerdə-yox, ardınca... gedəsən İrana və əgər sabah bizim də buradan köçmək ehtiyacımız olarsa, yerləşəcəyimiz yeri-yurdu əvvəlcədən görüb danışasan. Lap elə bir mülk də istərsən indidən orada gözaltı elə, ya elə satın al...

Əsgər. Yaxşı fikirdi, ağlıma batdı. Elə də edərəm.

4-cü şəkil

Səhər tezdən. Əsgər ağa evdən çıxan yerdə., Gülçöhrə xanım qapı ağzında onun papağını, kürkünü, çətirini əlində tutub.

Gülçöhrə. Yağış yağacaq. Bunu da götür *(çətiri uzadır).*

Əsgər. Ver, onu da ver *(çətiri alır).* Canım-gözüm, mən bu gün axşam Süleymanın yanına gedəcəyəm. Məsləhətə. Ləngiyəcəm. Bax, bir daha soruşuram. Sənə, əgərki iş başqa cür gətirsə, buralardan köçüb getməyin bir zorluğu yoxdu ki?

Gülçöhrə. Yoxdur, gözümün işığı. Sən harda isən, mən orda sənin ayaqlarının altında ölmək istərəm. Sənin kölgən hara düşsə, o yer mənim üçün cənnət olar.

Əsgər *(qürrələnir).* Sağ ol, sağ ol, əzizim. Sağ ol ki, varsan, sağ ol ki, yanımdasan. Hə... yaxşı yadıma düşdü, heç bilirsən, o gün Vəli mənə nə deyirdi?

Gülçöhrə. Yox, bilmirəm. Nə deyirdi?

Musiqi. Qapı ağzında Əsgər ağa danışır, Gülçöhrə xanım dinləyir və əksinə. Bunlar bir-birinin, sözünü kəsə-kəsə, sevə-sevə söhbət edirlər, gülüşürlər. Xala və Telli də gəlir, onlara qoşulur. Deyirlər, gülüşürlər. Bu adamlar bir-birindən heç cür ayrıla bilmirlər. Nəhayət, qadınlar bir-birini qucaqlayıb Əsgər ağanı ötürürlər.

Əsgər (qapıdan çıxarkən). Axşam Süleymana dəyəcəyəm. Gec gəlsəm, biləsiniz.

Əsgər ağa gedir. Qadınlar bir xeyli onun arxasınca baxırlar.

Telli. Yaxşı yol, ağa. İşin avand olsun.

5-ci şəkil

Əsgər və Süleyman Süleymanın kantorunda bir mizin ətrafında oturubıar.

Süleyman. Bu gün yaman yağdı. İndiyənəcən çisəyir. Nə vaxtdı yuxarıdan baxıb səni gözləyirəm. Dedim birdən piyada gələrsən, çətir vermək istədim.

Asya çay gətirir.

Asya. Bir daha xoş gəldin, qardaş. Süleyman bəy deyəndə ki, sən gəlirsən, elə bildim, ikiniz gəlirsiz, mən də tələsik qaçıb gəldim bura. Təkmişsən. Hayıf.

Əsgər. Asya, bax, mən sənə borclu, Gülçöhrəni nə zaman desən gətirəcəm. Bu dəfə məni məzur tut. Gələn səfər – hökmən. Hə, xanım özü də sənə çoxlu-çoxlu salam göndərdi. Sirrinizi də (Süleymana göz vurur) açdı, biləsən...

Asya. Ay onun sirrinə qurban olaram.

Süleyman. O nə sirmiş elə?

Əsgər. Heç... Ay Süleyman, mən heç sirr açana oxşayıram? Qoy Asya özü sənə danışsın. Amma nə sirdi, nə sirdi, bəradər... Vaxtı çatanda bilərsən.

Süleyman. Hə, o məktəb məsələsini deyirsən?

Əsgər *(matı quruyur, əli ağzında).* Mən daha nə deyim?! Mən daha heç nə demirəm. Məndən başqa hamı bilirmiş ki bunu?! Allah-Allah... Asya, niyə bəs belə?

Asya *(gülür).* Sənə deməyin vaxtını xüsusi bir halda hazırlayırdıq. Əsas maliyyəmiz sən olacaqsan deyin, çox əvvəldən səni üzmək istəmədik. Bilirsən, neçə gözəl niyyətlimiz var?! Əvvəl məktəb, sonra onun yanında uşaq bağçası... Bunun müəllimləri var, binaları var, xidmətçiləri var. Hələ məktəbdən sonra xaricdə oxumaq məsələsi var. Parlaman xaricə oxumağa gəncləri artıq göndərir. Biz də bunu edək. Nədi, mənim qardaşım, üzülmədin ki?

Əsgər. Allah-Allah... Heç üzülərəmmi?! Hər bir xərci bu qardaşının boynuna. Mən-hazır.

Asya. Çox sağ ol, Əsgər. Mən səni elə belə də bilirdim. Daha yaxşı. Siz söhbətinizi edin. Mənim bacıma çoxlu-çoxlu salam söylərsən. Bax, unutma, sən mənə borclu qaldın.

Asya otaqdan çıxır. Əsgər ağa, Süleyman bəy bir-birinə altdan-altdan baxa-baxa, elə bil, yarışırlarmış kimi hortuldada-hortuldada sürətlə çay içməyə başlayırlar. Bu, onların çoxdankı oyunudur. İçib qurtarandan sonra.

Əsgər. Ay səni, boğazım yandı. Süleyman, bu yarışı hələ bir saxla, sənin lə söhbətim var.

Süleyman. Buyur, bəradər, nə deyirəm ki?!

Əsgər *(ciddi).* Süleyman, qardaşım, sən bilirsən ki, mən səninlə dostluğumuzu necə yüksək qiymətləndirirəm. Biz səninlə uşaqlıqdan bir yerdəyik. Amma...

Süleyman. Amması da var hələ bunun?

Əsgər. Var. Ürəyimə damıb ki, bizim bir-birimizdən ayrılma saatımız yaxınlaşır. Ürəyim bir sıxılır, bir sıxılır...

Süleyman. Heç bir şey anlamıram. Niyə? Nə üçün? Səbəb?

Əsgər. Bizdən asılı olmayan səbəbə görə.

Süleyman. Nooldu, sən Allahın, uzatma görüm *(zənlə Əsgər ağaya baxır).* Dur, hələ bir dur, görüm. Heç nə demə. Mən tapdım, nə olubdu. İstərsən, deyim?! Məşədi Cabbar səni yenə yanına çağırır, eləmi?!

Əsgər *(təəccüblə).* Hardan bildin?

Süleyman *(gülə-gülə).* Dayan hələ. Gəlibdir və yenə səni İrana çağırır. Tapdım?

Əsgər. Ta mənim sənə deyəsi sözüm yoxdu. Bu daha lap ağ oldu. Məşədini görmüsən? Boynuna al...

Süleyman *(gülməyini güclə saxlayır).* Düz tapdım, eləmi, bəradər?

Əsgər. Düz tapdın. Sən, yəni... necə bildin bunu?!

Süleyman. Məşədini görməmişəm. Yox, vallah, görməmişəm. And olsun inandıqlarımıza, yox.

Əsgər *(sidq-ürəklə təəccüb edir).* Süleyman, əzizi – mən, bə sən bütün bunları hardan bilirsən? Sən məgər cadugünsən? Asya, Asya. Hələ gəl bura *(Asya gəlir).* Asya, bax, sənə deyirəm, sənin bu ərin cadugündü, biləsən.

Asya. Mən bəyəm bunu bilmirdim?! Məni ki kəməndinə sala bildi bu adam, deməli, həqqən cadugündü. Mənim cadugün canım-gözüm.

Süleyman. Ay mənim sadədil qardaşım. Bax, de görüm, sən özün Vəlini dünən bizə göndərmədinmi? Asya sən də qulaq ver.

Səhnənin bir tərəfi işıqlanır. Əsgər ağanın evi.
Əsgər ağa və Vəli.

Əsgər. Vəli, durub gedərsən Süleyman bəyin kontoruna elə indi. Həmişəki tək çaşdırma. Evinə yox, kontoruna.

Vəli. Baş üstə, ağam. Çaşdırmanam. Kontora.

Əsgər. Deyərsən, mən sabah axşam onun yanına – kontora gələcəyəm. Ancaq evə yox, qarışdırma, Süleyman bəyin kontoruna. Yadında qalar? Axşam vaxtı gələcəyəm.

Vəli. Axşam vaxtı. Yadımda qalar, qalar. Niyə qalmasın ki?! Başqa bir söz deməyim ki?

Əsgər. Yox, başqa bir söz demənə lüzum yoxdur. Get!

Səhnənin bu biri tərəfi işıqlanır.
Süleyman bəy və Vəli kontorda.

Süleyman. Vəli, xeyirdimi?

Vəli. Xeyirdi, bəy. Ağam sabah axşam bura gələcək. Evə yox ha, bura. Axşamçağı. Çaşdırmarsan ki?!

Süleyman. Yox, xətircəm ol, çaşdırmaram. Tək gələcək, ya ki xanımla?...

Vəli. Bax, bunu bilmədim.

Süleyman. Evdə hər şey nizamındadı, Vəli?

Vəli *(düşüncəli halda).* Hə, elədi... hə... hər şey yolundadı...*(Qəflətən birnəfəsə*) O gün burdan gələndən sonra gəlib evdə Məşədi Cabbarla xeyli söhbət elədilər. Uff...

Süleyman. Nə deyirdi hələ Məşədi Cabbar? *(Hiyləgərliklə).* Mən onun nə dediyini bilirəm. De görüm, sən də bilirmisən?!

Vəli. Mən də bilirəm. Niyə ki bilməyim?! İrana çağırırdı ağamı. Düzmü dedim?! Allah, Allah,

bə sən hardan bunu bilirdin, Süleyman ağa? Hə... yenə çağırırdı *(başını yerə dikir).*

Səhnənin bir küncündəki işıq sönür.
Səhnədə yenə Əsgər ağa və Süleyman üzbəüz oturub yavaş-yavaş çay içirlər.

Süleyman *(gülməyini güclə saxlayaraq).* Bax, görürsən! Sən axı özün Vəlini bura göndərmişdin. O da mənə bir saniyənin içində Məşədinin təklifini xəbər verdi. Məşədinin də ki təklifi məlumi-cahandır.

Asya. Vəlinin sirr saxlamağı kimi.

Əsgər. Ay səni, Vəli... Yəni, Süleyman sən bunu təxmin edirdin?

Süleyman. Edirdim. Bəli. Səni İrana aparmaq və özünə şərik eləmək istir.

Əsgər. Ay səni, Süleyman. Sən necə od-alov imişsən. Asya, görürsən bunu? Gözündən heç nə qaçmır...

Asya. Qaçmaz, onun gözünə qurban olaram.

Süleyman. Əstəfurullah, qız, qurbanın qoyun olsun.

Yenə başları qarışır çay içməyə. Bir-birilə danışırlar, musiqi başlayır və bu dostların səsləri eşidilmir. Bir müddət sonra musiqi susur.

Əsgər. Bax, Süleyman, hal – belə, qəziyyə – bu. Asya, sən də eşit. Qalmışam iki odun arasında. Bilmirəm, nə edim?! Gedim, yoxsa getməyim?!

Süleyman. Bəradər, məsələ, həqiqətən, Məşədi izhar edən kimidi. Rusiyada inqilab bitmədi ki. Bu gün də davam edir. Bolşeviklər hər şeyi alıblar əllərinə. Orada bolşeviklərlə yanaşı ağlar da var. Onların arasındakı dava hakimiyyət davasıdır, indiyənə qədər sürüb gedir. Bu tərəfdən Avropa, xüsusilə, almanlar, fransızlar istirlər Rusiya parçalansın. Bu biri tərəfdən də inqilab yavaş-yavaş keçdi vətəndaş müharibəsinə, ağlarla qırmızılar bir-birini qırdıqca qırır. İndi, budur, ağların generalı Denikin gəlib oturub Vladiqafqazda, ordan bizi təhdid edir. Bolşeviklərin də xariciyyə naziri Çiçerin bu biri tərəfdən bizə nota verir: qoşulun deyir biz qırmızılara və Denikinə qarşı çıxın.

Asya. Allah, Allah...

Əsgər. Məşədi də bunu deyirdi. Sən hələ bu işlərə bir bax. Yazıq dövlət! Bədbəxt millət!.. Desənə iki od arasında qalmışıq. Bəs biz nə edəcəyik?

Süleyman. Məsələ də elə orasındadı. Bunların ki, başı qırğına qarışdı, bir-birini qıra-qıra gedəcəklər. Bunlar üçün, bəradər, fərq eləməz ki, qırdığı

kimdir – özününküdür, ya ki, bir başqasıdır. Təki qırğın olsun.

Əsgər. Elə odu da pis olan.

Süleyman. Amma onu da bilmək olmaz ki, bu, pis olandı, ya bizim kimi xırda millətlərə yaxşı olandı. Qırmızıların quzğun kimi başbilənləri var. Adı Lenindir. Hər an qırğını biz tərəfə yönəldə bilər. Əsas qayələri isə həm ağların, həm qırmızıların birdir – padşahın torpaqlarını qaytarmaq. Budur məsələ!

Əsgər. Məşədi də elə hey bunu deyib durur. Deyir, bunlar qayıdacaqlar.

Süleyman. Bunu Məşədi doğru deyir. Düşünmək lazımdır, bəradər. Ağılla hərəkət etmək lazımdır. Fikriniz nədir? Asya, sən nə deyirsən?

Asya. Gülçöhrənin bu durumunda? Amma məncə...

Səslənən musiqi təkcə onların söhbətini kəsmir.
Musiqi həm də şəkillər arasında səsli bir sərhəddə dönür.

6-cı şəkil

Yenə Əsgər və Süleyman üzbəüz.
Əvvəlki şəklin sonu təkrar edilir.

Əsgər. Məşədi deyir ki, bunlar qayıdacaqlar. Gülçöhrə deyir, gedək Fransaya. Mən düşünürəm, İran yaxındı. Gülçöhrənin də bu halında yaxında olmamız yaxşıdı. Həm də bəlkə Allah kərimdi, bunlar gəlib eləməzlər...

Süleyman. Məşədi doğru deyir. Sən də doğru fikirləşirsən. Düşünmək lazımdır, bəradər. Qəti fikrə gəlmək lazımdı. Asya, sən nə deyirsən?

Asya. Gülçöhrənin bu durumunda köç eləmək necə olar-buna gərək özü qərar verə.

Əsgər. Asya düz deyir. Nə isə...

Süleyman. Amma qərarı da ləngitmə. Balam bir qəti fikrə gəlin. İran da belə baxanda dünyanın o biri başı deyil.

Asya. Biz də tez-tez gələrik yanınıza. Hər şey sakitləşsə yenə geri dönərsiniz.

Əsgər. Vallah, nə deyim, qəti bir fikrim yoxdu hələ ki. Dedim, Süleyman, əvvəlcə sənlə məsləhət edim. Süleyman, bəlkə mən durum gedim Məşədi ilə İrana, bir növ, kəşfiyyata?! Baxım, görüm oralar-

da vəziyət necədi, “v”-sı yerindədi vəziyyətin, ya “v”-sı düşüb yerində “əziyyət” qalıb?

Gülüşürlər.

Süleyman. Bax, bu, çox doğru qərardı. Get bir bax, gör, nədi, necədi? Dəyərləndir. Köçmək həmişə var. Yerini, yurdunu düz, qoş. Hələ bolşeviklər bura gəlsələr, nə zaman gələrlər, onu Allah bilir. Hər halda İran qulağımızın dibindədi. Lazım olar ordan keçərsən Fransaya, ya da qayıdıb geri gələrsən.

Asya. Hə də. Mən də onu deyirəm.

Əsgər. Eləmi edim deyirsiz?

Süleyman. Bəli, amma səndən bir ricam var. Sən Allahın, Məşədi ilə bahəm getmə. Ondan sonra get.

Əsgər. Elə Gülçöhrə də belə deyir.

Süleyman. Gülçöhrə düz deyir. Yolda o sənin beynini çürüdər. Sən gərək öz qərarını özün, heç kimin təsiri olmadan verəsən. Razısan mənimlə?

Əsgər. Razıyam. Yüz faiz razıyam. Elə də edərəm.

Asya. Çay gətirim? Bəlkə bu səfər – qəhvə?

Əsgər. Yox, yox, Asya, mən qalxıram. Sağ ol.

Asya. Yaxşı. Bax mənə borclu qaldın-unutma.

Əsgər. Qaldım, qaldım, nə deyirəm ki? Süleyman, səni də yoruram. Amma bir sualım dəxi var. Bəs siz Parlaman olaraq nə edəcəksiniz qırmızılar gəlsə? Sən ki, Parlamanda advokatsan. Bilməmiş deyilsən. Onların qabağına, yəni, çıxa bilməyəcəksiniz?

Süleyman. O gün Üzeyir bəylə də bu barədə danışırdıq. O da mənimlə razılaşdı. Yaxşı bir söz dedi. Dedi ki, coşqun və dəli bir dağ selinin qarşısında çayın ortasında kiçik bir daşın üstündə qalmış quzu neyləyə bilər? *(Ciddi və pərişan halda).* Biz də onu edəcəyik.

Əsgər. Anladım. Yəni, Üzeyir bəy də belə deyirsə, deməli, heç ümid yoxdur?

Süleyman *(ciddi).* Bunu sənə deyirəm. Başqa bir adama demənəm. Bəradər, ağlarla qırmızıların arasındayıq. Hansı biri qayıtsa, heç ümid yoxdur.

Asya. Alah, sən özün bizə kömək ol.

7-ci şəkil

Əsgərin evinin həyəti. Hiss edilir ki, küçədə fayton və arabalara əşyalar daşınır. Vəli və Telli canfəşanlıq edirlər. Bayırdan səslər, at kişnərtisi gəlir. Vəli kiməsə qışqırır: "A bala, bəradər, o torbanı ora qoyma. Telli deyir: İçində sınan şey var, asta ol." Kimsə Vəliyə cavab verir: "Sən lap iranlıya döndün ki.. qardaş." Süleyman və Əsgər gəzişə-gəzişə həyətdə söhbət edirlər. Xala, Gülçöhrə və Asya həyətdə hovuz ətrafında bir skamyada əyləşiblər.

Süleyman. Belə... Bax, bu mühafizəçiləri yaxşı elədik tutduq. Bərayi-ehtiyat. Etibarlı adamlardı. Özüm bunların pasportlarına bir-bir baxıb seçmişəm. Hacı Nuri bunları göndərdi. Onun adamlarıdı. Qoçaqdılar. Təcrübəlidilər. Sizi qoyub qayıdan kimi bizə xəbər verəcəklər. Nə deyirsən?!

Əsgər *(kədərli).* Hacı Nuri də sağ olsun. Sən də sağ ol. Nə deyirəm ki, mən?! Sən dedin, bitdi *(doluxsunur).*

Süleyman. Noldu sənə? Üzün gülsün, bəradər. Sən xanımlara nümunə olmalısan. Özünü ələ al *(xanımlara eşitdirə-eşitdirə).* Deyirsən, Əsgər ağa, getdiyin yerlər çox gözəldi?!

Əsgər. Çox gözəldi, Süleyman. İsfəhan, doğrudan da, nəqşi-cahandır, mən ki, gördüyümü gördüm, özün gəlib sən də görəcəksən.

Süleyman *(şuxluqla).* İsfəhan nəqşi-cahan ola bilər, gərçi Təbriz olmasa. Bunu unutma.

Əsgər. Sən bircə sözünü tut, gəl, Təbrizə də gedib gəzəcəyik, Ərdəbilə də, hələ Arazın o tayından bu tayına baxanda ürəklərimiz də güp-güp vuracaq. Ah vətən, ah gözəlim vətən... *(kövrəlir).*

Gülçöhrə *(bir gözü Əsgər ağada oturduğu yerdən onların söhbətinə qarışır).* Hökmən gəlin. Hökmən. Hər gün gözləyəcəyik. Asya, bax, eşidirsən?

Asya. Eşidirəm. Əlbəttə, əlbəttə, gələcəyik. Mən heç Arazın o tayında olmadım. Gələrik.

Süleyman. Yaxşı, yaxşı, dünyanın o biri başına getmirsiz. Budu, əl uzatsan çatan yerə gedirsiz, bu nədi, Əsgər?! Qurtar, qurtar görüm. *(Gözləri yaşarmış Əsgər ağanı qucaqlayır və xanımlara yaxınlaşır)* Xalacan, mən ən çox kimin üçün darıxacağam, sən bunu bilirsən.

Xala *(şuxluqla).* Niyə bilmirəm? Bilirəm. Mənim üçün. A bala, Süleyman, barı arvadının yanında belə danışma, utan, özünü də məni də biyabır eləmə.

Süleyman. Mənim Asyadan heç bir sirrim yoxdur.

Asya. Bilirəm, bilirəm, mən onunla sizin sərgüzəşti – eşq macəranızı yaxşı bilirəm. Çox dirəndi, dirəndi, axırda boynuna aldı.

Xala. Allah... Allah...

Gülçöhrə *(gülür).* Yaxşı Asya, bəsdi. Qız, ayıbdı. Xala!..

Asya *(zarafatla).* Yaxşı, Süleyman bəy, sənin lə evdə danışacağam.

Əsgər. Asya, Süleyman o zaman başlıq məsələsində cığallıq elədi. Xalama layiq başlıq vermək istəmədi. Yoxsa...

Xala. Elədi. Xəsislik elədi.

Asya. Edər, edər...

Süleyman. O başlığı versəydim, mən lüm-lüt qalardım.

Xala. Yox bəs, bunun *(Gülçöhrənin çiynindən vurur)* rəhmətlik atası deyən kimi üç manat pul, on kilo kəllə qənd, bir molla ilə yola verəydik bu işi? Olarmı?! Olmaz!..

Vəli və Telli *(bunlara yaxınlaşır).* Ağa Əsgər, biz işimizi qurtardıq. Evin qapısını bağlaya bilərsən.

Telli. Ağa başqa bir istəyin varmı?

Əsgər. Süleyman, bizə icazə. Xanım, vaxtdı. Gedək, otaqların qapılarını bağlayıb gələk.

Əsgər ağa və Gülçöhrə xanım əl-ələ tutub gedib girirlər mülkün içinə. Həzin vida musiqisi səslənir.
Nəhayət, onlar bütün qapıları bağlayıb evdən çıxırlar və əsas qapının da ağzına qıfıl vururlar.

Gülçöhrə. Bir də, Allah bilir, buraları gəlib görəcəyik, ya yox?!

Asya. Elə demə, nolar, elə demə, əziz bacım...

Əsgər. Niyə gəlmirik, gözümün işığı?! Gələcəyik də, görəcəyik də... Sən bircə fikir eləmə. Sən fikir eləsən, bəs mən necə ollam?!

Gülçöhrə. Eləmərəm, gözümün işığı, eləmərəm. Əlbəttə, gələcəyik.

Əsgər *(Süleymana).* Qardaşım, bu açarların hərəsindən iki nüsxədi. Bir nüsxəsi sənə əmanət.

Süleyman *(açarları alır).* Necə verirsən, elə də təhvil alacaqsan. Arxayın get. Yolun açıq olsun. (Xalaya) Xala, vaxt gəldi, gəl səni heç olmasa izn ver indi bircə dəfə üzündən öpüm *(qollarını açır).*

Asya. *(zarafatla)* Mən baxmıram. Doyunca öpüşün.

Xala bir xeyli Süleymana zənlə baxır, sonra özünü onun qucağına atır, gözü yaşlı qucaqlayıb doyunca öpür. Süleyman qəhərlənir. Həyətə bir dəstə qonşu girir.

Əsgər. Mənə bir dəqiqə müsaidə *(gedir qonşuların qabağına).* Ağalar, xanımlar Allaha əmanət olun. Xudahafiz...

Qonşular. Sağ-salamat, Əsgər ağa, sər-səlamət... Yolun açıq olsun. Tez-tez gəl... Yaxşı yol...

Musiqi səsləri.

Əsgər, Gülçöhrə, Süleyman, Asya, Vəli, Telli çıxırlar.

Kimsə qonşulardan bir xanım onların arxasınca bir qab su atır.

8-ci şəkil

Əsgər, xala, Gülçöhrə, Vəli və Telli İrandakı evlərində oturublar stolun ətrafında. Məşədi bir tərəfdə yerdən bardaş qurub əyləşib.

Əsgər. Baxın. Azərbaycan hökuməti süqut etdi. Bolşeviklər bu gün-sabah Bakıya girəcək. Amma... *(Gülçöhrə və Telliyə)* Mən qərara aldım. Xalam qalır burda. Siz ikiniz gedirsiz İstanbula, ordan da Marselə. İstanbulda Süleyman özü sizi qarşılayıb Marselə yola salacaq. Bir ev kirələyib orada bir müddət yaşarsınız. Mən və Vəli sizin yanınıza gələndən sonra ev də alarıq. Süleymanın məktubunda yazdığı adam da sizi Marseldə qarşılayacaq. Hər müşkilinizi həll edəcək. Onlar artıq gözlirlər. Bu qədər sadə.

Məşədi üz-gözünü büzüşdürməkdədir.

Gülçöhrə. Mən sənsiz heç hara getmənəm. İstəmirəm...

Əsgər. Canım-gözüm. Mənim Bakıya qayıtmağım, evi, dükanları satmağım heç on gün də çəkməz. Özü də alver etməyəcəm. Dəyər-dəyməzinə

satıb ardınızca gələcəyəm. Sən niyə belə dilfikar olursan?!

Xala. Gülçöhrə düz deyir. Əsgər, gəlin Fransaya bir yerdə gedin. Sən mənə vəkalətnamə ver, mən gedim nəyi deyirsən, satım qayıdım *(Məşədiyə baxır. Məşədi etiraz əlaməti olaraq başını bulayır).*

Əsgər. Xala, niyə belə tərslik edirsiz? Burda nə var ki? Qiyafətimi dəyişərəm, saqqal tutaram, bir adam məni tanımaz *(acı-acı).* Mən deyildim təğyiri-libas olub həyət-həyət gəzərək arşın mal satan? *(Saxta şuxluqla).* Kim o vaxt məni tanıdı?! Gülçöhrə xanım, sən belə tanımadın. Vəli, Telli, düz demirəm?! Siz də tanımadınız ki...

Vəli. Bəli, ağa, elədi, sən tanınmaz olmuşdun.

Telli. Mən... elə bil... oxşatdım...

Əsgər. Sən məni kimə oxşatdın, qız?! *(zarafat eləmək istəyir).* Vəli, bu nə deyir?!

Vəli. Fikir vermə, ağa, ağlı o qədərdi. Mən fikir vermirəm...daha...

Gülçöhrə. Bax, deyirəm, sənsiz mən heç hara getmirəm. Sənsiz – olmaz. Özü də bu halətdə... Mənimlə olmalısan. Niyə məni başa düşmürsən?

Əsgər. Gülçöhrə, əzizi - mən, xalamı, bu yaşlı arvadı necə göndərim o ağzından qan iyi gələnlərin arasına? İzn ver, özüm gedim. Rahat gedib rahat da

qayıdacam. Göz açıb yumunca biz də Vəli ilə bahəm Fransada yanınızdyıq. Gülçöhrə, quzum, gəl bu daşı ətəyindən tök...

Ortalığa sükut çökür. Gülçöhrə birdən hönkürtü vuraraq Əsgər ağanın boynuna sarılır. Bu o deməkdir ki, o, Əsgər ağanın təklifini qəbul edir. Musiqi guruldayır. Yenə qaranlıq səhnəni bürüyür. Musiqi susur. Qaranlıqda səslər.

Əsgərin səsi. Bax, canım, gözüm, gəl biz birbirimizə "əlvida" deməyək. Həmişə beynində, qəlbində mən olum, qalım. Sən məni oradan həmişə tapa biləcəksən. Bunu bil.

Gülçöhrənin səsi *(qəhər onu boğa-boğa).* Sən məni atmazsan, Əsgər ağa. Sən məni atma. Heç zaman atma. Bil ki, ölləm, çərrərəm. Tez gəl. Neynirsən elə, tez gəl. Mən sənsiz bil bunu, Əsgər ağa, yaşaya bilmənəm. Sənin məndə əmanətin var. Bunu unutma. Mən də sənə əlvida demirəm. Salamat qal.

Əsgər ağanın dili ilə şeir səslənir:

Qorumadıq özümüzü, sözümüzü,
İnanmıram saxlayacaq izimizi.
Nə biz yolu tanıyırıq, nə yol bizi!
Haralara gətirəcək bizi bu yol?!

Xor. Haralara gətirəcək bizi bu yol?!

Hər tərəfi uçurumdu, sıldırımdı,
Bilmək olmur sonu yoxdu, bir addımdı?!
Elə bil ki, göydən düşdü, ildırımdı,
Haralara gətirəcək bizi bu yol?!

Xor. Haralara gətirəcək bizi bu yol?!

Qan var bunun dönüşündə, gedişində,
İtib-batıb bu dünyanın gərdişində.
Bu yol özü əzab dolu, dərd içində…
Haralara gətirəöcək bizi bu yol?!

Xor. Haralara gətirəcək bizi bu yol*?!*

İldırım tək o güründü gözümüzə,
Əlvida da deməyəcək bir gün bizə.
Yox olacaq, arxasınca gəzə-gəzə
Haralara gətirəcək bizi bu yol?!

Xor. Haralara haralara gətirəcək bizi bu yol..yol..yol…
Şeir səsləndirildikcə arxa planda əks-səda kimi bu misranı xor oxuyur, "haralara gətirəcək bu yol bizi?!"

1-ci hissənin sonu

II HİSSƏ

9-cu şəkil

Bakıda köhnə mülkdə kitabxana otağı. Yarıqaranlıq və soyuq. Əsgər ağa ilə Vəli soyuqdan büzüşüb üzbəüz oturublar. Ara-sıra bayırdan tüfəng səsləri gəlir.

Vəli. Ağa, ay ağa, eşidirsən? Yenə başladılar.

Əsgər. Vəli, işlər, deyəsən, heç yaxşı deyil. Şəhər artıq əldən getdi. Biz burdan necə çıxıb, necə gedəcəyik?

Vəli. Ağa, bir az burda gözləyək, deyirəm. Ətraf bir sakitləşsin. Hacı Nurini bəlkə tapaq, bəlkə nəsə o bilər. Bir-iki gün dözək.

Əsgər. Bərəkallah**.** Bəs xanım da qalsın orda rahatsız, o vəziyətdə? Qoy aralıq bir balaca sakitləşsin. Sabah bir yol görünər, inşallah... Amma ki, nə Hacı Nuri tapılır, nə də Süleyman. Elə bil yox olublar.

Vəli. Allah kərimdi. Bir əlac tapılar. Allah böyükdür.

Əsgər. İnşallah. Hələ görəsən bizimkilər çatdı Marselə?! Gərək artıq orda olaydılar. Bircə Süleymanla əlaqə qura bilsəydim... Hacı Nuri də ki heç harda yoxdu...

Vəli. Çatarlar, çatarlar, onların işi burdakı kimi olmaz.

Əsgər. Neçə gündü xalamdan da xəbər yetişmədi. Yəqin ki, onlar da qalıblar bizdən nigaran.

Vəli *(sobaya odun parçası ata-ata).* Hə, orası elədi, ağa, orası elədi. Özümüzkülərlə də heç düz-əməlli görüşüb ayrıla bilmədik. Elə peşimanam...

Əsgər. Onu düz deyirsən. Düz-əməlli ayrılmadıq. Nəsə ürəyimə damıb ki, Vəli, bu ayrılıq bir başqa ayrılıqdır, uzun çəkəcək. (öz-özünə) Mən onu necə oldu, o cürənə buraxdım?! Gərək bir-birimizə heç olmasa bir "əlvida" deyəydik. Halallaşaydıq. O zaman bu qədərinə üzüntülü olmazdı... Amma yenə də olsun. Tək qalmayacaq. Əmanətim ona dayaq, o əmanətimə dayaq. *(Vəliyə)* Fikir eləmə, düzələr...

Vəli. Kaş ki... Kaş ki... oh, oh...

Əsgər. Yaxşı Vəli. Bəsdi. Niyabəd olub ürəyimizi üzmə. Pis fikirləri qov uzağa. Çay qalıbsa, mənə süz. Hər şey yaxşı olacaq. Bax, görəcəksən. Ümidimizi itirməyək.

Bayır qapı qəflətən şiddətlə döyülməyə başlayır. Əsgər və arxasınca Vəli düşürlər aşağı qapını açmağa. Qapı ağzında bir bölük əsgər. Qabağda zabit durub.

Əsgər *(qapını açaraq).* Buyurun.

Zabit. Əsgər İsmixanov sizsiniz?

Əsgər. Bəli, mənəm. Xeyirdi?

Zabit *(Əsgəri zənlə süzür, sonra əli ilə onu kənara itələyib içəri girir).* Xeyirdi, xeyirdi *(ora-bura boylanır).* Xeyir olmamış, nə olacaq ki?! İllərdi yetimin, məzlumun pulunu, varını-yoxunu yeyə-yeyə *(gözü ilə ətrafı seyr edir)* bu cür cah-calal qurmusan. Xeyir olmamış nə olacaqdı ki... Sən bir buna bax. Utanmaz-utanmaz xeyirdi – soruşur... Bizimlə gedəcəksən, ağa Əsgər!

Əsgər. Siz deyən günahların mən axı sahibi deyiləm. Burda bir səhv ola bilər ki, var.

Zabit. Səhv deyirsən... Bəlkə də. Ola bilər. Orada, Fövqəladə İdarədə baxarıq. *(lağla)* Səhv olar, yenə qayıdıb bu cah-calalın içində yaşamağına davam edərsən. Ailən hardadı, arşın malçı? (gülür, əsgərlərə). Elə bilir, biz bilmirik bu, vaxtilə nə hoqqalardan çıxıb...*(oxuyur)* Arşın mal alan... ha-ha-ha...

Əsgər. Ailəm yoxdur, mən təkəm.

Zabit. Təksən? Nolar, hələlik səni aparaq, sonra onlara da növbə çatar.

Əsgər *(dodaqaltı).* Allah, sənə min şükür, Allah, sənə min şükür... Nə yaxşı ki, xanım burda deyil. Xalam burda deyil. Allah, şükür sənə, Xudaya...

Əsgər dodaqaltı danışa-danışa düşür əsgərlərin önünə və onlar gedirlər. Vəli də onların arxasınca gizlənə-gizlənə gedir. Kadr arxasında Əsgərin səsi ilə şeir səslənir:

Yadında qalıbmı harda, nə vaxtdı
Yolun əvvəlinə qoydular səni.
Sən bir hədəf idin, yol ox idi,
Tarıma çəkilmiş ox idi o yol...

Vəlinin səsi. *Ağa, ağa... Allah, Allah...*

Elə bil ki, sənin çəkin yox idi,
Sən çağrılırdın, sən səslənirdin.
O yoldan o yana yollar çox idi,
Sən gör haraya həvəslənirdin.

Vəlinin səsi. *Ağa, niyə, niyə döndük bura, niyə?*

Dünyanın bu boyda yolları qaldı,
Səs səni apardı iynə ucuna.
Yolların genişi, hamarı qaldı,
İynə ucundan keçmək istədin...

Yollar ilan kimi kəsdilər yolu,
Quş deyildin – uçmaq istədin
Dünyada bəlkə də möcüzə olur,
Bu elə o idi – səni səslədi.

Qatdı qabağına yollar səni,
Yarı ölü kimi, yarı sağ kimi.
Divar önünə qoydular səni,
Sən – hədəf kimi, yollar – ox kimi.

Vəlinin səsi. Ağa, ağa, sən hara yox oldun?!

10-cu şəkil

Əsgər həbsdə. Ətrafında dustaqlar.
Əsgərlər qapı arxasında.

Əsgər. Divanbəyov, burdasan?
1-ci Dustaq. Burdayam.
Əsgər. Gəl, çıx, gedirik.

1-ci dustaq kameradan çıxır. Əsgərlər onu aparır.

2-ci Dustaq. Sənin məhkəmən nə zamandı, Əsgər ağa?

Əsgər *(həyəcanlı).* Bu gündü, dedilər.

Dustaq. Hə... Növbə çatdı, deməli. Allah işini avand eləsin. Sağ-salamat qurtarsın məhkəmən. Başqa bir şər, böhtan atmadılar ki?

Əsgər. Silisçi deyir ki, ancaq müftəxorluq, hə, bir də guya mən istismarçı imişəm. Zəhmətkeşlərin guya qanını içirmişəm. Kim idi bu zəhmətkeşlər bilmədim ki...

2-ci Dustaq. Hm, onda səni Sibirdən başqa bir şey gözləmir. Allah eləsin, bununla qurtarasan canını.

Əsgər. Hə, o da elə dedi. Görək... Allah kərimdi.

Qapı ağır-ağır, səs-küylə açılır.
İçəri çiyni tüfəngli bir əskər girir.

Əskər. Əsgər İsmixanov, gəl. Məhkəməyə gedəcəksən.

Əsgər. Gəldim, gəldim.

Əsgər və əsgər çıxırlar.
Səhnənin başqa bir tərəfində Marsel. Dəniz kənarı. Uzaqda çoxlu gəmi. Səs-küy. Sahildə Avropa üsulu ağ paltarda bir qadın heykəl kimi tərpənməz durub dənizə baxır. Qucağında bir körpə. Yanında Telli. Kamera bu qadına yaxınlaşdıqca tanımaq olur ki, bu, Gülçöhrədir. O, dodaqaltı, yavaş səslə, öz-özü ilə danışır.

Gülçöhrə. Sən məni niyə atdın, Əsgər ağa?! Niyə bə gəlib çıxmırsan, canım-gözüm?! Mən sənə dedim axı, tez gəl. Nə uzun çəkdi bu ayrılıq?! Sən məni unutdunmu? Mənim dediyim sözü unutdunmu? Niyə, Əsgər, ağa, niyə, niyə, niyə, sevdiyim?!

Telli. Xanım. Üzmə özünü bu qədər, ver, ver mənə Əsgər ağanı...*(uşağı Gülçöhrədən alıb bağrına basır)*

İşıq sönür. Bu dəfə işıq səhnənin bu biri tərəfində yanır. Məhkəmə otağı. Üç nəfər ittihamçı. Qarşılarında – Əsgər.

Məhkəmə sədri. Tüfeyli həyat sürdüyünə görə, zəhmətkeşlərin qanını içdiyinə görə malına,

mülkünə “arest” qoyulsun. Yaz *(məhkəmə üzvünə əmr edir).*

1-ci Məhkəmə üzvü. Özü də hökmən Sibirə sürgün edilsin. Sovet hökumətinin əleyhdarı kimi.

2-ci Məhkəmə üzvü. Bəlkə... (*əlini boğazına çəkir)*

Məhkəmə sədri *(Əsgəri diqqətlə süzərək).* Yox. Kifayətdi. Sibirə sürgün, məncə... kifayətdi. Orda bunu islah edərlər. Yaz.

Əsgər. Möhtərəm hakimlər... Mən ki bir günahın sahibi... Allaha and olsun ki, deyiləm... Nəyə görə, niyə? Malda, mülkdə gözüm yoxdu. Hamısı – sizin. Mənim özümü,... yalvarıram sizə... buraxın gedim. Bir də heç zaman... zəhmətkeşlərin qanını içmənəm. Tüfeyli olmanam. Noolar, buraxın məni, Allah naminə buraxın, azad edin məni...

Məhkəmə sədri *(rişxəndlə).* Qoy elə o Allahın da səni azad etsin. Qərar qətidir. Aparın! Arşın malçının biri arşınmalçı... Tüfeyli...

İşıq sönür və yenə də səhnənin əks tərəfində yanır. Yenə Marseldə, dəniz kənarında ağ paltar geyinmiş Gülçöhrə, yanında balaca oğlan uşağı dəniz sahilində durub uzaqlara baxır. Hərdən oğlunun başını tumarlayır. Uşaq başını qaşırıb bir kənara qaçmaq istəyir. Arxalarında durmuş Telli uşağı tutub saxlayır.

Gülçöhrə *(öz-özü ilə danışır).* Mən səni gərək dinləməyəydim, Əsgər ağa. Gərək səni buraxmayaydım o cəhənnəmə qayıdasan. Sən mənə verdiyin sözə əməl etmədin. Gəlib çıxmadın. Niyə məni o halımda tək-təkcənə buraxdın yad ellərdə? Niyə? Nə üçün? Səbəb? Sən məni atdınmı, Əsgər ağa, məni unutdunmu?.. Sən hardasan, Əsgər ağa?!

Telli. Əsgər, ağa qaçma, yıxılarsan. A bala, Əsgər ağa, sakit ol, sən Allahın, sakit ol...

Musiqi səslənir. Səhnə dəyişir. Yenə həmən məkan. Otuz il sonra. Yenə gözləri yol çəkən Gülçöhrə, amma onun saçları artıq ağarmış, özü də qocalmışdır. Yanında otuz üç yaşlı cavan oğlan. Elə bil, Əsgər ağanın özüdür. Gülçöhrə xanım yenə gözlərilə nəyisə, kimisə axtarır, dodaqaltı nəsə deyir, amma onun dedikləri eşidilmir.

Əsgərin uzaqlardan gələn səsi eşidilir:

Məni başqasından gizlətmək çətin
Sənin hər yerindən görünərəm mən
Üzündən, gözündən görünmək asan,
səsindən, sözündən görünmək asan
Sənin kölgəndən də görünərəm mən.

Qəmli gülüşündən görünərəm mən.
Gecələr yastığa səssizcə axan
Gözünün yaşından görünərəm mən.

Sonsuz ümid ilə yollara baxan
Naçar baxışından görünərəm mən.

Sənin görünməyən, eşidilməyən
Hiss edilməyən hər nəyin varsa,
Özünün xəbəri olmayan nəsə
Huşunda, yadında qalmayan nəsə
Hər nəyin varsa yox, hər nəyin yoxsa
O yox olandan görünərəm mən.

Bir qərib məclisdə hamıdan gizli
Çəkdiyin ahından görünərəm mən.

Amma əsl əzab deyil ki bunlar –
Olsa-olsa zəif görüntüsüdür.
Hər şeydən bezəndə ölməyə nə var –
Bilirsən ki, ocaq onsuz da sönüb
Bu onun sonuncu dərin nəfəsi,
son tüstüsüdür.

12-ci şəkil

Sibir, dustaq düşərgəsi. Soyuq, boran.
Barak. Barakda qocalmış, heysiz Əsgər və bir cavan dustaq.

Cavan dustaq. Axşam klubda yeni film göstərəcəklər. Deyirlər, yaxşı kinodu.

Əsgər. Baxarıq, görərik. Yeməyə nə verəcəklər, görəsən?! Bu gün axı, bayramdır. İnqilabın günüdür. Mübarək olsun.

Cavan dustaq. Hə... olsun. Yəqin, yemək də yaxşı olar.

Əsgər. Bircə klub soyuq olmasın, qalan hər şey düzələr.

Cavan dustaq. Ax, Əsgər, Əsgər. Nə düzələr? Heç nə düzəlməz.

Əsgər. Yox düzələr, görərsən, düzələcək. Düzəlməsə olmaz.

Cavan dustaq. Sən bəyəm xatırlamırsan əvvəllər necə idi? Özün də deyirsən – düzələr.

Əsgər *(qorxu içində).* Bircə xatırlamağı demə mənə. Bircə ondan uzaq olaq. Xatırlamayaq *(qorxa-qorxa). Axı* sənə demişəm. Xatırlasaq yaşaya bilmərik. Mən yaşaya bilmənəm.

Cavan dustaq. Mən isə xatırlamasam yaşaya bilmərəm.

Əsgər. Yox, olmaz. Mənə xatırlamaq heç olmaz! Ax, o günlər, o günlər... Xatırlasam, davam gətirə bilmənəm. Ölləm. Mən isə ölmək istəmirəm. Mən yaşamaq istəyirəm. Yenidən... ona... onlara... bilirsən, *(sirr açırmış kimi pıçıltıyla)* qovuşmaq istəyirəm. Mən onlara "əlvida" demədim. Bu məni üzür. Əlvidasız ayrılmaq zülümdü.

Cavan dustaq. Mən isə bilirdim hara gəlirdim, niyə gəlirdim. Mən vidalaşdım. Mən öz əlvidamı demişəm.

Əsgər. Mən isə yox. Demədim. Ona görə o bu gün də məni gözləyir. Hələ bəlkə canım-gözüm elə bilir ki, mən onu unutmuşam. Onları unutmuşam. Mən ha? Onu ha? Onları ha? Amma xatırlamaq olmaz! Unutmamaq – bu olar. Xatırlamaq isə yox, olmaz!

İşıq sönür. Səhnə qaranlıq içində. Bayırdan tufan, külək vıyıltısı. Dustaqlar tövləyəoxşar bir yerdə. Uzun-uzun skameykalar düzülmüş bu yerin yuxarı başında ekran kimi ağ pərdə asıblar. Aşağı tərəfdə kino qurğusu var. Dustaqlar hay-küylə keçib əyləşirlər. Nəzarətçilər – iş başında.
Əsgər ağa arxa cərgədə keçib oturur. Gombul nəzarətçi irəli, geri gəzə-gəzə kiminə irad bildirir, kimini itələyir və nizam yaratmağa çalışır.

Gombul nəzarətçi *(cərgədə oturanlara xitabən).* Aranızda azərbaycanlı varmı? Bugünkü film Azərbaycan filmidir. Azərbaycanlılar keçsinlər qabaq sıraya...

Əyləşənlər (gülüşür). Ha – ha – ha...

2-ci nəzarətçi. *(gəzişərək).* Film boyu səsinizi çıxarmırsınız. Sakitlik. Kim səs salsa, karserə gedəcək. Bu gün bayramdır. Səs-küy olmaz!

İşıq sönür. Film başlayır. "Arşın mal alan" filmindən musiqi səslənir. Filmin kadrları ağ pərdədə pərakəndə şəkildə bir-birini əvəz etdikcə Əsgər cürbəcür hallara düşür.

Əsgər *(pıçıltıyla, öz-özünə).* Allah, Allah. Bu ki, Süleymandı. Ay səni, Süleyman... Bu da ki, mənim mehriban xalamdı... Vəli, Vəliyə sən hələ bax. Bu isə... bu isə, bəli, odur – mənim bir dənəmdir. Mənim əzizim, nuri – didəmdir. Görəsən, xoşbəxt ola bildimi?! Görəsən, mənim əmanətimlə dayaq ola bildilərmi bir-birinə?! Hökmən, hökmən xoşbəxt olmalıydılar. Bəs bu? Bu tosun kişi kimdi hələ? Mahnını mahnı dalıyca oxuyur?.. Nə gözəl də səsi var... Arşın malı çiyninə yığıb həyət-həyət gəzir – bu ki mənəm, Allah. Əhvalat ki, mənim əhvalatımdır... Adı da bu kişinin elə mənim adımdı – Əsgər ağa!.. Əsgər ağa! Yəni, bu, mənəm? Allah, Allah... (*gözləri yaşarır).*

Filmin kadrları ağ pərdədə bir-birini sistemsiz şəkildə əvəz edir.

2-ci nəzarətçi. Sakit. Lent qırıldı.

Gombul nəzarətçi *(kiməsə).* Bax, elə burdan gedərsən karserə. Sakit olun!

Əsgər *(yenə öz-özünə).* Üzeyir bəy, sağ olsun, sözünə vəfalı çıxdı. Xəbər göndərmişdi ki, bizim əhvalatımızı yazmaq istəyir... Yazdı da. İndi də bu kino... Amma... Əhvəlat bitmədi ki. Əhvəlat yarımçıq qaldı. Əhvəlat davam edir. Əvvəlini isə... xatırlamaq olmaz. Unutmamaq – bu, bəli. Xatırlamaq isə olmaz! Aman Allahım, mən axı bunları görüncə xatırlamağa başladım?! İndi mən nə edəcəyəm?! Necə edim ki, xatırlamayım? Bəs küçədə "dava-dava" oynayıb məni əsəbiləşdirən o uşaqlar niyə burda yoxdular? Yəqin onlar artıq böyüyüb, yekə adamlar olublar... Bəs İrana köç hanı? Bəs niyə Marsel yoxdu? Bəs mənim gözümün işığı Gülçöhrə indi nə edir – o niyə yoxdu? Hardadı Vəli qırışmal? Hərdən bu adam bir parça əppək olub çəkilir göyün üzünə, yox olur. Süleyman hanı, Hacı Nuri hanı? Heç kim yoxdu. Heç kim. Ah, aman Allah, aman Allah, yəni, bu qədər asan imiş bu...

Ağ pərdədəki filmin son sevinc dolu kadrlarından sonra işıq yanır. Lent qırırlır və son sevincli kadrlar elə işığın içində "ekran"daca parça-parça dağılır. Hamı dustaqlar gülüşə-gülüşə, "Arşın mal alan!.." oxuya-oxuya tövləyəbənzər bu məkanı tərk edir. Gombul nəzarətçi son dəfə boş cərgələrə baxır. Görür ki, son cərgədə bir dustaq büzüşüb tərpənməz halda yerindəcə qalıb. Əli ilə o biri nəzarətçini qaçırdır. Onlar Əsgərə yaxınlaşırlar. İşıq Əsgərin üzündə. Əsgərin dodaqlarının ucuna acı təbəssüm, gözündən isə iki damla yaş axıb gəlib üzündə donub qalıb. O, ruhunu tapşırıb.

Xoşbəxt günlərin musiqisi səslənir.

Səhnə yenə başqa tərəfdən işıqlanır. Marseldə bu qəmli hekayətin bütün iştirakçıları – Süleyman, Asya, xala, Məşədi Cabbar, Telli, Vəli bir yerdə dəniz kənarında durub qüssə və həsrətlə dənizə baxır və hələ də Əsgəri gözləməkdədirlər. Əsgər isə oğlu Əagər timsalında Gülçöhrənin yanındadır.

Kadr arxasında Əsgərin dilindən şeir səslənir:

Məni daha gözləmə –
Bu da bir işdi,
doğuldum, yaşadım dünyada.

Məni daha gözləmə –
Gözləmə dünyaya gələn
Gəldiyinə qayıda.

Səni mən unutmaram
Xatirən tufanlara,
boranlara bürünəcək.

Səni mən unutmaram
Ana bətninə qədər
Unutmadıqlarım tək.

Məni daha gözləmə,
gəlib yığılma
səni görməyən gözlərimə.
Səni mən unutmaram,
Səni mən unutmaram.
Məni daha gözləmə...

Marseldəkilər bir-birinə qısılmış vəziyyətdə ikən hər şey sükuta və qaranlığa bürünür. Qaranlıq yavaş-yavaş çəkilir, gur işıq ətrafı bürüyür və iştirakçılar tamaşaçılara doğru əl edə-edə sanki Əsgəri onların arasında görüb gələrkən

SON

İÇİNDƏKİLƏR

Kamal Abdulla, hamı səni sevənlər burdadır 3

BİR, İKİ – BİZİMKİ! 15

KİM DEDİ Kİ, SİMURĞ QUŞU VAR İMİŞ?! 51

RUH 115

ŞAH İSMAYIL YAXUD “HAMI SƏNİ SEVƏNLƏR BURDADI...” 185

CASUS 307

BEYRƏK 379

QUŞLARI YEMLƏMƏK VAXTI 435

GÜLÇÖHRƏ VƏ ƏSGƏR 445

Çapa imzalanıb: 10.10.2025
Format: 70x100 1/32. Qarnitur: Calibri.
Həcmi: 32 ç.v. Tiraj: 300.

Hüquqi ünvan: AZ1005, Bakı şəhəri, Səbail rayonu,
Nigar Rəfibəyli, ev 4/52